AZƏRBAYCAN RESPUBLİKASI ELM VƏ TƏHSİL NAZİRLİYİ

AZƏRBAYCAN HƏMKARLAR İTTİFAQLARI KONFEDERASİYASI

AZƏRBAYCAN ƏMƏK VƏ SOSİAL MÜNASİBƏTLƏR AKADEMİYASI

HEYDƏR ƏLİYEVİN ANADAN OLMASININ 101 İLLİK YUBİLEYİNƏ HƏSR OLUNMUŞ

# “AZƏRBAYCANDA KİÇİK VƏ ORTA BİZNESƏ DÖVLƏT DƏSTƏYİ, ONUN İNKİŞAF MEYİLLƏRİ”

## Tələbə Elmi Cəmiyyətinin Respublika Elmi Konfrans

## MATERİALLARI

HEYDƏR ƏLİYEV 101 İL

27 MAY 2024



# MÜNDƏRİCAT

## PLENAR


1. Gülyanə Qardaşbəyova – **HEYDƏR ƏLİYEVİN AZƏRBAYCAN İQTİSADİYYATININ İNKİŞAFINDA ROLU** ........ 1
2. Gülşən Vəliyeva – **SOSİAL MEDİYANIN İSTEHLAKÇI DAVRANIŞINA TƏSİRİ** ........ 3
3. Aysu Mirzəyeva – **ERKƏN YAŞDA NİGAHIN CƏMİYYƏTDƏ YARATDIĞI SOSİAL-İQTİSADİ PROBLEMLƏRİ** ........ 8


## I BÖLMƏ
## İQTİSADİYYAT


4. Rüstəm Rəsulov – **KƏND TƏSƏRRÜFATININ İNTENSİV İNKİŞAFI** ........ 11
5. Elvin Abdullayev - **AZƏRBAYCANDA KİÇİK VƏ ORTA BİZNESƏ DÖVLƏT DƏSTƏYİ, ONUN İNKİŞAF MEYİLLƏRİ** ........ 17
6. Jalə Babazadə -**HEYDƏR ƏLİYEVİN İQTİSADİ SAHƏDƏ İSLAHATLARI** ........ 23
7. Jalə Cəfərli -**MÜASİR DÖVRÜN NƏHƏNG ŞİRKƏTLƏRİ ARASINDA MÖVCUD RƏQABƏTİN MARAQLI FAKTLARI** ........ 24
8. Naibə Nəsirova - **AZƏRBAYCANDA KİÇİK VƏ ORTA BİZNESƏ DÖVLƏT DƏSTƏYİ, ONUN İNKİŞAF MEYİLLƏRİ2** ........ 9
9. Nigar Mərdanova-**BUĞDA EMALI SƏNAYESİNDƏ EKOLOJİ VƏ İQTİSADİ DƏYƏRLƏNDİRMƏ** ........ 32
10. İltizam Vəlizadə-**MƏŞĞULLUĞUN KONSEPTUAL VƏ PRAKTİK ƏSASLARI** .. 37
11. Sultan Abdullayev-**AZƏRBAYCANDA KİÇİK VƏ ORTA BİZNESƏ DÖVLƏT DƏSTƏYİ, İNKİŞAF MEYARLARI** ........ 39
12. Zəhra Dadaşova-**ZƏHMƏT RUZİ MMC ƏMƏK EHTİYATLARINDAN İSTİFADƏNİN SƏMƏRƏLİLİYİNİN YÜKSƏLDİLMƏSİ** ........ 43
13. Lalə Əliyeva-**AZƏRBAYCAN İQTİSADİYYATINA XARİCİ İNVESTİSİYALARIN CƏLB OLUNMASI** ........ 48
14. Zeynəb Əlizadə- **AZƏRBAYCANDA RƏQƏMSAL İQTİSADİYYATIN FORMALAŞDIRILMASI** ........ 51
15. Samir Mehdiyev -**KİÇİK VƏ ORTA SAHİBKARLIĞIN AZƏRBAYCAN İQTİSADİYYATINDA ROLU** ........ 56
16. Kamal Musayev -**СОЦИАЛЬНО-ЭКОНОМИЧЕСКАЯ СУЩНОСТЬ И ПРОБЛЕМЫ ИССЛЕДОВАНИЯ ЭКОЛОГИЧЕСКОГО ТУРИЗМА** ........ 61
17. Vasif Mirzəyev -**HEYDƏR ƏLİYEV İQTİSADİ SABİTLİYİN BANİSİ KİMİ** ........ 65
18. Sənan Quliyev -**AZƏRBAYCAN RESPUBLİKASININ İŞĞALDAN AZAD EDİLMİŞ ƏRAZİLƏRİNƏ BÖYÜK QAYIDIŞA DAİR I DÖVLƏT PROQRAMI** ........ 67
19. Dursun Mirzəyeva -**AZƏRBAYCAN İQTİSADİYYATI DİNAMİK İNKİŞAF TEMPİNƏ MALİKDİR** ........ 71
20. Sadıqova Maya-**AZƏRBAYCANDA SOSİAL SAHİBKARLIĞIN İNKİŞAFI** ........ 74
21. Məhəmməd İsmayılzadə -**QARABAĞA XARİCİ İNVESTİSİYA YATIRIMLARININ İQTİSADİ İNKİŞAFA TƏSİRİ** ........ 79

**22.** Sülhanə Behbudzadə -**AZƏRBAYCAN RESPUBLİKASINDA SƏNAYE MÜƏSSİSƏLƏRİNDƏ MÜASİR SƏNAYE İNNOVASİYA İSTİQAMƏTLƏRİ... 84**
**23.** Lalə Nəsibzadə-**AZƏRBAYCANDA DEMOQRAFİK VƏZİYYƏTİN QİYMƏTLƏNDİRİLMƏSİ VƏ PROQNOZLAŞDIRILMASI ................................ 89**

## II BÖLMƏ
## MALİYYƏ

**24.** Xədicə İsmayılzadə-**BANK MARKETİNQİNİN TƏKAMÜLÜ: RƏQƏMSAL ƏSRDƏ TRENDLƏR VƏ STRATEGİYALAR ................................ 95**
**25.** Pərvin Salahlı-**BANK RİSKLƏRİNİN MÖVCUDLUĞU ZAMANI YARANAN PROBLEMLƏRİN HƏLLİ YOLLARI ................................ 100**
**26.** Nizam Ramazanzadə-**DÖVLƏT MALİYYƏ NƏZARƏTİ VƏ AUDİTİN YAXŞILAŞDIRMA YOLLARI ................................ 104**
**27.** Nuranə Kazımova -**DÖVLƏTİN MALİYYƏ FƏAİLİYƏTİNİN HÜQUQİ ƏSASLARI ................................ 108**
**28.** Pərvin Məmmədova - **DÜNYANIN QIZIL BAZARLARI ................................ 111**
**29.** Səkinə Camalzadə- **İXRAC ƏMƏLİYYATLARI ÜZRƏ ÖHDƏLİKLƏRİN YERİNƏ YETİRİLMƏSİNİN TƏHLİLİ ................................ 117**
**30.** Leyla Səmədova - **AZƏRBAYCAN RESPUBLİKASININ BANK SİSTEMİ .......... 121**
**31.** Hüseyn Rəhimli - **AQRAR SAHƏ İSTEHSALININ TƏŞKİLİ VƏ İDARƏ OLUNMASINDA DÖVLƏT DƏSTƏYİNƏ DAİR ................................ 125**
**32.** Əsrar Şahniyarov- **TİCARƏT ƏLAQƏLƏRİNDƏ MALİYYƏ MÜNASİBƏTLƏRİNİN TƏNZİMLƏNMƏSİ VƏ MALİYYƏ NƏTİCƏLƏRİNİN UÇOTU ................................ 130**
**33.** Sara Kazımova - **ELEKTRON BANKÇILIQ ................................ 133**
**34.** Gülnar Yaqubova - **TƏDİYYƏ BALANSI VƏ ONUN TƏRKİB HİSSƏLƏRİ ........ 138**

## III BÖLMƏ
## HUMANİTAR VƏ SOSİAL ELMLƏR

**35.** Aysel Rzazadə- **AZƏRBAYCANDA UŞAQLARIN SOSİAL MÜDAFİƏSİNDƏ KONSEPTUAL VƏ PARKTİKİ ƏSASLAR ................................ 142**
**36.** Günay İsgəndərova - **İNGİLİS DİLİ İŞGÜZAR ÜNSİYYƏT VASİTƏSİ KİMİ ...... 147**
**37.** Fatimə Bəşirova - **PEDAQOJİ ÜNSİYYƏTİN PSİXOLOJİ MEXANİZİMLƏRİ ... 151**
**38.** Cəfər Nadirov- **MÜHARİBƏDƏ İŞTİRAK EDƏN GƏNCLƏRİN SOSİAL PROBLEMLƏRİ ................................ 156**
**39.** Rəqsanə Məhərəmmova - **MƏİŞƏT ZORAKILIĞI ANLAYIŞI, PREDİMETİ, OBYEKTİ VƏ ƏSAS ANLAYIŞLARI ................................ 160**
**40.** Minurə Cavadova- **GÜLÜSTAN MÜQAVİLƏSİ ................................ 163**
**41.** Gülzar İbrahimli - **GENDER MÜNASİBƏTLƏRİNİN AİLƏ MÜNASİBƏTLƏRİNƏ TƏSİRİ ................................ 169**
**42.** Xanı Əmirli - **XOCALI SOYQIRIMI ERMƏNİ VANDALİZMİNİN NÜMUNƏSİ KİMİ ................................ 174**
**43.** Nərmin Həsənova- **ERMƏNİLƏRİN AZƏRBAYCAN XALQINA QARŞI SOYQIRIMI SİYASƏTİ ................................ 178**
**44.** Leyla Əliquliyeva - **GÖRKƏMLİ TARİXÇİ SARA AŞURBƏYLİ ........................ 184**

**45.** Əbülfəz Məmmədov - **QƏRBİ AZƏRBAYCAN 1918-1920-Cİ İLLƏRDƏ ............... 187**
**46.** Yusif İgidəliyev - **ÜMUMSOSİAL İŞ NƏZƏRİYYƏLƏRİ VƏ ONLARIN TƏTBİQİ MEXANİZMLƏRİ ............... 190**
**47.** Ulvi Hasanov - **HEYDAR ALIYEV AND YOUTH POLICY ............... 193**
**48.** Ülkər İsmayılzadə- **MÜASİR AZƏRBAYCAN RESPUBLİKASINDA ƏLİLLİYİ MÜƏYYƏN EDİLMİŞ ŞƏXSLƏRİN HÜQUQLARI ............... 197**
**49.** Fərəh Hacıyeva - **BEYNƏLXALQ VƏ YERLİ KONTEKSDƏ AHILLARLA SOSİAL İŞİN TƏŞKİLİNİN TƏHLİLİ VƏ BİLGƏH QOCALAR VƏ AHILLAR EVİNDƏ SOSİAL XİDMƏTİN TƏTBİQİ ............... 202**
**50.** Nabat Yolçuyeva- **PSİXOAKTİV MADDƏLƏRDƏN ASILI OLAN ŞƏXSLƏRLƏ BAĞLI GÖRÜLƏN İŞLƏR ............... 207**
**51.** Fəzilət Səmədov - **ADMINISTRATIVE WAYS OF VIOLATING HUMAN RIGHTS: PROBLEMS AND SOLUTIONS ............... 212**
**52.** Ləman Mirzəzadə - **AZƏRBAYCANIN SON İLLƏRDƏ SOSİAL SFERADA İNKİŞAFI ............... 215**
**53.** Könül İbrahimli - **BÖYÜK ŞƏXSİYYƏT-ZİYA BÜNYADOV ............... 218**
**54.** Sunay Quliyeva - **AZƏRBAYCANDA NATİQLİK SƏNƏTİ ............... 221**
**55.** Novruz Şirinov - **VALİDEYN HİMAYƏSİNDƏN MƏHRUM OLUNMUŞ UŞAQLARLA SOSİAL İŞİN TƏKMİLLƏŞDİRİLMƏSİ ............... 225**
**56.** Leyla Nəsirova - **XXI ƏSR VƏBASI – ONİMANİYA VƏ ONUN HƏLLİ ............... 228**

## IV BÖLMƏ
## İKT VƏ TƏBİƏT ELMLƏRİ

**57.** Fatimə Əliyeva - **RİYAZİYYATIN EKOLOGİYAYA TƏTBİQİ ............... 231**
**58.** Dinarə Nəsirova - **RİYAZİYAT VƏ YAŞIL DÜNYA ............... 236**
**59.** Zəka Abdullayev - **NEYRO SINIR SISTEMININ QURULUŞU ............... 241**
**60.** Müxlisə Qədimova- **ОПТИМИЗАЦИЯ УМНОЙ ТЕПЛИЦЫ: РАЗРАБОТКА СИСТЕМЫ МОНИТОРИНГА И УПРАВЛЕНИЯ ДЛЯ ЭФФЕКТИВНОГО РОСТА РАСТЕНИЙ ............... 244**
**61.** Lalə Şirinova- **İQTİSADİ MƏSƏLƏLƏRİN HƏLLİNDƏ İNFORMASİYA SİSTEMLƏRİ ............... 248**
**62.** Nigar Mammadzada, Ulkar Alizada - **DIGITAL HEALTHCARE: CHALLENGES AND PROSPECTS ............... 254**
**63.** Rauf Mehdiquliyev - **YAŞIL DÜNYADA MÜLKİ MÜDAFİƏNİN ROLU ............... 258**
**64.** Əliyev Əli- **YENİ HƏRBİ TEXNOLOGİYALAR ............... 261**

**Heydər Əliyevin Azərbaycan iqtisadiyyatının inkişafında rolu**

*Sumqayıt Dövlət Universiteti*
*Qardaşbəyova Gülyanə*

***Açar sözlər:*** *dövlətçilik təcrübəsi, ölkənin inkişafı, cəmiyyət, inkişaf*

Azərbaycanın inkişaf strategiyasının əsasını qoymuş görkəmli dövlət xadimi, dahi şəxsiyyət, Ümummilli lider Heydər Əliyevin zəngin irsi dövlətçiliyimizin tərəqqisi naminə xalqımız üçün böyük qürur mənbəyidir. Ulu öndər respublikamıza rəhbərlik etdiyi dövrlərdə (1969-1982 və 1993-2003) hər zaman Azərbaycanın milli maraqlarını uca tutmuşdur. Heydər Əliyev təcrübəli dövlət başçısı və görkəmli siyasi xadim kimi xalqımızın milli dəyərlərinə, tarixi soy-kökünə, adət-ənənələrinə, dövlətçilik prinsiplərinə sadiq qalaraq, Azərbaycanın ideoloji fəaliyyət strategiyasının məhz bu amillər üzərində qurulması kimi mürəkkəb vəzifələrin öhdəsindən müvəffəqiyyətlə gəlmişdir. 1993-cü ilin ikinci yarsında Ulu öndər Heydər Əliyevin yenidən hakimiyyətə qayıdışı zamanı ilk səsləndirdiyi "Xalqın, Vətənin taleyi hər bir insanın taleyinə çevrilməlidir!", yaxud "Vətən birdir və hamı bu Vətən üçün çalışmalıdır!" çağırışı müstəqil dövlətçilik ideyalarının bərqərar olunması istiqamətində fəaliyyətin əsas göstəricisi kimi çıxış edir.

Bəli, qürur və fəxarət hissi ilə deyirik ki, ölkəmizin bugünkü inkişafı dahi şəxsiyyət Heydər Əliyev tərəfindən hazırlanmış mükəmməl bir proqramdır. Heydər Əliyev mövqeyi və ideyaları xalq tərəfindən qəbul və təsdiq edilən həqiqət konsepsiyasıdır. Ona görə ki, Azərbaycan tarixinin müdriklik zəkasından qaynaqlanan Heydər Əliyev ideyaları milli mentalitetimizin bütün atributlarını və prioritet məsələlərini sistemli şəkildə əhatə edir. Heydər Əliyev şəxsiyyəti ümumxalq zəkası ilə ayrılmaz bir vəhdətdə, vahid bir ideyada birləşmişdir. Heydər Əliyev Azərbaycan xalqının yaradıcılıq potensialına müstəqillik ideyalarında birləşdirən Ümummilli Lider və müqəddəs rəhbər olmuşdur.

Heydər Əliyev böyük bir şəxsiyyət kimi cəmiyyətin sivil inkişafını hər bir fərdin maraq və mənafelərinin etibarlı təminatında görərək bütün zəruri tədbirləri həyata keçirmişdir. Böyük öndərin irəli sürdüyü milli ideya Azərbaycanın tarixi ənənələrini və müasir dəyərləri özündə birləşdirən yeni inkişaf strategiyasının təməlini təşkil etmişdir. İctimai-siyasi sabitlik bu strategiyanın əsas dayaqlarından biri kimi çıxış etmişdir. Əlbəttə ki, sabitliyə nail olmadan yeni və daha mütəşəkkil idarəetmə sisteminə keçidi reallaşdırmaq mümkün deyildir. Bu gün ciddi əsaslara malik ictimai-siyasi sabitliyin hökm sürdüyü, iqtisadiyyatı inkişaf edən, əhalinin etibarlı sosial müdafiəsini təmin edən müstəqil Azərbaycan xarici siyasət sahəsində də fəal diplomatik əlaqələrə malikdir.

Ümummili lider Heydər Əliyevin qətiyyətli əzmi sayəsində Azərbaycanda demokratik dövlət yaradılması üçün yeni iqtisadi sistemin formalaşması, iqtisadiyyat sahəsində demokratik islahatların həyata keçirilməsi zərurəti ön plana çəkildi, bazar iqtisadiyyatının formalaşması üçün müvafiq hüquqi baza yaradıldı. Özəlləşdirmə, sahibkarlığın inkişafı, maliyyə sisteminin yenidən qurulması, liberallaşdırma, rəqabətin inkişafı, əhalinin sosial müdafiəsini təmin edən mühüm qanunvericilik aktları qəbul edildi.

Ulu öndər Heydər Əliyev bazar münasibətlərinə əsaslanan iqtisadi modelə keçid prosesi zamanı dövlət büdcəsində sosial müdafiə tədbirlərinə geniş yer ayrılmasını daim xüsusi diqqət mərkəzində saxlamışdır. Həmin dövrdə qarşıya qoyulmuş strateji məqsədlərin reallaşdırılması məqsədilə sosial-iqtisadi inkişaf prosesində xarici kapital amilinin zəruriliyini qeyd edən Ulu öndər Heydər Əliyev xarici şirkətlər ilə birgə Xəzərin Azərbaycan sektorundakı zəngin neft ehtiyatlarının mənimsənilməsini nəzərdə

tutan müqavilələrin imzalanmasına xüsusi əhəmiyyət vermiş, investisiya layihələrinin həyata keçirilməsinin başlıca şərti kimi müstəqil Azərbaycanın yeni neft strategiyasının işlənib hazırlanmasına rəhbərlik etmişdir. Heydər Əliyev respublika iqtisadiyyatının keyfiyyətcə yeni mərhələsində məhz özəl sektoru sosial-iqtisadi inkişafın başlıca təlimatçısı kimi dəyərləndirilmiş, güclü sahibkarlar təbəqəsinin cəmiyyətdəki mövqeyinin güclənməsinə çalışmışdır. Dövlət sahibkar münasibətlərinin institusionallaşdırılması məqsədilə Azərbaycan Respublikası Prezidenti yanında Sahibkarlar Şurasının yaradılması biznes mühitinin liberallaşmasına öz müsbət təsirini göstərmişdir.

1993-2003-cü illərdə Azərbaycanda həyata keçirilən siyasət iqtisadi islahatların və inkişafın Azərbaycan modelinin formalaşmasına zəmin yaratmışdır. Ulu öndərin iqtisadi irsinə əsaslanan bu modelin əsas xüsusiyyətləri iqtisadi inkişafın obyektiv qanunauyğunluqlarını nəzərə alan strateji qərarların qəbul edilməsi, inkişaf üzrə müəyyən edilən istiqamətlərin sahəvi proqramlarla əlaqələndirilməsi, sosialyönümlülük, beynəlxalq təcrübəyə arxalanma, milli mentalitetin nəzərə alınmasıdır. Ümummilli lider Heydər Əliyevin iqtisadi irsinin tədqiqi nəzəri-konseptual cəhətdən xüsusi əhəmiyyətli bir sıra ümumiləşdirmələrlə əlaqədardır: iqtisadi sistemin inkişafının bütövlükdə ictimai sistemin inkişafı ilə kompleks halda həyata keçirilməsi, ümummilli mənafelərinin dolğun şəkildə öyrənilməsi, iqtisadi sistemin sosial strukturunun milli-mental dəyərlər sisteminə uyğunluğu, dövlət müstəqilliyinin və milli təhlükəsizliyin qorunub saxlanması. Ümummilli lider Heydər Əliyevin mükəmməl əsəri olan Azərbaycan modeli ilk növbədə ölkə vətəndaşlarının sosial rifahı səviyyəsinin yüksəldilməsinə istiqamətlənmişdir. Respublikanın milli iqtisadi inkişaf modelində başlıca xüsusiyyətlərindən birini isə sosialyönümlülük təşkil etmişdir. İstehsal sahibkarlığının inkişafı, yeni müəssisələrin açılması yolu ilə işsizlik probleminin həlli ilə əhalinin sosial müdafiə tədbirlərinin gücləndirilməsi Azərbaycanda Ulu öndərin rəhbərliyi ilə həyata keçirilən sosialyönümlü iqtisadi siyasətin ana xəttini təşkil etmişdir.

Ulu öndər Heydər Əliyevin uğurlu inkişaf strategiyası haqqında Prezident İlham Əliyev söyləmişdir: "Bu gün Azərbaycan beynəlxalq aləmdə çox görkəmli yer tutur, beynəlxalq təşkilatların fəal üzvüdür və bütün dövlətlər tərəfindən tanınır. Azərbaycanın böyük hörməti var. Azərbaycanın sözü həlledici sözdür. Azərbaycanın iştirakı olmadan bölgədə heç bir regional layihə həyata keçirilə bilməz. Azərbaycan region üçün mərkəzə çevrilibdir. Bütün bunlar Heydər Əliyevin xidmətləridir".

Bütün varlığı ilə Azərbaycana bağlı olan böyük şəxsiyyət, görkəmli dövlət xadimi, dahi lider Heydər Əliyev öz həyatını, zəngin dövlətçilik təcrübəsini Azərbaycanın xoşbəxt gələcəyinə, onun beynəlxalq miqyasda inkişaf etmiş dövlətlər səviyyəsinə yüksəlməsinə həsr etmişdir. Ulu öndərin xalqımız qarşısında tarixi xidmətlərindən biri də davamlı inkişaf yoluna qədəm qoymuş Azərbaycanın dövlət müstəqilliyini daha da gücləndirilməsinə xidmət edən layiqli davamçısını yetişdirməsidir. Böyük türk dünyasının görkəmli dövlət xadimi olan Heydər Əliyevi Azərbaycan xalqının tarixi şərəfli bir irsi kimi davam etdirmək hər bir azərbaycanlının mənəvi borcudur. Bu gün yüksək təfəkkür, zəngin dövlətçilik təcrübəsinə malik, praqmatik lider Prezident İlham Əliyevin rəhbərliyi ilə qazanılmış nailiyyətlər Heydər Əliyev irsini tamamlayır və dayanıqlı inkişafa doğru aparır.

**ƏDƏBİYYAT:**

1. İnkişafın Azərbaycan Modeli ISBN 5-86874-223-0 “Azərbaycan”qəzeti, 204 səh.
2. “Əmək və Sosial Münasibətlər” Elmi-Praktiki Jurnal №1 2023
3. Novruzov T.V. İnkişaf və tərəqqinin Heydər Əliyev Modeli-B., Azərnəşr, 2004.-288 səh.

## Sosial medianın istehlakçı davranışına təsiri

**Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyası**
**Gülşən Vəliyeva**

**Xülasə**

Məqalə sosial medianın istehlakçı davranışlarına təsirindən bəhs edir. İnsanların ən önəmli ehtiyaclarından biri ünsiyyətdir. Sosial media ünsiyyətimizdə mühüm rol oynayır. Günümüzdə informasiya texnologiyaları sürətlə dəyişib, inkişaf etməkdədir. Tədqiqatlar göstərir ki, hal-hazırda internet demək olar bütün istehlakçıların istifadə etdiyi alətlərdən biridir. İstehlakçılar məhsullar, xidmətlər və brendlər haqqında müsbət və ya mənfi məzmunu paylaşmaq üçün şüurlu və bəzən də şüursuz şəkildə sosial mediadan istifadə edirlər. Bunun nəticəsində o, istehlakçı davranışlarında özünü göstərir.

**Açar sözlər:** İstehlakçı davranışı, sosial media**,** istehlakçı

**Summary**

The article discusses the impact of social media on consumer behavior. One of the most important needs of people is communication. Social media also plays a big role in our communication. Today, information technologies are changing and developing rapidly. Research shows that the internet is now the tool used by almost all consumers. Consumers consciously and sometimes unconsciously use social media to share positive or negative content about products, services and brands, and this causes consumer behavior to emerge.

**Keywords**: Consumer behavior, social media, consumer

**Резюме**

В статье рассматривается влияние социальных сетей на поведение потребителей. Одна из важнейших потребностей человека – общение. Социальные сети также играют большую роль в нашем общении. Сегодня информационные технологии стремительно меняются и развиваются. Исследования показывают, что Интернет в настоящее время является инструментом, которым пользуются практически все потребители. Потребители сознательно, а иногда и неосознательно используют социальные сети, чтобы делиться положительным или отрицательным контентом о продуктах, услугах и брендах, и это приводит к изменению потребительского поведения.

**Ключевые слова**: поведение потребителей, социальные сети, потребитель

### Giriş

Bu gün rəqabət mühitində limitsiz ehtiyacları və fərqli gözləntiləri olan müxtəlif tipdə istehlakçılar vardır. Müəssisə üçün bu müxtəlif növ istehlakçıların istəklərini müəyyənləşdirmək və qiymətləndirmək vacibdir.

İstehlakçı ehtiyacları müxtəlif marketinqin əsasını təşkil edir. İstehakçı ehtiyacları və istəkləri marketoloqlar üçün böyük əhəmiyyət qazanmışdır. Ehtiyac lazım olan bir prosesin olmaması ilə meydana gələn gərginlikdir. İstək isə bu ehtiyacları qarşılamaq üçün alternativlər arasından seçilənlərdir (Levy, 2009: 6).

İstehlakçı davranışı geniş bir sahəni əhatə edir. İstehlakçı davranışı 1940-cı və 1950-ci illərdə marketinq sahəsindəki fərqli bir subyekt olaraq ortaya çıxmışdır. Hal-hazır ki, dövrün dinamik və sürətlə inkişaf edən bazarında müvəffəqiyyət qazanmaq üçün marketoloqlar istehlakçılar haqqında hər şeyi bilməlidirlər.

Ümumiyyətlə, iqtisadi ədəbiyyatlarda istehlakçı davranışı anlayışına müxtəlif formalarda təriflər verilmişdir (Downes, 2005: 411). M.Solmona görə istehlakçı davranışları, fərdlərin və ya qrupların ehtiyac və istəklərini qarşılamaq üçün mal, xidmət, fikir və ya təcrübələri seçmə, istifadə etmə və bunlardan imtina etmə prosesindəki bütün davranışlardır. İstehlakçı davranışı da başqa fənlər və elmlərdən faydalanır. Keçmişdə əsasən iqtisadiyyat və psixologiya sahələrindən faydalanmışdır. İstehlakçı davranışı mikro və makro səviyyədə müzakirə edilir (Phillips, 1998: 330).

**Sosial medianın istehlakçı davranışına təsiri**

Sosial Medianın da istehlakçı davranışına təsiri böyükdür. Təşkilatların Sosial Media üzərindəki paylaşım və fikirləri istehlakçıların satınalma qərarları prosesini birbaşa dəyişə bilər. Sosial Media vasitələrində istehlaka istiqamətlənmiş davranışlar 3 qrupa ayrılır və aşağıdakılardır:

1.İstehlaka təsir göstərən davranışlar.

2.İstehlak nöqtəsindən istifadəçilər tərəfindən idarə edilən davranışlar.

3.İstehlakçı satınalma qərar prosesini müəssisələrin markalarını tənqid etmək nöqtəsində sosial media vasitələrindən istifadə edən davranışlar. (Dawley, 2009: 111)

İstehlakçı satınalma dövrü sosial media ilə birlikdə dəyişdi. Əvvəllər alış-veriş edən və satınalma ilə məşğul olan istehlakçı sosial media ilə bu prosesə 2 vacib fərqlilik yaratdı. Buna görə istehlakçılar sosial mediada alqı-satqıdan əvvəl və sonra bəzi fəaliyyətlər həyata keçirir. Əvvəla, istehlakçılar satın almaq istədikləri və ya maraqlandıqları məhsul və xidmətlər haqqında onlayn şəkildə araşdırma aparırlar. Sadə bir Google axtarışı ilə məhsul və xidmət haqqında bir çox məlumat əldə etməyin mümkün olduğu günümüzdə istehlakçılar sosial media vasitəsilə digər istehlakçıların fikirlərindən və təcrübələrindən yararlana bilərlər (Boyd və Ellison, 2007: 222).

İstehlakçıların əksəriyyəti sosial mediadan dostları ilə ünsiyyət qurmaq, yeniliklərdən xəbərdar olmaq, insanların fikirlərindən yararlanmaq və məhsullar haqqında məlumat əldə etmək üçün istifadə edir. Sosial medianın 3 ölçüsü var:

1. Media ölçüsü: media həm ifadə vasitəsi, həm də bir qrupa mesajın çatdırılmasını təmin edən bütün məlumat yayma vasitələri kimi görülə bilər. Buna görə də media anlayışı biznes üçün vacibdir.

2. İstifadəçi ölçüsü: son istifadəçi olan istehlakçı tərəfindən istehsal olunan müxtəlif media növlərinin məzmunu olaraq təyin edilə bilər. İstifadəçi əsaslı məzmunun üç mühüm xüsusiyyəti var. Bunlar aşağıdakı kimi sadalanıb:

➢ Məcburi nəşr: istifadəçi əsaslı məzmunun əsas xüsusiyyəti, görülən işin hər hansı bir mediada dərc edilməsidir. Bu, hər kəsin görə biləcəyi veb sayt və ya müəyyən istifadəçilər tərəfindən baxıla bilən sosial şəbəkə profilləri ola bilər. Bu xüsusiyyət istifadəçi əsaslı məzmunu e-poçt və ani mesajlaşmadan fərqləndirir.

➢ Yaradıcı səy: mövcud əsərlərdən məzmun yaratmaq və ya yeni məzmun yaratmaq üçün müəyyən miqdarda yaradıcı səy göstərilməlidir. Başqa sözlə, istifadəçi özü məzmuna dəyər əlavə etməlidir. Bu yaradıcı səy həm də əməkdaşlıq və komanda işi vasitəsilə nümayiş etdirilə bilər. Televiziya proqramının bir seqmentini götürüb internetdəki sayta yükləmək istifadəçi tərəfindən yaradılan məzmun yaratmaq demək deyil (Lenhart, 2009: 312).

➢ Peşəkar rutinlərdən və təcrübələrdən müstəqillik: istifadəçi əsaslı məzmun tez-tez peşəkar rejimə və təcrübəyə riayət etmədən yaradılır. Bu məzmunun yaradıcıları korporativ və ya kommersiya məzmunu yaratmır və məzmundan mənfəət/gəlir əldə etmək niyyətində deyillər.

3. Sosial medianın texnologiya ölçüsü: texnologiyanın sürətli inkişafı və insanların istifadəçi olaraq internetdə daha çox vaxt keçirməyə başlaması kimi xarakterizə edilə bilər. Sosial media marketinqi son vaxtlar reklam və brendinqdə ən çox danışılan tendensiyadır. Bu gün qarşılıqlı əlaqə daha çox sosial media şəbəkələri üzərindən gedir (Downes, 2005: 411). Məsələn, bir məhsul alacaq və ya istifadə edəcək istehlakçı sosial şəbəkələrdə başqalarının yazdığı müxtəlif yazıları oxumağa meyllidir. Beləliklə, sosial media saytları fərdlər arasında mübadilə yolu ilə məlumat və fikir axınını təmin edir.

Bəşəriyyət tarixinin ilk əsrlərindən bəri istehlakçılar davamlı dəyişikliklərə məruz qalırlar. Buna görə də istehlakçılar artıq internet və mobil rabitə vasitələrindən, eləcə də ənənəvi media vasitələrindən istifadə edirlər. Son dövrlərdə bu dəyişikliklərdən ən önəmlisi sosial media kanallarının artmasıdır. Sosial media sözləri, şəkilləri, səsləri və videoları texnologiya ilə birləşdirir (Boyd və Ellison, 2007: 222) Eyni zamanda birtərəfli məlumat mübadiləsindən ikitərəfli və eyni vaxtda məlumat mübadiləsinə çıxışı təmin edən media sistemi olduğunu söyləyə bilərik. Marketinq kommunikasiyasının yeni kanalı olaraq təyin olunan sosial media, son illərdə bizneslərin önəm verdiyi bir sahə olaraq tanıtım vasitələrindən biri olan reklam sahəsində də bir zərurətdir. Marketinqin əsas mövzularından biri olan istehlakçı davranışı insan davranışının alt bölmələrindən biridir. İnsan davranışı həm də fərdin ətraf mühitlə qarşılıqlı əlaqədə olduğu vahid prosesə aiddir. İstehlakçı davranışı isə satınalma kontekstində insan davranışının konkret növləri ilə məşğul olur. Şirkətlərin məqsədi istehlakçıların öz məhsullarını öz markalarından üstün tutmaqdır. Bunun üçün şirkətlər müştəri məmnuniyyətini və loyallığını uğurla təmin etməlidirlər (Mustafa Məzlum, 64). İstehlakçılar bir məhsul seçərkən, ən aşağı qiymətə və ən yüksək faydaya malik olan məhsulları seçmək istəyirlər. Bu səbəbdən müəssisələr istehlakçı davranışı anlayışına əhəmiyyət verməli və istehlakçıların satınalma davranışı ilə bağlı araşdırmalara da əhəmiyyət verməlidirlər (Kahraman, 2009:15)

Sosial media marketinq fəaliyyətinin əsas məqsədi yeni müştərilər əldə etmək, satışları artırmaq, ağızdan-ağıza ünsiyyəti gücləndirmək və müştəri sadiqliyini yaratmaqdır (Tsimonis G. və Dimitriadis S., 2014). Vukasovic (2013) bir marketinq vasitəsi olaraq sosial şəbəkələrin marketinqdə marka-istehlakçı münasibətləri qurmaq üçün əhəmiyyətli imkanlar təqdim etdiyini bildirmişdir. İstehlakçılar almaq istədikləri məhsullar barəsində ilk öncə yaxın çevrədən məlumatlar almaqdadır. Təkcə bu məlumatlar deyil, bloqlar, forumlar, dəyərləndirmə saytlarından da müəyyən məlumatlar əldə edirlər. Onlayn cəmiyyətlərdə müştəri fikirləri, şərhləri müasir dövrümüzdə olduqca vacib əhəmiyyət daşıyır.

**Nəticə**

Artıq müştərilərin əksəriyyətinin zamanlarının bir çox hissəsini sosial media platformalarında keçirməsi, firmalara da onlara daha çox təsir etmək üçün bu platformalardan istifadə etməsi üçün səbəblər vermişdir. Sosial media platformaları, firmalar tərəfindən marka fərqindəliyini, markaya olan sədaqəti artırmaqda və marka imicini gücləndirməkdə güclü şəkildə istifadə olunmağa başlanılmışdır. Günümüzdə firmaların ən diqqət etdiyi amillərdən biri marka imicidir. Əvvəlki bölümlərdə qeyd etdiyimiz kimi marka imici marka ilə əlaqəli istehlakçıların zehnində yer alan qavrayışların toplamıdır (Hsieh M.H. və Lindridge A., 2005). Marka imicinin formalaşmasında məhsulun keyfiyyətinə duyulan güvən, markanın populyarlığı, markanın fərqliliyi önəmli yer tutur.

Sosial medianın əlaqələri asanlaşdırması fonunda, firmaların sosial mediada yer alması və burada effektiv bir marka imicinin formalaşdırılması, marka strategiyalarını və siyasətlərini inkişaf etdirmək və tətbiq etmək mənasında firmalara böyük ölçüdə kömək edə bilər (Hacıefendioğlu Ş. və Fırat D., 2014: s.94). Eyni zamanda sosial media marketinqi, şirkətlərin istehlakçılarla asanlıqla və sürətli bir şəkildə ünsiyyət qurmasına imkan verir (Seo E.J. və Park J.W., 2018). Bu da, mövcud müştərilərlə yanaşı potensial müştərilərlə qarşılıqlı əlaqələrin şirkətlərin pozitiv marka imici ilə ünsiyyət qurmasına imkan yaradır (Seo E.J. və Park J.W., 2018).

Güvən istehakçılar üçün hər zaman önəmli faktordur. Beləki, marka ilə bağlı seçimlər edərkən istehlakçılar, təcrübə etdiyi və güvən duyduğu markalara digərlərinə nisbətən daha çox üstünlük verməkdədir. Bu güvən, həm satınalma öncəsi mərhələlərdə həm də satışdan sonrakı mərhələlərdə özünü göstərmiş olur. Sosial medianın müxtəlif kanallarından istifadə edən markalar da müştərilər ilə həm satışdan əvvəl, həm də satışdan sonra əlaqələr yarada bilirlər. Sosial mediada var olan markalar, istehlakçıların marka və ya məhsul ilə bağlı üzləşə biləcəyi çətinliklər zamanı dərhal onlara münasibət bildirmə imkanına sahibdir. Bu sosial medianın, istənilən zaman və məkanda əlaqələri təmin edə bilmə imkanlarından irəli gəlir. İstehlakçılar üçün bu cür əlaqələrin markaya duyulan güvən mövzusunda önəmli olduğunu nəzərə alsaq, sosial media marketinqinin də markaya duyulan güvənə təsir etdiyini söyləmək olar.

**ƏDƏBİYYAT:**

1. Akar E., (2010). Sanal Topluluklarin Bir Türü Olarak Sosyal Ağ Siteleri – Bir Pazarlama İletişimi Kanali Olarak İşleyişi. Anadolu Üniversitesi Sosyal Bilimler Dergisi. Cilt: 10- Sayı: 1: 107–122

2. Aktepe C. ve Baş M. (2008). Marka Bilgisi Sürecinde Marka Farkındalığı ve Algılanan Kalite (Beklenti) İlişkisi ve Gsm Sektörüne Yönelik Bir Analiz. Gazi Üniversitesi İktisadi ve İdari Bilimler Fakültesi Dergisi 10 / 1 (2008). s.81 – 96

3. Alan A.K., Kabadayi E.T. ve Erişke T. (2018). İletişimin Yeni Yüzü: Dijital Pazarlama ve Sosyal Medya Pazarlamasi. Elektronik Sosyal Bilimler Dergisi. Cilt:17, Sayı:66, s.493-504

4. Aytan C. (2014). Markaların sosyal medya kullanımının Tüketici davranışları üzerindeki etkileri. Yüksek lisans tezi. İstanbul, 2014. s.89

5. Bruhn, M., Schoenmueller, V. and Schafer, D. B. (2012). "Are social media replacing traditional media in terms of brand equity creation?" Management Research Review, 35(9): 770-790.

6. Çakaröz, K.M. (2016). Determining The Differences Among Social Responsibility Project Awareness of Socıal Media Users According to Theır Brand Awareness Level: A Study on Eti Institutional Social Responsibility Projects, Hitit. University Journal of Social Sciences Institute, Year 9, Issue 2, p.585-610

7. Vukasovic, T. (2013). Building successful brand by using social networking media. Journal of Media and Communication Studies, 5(6), p.56-6

8. Wilson, S., Social Media and Small Business Marketing, University Business Publishing and Printing, USA, 2010, 124 p

9. Yang, S., Hu, M., Winer, R. S., Assael, H. and Chen, X. (2012). An empirical study of wordof-mouth generation and consumption. Marketing Science, 31(6), p.952–963

10. Yasmin, A., Tasneem, S. & Fatema, K. (2015). Effectiveness of Digital Marketing in the Challenging Age, An Empirical study. International Journal of Management Science and Business Administration, 1(5), p.69-80
11. Yoo, B., Donthu, N. and Lee, S. (2000), "An examination of selected marketing mix elements and brand equity", Journal of the Academy of Marketing Science, Vol.28, No.2, p.195-211.
12. Zhang K.Z. K., Benyoucef M., Zhao S.J. (2015). "Consumer participation and gender differences on companies microblogs.

**İnternet resursları**

1. https://datareportal.com/reports/digital-2021-azerbaijan
2. https://gs.statcounter.com/social-media-stats/all/azerbaijan

**Erkən yaşda nikahın cəmiyyətdə yaratdığı sosial-psixoloji problemlər**

**Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyası**

**Mirzəyeva Aysu**

.

**Xülasə**

Nikah haqqında ümumi məlumat və erkən nikahın yaranma səbəbləri, erkən nikaha məruz qalan yeniyetmə qızların qarşılaşdığı sosial-psixoloji problemlər. Eyni zamandaerkən nikaha məcbur edilən qızlar ən çox fiziki və cinsi zorakılığa məruz qalır. Dünyada erkən nikahla bağlı ümumi statistika qiymətləndirilir və ən çox erkən nikah hallarına Asiya və Afrika ölkələrində rast gəlindiyi qeydə alınır. Azərbaycanda erkən nikahlara bir çox regionlarımızda rast gəlmək mümkündür.

***Açar söz:*** Nikah, erkən nikah, yaranma səbəbləri, sosial-psixoloji problemlər, fiziki vəcinsi zorakılıq, statistika.

**Abstract**

General information about marriage and the causes of early marriage, socio- psychological problems faced by adolescent girls subjected to early marriage. At the same time, girls forced into early marriage are most often subjected to physical and sexual violence. General statistics on early marriage in the world are evaluated and it is recorded that the most cases of early marriage are found in Asian and African countries.Early marriages can be found in many regions of Azerbaijan.

***Key words:*** Marriage, early marriage, causes, socio-psychological problems, physicaland sexual violence, statistics.

**Абстрактный**

Общие сведения о браке и причинах ранних браков, социально-психологические проблемы, с которыми сталкиваются девочки-подростки, подвергшиеся раннему браку. При этом девушки, принужденные к раннему браку, чаще всего подвергаются физическому и сексуальному насилию. Оценена общая статистика ранних браков в мире и зафиксировано, что больше всего случаев ранних браков встречается в странах Азии и Африки. Ранние браки можно встретить во многих регионах Азербайджана.

**Ключевые слова**: Брак, ранние браки, причины, социально-психологические проблемы, физическое и сексуальное насилие, статистика.

## Giriş

Nikah – evlənmənin qanuni şəklə salınması yəni, kişi ilə qadının ailə qurmaq məqsədi ilə müvafiq icra hakimiyyəti orqanında qeydiyyata alınan könüllü ittifaqdır. Azərbaycan Respublikasında nikah və ailə münasibətlərinin hüquqi baxımdan tənzimlənməsi dövlət tərəfindən həyata keçirilir və yalnız müvafiq icra hakimiyyəti orqanında bağlanmış nikah tanınmaqdadır. Azərbaycan Respublikasında nikah bağlamaq üçün aşağı yaş həddi kişilər və qadınlar üçün 18 yaş müəyyən olunur. Azərbaycanda dini kəbinkəsmə(dini nikah) hüquqi əhəmiyyətə malik deyildir. 1962-ci il tarixli nikah qeydiyyatı, nikah yaşı və nikaha daxil olma razılığı haqqında Konvensiyanın 55 üzvü ənənəvi, dini və qəbilə qanunlarını və ənənələrini ləğv etmək üçün qanunla minimum evlilik yaşını müəyyən etdilər. Dini bir cəmiyyətin qanunlarına görə nikah yaşı torpaq qanunlarına görə daha aşağı olduqda, dövlət qanunu üstünlük təşkil edir. Bir çox inkişaf etməkdə olan ölkələrdə, rəsmi yaş standartları sadəcə təlimat şəklindədir. UNİCEF,

Birləşmiş Millətlər Təşkilatının Uşaq Təşkilatı, yetkinlik yaşına çatmayan, 18 yaşdan kiçik bir şəxsin evlənməsini uşaq nikahı və insan hüquqlarının pozulması kimi qiymətləndirir. Erkən nikah yaşı 18-dən az olan və ya yeniyetmələrin nikaha daxil olmasıdır. 158 ölkənin qanunvericiliyinə əsasən nikaha daxil olma yaşı kimi 18 qəbul olunsa da, bu qanunlar əksər hallarda pozulur, çünki erkən nikahların tətbiqi ənənələr və sosial normalarda dəstəklənir. Erkən nikah öz-özlüyündə bir neçə problemi əks etdirir. Bunların sırasında ölkənin inkişaf səviyyəsi, onun sosial-iqtisadi vəziyyəti, təhsili, insan hüquqlarının inkişafı və.s durur. Qızların erkən yaşda zorla ərə verilməsi Azərbaycan cəmiyyəti üçün son vaxtlar yenidən qövr etməyə başlayan köhnə yaranı xatırladır.

XX əsrin əvvəllərində qızların zorla erkən yaşda ərə verilməsi Azərbaycanda geniş yayılmış bir hal idi. Qızlar çox zaman 12-13 yaşında kəbinli qadın olmaq məcburiyyətində qalırdılar. Qismən Xalq Cümhuriyyəti dövründə, əsaslı şəkildə isə Sovet hakimiyyəti zamanı, yəni XX əsrin 30-cu illərində vidalaşdığımız bu problem , təəssüf ki, yenə də aktuallaşıb. Qızların təhsildən yayındırılaraq erkən yaşda ərə verilməsi indi Azərbaycanın bir sıra regionlarının acı reallığıdır. Aran, Muğan bölgəsi, Saatlı, Biləsuvar, Lerik, Masallı, İmişli, Lənkəran, Yardımlı, hətta Bakı kəndlərində də erkən nikahlar qızların məktəbə buraxılmaması halları baş alıb gedir. Hətta qızları bəzən valideynləri ümumiyyətlə məktəbə getməyə icazə verməməkdədir. Orta məktəbi qurtarıb ərə getməyən qız “evdə qalmış” hesab olunub və ictimai qınaq hədəfinə çevrilməkdədir. Qızları məktəbdən kənarlaşdırarkən onların rəyi nəzərə alınmır. Qızlar 13-14 yaşına çatdıqda orta məktəbdən məcburi şəkildə çıxarılır və ona ərə getməyin vacibliyinə dair yerli ənənələr məcburi qaydada aşılanmaqdadır. Bundan imtina etdikdə isə onlar ailə və yaxın qohumlar tərəfindən müxtəlif təzyiqlərə məruz qalır, ictimai qınaqla rastlaşır ki, bu da nəticədə həddi-büluğa çatmayan gənc qızların psixoloji sarsıntı keçirməsinə səbəb olmaqdadır. Belə qızlar zorla ərə verilməklə həm də öz sosial hüquqlarından imtina etmək məcburiyyətində qalmaqdadır [1, s. 33].

Qızların 4,5 və 6-cı siniflərdən məktəbdən çıxarılması və 13,14 yaşlarında nişanlanması, 14-15 yaşdan etibarən ərə verilməsi bəzi bölgələrdə yerli ənənə hesab olunur. Beləliklə, onlar təhsil almaq və cəmiyyətə inteqrasiya etmək hüququndan məhrum edilir və cəmiyyətdən təcrid vəziyyətinə düşürlər.

**Erkən nikahların yaranma səbəbləri.**

Erkən nikahlar aşağıdakı səbələrdən baş verməkdədir:

- erkən nikah probleminin özündə tarixi ənənələrin yükünü daşıması, yəni tarixi ənənə və mentalitetdən irəli gələn səbəblər: “ qarımış qız “ , “ qız yükü duz yükü “ , “ tez evlənənlə tez yuxudan duran qazanar “ kimi yanlış stereotiplərin hələ də qalması;
- ailənin maddi vəziyyəti, ümidsizlik atmosferi yaradan kasıbçılıq, evliliyin övladına xoşbəxt həyat gətirəcəyi fikri. Bu praktika kəndlərdə və aztəminatlı ailələrdə geniş yayılmışdır. Bir çox hallarda bu nikahlar valideynlər tərəfindən təşkil edilir, burada qızların perspektivləri və seçimləri məhdud olur;
- kənd qızlarının işlə təmin olunmalarındakı çətinliklər və çarəsizlik;
- icma həyatında hər kəsin davranışının sərt reqlamentasiyasının məcburi nikaha cəlb olunma hallarına müdaxilə etməyi çətinləşdirməsi;
- kəndlərdə kişilərin əmək miqrasiyasının qadınlar arasında müəyyən ab-havanın yaranmasına, ailə qura bilməmək qorxusuna səbəb olması;
- qaçırılma halları və.s [2, s.32]

**Erkən nikahların yaratdığı sosial-psixoloji problemlər.**

Fiziki və psixoloji baxımdan hazır olmadan çox erkən hamiləlik baş verir, doğuş və ölüm riski yaranır, ana və uşaq ölümlərinin sayı artır, yeniyetmələrdə reproduktiv sağlamlıqla bağlı problemlər yaşanır. Gələcək nəsillərin sağlamlıq vəziyyəti yeniyetmə qızların-gələcək anaların sağlamlıq vəziyyətindən birbaşa asılıdır. Ekspertlər yeniyetmənin orqanizminin inkişafda olan orqanizm olduğunu və bu dövrdə bir çox xroniki xəstəliklərin kəskinləşdiyini xüsusi qeyd edirlər. Bundan başqa, tədqiqatçılar hesab edirlər ki, əgər erkən nikahların sayı 10%-ə qədər azalsa, bu, bütövlükdə 70%-ə qədər ana və uşaq ölümünün azalmasına gətirib çıxarar. Təhsilin effektiv şəkildə başa çatdırılmasına mane olur, erkən nikahda olan qızlar cəmiyyətdən təcrid olunmaqdadır. Peşə və həyat bacarıqlarının əldə edilməsi üçün hər hansı bir imkandan məhrum edilir, intihar hadisələrinin sayı artır, erkən nikahın qurbanı olan gənc ana bir müddətdən sonra öz həyatından şikayətlənməyə başlayır, ailənin "yükü"nü zəif çiyinlərində daşımağa gücü çatmır və sonda çıxış yolunu intihar etməkdə tapır, boşanma hallarının sayı artır. Erkən nikahda olan qızlar daha çox fiziki və cinsi zorakılığa məruz qalmaqdadır. Bu da öz növbəsində HİV infeksiyası ilə cinsi istismar riskini artırmaqdadır [3, s. 14].

Bundan başqa, erkən nikahların və erkən hamiləliyin yalnız ana və körpə üçün deyil, cəmiyyət üçün də mənfi fəsadları ola bilər. Belə ki, təhsilsiz və nikahsız gənc ananın problemi təkcə onun cəmiyyətin inkişafı üçün töhfə vermək imkanından məhrum olması ilə bitmir, o hətta ailə ilə birlikdə bu cəmiyyətdə artıq yükə çevrilə bilər.Dünyada hər gün erkən nikah faktı baş verməkdədir. Hazırda erkən nikahlar daha çox Asiya və Afrika ölkələrində geniş yayılıb. Cənubi Asiyada demək olar ki, qızların yarısı, Afrikada-Saxaradan cənubda gənc qızların üçdə bir hissəsindən çoxu 18 yaşına çatmamış nikaha daxil olurlar. Erkən nikahların ən yüksək göstəricilərinə görə Niger-75%, Çad və Mərkəzi Afrika Respublikası-68%, Banqladeş-66%, Qvineya-63%, Mozambik-56%, Mali-55%, Burkina-Faso və Cənubi Sudan-52%, Malavi-50%, Hindistan-47% fərqlənməkdədir [4, s. 45].

Erkən nikahla bağlı Azərbaycan təcrübəsinə baxacaq olarsaq mövcud rəqəmlərin heç də az olmadığı qənaətinə gəlmək mümükündür. Belə ki, 2021-ci ildə 137 hal qeydə alınıb. 2022-ci ildə isə erkən nikah hallarının sayı 270-ə çatıb. 18 yaşadək analar tərəfindən doğulan uşaqların sayı ilə bağlı 2023-ci ilin məlumatları hələ açıqlanmayıb. Dövlət Statistika Komitəsinin məlumatlarına əsaslanaraq 2021 və 2022 ilin statistikasını müqayisə edə bilərik. 2021-ci ildə 18 yaşınadək analar tərəfindən 1650 uşaq doğulubsa, 2022-ci ildə belə uşaqların sayı artaraq, 2011-ə çatıb. Ən yüksək göstəricilər Cənub və Qərb bölgələrində qeydə alınmaqdadır ki, burada 280, Mərkəzi Aran iqtisadi rayonunda 245, Qarabağ iqtisadi rayonunda isə 240 uşaq dünyaya gəlib. Belə halların qarşısının alınması istiqamətində mütəmadi olaraq, dövlət tərəfindən, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi və 11 Uşaq və Ailələr Dəstək mərkəzləri tədbirlər görürlər, maarifləndirici görüşlər keçirilir [5, s. 24].

**Ədəbiyyat**


1. Əbülfət, Q. M. (2020). ERKƏN ANALIQ: ZƏRƏRLİ ƏNƏNƏVİ TƏCRÜBƏ. *Хуманитарни Балкански изследвания*, *4*(4 (10)), 32-34.
2. Гурбанова, М. А. (2020). EARLY MOTHERHOOD: A HARMFUL TRADITIONAL EXPERIENCE. *Хуманитарни Балкански изследвания*, *4*(4), 32-34.
3. Şeydayeva, S. (2021). *Azərbaycan təhsilsistemində gender stereotiplərinin tədqiqi* (Doctoral dissertation).
4. Nəsirli, G. (2017). *Natamam ailələrdə böyüyən yeniyetmələrdə şəxsiyyət pozuntuları problemi və onun reabilitasiya məsələləri* (Doctoral dissertation).
5. Məmmədova, F. (2018). *Müasir dövrdə ailədaxili konfliktlərin psixoloji təhlili* (Doctoral dissertation).

**Kənd təsərrüfatının intensiv inkişafı**

**Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyası**
**Rəsulov Rüstəm (Magistrant)**

**Xülasə**

Kənd təsərrüfatının qlobal miqyasda müasir inkişafı ərzaq təhlükəsizliyinin və dayanıqlı iqtisadi inkişafın təmin edilməsində strateji əhəmiyyət kəsb edir. Mühüm istiqamətlər iri taxılçılıq təsərrüfatlarının yaradılması, müasir texnologiyaların tətbiqi və aqrar sahəyə dövlət dəstəyidir. Uğurlu inkişafın nümunəsi kimi innovasiyaları fəal şəkildə tətbiq edən, fermerlərə maliyyə dəstəyi göstərən, kənd təsərrüfatı məhsullarının davamlı və səmərəli istehsalına çalışan Azərbaycanın təcrübəsini göstərmək olar.

***Açar söz:*** Kənd təsərrüfatı, inkişaf, Azərbaycan, intensiv, təcrübə, qlobal, aqrar

**Abstract**

The modern development of agriculture on a global scale is of strategic importance in ensuring food security and sustainable economic development. Important directions are the creation of large grain farms, the application of modern technologies and state support to the agricultural sector. As an example of successful development, we can show the experience of Azerbaijan, which actively applies innovations, provides financial support to farmers, and strives for sustainable and efficient production of agricultural products.

***Keywords:*** Agriculture, development, Azerbaijan, intensive, experience, global, agrarian

**Аннотация**

Современное развитие сельского хозяйства в мировом масштабе имеет стратегическое значение в обеспечении продовольственной безопасности и устойчивого экономического развития. Важными направлениями являются создание крупных зерновых ферм, применение современных технологий и государственная поддержка аграрного сектора. В качестве примера успешного развития можно показать опыт Азербайджана, который активно применяет инновации, оказывает финансовую поддержку фермерам, стремится к устойчивому и эффективному производству сельскохозяйственной продукции.

***Keywords:*** Сельское хозяйство, развитие, Азербайджан, интенсивный, опыт, глобальный, аграрный

## GİRİŞ

Cəmiyyətin həyatında daim əsas sahələrdən biri olaraq qalan kənd təsərrüfatı müasir dünyada mühüm dəyişikliklərə məruz qalmaqda davam edir. Zaman keçdikcə və texnologiyanın inkişafı ilə kənd təsərrüfatına olan tələblər daha müxtəlif və mürəkkəb olur. Bu kontekstdə kənd təsərrüfatının intensiv inkişafı konsepsiyası xüsusi aktuallıq kəsb edir və bu, təkcə kənd təsərrüfatı istehsalının artırılması

yolunu deyil, həm də resurslardan istifadənin səmərəliliyinin artırılmasına, məhsulun keyfiyyətinin yüksəldilməsinə və ictimai rifahın yüksəldilməsinə yönəlmiş strategiyanı təmsil edir.

Kənd təsərrüfatının intensiv inkişafı istehsal gücünün artırılmasına, texnologiyanın təkmilləşdirilməsinə, proseslərin optimallaşdırılmasına, idarəetmə və marketinqin təkmilləşdirilməsinə yönəlmiş geniş spektrli fəaliyyətləri əhatə edir. Bu yanaşma kənd təsərrüfatına əhalinin artımı, iqlim dəyişikliyi, ekoloji böhran təhlükələri və istehlakçı seçimlərinin dəyişməsi kimi müasir iqtisadiyyat və cəmiyyətin çağırışlarının öhdəsindən gəlməyə imkan verir(Ushachev.2019:12)

Kənd təsərrüfatının intensiv inkişafının mühüm cəhəti onun davamlı inkişaf prinsiplərinə uyğunluğudur. Bu o deməkdir ki, inkişaf elə bir şəkildə baş verməlidir ki, gələcək nəsillərin ehtiyaclarını ödəmək imkanlarına maneçilik törətmədən indiki nəslin ehtiyaclarını ödəsin. Buna görə də kənd təsərrüfatı sahəsində qərarlar qəbul edilərkən ekoloji, iqtisadi və sosial aspektləri nəzərə almaq, həmçinin ətraf mühitə mənfi təsirləri minimuma endirməyə çalışmaq lazımdır.

Kənd təsərrüfatının intensiv inkişafının əsas istiqamətlərindən biri innovativ texnologiyaların tətbiqidir. Genetika, biotexnologiya, informasiya texnologiyaları və avtomatlaşdırma sahəsində müasir elmi nailiyyətlər kənd təsərrüfatı məhsullarının məhsuldarlığını və keyfiyyətini əhəmiyyətli dərəcədə artıra bilər. Məsələn, geni dəyişdirilmiş bitkilərin istifadəsi məhsuldarlığı və xəstəliklərə və zərərvericilərə qarşı müqaviməti artırır, bu da pestisidlərin və herbisidlərin istifadəsini azaldır, bununla da ətraf mühitə mənfi təsirləri azaldır.

Bundan əlavə, kənd təsərrüfatı getdikcə informasiya texnologiyaları ilə inteqrasiya olunur. Sensorların, dronların, süni intellekt sistemlərinin və məlumat analitikasının istifadəsi fermerlərə bitkilərin yetişdirilməsi və heyvanların saxlanma şəraitinə daha dəqiq nəzarət etməyə, resurs xərclərini optimallaşdırmağa və istehsalın səmərəliliyini artırmağa imkan verir. Əşyaların İnterneti (IoT) kimi yeniliklər müasir texnologiyalardan istifadə etməklə bütün proseslərin avtomatik idarə olunduğu və idarə olunduğu ağıllı ferma konsepsiyasını həyata keçirməyə imkan verir.

Kənd təsərrüfatının intensiv inkişafının mühüm istiqaməti həm də təhsil sisteminin təkmilləşdirilməsi və kənd sakinlərinə dəstəkdir. Müasir əkinçilik texnikası üzrə təlim, həmçinin yeni texnologiyalar və resurslara çıxışı təmin etməklə kənd icmalarına dəyişən şəraitə uğurla uyğunlaşmağa və həyat standartlarını yaxşılaşdırmağa imkan verir. Bundan əlavə, subsidiyalar, güzəştli kreditlər və infrastruktura investisiyalar şəklində dövlət dəstəyi kənd təsərrüfatının inkişafına, onun çiçəklənməsi üçün əlverişli şəraitin yaradılmasına xidmət edir[1, s:15]

Kənd təsərrüfatının intensiv inkişafında beynəlxalq əməkdaşlığın rolunu da qeyd etmək lazımdır. Ölkələr arasında bilik, texnologiya və təcrübə mübadiləsi bütün dünyada kənd təsərrüfatının inkişafına töhfə verir və aclıq və yoxsulluq kimi qlobal problemlərlə mübarizəyə kömək edir. Kənd təsərrüfatının davamlı inkişafına yönəlmiş birgə strategiya və proqramların işlənib hazırlanması üçün müxtəlif ölkələr və regionlar arasında əməkdaşlıq mexanizmlərinin yaradılması və dialoqun davam etdirilməsi vacibdir.

Beləliklə, kənd təsərrüfatının intensiv inkişafı mürəkkəb və çoxşaxəli prosesdir, o cümlədən innovativ texnologiyaların tətbiqi, təhsil və dəstək sisteminin təkmilləşdirilməsi, habelə beynəlxalq əməkdaşlığın inkişafı. Bu proses bütün dünyada ərzaq təhlükəsizliyinin təmin edilməsində, davamlı inkişafda və insanların həyat keyfiyyətinin yaxşılaşdırılmasında əsas rol oynayır. Eyni zamanda, kənd təsərrüfatının intensiv inkişafının uğurla həyata keçirilməsi dövlət qurumlarının, özəl sektorun, beynəlxalq təşkilatların və ictimai təşkilatların birgə səylərini, bütün maraqlı tərəflərin fəal iştirakını tələb edir.

Azərbaycan iqtisadiyyatının qeyri-neft sektorunda kənd təsərrüfatının inkişafı prioritet hesab olunur. Kənd təsərrüfatı məhsullarının istehsalının və satışının stimullaşdırılması, o cümlədən ərzaq təhlükəsizliyinin təmin edilməsi dövlətin sosial-iqtisadi siyasətinin əsasını təşkil edir.

Kənd təsərrüfatı özünəməxsus sosial-iqtisadi, təbii və texnoloji xüsusiyyətləri ilə xarakterizə olunur. Torpaq iqtisadiyyatın digər sahələrindən fərqli olaraq bu sənayedə əsas istehsal vasitəsidir. Kənd təsərrüfatında istehsal prosesi təbii amillərlə sıx bağlıdır və torpaq-iqlim şəraitindən asılıdır.

Dövlət dəstəyi kənd təsərrüfatının xüsusiyyətlərini və iqtisadiyyatdakı rolunu nəzərə alan uzunmüddətli inkişaf planının işlənib hazırlanmasına yönəlib. Bu plan qeyri-neft sektorunda məşğulluğa töhfə verən əsas sektor kimi kənd təsərrüfatının davamlı və dayanıqlı inkişafını təmin etmək məqsədi daşıyır. [1, s:15]

Azərbaycan müstəqillik əldə etdikdən sonra kənd təsərrüfatı iqtisadiyyatında mühüm rol oynayıb və bu, ilk növbədə ümummilli lider Heydər Əliyevin xidmətləridir. Prezident İlham Əliyevin rəhbərliyi ilə ərzaq təhlükəsizliyi dövlət siyasətinin əsas məqsədlərindən birinə çevrilib.

Prezident İlham Əliyev vurğulayır ki, əsas məqsəd daxili imkanlardan istifadə etməklə kənd təsərrüfatı və ərzaq sahələrində özünü təmin etməklə Azərbaycanı inkişaf etmiş ölkələr səviyyəsinə çatdırmaqdır.

Elmi tədqiqatlara əsaslanan və Prezidentin qərarları ilə dəstəklənən dövlət proqramları kənd təsərrüfatı məhsullarının istehsalının və emalının artmasına səbəb olub.

Kənd təsərrüfatının və digər sahələrin inkişafı proqramları çərçivəsində həyata keçirilən tədbirlər kənd əhalisinin rifah halına müsbət təsir göstərir.

Kənd təsərrüfatında müasir elektron sistemin yaradılması onun inkişafına təkan verən əsas hadisələrdən birinə çevrilib. Məsələn, elmi institutların təkmilləşdirilməsi və laboratoriyaların bərpası üçün Prezidentin ehtiyat fondundan vəsaitin ayrılması, o cümlədən 2015-ci ilin kənd təsərrüfatı ili elan edilməsi və kənd təsərrüfatında problemlərin həlli ilə bağlı kompleks tədbirlər planının hazırlanması. sektor.

Azərbaycan Milli Elmlər Akademiyasında Kənd Təsərrüfatı Elmləri Bölməsinin yaradılması və bu istiqamətdə elmi fəaliyyətin əlaqələndirilməsi uzaqgörən siyasətin nümunəsidir.

Azərbaycanda kənd təsərrüfatı ölkənin iqtisadiyyatında və sosial həyatında əsas yer tutur, bir çox vətəndaşların əsas dolanışıq mənbəyi, ərzaq təhlükəsizliyinin təmin edilməsində mühüm amildir. Son onilliklərdə Azərbaycan kənd təsərrüfatının intensiv inkişafı ilə bağlı çətinliklər və imkanlarla üzləşmişdir. Bu kontekstdə ölkə kənd təsərrüfatı sektorunda davamlı rifaha nail olmaq üçün müasir texnologiyalardan istifadə etməyə, idarəetmə sistemini təkmilləşdirməyə, beynəlxalq əməkdaşlığı inkişaf etdirməyə və daha çox səy göstərir.

Azərbaycanda kənd təsərrüfatının intensiv inkişafının əsas amillərindən biri texnologiyaların və istehsal üsullarının müasirləşdirilməsidir. Məhsuldarlığı və səmərəliliyi artırmaq istəyi torpağın becərilməsinin innovativ üsullarının tətbiqinə, yüksək məhsuldar bitki sortlarının tətbiqinə, eləcə də proseslərin müasir mexanikləşdirilməsi və avtomatlaşdırılması vasitələrinin tətbiqinə səbəb olur. Bu, Azərbaycan fermerlərinə istehsal həcmini artırmağa, xərcləri azaltmağa və kənd təsərrüfatı məhsullarının keyfiyyətini yaxşılaşdırmağa imkan verir. [3, s:2]

Azərbaycanda kənd təsərrüfatı infrastrukturunun inkişafına böyük diqqət yetirilir. Yeni suvarma sistemlərinin, yol şəbəkələrinin, anbar və anbarların tikintisi və müasirləşdirilməsi kənd sakinlərinin resurslara və bazarlara çıxış imkanlarını artırmağa, həmçinin daşınma və saxlama zamanı məhsul itkisini

azaltmağa kömək edir. Bu mühüm inkişaf istiqaməti Azərbaycan kənd təsərrüfatının istehsal və ixrac imkanlarının artmasına xidmət edir.

Kənd təsərrüfatının intensiv inkişafının mühüm istiqaməti həm də təhsil sisteminin və bu sahədə elmi tədqiqatların inkişafıdır. Aqronomluq, heyvandarlıq, təsərrüfat idarəçiliyi və marketinqin müasir üsulları üzrə təlimlər kənd təsərrüfatı işçilərinin bacarıqlarının artırılmasına və istehsal göstəricilərinin yüksəldilməsinə kömək edir. Bundan əlavə, yeni texnologiyaların yaradılması, sort seçimi və kənd təsərrüfatının xəstəlik və zərərvericilərinə qarşı mübarizə sahəsində aparılan tədqiqatlar kənd təsərrüfatı istehsalının məhsuldarlıq səviyyəsinin və dayanıqlığının artırılmasında mühüm rol oynayır.

Azərbaycan da kiçik və orta biznesin inkişaf etdirilməsi ən aktual məsələlərdən biridir. Bu sahədə bir çox dövlət proqramları həyata keçirilməkdədir. KOB – un inkişaf etdirilməsi üçün kreditləşmə vacib amillərdən biridir. Hal-hazırda kiçik və orta biznesin maliyyələşdirilməsi üçün müxtəlif yerli və xarici şirkətlər fəaliyyət göstərir. İşğaldan azad olunmuş ərazilərimizdə KOB – un inkişafını təmin etmək , mühüm məsələlərdən biridir. Və bu məsələdə dövlət dəstəyi danılmazdır. Ölkəmizdə iqtisadiyyatın bu sahəsini inkişaf etdirmək üçün, inkişaf etmiş ölkələrin təcrübəsini nəzərdən keçirmək, onun praktiki cəhətdən tətbiqini genişləndirmək önəmlidir. Məhz 2015 – 2020 ci illər üzrə irəli sürülmüş dövlət proqramı kiçik və orta biznesin inkişaf etdirilməsində xeyli nailiyyətlər əldə etmişdir.

Summary

Development of small and medium business is one of the most urgent issues in Azerbaijan. Many state programs are being implemented in this area. Credit is one of the important factors for the development of SMEs. Currently, various local and foreign companies are operating for the financing of small and medium businesses. Ensuring the development of SMEs in our territories freed from occupation is one of the important issues. And the state support in this matter is undeniable. In order to develop this sector of the economy in our country, it is important to review the experience of developed countries and expand its practical application. It is the state program put forward for 2015-2020 that has made significant achievements in the development of small and medium businesses.

Резюме

Развитие малого и среднего бизнеса является одним из наиболее актуальных вопросов в Азербайджане. В этой сфере реализуется множество государственных программ. Кредит является одним из важных факторов развития малого и среднего бизнеса. В настоящее время финансированием малого и среднего бизнеса занимаются различные местные и зарубежные компании. Обеспечение развития малого и среднего бизнеса на наших территориях, освобожденных от оккупации, является одним из важнейших вопросов. И поддержка государства в этом вопросе неоспорима. Для развития этого сектора экономики в нашей стране важно пересматривать опыт развитых стран и расширять его практическое применение. Именно госпрограмма, рассчитанная на 2015-2020 годы, позволила добиться значительных успехов в развитии малого и среднего бизнеса.

Azərbaycan Respublikası müstəqillik dövrünün ilk dönəmlərində ölkə iqtisadiyyatını inkişaf etdirmək üçün xarici investisiyalara böyük ehtiyac duyurdu. Lakin son vaxtlar da ölkəmizin iqtisadiyyatının yüksək inkişafı və bu inkişafın nəticəsi olaraq, əhalinin rifah səviyyəsinin yüksəlməsi respublikamızda "sahibkarlığ" anlayışının inkişaf etməsinə yol açmışdır. Hətta , İkinci Qarabağ müharibəsindən sonra ölkədə iqtisadiyyatı inkişafı üçün yerli sahibkarlar işə cəlb olunmuş və böyük rol oynamışdırlar. Günümüzdə həm kiçik, həm də orta biznes sahələri inkişaf etdirilməkdədir.

Bir növ bu Dövlət siyasətinin məqsədyönlü istiqamətlərindən biridir. Xüsusilə, ölkəmizdə sahibkarlığı inkişaf etdirmək üçün, vətəndaşlara geniş imkanlar yaradılmışdır. Bunlara : müəyyən miqdarda onlar üçün ayrılan kreditlər və bu kreditlərin alınma üsullarının sadələşdirilməsini misal göstərmək olar.

Hazırda dövlət siyasəti olaraq , KOB ( kiçik və orta biznes) evləri layihəsi adı altında sahibkarlığın inkişafı yolunda perspektivli fəaliyyətlər planı həyata keçirilməkdədir. Xüsusilə belə bir layihə ölkəmiz üzrə Xaçmaz da

və Yevlax da mövcuddur və bu xidmətdən 29 500 biznes sahəsi ilə maraqlanan sakinlər yararlanmışdır .[M.Abdullayev " Kiçik və orta sahibkarlığın inkişafı: Real vəziyyət və perspektivlər" 2021:2]

Həmçinin kiçik biznes sahələrinin inkişaf etdirilməsinin mühüm faydaları vardır. Belə ki , inkişaf etmiş ölkələrin təcrübəsini nəzərdən keçirsək, görərik ki bu ölkələrdə kiçik biznesin inkişaf etdirilməsinə böyük diqqət göstərilir. Bu inkişaf etmiş ölkələr sırasında ABŞ və Yaponiyanı göstərə bilərik. Bu ölkələrdə müvafiq olaraq, vətəndaşların 53 % və 71,7% - I kiçik bizneslə məşğul olan sahibkarlardır. [Hüseynli İ.Q. "Azərbaycanda biznesin inkişafının cari vəziyyəti və kiçik perspektivləri" 2009 : 16 ]

Respublikamızda da kiçik biznesin inkişaf etdirilməsi yönündə müxtəlif addımlar atılmışdır. 1995 – 1998 ci illər qəbul edilmiş dövlət proqramını və eləcə də, 2003 cü il " kiçik biznesə dövlət dəstəyi haqqında" olan qanunu aid etmək olar. [L. Quliyeva "Azərbaycan Respublikasında kiçik və orta sahibkarlığın müasir vəziyyəti və inkişafının statistik tədqiqi" 2016 : 32]

Hətta 1995 – ci il 12 noyabr qəbul edilmiş Azərbaycan Respublikasının Konstitusiyasının 59 – cu maddəsinə istinad edərək qeyd edimki "Hər bir kəs qanun çərçivəsində öz əmək qabiliyyətindən və imkanlarından istifadə edərək, tək və yaxud bir neçə şəxslə birlikdə qanunla qadağan olunmayan, iqtisadi fəaliyyətlə və ya azad sahibkarlığla məşğul ola bilər. [Azərbaycan Respublikasının Konstitusiyası səh 11]

2014 – cü ilin qeydə alınmış statistikasına əsasən ölkədə 14981 kiçik biznes mövcud olub ki ,onun 7,7 % - o dövlət, 92,3 %- I isə qeyri- dövlət mülkiyyətində olmuşdur. [L.Quliyeva " Azərbaycan Respublikasının kiçik müəssisələrinin mülkiyyət növləri üzrə bölgüsü" 2014 : 54]

Həmçinin Azərbaycan Respublikasında kiçik və orta biznesi inkişaf etdirmək üçün ilk növbədə onun maliyyələşdirilməsinə böyük ehtiyac var . Bu ölkə və yaxud xarici bankların, dövlət iqtisadiyyatına yatırılmış investisiyaların, verilən kreditlərin, başlıca olaraq da ,dövlət büdcəsinin payına düşür. Və ölkəmizdə də KOB layihəsini genişləndirilməsi üçün həm yerli , həmdə xarici şirkətlər fəaliyyət göstərir. Bunlara misal olaraq aşağıdakıları nümunə göstərmək olar:

1 ) Kommersiya bankları- yerli və xarici maliyyə institutları ilə əməkdaşlıq edərək ,ölkəmizdə kiçik və orta biznesin inkişaf etdirilməsinə kömək göstərir.

2)Beynəlxalq Maliyyə Korporasiyası- beləki bu təşkilat özəl banklar üçün 3,4 milyon dollar civarında kredit ayırmışdır.

3) Avropa Yenidənqurma və İnkişaf Bankı- bu sahəyə 20 milyon dollar kredit verməklə, öz dəstəyini yüksək səviyyədə göstərir .

Bundan əlavə ,Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin məqsədyönlü tədbirləri nəticəsində bu sahə günü- gündən inkişaf etdirilir. Belə ki ,2008 – 2015 ci illər "yoxsulluğun azaldılması və davamlı inkişaf", 2015-2020 ci illər sahibkarlığın genişləndirilməsi, və yüksək səviyyədə inkişafını təmin etməq məqsədilə dövlət proqramı qəbul edilmişdir. [ G.Tehranlı "Azərbaycanda kiçik sahibkarlığın inkişaf meyli və dinamikasının statistik tədqiqi" 2017 : 51]

KOB – un inkişaf etdirilməsinin mühüm vasitələrindən biridə , kreditləşmədir. Beləki, kredit bir tərəfin, yəni borc alanın borc verənə müəyyən müddət ərzində qaytarmalı olduğu məbləğdir. Təbii ki , bu mövzuda gəlir əldə etməklə bərabər, yaranmış olan kredit risklərini diversifikasiya etməyi və əlavə gəlir götürməyidə nəzərə almaq lazımdır. Kreditləşmə sahəsində risk yaradacaq, bir çox amillər vardır . Bu amillər sırasında ilk növbədə həmin kredit verən müəssisələrin öz maliyyə imkanlarının məhdud olmasıdır. Bunu aradan qaldırmaq üçün, həmin müəssisələrin dövlətlə əməkdaşlıq fəaliyyəti genişləndirilməlidir. Bundan əlavə kiçik və orta biznesin inkişaf etdirilməsi üçün informasiya təminatı böyük rol oynayır. Həmin müəssisələr ,eləcədə sahibkarlar bu sahə barəsində ciddi şəkildə məlumatlandırılmalıdır. Bunun üçün müxtəlif proqramlar, tədbirlər, layihələr və təlimlər həyata keçirilməlidir. Xüsusilə, gənclər arasında bu tipli tədbirlər planın həyata keçirilməsi də daha məqsədəuyğun hesab olunur. Bu da öz növbəsində gələcək iqtisadiyyatın inkişafına təmin edir.

Bu gün ən aktual məsələlərdən biri ,işğaldan azad olunmuş ərazilərimizdə kiçik və orta biznesi inkişaf etdirməkdir. Bu sahədə müxtəlif problemlərlə üzləşirik. İlk növbədə buna ölkə də mövcud olan iqtisadi və siyasi

amillər, ölkə biznesinin necə və hansı səviyyədə inkişaf etməsi, yerli və xarici bankların bu sahədə fəaliyyətini aid edə bilərik.

Bu gün, ölkəmizdə Qarabağ və Şərqi Zəngəzur bölgəsində " Ağ fil" layihəsi həyata keçirilir. Həmin ərazilər də dövlət tərəfindən nəqliyyatın, infrastrukturun, sənayenin və kənd təsərrüfatının inkişaf etdirilməsi istiqamətində mühüm işlər görülür. Məhz kiçik və orta biznesin inkişaf etdirilməsi bu kimi layihələrə cəlb olunması nəticəsində Azərbaycan iqtisadiyyatını inkişaf etdirmək mümkündür.

Bunun üçün, dövlət tərəfindən həmin sahibkarların maliyyələşdirilməsi ,qarşıya çıxacaq problemlərin həll olunmasında lazımi dəstəyin göstərilməsi vacib şərtlərdən biridir.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən 2016 – cı il 21 aprel tarixli qərarına əsasən 25 aprel ölkəmizdə "Sahibkarlar günü" kimi qeyd olunmuşdur.

Bu kimi tədbirlərdə ölkə başçımızın bu sahəyə necə yüksək səviyyədə diqqət ayırmasının bariz şəkildə göstəricisidir.

**Ədəbiyyat:**

1) Azərbaycan Respublikasının Konstitusiyası. Səh 11
2) G.Tehranlı "Azərbaycanda kiçik sahibkarlığın inkişaf meyli və dinamikasının statistik tədqiqi" 2017 :51
3) Hüseynli İ.Q.Azərbaycanda biznesin inkişafının cari vəziyyəti və kiçik perspektivləri, Bakı, 2009 :16
4) L. Quliyeva "Azərbaycan Respublikasında kiçik və orta sahibkarlığın müasir vəziyyəti və inkişafının statistik tədqiqi" 2016 :32
5) L. Quliyeva " Azərbaycan Respublikasının kiçik müəssisələrinin mülkiyyət növləri üzrə bölgüsü" 2014 : 54
6) M.Abdullayev " Kiçik və orta sahibkarlığın inkişafı: Real vəziyyət və perspektivlər" 2021:2

**Buğda emalı sənayesində ekoloji və iqtisadi dəyərləndirmə**

**Bakı Biznes Universiteti**
**Nigar Mərdanova**

## X Ü L A S Ə

**Tədqiqatın məqsədi** – buğda emalı sənayesi müəssisələrində ekoloji və iqtisadi dəyərləndirilməsini tədqiq etməkdir.
**Tədqiqatın metodologiyası** – tədqiqat prosesində sistemli yanaşma, müqayisəli təhlil, analiz, sintez, elmi və məntiqi ümumiləşdirmə metodlarından istifadə edilmişdir.
**Tədqiqatın nəticələri** – tədqiqat nəticəsində buğda emalı sənayesi müəssisələrində ekoloji və iqtisadi problemlərin azaldılması məqsədilə innovativ tədbirlər və layihələrin tətbiqinə dair təklif və tövsiyələr hazırlanmışdır.
**Tədqiqatın praktiki əhəmiyyəti** – tədqiqatın əsas nəticələri, hazırlanan təklif və tövsiyyələr buğda emalı sənayesi müəssisələrində hazır məhsulun ekoloji və iqtisadi dəyərləndirmənin yaxşılaşdırılması, habelə müəssisənin işinin səmərəliliyinin qiymətləndirilməsi istiqamətində istifadə edilə bilər.
**Tədqiqatın orijinallığı və elmi yeniliyi** – buğda emalı sənayesi müəssisələrində ekoloji və iqtisadi dəyərləndirilməsi ilk dəfə tədqiq edilmişdir.
**Açar sözlər**: ekologiya, texnoloji proses, buğda, gəlirlik dərəcəsi, xalis dəyər, iqtisadi dəyər

## GİRİŞ

Buğda istehsalı isə bir çox ölkələr üçün, o cümlədən Azərbaycan üçün ərzaq təhlükəsizliyi baxımından strateji əhəmiyyətli məhsul hesab edilir. Hazırda dünya ölkələri xüsusən də ərzaq məhsulları idxal edən inkişaf etməkdə olan ölkələr artan ərzaq qiymətləri fonunda ciddi şəkildə ərzaq təhlükəsizliklərinin təmin edilməsi ilə bağlı problemlərlə üzləşirlər. Bu məqalədə müəllif son illər ərzində həm qlobal, həm də Azərbaycanda buğda istehsalının dinamikasını araşdırmışdır.
Buğda istehsalı Azərbaycan üçün ərzaq təhlükəsizliyi baxımından strateji əhəmiyyətli məhsul hesab edildiyi üçün onun istehsalının artırılması hədəflənmişdir. Bizim apardığımız bu araşdırmanın əsas məqsədi, qısa olaraq son illər ərzində Azərbaycanda buğda istehsalında yaranan ekoloji problemləri və iqtisadi dəyərlərini göstərməkdən ibarətdir.

**Tədqiqatın əsas məzmunu**

Buğda emalı sənayesi müəssisələrində həm texniki-texnoloji, həm də əmək ünsürlərinin təkmilləşdirilməsi istiqamətlərində səmərələşdirici tədbirlər həyata keçirilir.
Ekoloji cəhətdən təmiz məhsulun parametrləri 3-ə bərabərdir.
1) ətraf mühit üçün xammal;
2) ekoloji cəhətdən səmərəli maddələr;
3) texnoloji proses.
**Ekoloji təmiz xammal**. Burada fermada funqisidlər, herbisidlər, həşəratlar və mineral gübrələr istifadə edilmir. Burada tələyə, ultrasəs və s. fiziki üsullar istifadə olunur. Bir çox aqrotexniki əməliyyatlar bitkilərə və ya torpağa zərər vermədən əllə aparılır.

**Ekoloji cəhətdən səmərəli maddələr**. Hal-hazırda, xammalın yanaşı,kompleks tərkibi istehsal edə bilməyən müxtəlif maddələr də vardır.

Ərzaq məhsullarının ekoloji təhlükəsizlik qaydalarına riayət edilmədikdə bir sıra acınacaqlı hadisələr baş verə bilər ki, bunlardanda ən əsası qida zəhərlənməsidir. Qida zəhərlənməsi – viruslar, bakteriyalar və parazitlər kimi ziyanlı mikroorqanizmlərin qidaya bulaşması zamanı və həmin qidanın istifadəsinin nəticəsində yaranan bir haldır.

Un istehsalçıları çörək və un məmulatlarının qiymətini 2022-ci ilin biçin tədarük dövrünədək göstərilən səviyyədən yuxarı qalxmaması üçün bütün səylərini səfərbər etdilər və ötən dövr ərzində ərzaqlıq buğdanın qiymətində artımlar baş versə də, unun qiymətində artım müşahidə edilmədi.

Son zamanlar buğda emalı prosesində tətbiq edilən innovativ tədbirlərin un və un məmulatlarının maya dəyərinə təsirinin nəticələri özünü göstərməkdədir, belə ki, məhsulun maya dəyərinin 7-12 faiz azalmasına səbəb olmuşdur.

Buğda emalının texnoloji prosesi iki hissədən ibarətdir: **təmizləmə və üyütmə**. Təmizləmə bölümündə buğdanın üyütmə prosesinə hazırlığı həyata keçirilir, belə ki, buğda üyütmə prosesinədək su ilə təmizlənir, qurudulması üçün 8 saat xüsusi bunkerlərdə dincə qoyulur və qeyd edilən müddətdən sonra üyütmə həyata keçirilir. Bu müddəti 50 faiz, yəni 4 saat azaltmaq məqsədilə innovativ tədbirlər, yəni buğdanın dincə qoyulduğu bunkerlərə isti hava kütləsinin ötürülməsini həyata keçirən texniki-texnoloji proseslər tətbiq edilməyə başlandı. Nəticədə bu innovativ addım emal prosesinin intensivliyinə, əmək məhsuldarlığının artmasına və son nəticədə məhsulun maya dəyərinin azalmasına səbəb oldu.

BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının məlumatına əsasən 2022-ci ilin iyul ayında 2021-ci ilin müvafiq ayı ilə müqayisədə ərzağın dünya üzrə artımı 13,1% səviyyəsində dəyərləndirilir.

Təşkilatın proqnozlarına əsasən 2022-ci ildə ümumilikdə qlobal istehsalın həcminin azalacağı gözlənilir. Bununla yanaşı ölkəmiz üçün xüsusilə önəmli olan məsələlərdən biri ən böyük ərzaqlıq buğda istehsalçılarından və Azərbaycana ixrac edilən buğdanın əsas mənbə ölkəsi olan Rusiyanın 2021-ci ilin fevral ayından tətbiq etdiyi yüksək ixrac tariflərinin hələ də qüvvədə qalmasıdır.

Emal texnologiyasına əsasən buğdanın su ilə təmizlənməsi prosesi ənənəvi avadanlıqlarla icra edilərkən 1 ton buğdanın təmizlənməsinə 1 ton su istifadə edilirdi. Son texnikitexnoloji avadanlıqların emal proseslərində tətbiqi nəticəsində 1 ton buğdanın təmizlənməsinə 40 litr su istifadə edildi.Bu isə sonda texnoloji prosesdə tələb edilən su miqdarına qənaət etdi. Habelə son vaxtlar buğda emalı müəssisələrində innovativ tədbirlər nəticəsində müəssisədaxili səmərəli logistik dəyişikliklərin tətbiqi, köməkçi vəsaitlərin məsrəflərinin qarşısının alınmasına yönəldilmiş yeni müasir texnoloji avadanlıqların, yükləmə və boşalma prosesində izafi məsrəflərin qarşısını alan avadanlıqların, yeni marketinq addımlarının tətbiqi emal xərclərinin azaldılması ilə nəticələndi.

Buğda emalı müəssisələrində innovativ tədbirlərin texnoloji proseslərə tətbiqi genişlənməkdədir, bu da nəticədə emal prosesinin xərclərinin azalmasına və onun səmərəliliyinin artmasına təsir göstərir.

2021-ci ildə ərzaqlıq buğdanın dünya üzrə kəskin bahalaşmasının Azərbaycana təsirinin azaldılması məqsədilə hökumətin ayırdığı subsidiyalar hesabına buğda və unun qiyməti real qiymətlərdən aşağı səviyyədə saxlanıldı.

Un istehsalçıları çörək və un məmulatlarının qiymətini 2022-ci ilin biçin-tədarük dövrünədək göstərilən səviyyədən yuxarı qalxmaması üçün bütün səylərini səfərbər etdilər və ötən dövr ərzində ərzaqlıq buğdanın qiymətində artımlar baş versə də, unun qiymətində artım müşahidə edilmədi.

Məhz bu vəziyyət dünya bazarında, habelə əsas idxal bazarlarında taxılın qiymət dinamikasında artımın davam etməsi qiymətlərin yenidən uyğunlaşdırılması zəruriyyəti yaratdı.

İqtisadi səmərəlilik il ərzində əldə edilmiş iqtisadi gəlirin həmin tədbirin tətbiqi üçün zəruri olan xərclərə nisbəti ilə müəyyən edilir. Yeni texnika və texnologiyanın müxtəlif variantları müqayisə edilərkən ümumi və xüsusi kapital qoyuluşları, məhsul vahidinin maya dəyəri və s. müqayisə edilir. Texniki-iqtisadi göstəricilərin sadə müqayisəsi ən yaxşı variantı aşkar etməyə imkan vermir. Bu halda variantların müqayisəli səmərəliliyinin ümumi göstəricisi çəkilmiş xərclərlə əldə edilmiş qənaətin məlumatlarının müqayisəsi əsasında təyin olunur. Texnika və texnologiyanın baza variantının seçilməsi xüsusi əhəmiyyət kəsb edir. Belə ki, baza variantının seçilməsi ayrı-ayrı variantların müqayisəsi üçün zəruridir.

Məhz ona görə də istehsal texnologiyası səviyyəsinin qiymətləndirilməsi və texnoloji qərarların seçilməsi zamanı texnologiyanın növləri aşağıdakı kimi təsnifatlandırılır:

– köhnəlmiş;
– baza;
– modernləşdirilmiş;
– prinsipcə yeni.

Buğda emalı sahəsində müşahidə edilən son illərin göstəriciləri istehsal ilə müqayisədə daha yüksək artım tempinə malikdir.

Ərzaq bazarında qiymətlərə təsir edən faktorlar mürəkkəbdir. Belə ki, hava şəraiti, ticarət siyasəti, aqrar siyasət, taxıl ehtiyatı siyasəti, bioyanacaq siyasəti və dəyişən beynəlxalq maliyyə şərtləri ərzaq qiymətlərinə təsir edən mühüm amillərdir. Dünya bazarında buğdanın qiymətinin armasına təsir edən əsas amilləri aşağıdakı kimi qruplaşdırmaq olar:

**Əlverişsiz hava şəraiti.** Kənd təsərrüfatı iqlim dəyişkənliyinə və ekstremal hava şəraitinə çox həssasdır. Otən il ərzində ABŞ, Kanada və Rusiyada müşahidə olunan quraqlıq və yüksək temperatur buğda istehsalına ciddi şəkildə təsir etmişdir. Məsələn, ABŞ-da quraqlıq və yüksək temperatur 2021-ci ildə yazlıq buğda məhsulunun 40% azalmasına və ümumi buğda yığımının isə 10% azalmasına səbəb olmuşdur.

**Proteksionist siyasət.** Buğda istehsalı ilə məşğul olan əsas istehsalçı ölkələr ərzaq təhlükəsizliklərini riskə atmamaq üçün bazara müdaxilə edirlər. Məsələn, Rusiya kimi əsas buğda istehsalçısı və ixracatçısı buğda ixracını məhdudlaşdıracaq siyasət yürüdür. Belə ki, 2021- ci ilin ortalarından Rusiya buğda ixracına vergi tətbiq etməyə başlamışdır (94.9 ABŞ dolları/ton). Digər tərəfdən isə, Rusiya ixracı tənzimləmək üçün 2022-ci ildən daha sərt tədbirlər həyata keçirməyi planlaşdırır. Belə ki, mövcud ixrac vergisini artırmaqla yanaşı, fevralın 15-dən iyunun sonuna qədər olan dövr üçün 8 milyon ton buğda ixracı kvotası tətbiq edəcəyini bildirmişdir

**Dünya üzrə əsas buğda istehsalçıları (%-lə)**




Mənbə: Beynəlxalq Taxıl Şurasının (International Grains Council)

Göründüyükimi Azərbaycanda buğda, eləcə də ondan alınan məhsulların xüsusi ilə də un və un məmulatlarının qiymətləri xarici bazarlardan asılıdır. Yuxarıda da qeyd edildiyi kimi, Rusiyanın buğda ixracını tənzimləmək üçün ixracının əngəlləməsi Azərbaycan bazarına təsirsiz ötüşə bilməz. Nəzərə alsaq ki, Azərbaycanda əhalinin qida rasionunda xüsusi çəkisi olan çörək və digər un məmulatlarının hazırlanması üçün buğda unu əsas xammaldır dünya bazarında buğdanın bahalaşmasının ölkə daxilində çörəyin qiymətinə təsiri proqnozlaşdırılandır. Azərbaycanda un istehlakı 2020-ci ildə adam başına orta hesabla 84.4 kiloqram olmuşdur ki, bu da buğda istehsal edən bir sıra ölkələrlə müqayisədə yüksək göstəricidir. Belə ki, inkişaf etmiş ölkələrdə adambaşına un istehlakı il ərzində 55-65 kiloqram arasında dəyişir.

Hazırda un və çörək istehsalçıları ilə müzakirələrdən sonra unun və çörəyin qiymətlərinin yuxarı hədləri müəyyənləşdirilib. Belə ki, 50 kq-lıq bir kisə unun topdansatış qiyməti 35.9 AZN, 500 qr-lıq ənənəvi (dairəvi) çörəyin pərakəndə satış qiyməti 50 qəpik, 650 qr-lıq ənənəvi (dairəvi) çörəyin pərakəndə satış qiyməti isə 65 qəpik müəyyən edilib.

**ƏDƏBİYYAT:**

1. Beynəlxalq Taxıl Şurasının (International Grains Council) https://www.igc.int/
2.Dünya Bankının əmtəə qiymətləri haqqında məlumat (World Bank Commodity Price Data) https://www.worldbank.org/en/research/commodity-markets
3.Factmarkets Agricensus, https://www.agricensus.com/
4. Abbasov S.A. Maliyyə menecmentinin nəzəri və praktiki məsələləri. Elm və təhsil. Bakı, 2022, 270 s.
5. Bayramov A. Biznes və menecmentin əsasları. Nurlan, Bakı, 2018, 270 s.
6. İmanov Ə. Biznesin əsaslarının qiymətləndirilməsi, Dərslik, Bakı, 2017, 278 s.

7. Hüseynova A.D. Elm və innovasiya fəaliyyəti: ölçmə və qiymətləndirmə, TUNA, Bakı, 2020, 371 s.
8. İbrahimov İ.H., Kərimov R. Sənayedə investisiya və innovasiya fəaliyyəti, Bakı, 2017, 245 s.
9. Qasımov İ., Cəbiyev F. İnnovasiya sahibkarlığı və texnoparklar, Dərs vəsaiti, Bakı, 2017, 182 s.
10. H.Könsel, A. Atlı. Değirmencilik Sanayi ve Hammade, Konya, 2014, 270 s.

**Məşğulluğun konseptual və praktik əsasları**
**Bakı Biznes Universiteti**
**Vəlizadə İltizam**

**Xülasə**

Bərabər məşğulluğu təmin etmək üçün sadəcə olaraq cəmiyyətin məşğulluq nəticələrini ölçmək qənaətbəxş deyil. Bunun üçün əlbəttə ki, individual bacarıqları və işəgötürənlərin istəkləri arasında uzlaşma mütləq şəkildə nəzərə alınmalıdır. Ümumilikdə məşğulluq bütün sosiumlar da aktual və həll edilməsi vacib olan əsas problemlərdən biri sayılır. Bu problemin həll edilməsi istiqamətində görülən tədbirlər cəmiyyətdə mövcud olan işsizliyin azaldılmasına və eyni zaman da məşğul əhali sayının artmasına gətirib çıxarır. Bütün inkişaf etmiş ölkələr də olduğu kimi Azərbaycan Respublikasında da məşğulluq eləcə də özünə məşğulluq istiqamətində dövlət proqramları həyata keçirilir.

**Summary**

Merely measuring a society's employment outcomes is not sufficient to ensure equal employment. For this, of course, the compromise between individual skills and employers' wishes must be taken into account. In general, employment is considered one of the main problems that are relevant and important to solve in all societies. The measures taken in the direction of solving this problem lead to the reduction of unemployment in the society and at the same time to the increase of the employed population. As in all developed countries, state programs in the direction of employment and self-employment are implemented in the Republic of Azerbaijan.

**Краткое содержание**

Простого измерения результатов занятости в обществе недостаточно для обеспечения равной занятости. При этом, конечно, необходимо учитывать компромисс между индивидуальными навыками и желаниями работодателей. В целом занятость считается одной из главных проблем, которые актуальны и важны для решения во всех обществах. Меры, принимаемые в направлении решения этой проблемы, приводят к снижению безработицы в обществе и одновременно к увеличению занятого населения. Как и во всех развитых странах, в Азербайджанской Республике реализуются государственные программы в направлении занятости и самозанятости.

***Açar sözlər:*** **məşğulluq,özünəməşğulluq,işsizlik,qeyri-formal məşğulluq,müvəqqəti məşğulluq.**

Məşğulluq hazırda Azərbaycan Respublikasının qarşıya qoyduğu aktual strategiyalardan biridir. Bu istiqamətdə tədbirlərin görülməsi ölkədəki işsizlik səviyyəsini azaltmaq ,yoxsulluğun aradan qaldırılmasına yönəldilmişdir. Məşğulluğun inkişaf etdirilməsində məqsəd əhalinin rifahının yüksəldilməsi eyni zaman da layiqli həyat şəraitinin yaradılmasıdır.

Ümumi olaraq məşğulluq anlayışına bir neçə tərif vermək olar. Məşğulluq sadə dildə desək işə götürən və işçi arasında məvacib əsasında razılaşmadır. Məşğulluq insanlara gəlir, qazanc gətirən fəaliyyət hesab olunur. Azərbaycan Respublikasının "Məşğulluq haqqında" qanununa əsasən " məşğulluq- Azərbaycan Respublikasının vətəndaşları, əcnəbilər və vətəndaşlığı olmayan şəxslərin (bundan sonra - şəxslər) Azərbaycan Respublikasının qanunvericiliyinə zidd olmayan və qazanc (gəlir) gətirən hər hansı fəaliyyətidir" [1]

Həmin qanuna əsasən ölkəmizdə bu şəxslər məşğul əhali hesab olunur “ muzdla işləyənlər - Azərbaycan Respublikasının Əmək Məcəlləsinə uyğun olaraq işəgötürənlə əmək müqaviləsi (kontrakt) bağlayaraq, müvafiq iş yerlərində əmək fəaliyyətini əməkhaqqı müqabilində yerinə yetirən şəxslər; mülki-hüquqi xarakterli müqavilələrlə işləyənlər - Azərbaycan Respublikasının Mülki Məcəlləsinə uyğun olaraq qarşı tərəflə müqavilə bağlayıb əmək münasibətləri yaratmadan müəyyən haqq müqabilində işləri (xidmətləri) yerinə yetirən şəxslər;sahibkarlar, mülkiyyətində kənd təsərrüfatına yararlı torpaq payı olanlar, ailə kəndli təsərrüfatının üzvləri;haqqı ödənilən vəzifəyə seçilənlər, təyin və ya təsdiq edilənlər;. Azərbaycan Respublikasının Silahlı Qüvvələrində xidmət edənlər;ödənişli fəaliyyətlə məşğul olan ali və orta ixtisas təhsil müəssisələrində əyani təhsil alanlar;. Azərbaycan Respublikasının ərazisində qanuni əsaslarla haqqı ödənilən əmək fəaliyyəti ilə məşğul olan əcnəbilər və vətəndaşlığı olmayan şəxslər;Azərbaycan Respublikasının hüdudlarından kənarda qanuni əsaslarla əmək fəaliyyəti ilə məşğul olan Azərbaycan Respublikasının vətəndaşları.” [1]

Özünəməşğulluq dedikdə şəxsin öz hesabına və ya dövlətin yardımı ilə gəlir qazanc əldə etməsi nəzərdə tutulur. Bunun üçün ölkədə özünəməşğulluq proqramları həyata keçirilir.

Məşğulluqdan danışarkən qeyri-formal məşğulluğun nə olduğunu vurğulamaq lazımdır. Hazırda son illərdə daha çox yayılan qeyri-formal məşğulluq əmək müqaviləsi olmadan fəaliyyət göstərməkdir. Buna səbəb formal məşğulluğun cəlbedici olmaması, eyni zamanda verginin miqdarı, təhsil səviyyəsini qeyd etmək olar.

Məşğulluq konsepsiyasında qeyri-formal məşğulluq,özünəməşğulluqdan başqa müvəqqəti məşğulluq qavramıda mövcuddur. Azərbaycan Respublikasının “Məşğulluq haqqında” qanununa əsasən “ müvəqqəti məşğulluq – şəxsin Azərbaycan Respublikasının Əmək Məcəlləsinə uyğun olaraq mövsümi işlərə, bu Qanunla müəyyən edilmiş qaydada haqqı ödənilən ictimai işlərə cəlb edilməsi və ya əmək birjaları vasitəsilə müəyyən müddət ərzində ictimai faydalı fəaliyyətidir” [1]

İşsizlik bütün dünya da olduğu kimi ölkəmizdə də mövcuddur. İşsizlik və onun səbəb olduğu yoxsulluq məşğulluq konsepsiyası ilə sıx bağlıdır. Beləki məşğulluğun artırılması, məşğul əhali sayının yüksəldilməsi yoxsulluğun, işsizliyin qarşısının alınması,aradan qaldırılmasının həlli yollarından biridir. Hazırda ölkə qarşısında duran əsas məsələlərdən biri əlverişli məşğulluq fəaliyyətini həyata keçirtmək, yeni iş yerləri açmaq, işçi qüvvəsinin nəzəri-praktiki biliyini gücləndirmək, bununla da uğurlu siyasətə nail olmaqdır. İşsizliyin aradan qaldırılması ölkə iqtisadiyatının eləcə də sosial siyəstin başlıca inkişafının göstəricisidir.

## ƏDƏBİYYAT

**1**.https://e-qanun.az/framework/39846

**2**.https://unec.edu.az/application/uploads/2018/11/Eyvazova-Firuz-.pdf

**3**..https://www.peoplehum.com/glossary/employment

**4**. https://www.gmpr74.ru/glossary/zanyatost

**5**.https://www.ilo.org/wcmsp5/groups/public/---ed_emp/documents/publication/wcms_466537.pdf

**State support to small and medium business in Azerbaijan, its development trends**

**Azerbaijan State University of Economics**
**Sultan Abdullayev**

***Abstract:***

*This paper examines Azerbaijan's SME landscape and startup ecosystem, highlighting their economic importance and government support. Startups, particularly in digital tech, drive diversification but face challenges like access to venture capital. Government initiatives, including tax incentives and VC firms, aim to enrich the ecosystem. Real-world cases, like Caucasus Ventures' local investments, illustrate startup-investor dynamics. The goal is to enhance SMEs and startups in Azerbaijan.*

***Keywords:*** Small and Medium Enterprises (SMEs), Business Development, Government policies, Economic growth, Entrepreneurship, Startup Ecosystem

***Xülasə:***

*Bu məqalə Azərbaycanın KOB-ların mənzərəsini və startap ekosistemini araşdırır, onların iqtisadi əhəmiyyətini və dövlət dəstəyini vurğulayır. Başlanğıclar, xüsusən də rəqəmsal texnologiyada, diversifikasiyaya səbəb olur, lakin vençur kapitalına çıxış kimi çətinliklərlə üzləşirlər. Dövlətin təşəbbüsləri, o cümlədən vergi güzəştləri və vençur kapital firmaları, ekosistemi zənginləşdirməyə yönəlib. Caucasus Ventures-in yerli sərmayələri kimi real dünya nümunələri startap-investor dinamikasını göstərirlər və məqsəd Azərbaycanda KOB-ların və startapları inkişaf etdirməkdir.*

***Açar sözlər:*** *Kiçik və Orta Biznes (KOB), Biznesin İnkişafi, Hökumət siyasəti, İqtisadi artım, Sahibkarlıq, Startap Ekosistemi*

***Резюме:***

*В данной статье рассматривается ландшафт МСП и экосистема стартапов Азербайджана, подчеркивая их экономическое значение и государственную поддержку. Стартапы, особенно в сфере цифровых технологий, стимулируют диверсификацию, но сталкиваются с такими проблемами, как доступ к венчурному капиталу. Правительственные инициативы, включая налоговые льготы и венчурные компании, направлены на обогащение экосистемы. Реальные примеры, такие как местные инвестиции «Caucasus Ventures», иллюстрируют динамику стартап-инвесторов. Целью является развитие МСП и стартапов в Азербайджане.*

***Ключевые слова:*** *малые и средние предприятия (МСП), развитие бизнеса, государственная политика, экономический рост, предпринимательство, стартап-экосистема.*

**Introduction**

Small and medium-sized enterprises (SMEs) play a pivotal role in Azerbaijan's economic landscape, contributing significantly to value-added and employment generation. However, their comparative underutilization highlights the need for comprehensive support mechanisms to realize their full potential. Against this backdrop, the country's startup ecosystem has witnessed remarkable growth, spurred by strategic shifts towards economic diversification, particularly emphasizing digital technology. This paper examines the developmental trajectory of SMEs and startups in Azerbaijan, juxtaposing their contributions with global benchmarks. It delves into governmental initiatives aimed at nurturing entrepreneurship and fostering innovation, with a specific focus on tax incentives and venture capital investments. Moreover, the establishment of Caucasus Ventures, the first venture capital firm in the

region, underscores the evolving landscape of startup financing. By elucidating the challenges and opportunities inherent in SME development and startup ecosystem enrichment, this study seeks to inform policymakers, investors, and entrepreneurs alike on pathways towards sustainable economic growth and diversification in Azerbaijan.

**Overview of SME in Azerbaijan**

The economic contribution of small and medium-sized enterprises (SMEs) in Azerbaijan has yet to be fully realized. [1] In 2018, SMEs accounted for 13.4% of value added and 42.9% of total employment, a stark contrast to OECD countries where they contribute around 60% of value added and 60-70% of employment. Within Azerbaijan's non-oil economy, SMEs played a slightly larger role, generating 23.5% of value added and employing 45% of the workforce. [2] This suggests that while SMEs are significant contributors to the Azerbaijani economy, there is ample room for their expansion and increased impact. Strengthening support mechanisms and fostering an environment conducive to SME growth could unlock their full potential, driving further economic diversification and job creation. Additionally, targeted policies and initiatives aimed at bolstering the competitiveness and sustainability of SMEs could enhance their role as engines of growth in Azerbaijan.

Table 8.4. **Definitions of SMEs in Azerbaijan**

| | Micro | Small | Medium |
|---|---|---|---|
| Number of employees | < 10 employees | < 50 employees | < 250 employees |
| Turnover | < AZN 200 000 (EUR 104 000) | < AZN 3 000 000 (EUR 1 056 000) | < AZN 30 000 000 (EUR 15 690 000) |

**Definition of SMEs in Azerbaijan**

Source: SME Policy Index: Eastern Partner Countries 2020 (2020). Assessing the Implementation of the Small Business Act for Europe [3]

**Startup Ecosystem in Azerbaijan**

Azerbaijan's startup ecosystem experienced rapid growth starting from 2015, triggered by an oil price shock that prompted the country to reduce its reliance on hydrocarbons and mitigate macroeconomic vulnerabilities. This shift towards economic diversification, particularly into non-oil-related industries and services, holds the promise of fostering more stable and sustained development. To bolster economic growth, information and communication technology (ICT) was identified as a pivotal industry in the Strategic Roadmap for Development of Telecommunications and Information Technologies, unveiled in 2016 alongside the overarching Roadmap for the National Economy and 11 other sector-specific plans.

Amidst the backdrop of declining oil prices in 2015 and the COVID-19 pandemic in 2020, digital technology has made significant strides, both in the range of goods and services it offers and in the emergence of local tech companies. Leveraging technology-based firms can assist Azerbaijan in achieving its objectives of economic diversification.




**Position of Azerbaijan in Startup Ecosystem Ranking**

Source: StartupBlink (2023). Global Startup Ecosystem Index 2023 [4]

In 2023, Azerbaijan has risen to the 84th position globally, marking a progression of 5 spots over the past two years. Baku, the sole ranked city in Azerbaijan, has ascended by 31 positions to reach the 412th spot globally. Among the cities in the CAREC business region (Central Asia Regional Economic Cooperation), Baku holds the 29th highest ranking. [4]

**Venture Capital and Investments in Azerbaijan**

Venture capital (VC) is still a relatively new idea in Azerbaijan, and the country's startup environment is continually growing. Despite increased interest in venture capital, Azerbaijan's startup ecosystem continues to confront a number of problems, including a lack of access to early-stage finance, inadequate mentoring and support networks, and a skilled personnel scarcity. [5]. However, the government has initiated steps to encourage the expansion of the startup ecosystem, such as the establishment of a startup incubation center and a fund to promote innovation and entrepreneurship.

In November 2022, the Digital Development Agency, PASHA Holding Group of Companies, and private investors created Caucasus Ventures, the first venture capital firm, to overcome challenges and take new steps in the ecosystem's growth. [6] The fund's major purpose is to invest in post-seed growth and A-stage enterprises in Azerbaijan, Georgia, Turkey, Central Asia, and Eastern Europe within a five-year timeframe. The restructure of the Digital Development and Transportation Ministry, as well as its support for numerous digital development projects, made the establishment of this fund imperative.

Caucasus Ventures has invested in four startups from Azerbaijan over a period of two years and 1.5 years of market activity. These include Push30, a provider of corporate benefits that grants members unrestricted access to numerous gyms and fitness facilities through a single membership. Additionally, PERKSKIT offers companies a solution for effectively managing employee rewards according to individual preferences. Dynamic Box is a local game studio, and Tripsome is the foremost marketplace for ticket sales. [7] [8]

**Tax privileges and exemptions for startups and SMEs**

The "Startup" certification is awarded to companies that develop a unique and innovative product with the aim of generating income or profit, which is competitive and distinct from any other startup product. In Azerbaijan, businesses receiving this certification are exempt from earnings and profit taxes on their income from creative operations for three years from the date of certification, as per the Tax

Code. The issuance of the "Startup" certificate is carried out by the Small and Medium Business Development Agency of the Republic of Azerbaijan, based on specific criteria, including being a micro or small business entity, having founders who are not primarily medium or large business entities, and being a resident taxpayer. Applications for the "Startup" certificate undergo evaluation by a Council of Experts within a 30-day period, with the final decision on issuance made by KOBIA. To date, a total of 139 "Startup" certificates have been awarded to small and medium-sized enterprises (SMEs), with the majority of projects falling within the service sector. These tax privileges and exemptions aim to support startups and SMEs in their early stages of development. [9] [10]

**Conclusion**

In conclusion, Azerbaijan's SMEs and startups represent vital pillars of economic diversification and growth. While their contributions are significant, there exists substantial room for further development and impact. Initiatives such as venture capital investments, governmental support, and tax incentives are driving the evolution of the startup ecosystem, promising avenues for innovation and job creation. By fostering an environment conducive to entrepreneurship and addressing existing challenges, Azerbaijan can realize the full potential of its SMEs and startups, paving the way for sustainable economic prosperity.

**References:**

1. Aliyeva, N., et al. (2020). Government support for small and medium-sized enterprises in Azerbaijan: Current situation and future prospects. International Journal of Economic Perspectives.
2. World Bank Group. (2016). Azerbaijan: SME Development Strategy (2016-2020). World Bank Group.
3. SME Policy Index: Eastern Partner Countries 2020 (2020). Assessing the Implementation of the Small Business Act for Europe
4. StartupBlink (2023). Global Startup Ecosystem Index 2023
5. Abbasov, S., & Aliyeva, G. (2020). Entrepreneurship education and its impact on SME development: Evidence from Azerbaijan. International Journal of Management Education
6. Ministry of Digital Development and Transport. (2022). Retrieved from https://mincom.gov.az/en
7. Pasha Holding Innovation Stream. (2023). Retrieved from https://pashainnovation.com/
8. Caucasus Ventures. (2023). Retrieved from https://caucasus.vc/
9. European Bank for Reconstruction and Development (EBRD). (2022). Azerbaijan: SME Policy Index 2022. EBRD.
10. The Small and Medium Business (SMB) Development Agency of the Republic of Azerbaijan. (2024).

**Zəhmət RUZİ MMC əmək ehtiyatlarından ıstifadənin səmərəliliyinin yüksəldilməsi**

**Bakı Biznes Universiteti**
**Zəhra Dadaşova**

**Xülasə**

Müasir bazarın inkişafı şəraitində müəssisədə istehsalın səmərəliliyinə təsir edən müxtəlif amillər xüsusi rol oynayır. Sürətlə artan rəqabət şəraiti müəssisələri yüksək performans və istehsal səmərəliliyi göstərməyə məcbur edir. Müəssisənin artırılmasında mühüm rol oynayan - kadr və əmək resursları, eyni zamanda təşkilat sistemində əmək normasıdır.

Dövlətin iqtisadi siyasətinin başlıca istiqamətlərindən biri məhz özəl sektorun hərtərəfli dəstəklənməsi, onun daha da genişlənməsi üçün əlverişli mühitin yaradılması, bu sahədə müxtəlif yardım və təşviq mexanizmlərinin tətbiq edilməsidir. "Zəhmət-Ruzi" MMC-nin fəaliyyəti də məhz belə bir əlverişli mühitin bəhrəsidir.

**Açar sözlər: bazar, inkişaf, resurslar, sənaye, keyfiyyət, istehsal, layihə**

**Резюме**

На современном рынке ключевую роль в эффективности производства играет целый ряд факторов. Стремительно растущие конкурентные условия вынуждают предприятия демонстрировать высокие показатели и эффективность производства. Важно повышать эффективность работы эксперта — кадровых и трудовых ресурсов, а также работать в организационной системе.

Одним из основных аспектов экономической политики правительства является всесторонняя поддержка частного сектора, создание благоприятных условий для дальнейшего расширения, внедрение различных механизмов помощи и стимулирования. Работа "Zəhmət-Ruzi" MMC также является продуктом такой благоприятной среды.

**Ключевые слова:** рынок, рост, ресурсы, промышленность, качество, производство, проект

**Summary**

In today's marketplace, a variety of factors have played a key role in the efficiency of manufacturing. Rapidly rising competitive conditions are forcing businesses to show high performance and production efficiency. It is important to increase the efficiency of an expert — cadre and labor resources, as well as to work in the organizational system.

One of the main aspects of the government's economic policy is the comprehensive support of the private sector, the creation of an environment conducive to further expansion, and the implementation of various aid and incentive mechanisms. The work of the "Zəhmət-Ruzi" MMC is also the product of such a favorable environment.

**Keywords:** market, growth, resources, industry, quality, manufacturing, project

Azərbaycanda həyata keçirilən davamlı islahatlar sayəsində bütün sahələrin paralel tərəqqisi təmin edilib. Eyni zamanda, neft gəlirlərinin səmərəli idarə edilməsi, iqtisadiyyatın şaxələndirilməsi və qeyri-neft sahələrinin tərəqqisi, özəl sektorun inkişaf etdirilməsi və sahibkarlığa dövlət dəstəyi kimi fundamental tədbirlər dayanıqlı iqtisadi inkişafın təmin olunması baxımından müstəsna əhəmiyyət kəsb

edir. Digər tərəfdən, istehsalın genişləndirilməsi, daxili tələbatın tam ödənilməsi və ixrac potensialının artırılması Azərbaycanın strateji hədəflərindəndir.

Rəqabətədavamlı istehsal və emal müəssisələrinin yaradılması, yerli istehsalın stimullaşdırılması, sahibkarlara güzəştli maliyyə yardımı mexanizmlərinin gücləndirilməsi, habelə sənaye potensialının möhkəmləndirilməsi istiqamətində görülən işlər iqtisadi siyasət çərçivəsində həyata keçirilən tədbirlərin səmərəliliyini təmin edib. Buna paralel olaraq yeni iqtisadi şəraitdə Azərbaycanda iqtisadi aktivliyin artırılması, o cümlədən qeyri-neft sektorunda istehsalın genişləndirilməsi istiqamətində davamlı tədbirlər həyata keçirilir. Prezident İlham Əliyevin müvafiq Fərman və sərəncamları əsasında həyata keçirilən geniş məzmunlu islahatlar, ölkədə biznes mühitinin optimallaşdırılması, sahibkarlığın və özəl sektorun inkişafına əlverişli şəraitin yaradılması da bu kontekstdə xüsusi vurğulanmalıdır. Ən əsası, dövlətin iqtisadi siyasətinin başlıca istiqamətlərindən biri məhz özəl sektorun hərtərəfli dəstəklənməsi, onun daha da genişlənməsi üçün əlverişli mühitin yaradılması, bu sahədə müxtəlif yardım və təşviq mexanizmlərinin tətbiq edilməsidir. “Zəhmət-Ruzi” MMC-nin fəaliyyəti də məhz belə bir əlverişli mühitin bəhrəsidir.

Yerli şirkət olan «Zəhmət-Ruzi» Məhdud Məsuliyyətli Cəmiyyəti 1998-ci ildən fəaliyyət göstərir. Hazırda «Zəhmət-Ruzi» Şirkəti 2 hektardan artıq ərazidə yerləşir. Ən müasir avadanlıqlarla təhciz edilmiş laboratoriyalar, istehsal sexləri, anbar və daşinma sistemləri «Zəhmət-Ruzi» ailəsində bu gün müxtəlif sahələr üzrə 150 nəfər yüksək ixtisaslı mütəxəssis çalışır.

Komanda gənc, yaradacı, yüksək daxili məsulliyətli, vəzifə borcunu vaxtında və keyfiyyətlə yerinə yetirən, vahid komandada birləşməyi bacaran, işini səlis bilən və daim öz üzərində işləyən qrupdur. Bütün əməkdaşların çalışdığı sahələr üzrə diplomları, sertifikatları və nailiyyətləri var. Hər bir əməkdaşın gördüyü iş özünü təsdiqləmiş texnoloqiyaya əsaslanır. Bu da ümumi biznesimin dinamik inkişafını işlək mexanizmə çevirir.

Eyni zamanda, nəzərə çatdırmaq lazımdır ki, noyabrın 17-də Azərbaycan Prezidenti İlham Əliyev Abşeron rayonunda “Zəhmət-Ruzi” MMC-nin fəaliyyəti ilə tanış olmuşdur.

“Zəhmət-Ruzi” MMC-nin dəyəri 42 milyon manat olan logistika mərkəzindən, ət kəsimi, ət və süd emalı fabrikindən ibarət aqrar-sənaye kompleksindən ibarətdir.

Müəssisədə istehsal edilən və “SAB” -”Made in Azerbaijan” brendi altında bazara çıxarılan 60 çeşiddə ət və 40 çeşiddə süd məhsullarının nümunələrinə rast gəlmək olur. “Zəhmət-Ruzi” MMC-nin ət və süd məhsulları AZS - keyfiyyət idarəetmə standartlarının sertifikatına və keyfiyyətə nəzarət sisteminin ISO 9001:2000 sertifikatına layiq görülən “SAB” brendi altında bazara çıxarılır. İstehsalın əksər hissəsi avtomatlaşdırılıb, ən müasir texnologiyalardan istifadə olunur.

Müəssisədə ət məhsullarının istehsalı prosesi müasir avadanlıqlar və texnologiyalar vasitəsilə həyata keçirilir. 7 min tonluq logistika mərkəzi ən müasir avadanlıqla təchiz edilib. Burada illik kəsim gücü 1,8 min ton olan fabrik də fəaliyyət göstərəcək. Bundan başqa, saatda 2500 quş kəsimi gücünə malik olan fabrik üçün də avadanlıq gətirilib və ilin sonunadək quraşdırılması nəzərdə tutulub. İllik istehsal gücü 10 min tona çatan ət emalı sahəsində 60 çeşiddə məhsul istehsal edilir. Ət məhsullarının saxlanma şəraiti ən müasir standartlara uyğundur.

İllik istehsal gücü 7 min ton olan süd emalı sahəsində isə 40 çeşiddə süd məhsulları, o cümlədən pasterizə edilmiş süd, pendir, xama, kəsmik, qatıq, dovğa, ayran və digər məhsullar hazırlanır. Tezliklə bu aqrar-sənaye kompleksində dondurma da istehsal olunacaq. Kompleksin xammala olan tələbatı Abşeron və digər rayonlarda fəaliyyət göstərən fermerlərin təsərrüfatlarında tədarük edilmiş məhsul

hesabına təmin ediləcək. “Zəhmət-Ruzi” MMC-nin həyata keçirdiyi layihələr hesabına 150 yeni iş yeri yaradılıb. Burada istehsal edilən məhsulların Rusiyaya, Qazaxıstana və Asiya ölkələrinə ixracı ilə bağlı müvafiq tədbirlər görülür.

“Zəhmət-Ruzi” MMC-nin təsisçisinin nümayəndəsi Əliheydər Fərəcullayev qeyd etdi ki, şirkət üç əsas istiqamətdə fəaliyyət göstərir: “Onlardan birincisi soyuducu anbar təsərrüfatıdır. Müəssisədə təxminən 7-8 min tonluq soyuducu anbarlar var. Azərbaycana daxil olan donmuş ərzaq-qida məhsullarının bir qismi bu anbarlarda saxlanılır. İkinci böyük sahə ət emalı sahəsidir. Gündəlik istehsal gücü 30 tona qədər olan istehsal sahəmiz var. Hazırda gündəlik istehsal təxminən 7-8 ton civarındadır. Yaxın vaxtlarda Rusiyaya və körfəz ölkələrinə ixrac ilə bağlı müqavilələrin imzalanması nəzərdə tutulub. Üçüncü sahə isə süd emalını əhatə edir. Burada da gündəlik istehsal gücü 30 ton həcmindədir, amma hazırda təxminən gündəlik 7-8 ton süd emal edilir”.

Ə.Fərəcullayev əlavə etdi ki, “Zəhmət-Ruzi” MMC-nin “SAB” nişanlı kolbasa və süd məhsullarının istehsalı Azərbaycan istehlakçılarının Qida Təhlükəsizliyi Nişanı (AİQTN) proqramının tələblərinə uyğun olduğuna görə müəssisə PLATİN səviyyəli Qida Təhlükəsizliyi Nişanına layiq görülüb: “Bu, məhz məhsulların təbii, keyfiyyətli və insan sağlamlığına uyğun olduğunu, müvafiq normalara cavab verdiyini göstərir. Süd emalı sahəsində yalnız təbii süddən istifadə edirik. Ayrıca soya maddələri və digər qatqılardan istifadə olunmur. Qidalar təbii ət və toyuq məhsullarından hazırlanır”.

“Zəhmət-Ruzi” MMC-nin təsisçisinin nümayəndəsi şirkətin “SAB” nişanlı məhsullarının “Moscow Halal Expo-2014”, “Moscow Halal Expo-2015” və “Moscow Halal Expo-2016”nın qalibi olduğunu, 2015-ci ildə Qazaxıstanda bu uğuru təkrarladığını və tədbirin əsas mükafatı olan “Grand Prix”ə layiq görüldüyünü də diqqətə çatdırdı.

Qeyd edildi ki, bundan başqa, saatda 2500 quş kəsimi gücünə malik olan fabrik üçün də avadanlıq gətirilib və ilin sonunadək quraşdırılması nəzərdə tutulub. İllik istehsal gücü 10 min tona çatan ət emalı sahəsində 60 çeşiddə məhsul istehsal edilir. Ət məhsullarının saxlanma şəraiti ən müasir standartlara uyğundur.

Azərbaycan Prezidentinə məlumat verildi ki, illik istehsal gücü 7 min ton olan süd emalı sahəsində 40 çeşiddə süd məhsulları, o cümlədən pasterizə edilmiş süd, pendir, xama, kəsmik, qatıq, dovğa, ayran və digər məhsullar hazırlanır. Tezliklə bu aqrar-sənaye kompleksində dondurma da istehsal olunacaq. Kompleksin xammala olan tələbatı Abşeron və digər rayonlarda fəaliyyət göstərən fermerlərin təsərrüfatlarında tədarük edilmiş məhsul hesabına təmin ediləcək. “Zəhmət-Ruzi” MMC-nin həyata keçirdiyi layihələr hesabına 150 yeni iş yeri yaradılıb və orta aylıq əməkhaqqı 500 manatdır. Burada istehsal edilən məhsulların Rusiyaya, Qazaxıstana və Asiya ölkələrinə ixracı ilə bağlı müvafiq tədbirlər görülür.[5]

Prezident İlham Əliyev tərəfindən həyata keçirilən sosial-iqtisadi inkişaf strategiyası nəticəsində ölkəmiz hərtərəfli inkişaf edir. İqtisadiyyatın qeyri-neft sektorunun davamlı inkişafına nail olunub. Buna imkan verən əsas amillərdən biri özəl sektorun diqqət mərkəzində saxlanılmasıdır. Təsadüfi deyil ki, dövlətin iqtisadi siyasətinin başlıca istiqamətlərindən biri məhz özəl sektorun hərtərəfli dəstəklənməsi, onun daha da genişlənməsi üçün əlverişli mühitin yaradılması, bu sahədə müxtəlif yardım və təşviq mexanizmlərinin tətbiq edilməsidir. “Zəhmət-Ruzi” MMC-nin fəaliyyəti də məhz belə bir əlverişli mühitin bəhrəsidir.[1]

Azərbaycan Prezidentinə kompleksdəki süd məhsullarının satışadək saxlanma anbarları da təqdim olundu. [4]

**Nəticə.** Azərbaycan Respublikasında davamlı iqtisadi inkişafın təmin olunması və eyni zamanda ölkə vətəndaşlarının sosial-iqtisadi vəziyyətinin yaxşılaşdırılması prinsipial (perspektiv) aspekt olaraq qəbul edilmişdir.Bunun təmini bilavasitə iqtisadiyyat və sənayenin birgə inkişafına əsaslanır. Sənaye iqtisadiyyatın ən böyük sahəsi olmaqla yanaşı istehsal və istehlak sahələrini özündə birləşdirir.Sənayenin inkişaf etdirilməsi istiqamətində aparılan iqtisadi inkişaf tədbirləri özündə əhalinin ərzaq təhlükəsizliyinin təmini və Azərbaycanın digər ölkələrdən ərzaq (qida) təminatı nöqteyi-nəzərdən asılılığın azaldılmasına əsaslanır.İqtisadiyyatın inkişafı onun ən geniş sahələrindən biri olan sənaye xüsusilə yeyinti sənayesi ilə kənd təsərrüfatının (ASK) qarşılıqlı birgə uzlaşdırılmış inkişafına əsaslanır.Mövzunun müasir dövr üçün aktual olduğunu nəzərə alaraq dissertasiya işində yeyinti sənayesi, yeyinti sənayesi müəssisələrinin mövcud vəziyyəti, yeyinti sənayesi müəssisələrinin müasir dövrün qabaqcıl tələblərinə uyğun olaraq elektronlaşdırılması və avtomatlaşdırılması, qloballaşma şəraitində Azərbaycanda mövcud olan yeyinti sənayesinin inkişaf problemlərinin müqayisəli təhlili və tədqiqi məsələləri öz əksini tapmışdır. Azərbaycan Respublikası müstəqillik əldə etdikdən sonra iqtisadiyyatın digər sahələrində olduğu kimi yeyinti sənayesində də durğunluq dövrü müşahidə edildi. Hal-hazırda Azərbaycan Respublikasının yeyinti sənayesi eləcə də sənayenin perspektiv iqtisadi sahə kimi qarşısında duran mühüm vəzifə sosial-iqtisadi inkişaf strategiyasının həyata keçirilməsi nəticəsində nail olunmuş iqtisadi artım göstəricilərinin stabilliyinin qorunub saxlanılması və möhkəmləndirilməsi, bütünlükdə ölkənin və əhalinin ərzaq resusrslarına olan mövcud və tükənməz tələbatının maksimum səviyyədə tam və dolğun ödənilməsini təmin etməkdən ibarətdir. Müstəqillik illərində bir çox yeyinti sənayesi müəssisələrinin özəlləşdirilməsi istiqamətində görülən tədbirlər yenidənqurma işlərinin həyat keçirilməsi ilə əlaqədar olaraq peşəkar yeyinti sənayesi kadrların iş yerlərinin itirilməsi il nəticələnmiş,onların bir çoxu xarici ölkələrə miqrasiya etmiş digər bir qismi isə başqa sahələrdə yeni iş yeri tapmış, hal hazırda isə bu sahə kadr çatışmamazlığı problemi ilə üz üzə qalmışdır.

Yeyinti sənayesi respublikamızın qida məhsulllarının istehsalı bazarını əmtəə məhsulları ilə təmin edən iqtisadiyyatın ən qədim sahələrindən biridir.Yeyinti sənayesi olkənin ərzaq təhlükəsizliyinin təmini ilə yanaşı əməktutumluluğu ilə seçilir ki, bu da yeyinti səanyesi müəssisələrinda işləyən işçilərin sayının digər iqtisadi sahələrlə nisbətdə daha geniş xüsusi çəkiyə malik olması ilə nəticələnir.Yeyinti sənayesi müəssisələrinin sayının artırılması respublikamızda mövcud olan bir sıra sosial-iqtosadi problemlərin həliinə səbəb olacaqdır ki, bu da sosial- iqtisadi inkişafda yeyinti sənayesinin təsirirni gəstərir. Hal-hazırda Azərbaycan Respublikasının yeyinti sənayesi eləcə də sənyenin perspektiv iqtisadi sahə kimi qarşısında duran mühim vəzifə sosial-iqtisadi inkişaf strategiyasının həyata keçirilməsi nəticəsində nail olunmuş iqtisadi artım göstəricilərinin stabilliyinin qorunub saxlanılması və möhkəmləndirilməsi,bütünlükdə ölkənin və əhalinin ərzaq resusrslarına olan mövcud və tükənməz tələbatının maksimum səviyyədə tam və dolğun ödənilməsini təmin etməkdən ibarətdir.Yuxarıda qeyd olunan vəzifələrin icrası və həyata keçirilməsi, yeyinti sənayesinin sosial-iqtisadi inkişaf problemlərinin həlli məqsədilə "Azərbaycan Respublikası regionlarının 2004-2008-ci illərdə sosial-iqtisadi inkişafı", "Azərbaycan Respublikası regionlarının 2009-2013-cü illərdə sosial-iqtisadi inkişafı" , "Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı" , "Azərbaycan 2015-2020:Gələcəyə Baxış" inkişaf konsepsiyaları, normativ hüquqi aktlar,sərəncamlar və qərarlar qəbul edilmişdir.Bütün bu proqramların qəbulu və icrasının əsas məqsədi yeyinti sənayesinin inkişafı,yerli məhsul istehsalının genişləndirilməsi,yeni iş yerlərinin açılması (məşğulluğun təminin işsizliyin aradan qaldırılması bununlada əhalinin sosial rifah səviyyəsinin yüksəldilməsi ),əhalinin yeyinti sənayesi

məhsullarına olan tələbatının ödənilməsi və dövlət büdcəsinin formalaşmasında neft sektorundan asılılığn azaldılmasıdır. [3] Beləliklə, ekoloji cəhətdən təmiz, yüksəkkeyfiyyətli “SAB” ət və süd məhsulları beynəlxalq standartlara cavab verir. Faydalı maddələr və minerallarla zəngin olan bu məhsullar sağlam qidalanma üçün düzgün seçim olmaqla yanaşı, həm də halallıq prinsipi əsasında hazırlanması ilə fərqlənir. [2]

**ƏDƏBİYYAT:**


1. https://economy.gov.az/storage/files/files/1746/FAs4Rqody9CT3JMfmaewlOc5s3Ks3Qm2M9AOUhli.pdf
2. https://www.yeniazerbaycan.com/Sosial_e37692_az.html
3. https://unec.edu.az/application/uploads/2018/12/SALAMOVA-FAT-M-AK-F-QIZI.pdf
4. https://president.az/az/articles/view/25868
5. https://files.preslib.az/projects/regions/r3/c1.pdf

**Azərbaycan iqtisadiyyatına xarici investisiyaların cəlb olunması**

**Bakı Biznes Universiteti**

**Əliyeva Lalə**

**Xülasə**

Azərbaycan dünya miqyasında investisiya üçün cəlbedici ölkə statusun gündən-günə gücləndirir. Ölkədə yaradılmış siyasi və iqtisadi sabitlik, əlverişli biznes və investisiya mühiti istənilən layihənin uğurla həyata keçirilməsini təmin edir. Azərbaycanın bir sıra regional və qlobal layihələrdə sərmayədar kimi hazırkı rolu onu mühüm geosiyasi oyunçuya, eləcə də beynəlxalq imicə malik ölkəyə çevirib.

Dünyanın dinamik şəkildə inkişaf edən ölkələri arasında yer alan Azərbaycan reallaşdırılan uğurlu siyasətin nəticələrindən biri olaraq sosial-iqtisadi tərəqqidə özünəməxsus bir modelin əsasını qoyaraq günbəgün qüdrətlənən və inkişaf edən bir ölkəyə çevrilmişdir. Qazanılan uğurların miqyasının davamlı şəkildə genişləndirilməsi ölkəmizin böyük nailiyyətlərə imza atmaqla və inamla irəlilədiyi inkişaf yolunun əsas istiqamətidir. Bu, o deməkdir ki, iqtisadiyyatda keçid dövrünü uğurlu şəkildə başa vurduqdan sonra ölkəmiz bazar iqtisadiyyatı mühitində sonralar da öz inkişafını davam etdirib daha da qüdrətli bir dövlətə çevrilməsini təşkil edəcəkdir.

Hal-hazırda ölkəmiz dünyanın ən qabaqcıl potensial investorlarından birinə çevrilməkdədir. Azərbaycan sərmayəsini gözləyən bir çox xarici ölkələrin sayı durmadan artmaqdadır. Böyük maliyyə imkanlarına malik olan Azərbaycan öz növbəsində, maraqlarının təmin edilməsi şərtilə son illərdə ayrı-ayrı xarici ölkələrə investisiyalar yatırır.

**Azərbaycan iqtisadiyyatına xarici investisiyaların cəlb olunması**

Birbaşa xarici investisiyalar - Xarici sahibkar kapitalının ölkədə olan uzunmüddətli kapital qoyuluşu tərəfindən çıxış edən investisiya forması. Bu investisiyalar xarici investorların ölkələrindən kənar ərazidə müəssisə yaratması imkanını və həmçinin, onların fəaliyyətində nəzarətini təşkil edir. Xarici müəssisələrin qazandığı bütün gəlirlərin investor tərəfdən idarə olunmasına imkan yaradır.

Birbaşa xarici kapital investisiyaları ümumi olaraq uzun müddətli (5-10 il daha uzun müddətli) investisiyaları əhatə edir. Birbaşa xarici kapital icazəsinin alınması, sabit investisiyanın başlaması və bitirilməsi, istehsala keçilməsi orta müddətli zamanın keçməsini vacib edər.

BXKİ-da əsas şirkət törəmə şirkətə qismən müstəqillik tanısa da, çox vaxt idarə funksiyasını öz əlində tutmaqdadır. Əsasən, ana şirkət standart və keyfiyyəti müəyyənləşdirmə mövzularında əsasən konservativ şəkildə davranmaqdadır.

BXKİ-da xarici investor, kapitalla birgə istehsal texnologiyasını, menecment bilgisini, risk, təşəbbüs və orqanizasiya quruluşunu da özüylə gətirir. Dolayısıyla, bu tip investisiyalarda ev sahibi olan ölkənin yeganə gəliri finansman ehtiyacını qarşılamaq deyil, həmçinin, texnoloji açığını da bağlamaqdır.

BXKİ-da investor əsasən xarici hüquqi şəxsdir. Dolayısıyla, bu tip investisiyalarda qərarlar qrup olaraq alınmaqda, həmçinin, investisiya miqdarı böyük həcmlərə çatmaqdadır.

BXKİ-nda qazanc gəlirlərinin əsas şirkətin yerləşdiyi ölkəyə transferi firmanın mənfəət durumuna və hökumətlərin bu haqda davranışlarına bağlıdır. Məsələn, bəzən hökumətlər, qazancların təkrar investisiyaya çevrilməsinin təmin edilməsi məqsədilə, mənfəət transferi əməliyyatlarını çətinləşdirməkdədirlər.

Xarici investisiya əhatəsində birləşsələr də birbaşa xarici investisiyalar və portfel xarici investisiyalar bir birindən fərqlənən yatırımlardır. Birbaşa xarici investisiyaların əsas özəlliyi xaricdə

əsasən yeni yaradılan və ya satın alınaraq isdifadə edilən mövcud istehsal müəssisəsinin idarə edilməsinə xarici şirkətin sahib olmasıdır. Portfel investisiya qoyuluşlarında isə bundan fərqli olaraq səhm sahibinin şirkətin idarə edilməsi üzərində dolayı nəzarət haqqı vardır. Yəni portfel investisiyalar hər hansı bir şirkətin səhmlərinin xarici şirkət tərəfindən satın alınmasıdır. Portfel investisiya qoyuluşları zamanı xarici ölkəyə sadəcə olaraq müəyyən miqdar valyuta girişi olur.

Birbaşa xarici investisiya qoyuluşlarında isə ölkədə qalma müddətinə əsasən uzunmüddətli investisiya qoyuluşları olduğundan inkişaf etməkdə olan ölkələr tərəfindən böyümə məqsədiylə daha şox isdifadə edilməkdədir. Beynəlxalq iqtisadi ədəbiyyatlarda birbaşa sözünün investisiya qoyuluşlarıyla yanaşı müəyyən idarəetmə mlumatları, müxtəlif texnologiyaların və s. ölkəyə daxil olduğunu açıqlayır. Və bununlada birbaşa xarici investisiyalar səhm gəlirləri səbəbiylə ölkəyə gələn portfel investisiyalardan ayrılır. Birbaşa xarici investisiyalar məhsul və xidmətlərin instehsalı ilə əlaqədar olaraq daha çox transmilli şirkətlər tərəfindən qoyulur.

İnvestisiya qoyuluşlarının iqtisadi səmərəliyinin artırılması mühüm tədbirlərdəndir. Onun təmin edilməsi bir çox problemlərin həll edilməsini tələb edir ki, onlardan 2 ən vacibini ayıra bilərik:

-əlverişli investisiya mühitinin tışkil edilməsi üçün ümumi tədbirlərin keçirilməsinin vacibliyi. Bu tədbirlərin reallaşdırılması nəticə olaraq investisiya qoyuluşunun çoxalmasına gətirib çıxarır.

-investisiya qoyuluşlarının konkret bir istiqmətdə texniki təminatının yaxşılaşdırılması. Başqa sözlə desək, xarici investisya qoyuluşlarında yeni standartlara cavab verən texnologiyalara və texnikaya üstünlük verilməsinə cəhd edilməlidir.

İnvestisiyanın iqtisadi səmərəliyinin müəyyən olunması konkret bir metodologiyaya əsaslanır. Keçmiş ittifaq zamanında iqtisadiyyatda kapital qoyuluşlarının bölünməsində plan metoduna əsaslanmış olan metodika fəaliyyət göstərmiş və həmçinin, onun əsasında çox miqdarda metodiki sənədlər hazırlanmışdır. Bu qoyuluşların müəyyən edilməsinin geniş yayılan həmin metodikası müxtəlif cür istehsal məsrfələrinə və təyinatının həcminə əsaslanırdı. Həmin metodikaya əsasən qoyuluşların ən ideal variantı, onun sayəsində gələcək müəssisənin məhsulunun miqdarı ilə tikintiyə sərf edilən qoyuluşun həcmi səmərəlilik əmsalı ilə müəyyən olunurdu.

XX əsrin 70-ci illərində qoyuluşların iqtisadi əhəmiyyətliliyinin müəyyənləşdirilməsinə yeni yanaşma yaranmağa başlamışdır. Artıq iqtisadi əhəmiyyətliyin müəyyən olunmasında qeyri-stehsal sahələrinə əsaslı şəkildə vəsait qoyuluşlarının, digər sahələrin inkişafına ekoloji təsir hesabatlarının istifadə edilməsinə başlanılmışdır. Başqa sözlə desək, kapital qoyuluşlarının iqtisadi əhəmiyyətliliyinin obyektiv müəyyənləşdirilməsinə kompleks və tam yanaşma forması müəyyən olunmuşdur. Bu metodika qoyuluşların variantlarının seçilməsində əhəmiyyətli rol oynamışdır. Bu, həmin dövr üçün o qədər də asan bir iş deyildi. Ancaq, sonralar iqtisadi sistemdə yaranan ciddi fərqlər, xarici investisiya qoyuluşunun iqtisadi səmərəliyinin müəyyən olunmasında qabaqcıl dünya təcrübəsinə sahiblənməyi zərurətə çevirmişdir. İndiki zamanda investisyaların səmərəliliyinin müəyyən edilməsi hər bir ölkə üçün vacib bir məsələdir. Perespektiv inkişafın təmin edilməsində investisiyaların əhəmiyyəti onların yaratmış olduğu sosial-iqtisadi efektlə sıx əlaqədardır. BMT-nin Əməkdaşlıq və İnkişaf Təşkilatının beynəlxalq investisiyalara aid ən son hesabatında xarici investisyaları beş qrupda təsnifləşdirilmişdir:

1. investisiya qoyuluşlarının və maliyyə mənbələrinin artırılması;
2. daha mütərəqqi olan yeni texnologiyaların və texnikanın tətbiq edilməsi və inkişafı;
3. ixrac potensialının artırılması;
4. məşğulluq səviyyəsinin yüksəldilməsi;

5. ətraf mühitin qorunmasında müsbət təsir.

İqtisadi səmərəlik əmək məhsuldarlığının artırılmasında və vacib zəruriyyət kəsb edən başqa iqtisadi məsələlərin müsbət şəkildə həllində əks edilir. Bu yanaşmadan hal-hazırdakı şəraitdə qoyuluşların səmərəliyinin müəyyən edilməsinin əsasən 2-sosial və iqtisadi aspektləri fərqləndirilir.

İnvestisya qoyuluşunun iqtisadi aspektidə əhəmiyyətliliyin müəyyən edilməsi zamanı əlaqəli və əsas istehsal məsrəflərinin daha da ətraflı şəkildə nəzərə alınmasına cəhd edilir. Burada ümumi məsrəfdə istehsalçıda, həmçinin istehlakçıda yaranmış olan effektin miqdarı müəyyənləşdirilir və ümumi iqtisadi əhəmiyyətlilik alınan efektin qoyuluşlara münasibəti olaraq dəyərləndirilir. Bu vaxt ümumiləşdirici göstərici olaraq xidmətin və ya məhsulun həcminin artımı təmin edildikdə kapital tutumunun dərəcəsi, məhsulun maya dəyəri, əmək məhsuldarlığı, məhsulun texniki keyfiyyət səviyyəsi, istehsalın davamlığı, xidmətin və ya məhsulun enerji və material tutumu, layihə gücünün mənimsənilməsi, ətraf mühitin mühafizəsi və b. müəyyən olunur.

İnvestisiya qoyuluşlarının sosial nəticələrinin müəyyən edilməsi onun sosial standartlar, normalar, insan hüquqlarının qorunmasına əsasən uyğunluğunun müqayisəsini əks etdirir. İnvestisiya qoyuluşlarının sosial nəticələrini özündə əks etdirən göstəricilərə aşağıdakılar aiddir:

1. iş yerlərinin kəmiyyət dəyişikliyi;
2. əhalinin mədəni-məişət və yaşayış şəraitinin yaxşılaşması;
3. əmək şəraitinin dəyişdirilməsi;
4. istehsal heyyətinin strukturunun dəyişməsi;
5. əhalinin sağlamlıq səviyyəsinin yüksəlməsi;

İnvestisya qoyuluşlarının əhəmiyyətliliyi bir çox aspektdə, həmçinin, ümumilikdə ölkə iqtisadiyyatı eyni texnologiyalara əsaslanmış olan iri müəssisələr qrupu dərəcəsində hesablandığı vaxt formulda əks olunmuş göstəricilər müvafiq şəkildə kapital qoyuluşları nəticəsində gəlirin artımının bütün maliyyə mənbələrinə əsasən kapital qoyuluşlarına nisbəti olaraq əks etdirilir. Yeni yaradılan müəssisələr səviyyəsində layihə üzrə məhsul buraxılışının qiymətilə illik məhsul dəyəri arasında mövcud olan fərqin kapital qoyuluşlarına olan nisbəti əks olunur.

**Ədəbiyyat:**


1. "Azərbaycan iqtisadiyyatı" Bakı 2019 Elçin Süleymanov.
2. Habil Aslanov, "Beynəlxalq İqtisadi Əməliyyatlar"
4. Behbud İmamverdiyev – “Birbaşa xarici investisiyalar və onların iqtisadiyyatda rolu”
3. Habil Aslanov. "Azərbaycanın Xarici İqtisadi Siyasəti"

**Azərbaycanda rəqəmsal iqtisadiyyatın formalaşdırılması**

**Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyası**
**Əlizadə Zeynəb**

**Açar sözlər:** rəqəmsal mühit, rəqəmsal iqtisadiyyat, məlumatların elektron mübadiləsi, e-ticarət, e-pul,e- kart, elektron idarəetmə, elektron hökumət

**Xülasə**

*Məqalədə göstərilmişdir ki, rəqəmsal iqtisadiyyat -rəqəmsal mühiti əhatə etməklə İKT-nin malik olduğu üstünlüklərə əsaslanır, dövlət orqanlarına və vətəndaşlara xidmətlərin online formada təqdim edilməsini, biznes qurumları arasında səmərəli münasibətlərin formalaşdırılmasını, sosial təminat xidmətlərinin təşkilini təmin edir. Belə ki, xüsusi kodlaşdırma və mübadilə informasiya proseslərinin yerinə yetirilməsi zamanı yüksək sürətin, operativliyin və yaddaşa qənaət etmənin əldə olunmasına imkan verir.*

Son dövrlərdə təbiətdə və cəmiyyətdə, texniki sistemlərdə informasiya və informasiya prosesləri, verilənlərin emalının üsul və vasitələri yeni elmi istiqamətlərin yaranmasına və inkişafına səbəb olmuşdur. İnformasiya texnologiyaları iqtisadiyyatda tətbiq və sintez olunaraq, yeni forma -yeni iqtisadi mühit yaranmışdır. Bu mühit artıq bazar iqtisadiyyatı anlayışlarına müvafiq olaraq elektron və ya rəqəmsal iqtisadiyyat adını almağa başlamışdır[2, s. 3 - 5].

İnformasiya texnologiyalarının və İnternetin sürətlə inkişaf etdiyi bir dövrdə böyük həcmli informasiya materiallarının ötürülməsi üçün multimediya vasitələri iqtisadiyyata təsir göstərmişdir. İqtisadi əlaqələrin qurulması, müəssisələrdə şəbəkə və sistemlərin yaranması, iqtisadi mühitdə ciddi dəyişikliklərin baş verməsi elektron və rəqəmsal mühitin yaranmasına səbəb olmuşdur. Rəqəmsal mühit də ənənəvi iqtisadiyyatda bir çox yeniliklərin- e-kommersiya, e-ticarət, e-idarəetmə və e-hökumət kimi anlayışların yaranmasına gətirib çıxarmışdır. Rəqəmsal mühitdə dövlət orqanları, vətəndaşlar, o cümlədən biznes qurumları arasında səmərəli münasibətlər formalaşır, şəxsi sənədlər, sertifikatlar, gəlir vergisi və əməklə bağlı xidmətlər, şirkətlərin qeydiyyatdan keçirilməsi, sosial təminat, korporativ vergi, ƏDV-lə əlaqədar olan xidmətlər vətəndaşlara online formada təqdim edilir. İnformasiya cəmiyyətinin əsasında duran rəqəmsal iqtisadiyyatın üstünlükləri rəqəmsal texnologiyanın malik olduğu xüsusi kodlaşdırma, mübadilə və istifadə qaydalarına əsaslanaraq informasiya proseslərinin(informasiyanın saxlanması, daşınması və ötürülməsi) yerinə yetirilməsi zamanı yüksək sürətin, operativliyin və yaddaşa qənaət etməklə daha çox məlumatın əldə olunmasını təmin edir, informasiya emalı prosesində dəqiq riyazi üsulların tətbiqinə(informasiya ilə müxtəlif manipulyasiyaların həyata keçirilməsi) imkan yaranır[5].

İKT-dən və şəbəkə texnologiyalarından istifadə rəqəmsal vasitələrin tətbiqinə gətirib çıxarmışdır. Böyük həcmli informasiya materiallarının, rəsmlərin, videoların, müxtəlif animasiya tipli məlumatların, filmlərin və s. ötürülməsi üçün multimediya vasitələri geniş şəkildə tətbiq olunmağa başlamışdır. Bu yeniliklərdən istifadə iqtisadiyyata öz təsirini göstərmişdir. Şəbəkə texnologiyalarından istifadə nəticəsində iqtisadi əlaqələrin qurulması, lokal və qlobal şəbəkələrdən istifadə, iri müəssisələrdə korporativ şəbəkə və sistemlərin yaranması və s. bu kimi məsələlər iqtisadiyyatın bir sahəsi olan ***rəqəmsal iqtisadiyyatın*** yaranmasına səbəb olmuşdur. ”Rəqəmsal iqtisadiyyat” termini 1995-ci ildə amerikan Nikolas Neqroponte tərəfindən meydana gəlmişdir. Dördüncü sənaye inqilabı kimi qəbul edilən texnoloji inqilab irəqəmsal iqtisadiyyatın əhatə dairəsini genişlənərək virtual mühit yaradılmışdır[4, s. 12 - 14].

İnternetin təsiri ilə iqtisadi mühitdə ciddi dəyişikliklər, daha doğrusu, ictimai həyatın elektron və rəqəmsal mühitlə əvəz olunması prosesi yaranmışdır. Rəqəmsal mühit rəqəmsal iqtisadiyyatın yaranması

anlamını verməklə, İKT və şəbəkə texnologiyalarından istifadəni, iqtisadi əlaqələrin qurulmasını, e-kommersiya, e-ticarət, e-idarəetmə və e-hökuməti xarakterizə edir.

Rəqəmsal mühit dövlət orqanlarına və vətəndaşlara xidmətlərin online formada təqdim edilməsini, biznes qurumları arasında səmərəli münasibətlərin formalaşdırılmasını, şirkətlərin qeydiyyatdan keçirilməsini, sosial təminatın, korporativ verginin, həmçinin ƏDV-lə əlaqədar olan xidmətlərin təşkilini təmin edir.

Rəqəmsal iqtisadiyyat rəqəmli hesablama texnologiyalarına əsaslanan iqtisadiyyat sahəsi hesab olunur və *internet iqtisadiyyatı* da adlandırılır. Bu yeni iqtisadiyyatda infrastruktur dəstəklənir, proseslər kompüter şəbəkələri üzərindən aparılır(e-biznes), malların transferi və satışı(e-kommersiya) təmin olunur, sosial mediada axtarış aparılır. Eyni zamanda bu iqisadiyyat iqtisadi uzaqlıqları azaldaraq sürətli ünsiyyət yaradır, vaxta qənaəti təmin edir, dəyişmə xərclərini aşağı salır, xərci olmayan vasitələrə müraciət edir, maliyyə bazarlarını ölkələr arasında fəal mövqeyə gətirir[6].

İnternet iqtisadiyyatı müxtəlif ticarət fəaliyyətlərini ifadə etməklə bunları təmin edir:

- üzvlük xidmətləri;
- online reklam;
- ödəmə sistemi.

Rəqəmsal iqtisadiyyat rəqəmsal texnologiyanın malik olduğu üstünlüklərə əsaslanır. Belə ki, xüsusi kodlaşdırma və mübadilə informasiya proseslərinin yerinə yetirilməsi zamanı yüksək sürətin, operativliyin və yaddaşa qənaət etmənin əldə olunmasına imkan verir, informasiya emalı prosesində dəqiq riyazi üsulların tətbiqinə də şərait yaradır[3, s. 21 -23].

Rəqəmsal iqtisadiyyatın meydana gəlməsində rəqəm informasiyası əsas rol oynayır və 3 komponentlə müəyyən edilir:

• *İnfrastruktur(kompüter avadanlığı, proqram təminatı, telekommunikasiya, şəbəkə və s.);*
• *E-biznes (prosesin kompüter şəbəkələri üzərindən aparılması);*
• *E-kommersiya (malların transferi).*

**İnfrastruktur** - xidməti proseslər üçün yardımçı xarakter daşıyan istehsal və qeyriistehsal sahələri kompleksi olub, iqtisadiyyatın inkişaf səviyyəsini artırır, əhalinin həyat şəraitinin yaxşılaşmasını təmin edir. İnfrastruktur iki qrupa bölünür:

a) istehsal infrastrukturu (maddi istehsal sahələrinə xidmət göstərir);

b) sosial infrastruktur (ümumi, peşə təhsili və səhiyyəyə xidmət göstərir). Hər iki infrastruktur rəqəmsal gələcəyin formalaşdırılması istiqamətində elektronlaşdırılmışdır. Bu həm də ictimai qərarvermənin ölkə idarəçiliyinə tətbiq ediləcəyi və sosial rifahı sürətləndirəcək innovativ metodların bərqərar olacağı bir cəmiyyəti formalaşdırır.

**E-biznes**- yerləşmə məkanından asılı olmayaraq mal və xidmətlərin reklamını, sifarişin qəbulunu, malın daşınması və çatdırılmasını, istehsalçı və istehlakçı arasında hesablaşmaların həyata keçirilməsini İnternet şəbəkəsi vasitəsilə həyata keçirir. İnternetdə veb-sayta, virtual mağazaya, təşkilatın idarıetmə sisteminə, elektron reklamdan istifadəyə, marketinqə malikdir. İnformasiya texnologiyaları və sistemlərinin sürətlə inkişafı, şəbəkə texnologiyalarının geniş tətbiqi e-biznes sahəsinin yaranmasına səbəb olub, bütün sahələri əhatə edir. Bu baxımdan informasiya məhsullarının satışı, bank, maliyyə, kredit əməliyyatlarının geniş spektrdə elektronlaşdırılması həyata keçirilir. E-biznes elektron biznes-prosesləri dəstəkləyir və elektron ticarət əməliyyatları idarə edir. Kompüter avadanlıqları, proqramlaşdırma dilləri, telekommunikasiya şəbəkələri, dəstək xidmətləri e-biznesin infrastrukturudur. E- biznes hər bir biznesin kompüter-vasitəli-şəbəkə ilə həyata

keçirilən hər hansı bir prosesidir. Bu proseslərə satınalma, sifariş, avtomatik səhmdar təchizatı, ödəniş emalı və təchizatçılar vasitəsilə elektron keçidlər, istehsal nəzarəti və s. aiddir[4, s. 2 - 4]..

**E-kommersiya** - maliyyə, ticarət əməliyyatlarını və bu əməliyyatlarla bağlı olan biznes proseslərini kompüter şəbəkələri vasitəsilə həyata keçirən iqtisadiyyat sahəsidir. E-kommersiya ilk növbədə malların və xidmətlərin qlobal informasiya şəbəkəsi vasitəsilə təqdim olunması, biznes-proseslərin elektron formada ötürülmə yolu ilə tezləşdirilməsi və alıcıya çatdırılması prosesi olub, özündə çoxlu saylı texnologiyaları (yəni, məlumatların elektron mübadiləsi, elektron poçt, İnternet, İntranet (şirkətdaxili informasiya mübadiləsi), Ekstranet(xarici aləmlə informasiya mübadiləsi) birləşdirir. Keçən əsrin 90-cı illərin ortalarından başlayaraq e-kommersiya, əsasən, biznesin İnternet vasitəsilə aparılması, eyni zamanda WWW xidməti ilə əldə olunan informasiyanı həyata keçirən satış prosedurаları anlamını verir. Məsələn, malın ölçülərinin dəqiqləşdirilməsi, sifarişin rəsmiləşdirilməsi üçün satıcıya göndərilən sorğuların elektron poçt vasitəsilə göndərilməsi, mətn faylları, elektron cədvəlləri, məlumat bazaları, şəkillər, sifarişlər, hesablar, ödənişlər, informasiya sorğuları, qiymətlər haqqında məlumatlar, multimedia göstəriciləri və s. satış prosedurlarına aiddir [1, s. 2 - 4].

Rəqəmsal iqtisadiyyatda yeni layihələrin hazırlanmasını operativ şəkildə həyata keçirmək mümkündür. *Məsələn,* məişət proseslərinin həyata keçirilməsi, məhsulların satışı və xidmətlərin göstərilməsi, iri market və ticarət mərkəzlərindən malların alınması, onların sifarişçiyə çatdırılması, ödənişlərin həyata keçirilməsi, müxtəlif kommunal xidmətlərin, tibbi, səhiyyə xidmətlərinin göstərilməsi, təhsil və tədrisdə, iş axtarışında, müxtəlif məlumatların əldə olunması, istehsalda proqnozların verilməsi, gələcək planlaşdırma və s.





Rəqəmsal iqtisadiyyat müasir dövrdə kino sənayesində, müxtəlif festivalların, toplantıların keçirilməsində, böyük idman yarışlarının təşkilində, konfransların, beynəlxalq görüşlərin keçirilməsində, dünyəvi problemlərin həllində, ümümdünya məlumatlarının çatdırılmasında, kütləvi informasiya vasitələrinin beynəlxalq miqyaslaşmasında böyük rola malikdir. Onun tətbiqi idman, incəsənət, turizm və s. sahələrdə yeni gəlir gətirən sahələrin açılmasına, böyük həcmdə investisiya qoyuluşlarına, dünya miqyasında reklamların təşkilinə də şərait yaradır[7].

Rəqəmsal iqtisadiyyat hazırda idarəetmədə, biznesin təşkilində, baş müəssisə ilə tabeçilikdə olan müəssisələr arasındakı əlaqələrin qurulmasında, yeni istehsal sahələrinin açılmasında təminedici rolunu oynayır.

Rəqəmsal iqtisadiyyatın malik olduğu üstünlüklər bunlardır:

- fəaliyyət dairəsinin geniş olması;
- daha çox dünya ölkələrini əhatə etməsi:
- rəqəmsal fəzanın qorunması;
- geniş kontekstlər çevrəsində ehtiyatlara malik olması;
- istifadəsinin tələbata uyğunluğu;
- istifadə baxımından yararlılığı və şəraitə uyğunluğu.

Bu gün ödəmənin elektron sistemi tətbiq olunur. Kredit kartı hesabının və ya çekin rəqəmsal ekvivalentinin kriptoqrafiya ilə mühafizəsi təmin edilmişdir. Bu cür prinsiplə yaradılmış "ağıllı" kredit kartlarının yayılması alıcıların şəxsi həyatına daxil olmaqla onlar haqqında informasiyanın əldə olunmasına şərait yaradır [1, s. 2 - 4].

Rəqəmsal iqtisadiyyat iqtisadiyyatın informasiya texnologiyalarının köməyi ilə elektronlaşan hissəsi olduğundan elektron informasiya mübadiləsini həyata keçirir və onun ən geniş yayılmış növlərindən biri *elektron ticarətdir*. Elektron ticarət iqtisadi fəaliyyətin yüksək templə dəyişdiyi mühit kimi xarakterizə olunur. Elektron ticarət təkcə mal və xidmətlərin elektron satışı deyil, elektron şəkildə informasiyanın ötürülməsi, müəssisələr arasında əlaqələrin yaradılması, bank və maliyyə institutlarının əlaqələndirilməsini də özündə birləşdirir.

Elektron ticarət standart şəbəkələrdən istifadə edərək informasiya texnologiyalarının tətbiqi ilə informasiyanın, məhsul və xidmətlərin alqı-satqısı və marketinqi sistemi kimi müəyyən edilərək münasibətlərin daha da təkmilləşdirilməsini təmin edir [5].

Hazırda bütün sahələrdə verilənlərin elektron emalı və ötürülməsi geniş yayılmışdır. Buna misal iqtisadiyyatda pul vəsaitlərinin köçürülməsi, valyuta və qiymətli kağızlarla sövdələşməni göstərmək olar. Dünyanın inkişaf etmiş ölkələrində elektron pul bank əskinazlarını şifrələnmiş rəqəmlər yığımı əvəz edir. Onlar nağd pulları və çekləri əvəz edərək istənilən alqı-satqının və digər xərclərin ödənilməsinin başlıca vasitəsidir. Eyni zamanda elektron pullar bank depozitlərinin ekvivalenti olub, ya kompüter və şəbəkələrdə, ya da daxilində mikroprosessor olan kartlarda yazılmış şifrələnmiş rəqəmlər seriyasıdır.

Adi pullardan fərqli olaraq elektron pullardan istifadə olunması onların dövriyyəsinin daha sürətlə həyata keçirilməsinə imkan verir. Elektron pul mübadilə və yığım funksiyalarını yerinə yetirməklə maliyyə əməliyyatlarının ani yerinə yetirilməsini sürətləndirir. Elektron pullar dünya miqyasında həyata keçirilən ticarət əməliyyatlarında iştirak edə bilən müəyyən məhsulla bağlı təminat verir[1, s. 28 - 34].

Rəqəmsal iqtisadiyyatda kredit kartları pul və nağdsız ödənişlərin əldə olunmasında əsas vasitə rolunu oynayır. Onlardan istifadənin sürətlə tətbiqi yüksək gəlir gətirən sahələrdən olan turizmin inkişafının möhkəmlənməsinə də səbəb olmuşdur. Respublikamız da daxil olmaqla əksər dünya ölkələrində turizm ilə bağlı ödənişlərin elektron kart sisteminə keçidi geniş vüsət almışdır. Bu isə rəqəmsal əməliyyatların bərqərar olmasına öz töhfəsini verir[5].

Hazırkı dövrdə İnternet vasitəsi ilə hər hansı məhsulun əldə olunmasında elektron kredit və elektron maliyyə əməliyyatları geniş tətbiq olunur. Alıcı xüsusi İnternet səhifəsində İnternet-mağazalardan məhsulu seçir. Daha sonra onu qane edən ödəniş formasını seçərək elektron əməliyyatlarla ödənişləri edir və seçilmiş məhsulun və ya malın ona çatdırılmasını gözləyir. Bu prosesdə adətən satıcı və alıcının hər ikisinin tələblərini ödəyən xüsusi elektron forma doldurularaq öhdəliklər götürülür. Alınmış mala görə ödəniləcək məbləğ üzrə hesab alıcının ünvanına göndərilir. Alıcı İnternet mağazanın hesabına bank vasitəsilə aldığı mala görə tələb olunan məbləği keçirir və həmin mal ya mağaza tərəfindən çatdırılır, ya da alıcının özü tərəfindən mağazanın anbarından götürülür. Bu hesablaşma tətbiq edilərkən adətən alıcıya satıcı müəssisə tərəfindən xüsusi kod verilir. Bu kod həmin alıcının İnternet-mağazaya yenidən müraciət etdiyi vaxt istifadə edilir. Belə ki, bu cür kodun olması alıcı haqqında hər dəfə məlumatların təkrar tələb edilməsi ehtiyacını aradan qaldırır. Bu hesablaşmalarda İnternet vasitəsilə ödəmə sistemi kimi elektron bank kartlarından istifadə edilir və hesablaşmaların mövcudluğu bank kartlarından istifadənin hüquqi əsası olan ölkələrdə yerinə yetirilir[4, s.72 - 74].

Ümumilikdə, Rəqəmsal iqtisadiyyat e- identifikasiya proseslərini xarakterizə etməklə maneələri aradan qaldırır, texnoloji və informasiya inqilabı nəticəsində doğan yeni iqtisadiyyat modeli qurur, real iqtisadi səmərə verməklə məsrəflərin azaldılmasına imkan yaradır. ***Nəticə*** olaraq istərdik ki, rəqəmsal prosesdən ölkəmizin bütün sahələrində istifadə olunsun. Dövlət idarəçiliyi, təhsil, səhiyyə, biznes və digər sahələrdə yeni dəyərlər yaratmaqla respublikanın davamlı və dayanıqlı inkişafının təmin edilməsi, intellektual potensialının gücləndirilməsi, biznesin irəliləməsi, cəmiyyətdə şəffaflığın inkişaf etdirilməsində əlverişli şərait yaradılsın.

**Ədəbiyyat**


1. Əkbərov M.Q. Elektron kommersiya. Ali məktəb tələbələri üçün dərs vəsaiti. Bakı, "İqtisad Universiteti" Nəşriyyatı, 2011
2. Mahmudov R.Ş. İnformasiya cəmiyyətinin əsasları. Mühazirə. Bakı, 2013
3. Quliyev R. A., Quliyeva A. A. "İqtisadiyyatda informasiya sistemləri" fənni üzrə metodik vəsait. Azərbaycan Dövlət İqtisad Universiteti. Bakı, 2011
4. N.Umarova "İKT" fənnindən dərs vəsaiti. Bakı, 2016
5. http:// ik-tex.com
6. www.e-gov.az

## Kiçik və orta sahibkarlığın Azərbaycan iqtisadiyyatında rolu

**Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyası**
**Samir Mehdiyev**

**Xülasə**

Azərbaycan Respublikasında milli iqtisadiyyatın yaradılması respublikada biznes sektorunun inkişafını təmin edir. Bu sahə daxili bazarı məhsul və xidmətlərlə təmin edir, ölkənin ixracat potensialını artırır. Kiçik sahibkarlıq bazar iqtisadiyyatının dinamik inkişafına yüksək təsir göstərərək maddi yüksəliş tempini müəyyən edir.

Azərbaycanda kiçik və orta sahibkarlığın inkişafının dəstəklənməsi səylərinə hökumət təşəbbüsləri, maliyyə yardımı proqramları və sahibkarlıq təlimləri daxildir. Bu amilləri həll etməklə və ünvanlı dəstək göstərməklə Azərbaycan KOB-ların inkişafı və iqtisadi inkişafa töhfə verməsi üçün daha əlverişli mühit yarada bilər.

***Açar sözlər:*** *milli iqtisadiyyat, biznes sektoru, daxili bazar, bazar iqtisadiyyatı,* kiçik və orta sahibkarlıq

1991-ci il ölkəmiz müstəqillik əldə etdikdən sonra yeni dirçəlmiş dövlətimiz geniş miqyaslı sosial-iqtisadi islahatlar həyata keçirərək ölkə əhalisinin müəyyən bir qisminin müstəqil sahibkarlıq fəaliyyəti ilə məşğul olmasını təmin etmək üçün bir sıra mühüm qəaralar verdi. 1995-ci ilin noyabrın 12-də qəbul edilmiş Azərbaycan Respublikasının Konstitusiyasının 59-cu maddəsində (azad sahibkarlıq hüququ )deyilir: “Hər kəs qanunla nəzərdə tutulmuş qaydada öz imkanlarından qabiliyyətindən və əmlakından sərbəst istifadə edərək təkbaşına və ya başqaları ilə birlikdə azad sahibkarlıq fəaliyyəti və qanunla qadağan edilməyən digər iqtisadi fəaliyyət növü ilə məşğul ola bilər” [1, 45].

Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 28 dekabr tarixli Fərmanı ilə İqtisadiyyat Nazirliyinin tabeliyində Kiçik və Orta Sahibkarlığın İnkişafı Agentliyi yaradılıb. Agentlik ölkədə kiçik və orta biznesin inkişafını dəstəkləyən, sahibkarlıq subyektlərinə bir sıra xidmətlər göstərən, dövlət orqanlarının bu sahədə xidmətlərinin əlaqələndirilməsini və tənzimlənməsini həyata keçirən publik hüquqi şəxsdir.

Hal-hazırda ölkədə sahibkarlığın genişləndirilməsi və iqtisadiyyatda rolunun artırılması, biznes və investisiya mühitinin daha da yaxşılaşdırılması tədbirləri sistemli və ardıcıl olaraq davam etdirilir. Özəl sektorun dəstəklənməsi, sahibkarların hüquq və mənafelərinin qorunması sahəsində yeni iqtisadi şəraitə uyğun islahatlar həyata keçirilir, bu sahənin inkişafı üçün beynəlxalq təcrübə nəzərə alınmaqla müasir çağırışlara cavab verən mexanizmlər tətbiq edilir. Sahibkarlığa dövlət dəstəyi tədbirləri nəticəsində sahibkarlıq subyektlərinin sayı son 17 il ərzində 5 dəfə artıb, ümumi daxili məhsulda özəl sektorun xüsusi çəkisi 85 faizi, məşğulluqda payı isə 76 faizi ötüb. [6].

Kiçik və orta sahibkarlıq, bir çox iqtisadiyyatların dinamikləri üzərində dərin təsir qoyan bir sahədir. Bu, yeni innovasiyaların, iş yaratmağın və iqtisadiyyatın inkişafının əsas mənbəyi kimi tanınır. Kiçik və orta sahibkarlığın inkişafı, bir sıra mühüm amilləri ehtiva edir:

- Maliyyələşmə və Kredit İmkanları: Kiçik və orta sahibkarlar üçün uyğun kredit mənbələrinin və maliyyə imkanlarının təmin edilməsi baxımından əhəmiyyətlidir. Banklar və alternativ maliyyə təşkilatları tərəfindən təklif edilən uyğun kredit şərtləri, yeni sahibkarların işlərinə başlamağa və mövcud işlərini genişlətməyə kömək edir.

- Təhsil və Mentorluq Proqramları: Kiçik və orta sahibkarlar üçün təhsil və mentorluq proqramları, iş sahiblərinin təcrübə və bacarıqlarını inkişaf etdirməyə kömək edir. Bu proqramlar, iş ideyalarının real həyata keçirilməsinə və iş idarəetmə təcrübəsinin artırılmasına töhfə verir.
- İnnovasiya və Texnologiya İstifadəsi: İnnovativ texnologiyaların və digər yeniliklərin tətbiqi, kiçik və orta sahibkarlara rekord səviyyədə fürsətlər yaradır. İnkişaf etmiş informasiya texnologiyaları, iş proseslərini avtomatlaşdırmaq, təcrübəni artırmaq və müştəri təcrübəsini yaxşılaşdırmaq üçün imkan yaradır [4, s. 45].
- Bazar Araşdırmaları və Müştəri Tələbləri: Kiçik və orta sahibkarlar üçün effektiv bazar araşdırmaları aparılması və müştəri tələblərinin müəyyən edilməsi işin uğurluluğu üçün əsaslı bir addımdır. Müştəri ehtiyaclarının və bazarın tələbinin düzgün qiymətləndirilməsi, iş planının qurulmasında və iş fəaliyyətinin idarə edilməsində əhəmiyyətli rol oynayır.

- Qlobal Bazarlar və İxrac Fürsətləri: İnternet və digər kommunikasiya texnologiyalarının inkişafı, kiçik və orta sahibkarlara qlobal bazarlara daxil olmaq və ixrac fürsətlərindən yararlanmaq üçün geniş imkanlar yaradır. E-ticarət platformaları və digər onlayn satış platformaları, sahibkarların öz məhsullarını dünya bazarında təqdim etməsinə kömək edir.

Qayğı və Dəstək Mexanizmləri: Hökumət tərəfindən təşkil edilmiş qayğı və dəstək mexanizmləri, kiçik və orta sahibkarlara təşviq etmə, təlim və mentorluq təmin etmə kimi mühüm imkanlar yaradır. Bu mexanizmlər, sahibkarların işlərinin inkişafına və büyüməsinə dəstək olur [2, s. 22].

Bu məsələlər kiçik və orta sahibkarlığın inkişafı üçün əsaslı addımları təşkil edir və bu sahədə inkişafı dəstəkləmək üçün strateji planların və tədbirlərin tətbiq edilməsi əhəmiyyətlidir.

Azərbaycanda kiçik və orta sahibkarlığın inkişafına dövlət tərəfindən verilən dəstəyin artırılması, ölkə iqtisadiyyatının inkişafı üçün əhəmiyyətli bir prioritetdir. Bu, sahibkarlar üçün fəaliyyət şəraitinin yaxşılaşdırılması, yeni işlərin yaranması və iqtisadiyyatın diversifikasiyası üzrə müsbət nəticələr əldə etmək məqsədilə göstərilən strateji addımlarla həyata keçirilir.

Azərbaycanda kiçik bizneslərin inkişafını dəstəkləmək üçün dövlətin müxtəlif initsiativləri və proqramları mövcuddur. Bu dəstək çərçivəsində aşağıdakı fəaliyyət sahələri və tədbirlər əhəmiyyətli rol oynayır:

- Vergi yükünün azaldılması: Kiçik bizneslərə özəl vergi imtiyazları və endirimlər tətbiq edilir. Vergi imtiyazları, onlara vergi əvəzinə başqa inkişaf üçün sərfəli vəsaitlər yatırmaq imkanı verir.
- Kredit Dəstəyi: Kiçik bizneslərə dövlət tərəfindən maliyyə dəstəyi təmin edilir. Bu, faizsiz və ya aşağı faizli kreditlər proqramları və dəstək fondları ilə həyata keçirilir.
- Təlim və Mentorluq Proqramları: Kiçik biznes sahiblərinə iş idarəetməsi, marketinq, maliyyə idarəetməsi kimi sahələrdə təlimlər təşkil edilir. Həmçinin, təcrübəli sahibkarlar və iş icraçıları ilə mentorluq proqramları da həyata keçirilir.
- İnfrastruktur Təminatı: Kiçik bizneslər üçün uyğun infrastrukturun təmin edilməsi, iş yerlərinin təminatı, istehsal üçün texniki imkanların təmin edilməsi və əlaqələrin yaxşılaşdırılması önəmlidir.
- Təşkilatların İnkişafını Dəstəkləmək: Kiçik bizneslər üçün birliklər, assosiasiyalar və kooperativlər kimi təşkilatlar təşkil edilir və dəstəklənir. Bu təşkilatlar, sahibkarların maraqlarını qoruyur, onlara təlim və məsləhət təmin edərək təcrübə mübadiləsi imkanları yaradır.

Bu tədbirlər və initsiativlər Azərbaycanda kiçik bizneslərin inkişafına dəstək olmaq üçün ciddi addımlardır və ölkə iqtisadiyyatının diversifikasiyasına və sürətlənən inkişafına kömək edir.

Azərbaycanda işlərə dövlətin tərəfdarlığını göstərmək məqsədilə müxtəlif dəstək layihələri mövcuddur. İşin ölçüsünə, sahəsinə və iqtisadi fəaliyyətin növünə görə fərqlənən bir neçə layihələri qeyd etmək mümkündür. Kredit Dəstəyi - Azərbaycan Dövlət İqtisadi İnkişaf Fondunun (Azərbaycan İQF) təşkil etdiyi kredit proqramları, kiçik və orta sahibkarlara uyğun maliyyə dəstəyi təmin edir. Bu proqramlar çərçivəsində iş sahibləri yeni layihələr üçün kredit mənbələrinə çıxış edə bilirlər və işin inkişafına maliyyə dəstəyi əldə edə bilirlər.

Vergi Təqdimatları və İmtiyazlar- Azərbaycan Vergi Kodeksi çərçivəsində müəyyən olunan şərtlərə əsasən, yeni işlərin yaradılması və ya sahibkarların müəssisələrinin genişləndirilməsi ilə bağlı vergi imtiyazları və vergi endirimləri tətbiq olunur.

İnvestisiya Təşviqi- Azərbaycan İqtisadiyyat Nazirliyi tərəfindən təşkil olunan vəzifə və inkişaf mərkəzləri vasitəsilə iqtisadi fəaliyyətin təşviqi məqsədilə iqtisadiyyata dəstək proqramları və investisiya təşviqi proqramları həyata keçirilir [2, s. 34].

Yenilik və Teknologiya Transferi Dəstəyi- Yenilik və texnologiya transferini dəstəkləmək məqsədilə dövlət tərəfindən təşkil olunan proqramlar və fondlar mövcuddur. Bu proqramlar yeni texnologiyaların qəbulunu, innovativ layihələrin inkişafını və tətbiqini dəstəkləyir.

Təhsil və Təlim Proqramları- İş sahiblərinə və iş icraçılarına iş idarəetməsi, marketinq, maliyyə idarəetməsi və digər sahələrdə təlim və təhsil proqramları təşkil olunur. Bu proqramlar iş fəaliyyətinin effektivliyini artırmaq və sahibkarların bacarıqlarını inkişaf etdirmək məqsədilə nəzərdə tutulmuşdur.

Bu dəstək layihələri, Azərbaycanda yeni işlərin yaranması, sahibkarların inkişafı və iqtisadiyyatın diversifikasiyası üçün əhəmiyyətli imkanlar yaradır [3, s. 11].

Azərbaycanda kiçik və orta sahibkarlığın inkişafına dəstək verən bir neçə yerli qurum mövcuddur. Bu qurumlar sahibkarlara maliyyə dəstəyi, təlim və mentorluq proqramları, məsləhət və iş fəaliyyətləri üzrə dəstək kimi xidmətlər təmin edirlər. Bunlardan ən əhəmiyyətli olanları aşağıdakılardır:

1. Azərbaycan Dövlət İqtisadi İnkişaf Fondu (Azərbaycan İQF): Azərbaycan İQF, kiçik və orta sahibkarlığı dəstəkləmək məqsədilə müxtəlif kredit proqramları və maliyyə dəstəyi təmin edir. Yeni işlərin yaradılması və sahibkarların fəaliyyətini genişləndirməsi üçün kredit imkanları təklif edir.
2. Azərbaycan Milli İnkişaf Fondu (AMİF): AMİF, ölkə iqtisadiyyatının inkişafını dəstəkləmək məqsədilə layihələrə maliyyə dəstəyi təmin edir. Bu fond, sahibkarlara maliyyələşmə və layihələrin həyata keçirilməsi üçün kredit imkanları təqdim edir.
3. Azərbaycan Maliyyə Şirkəti (AMK): AMK, kiçik və orta sahibkarlara maliyyə dəstəyi təmin etməklə yanaşı, biznes planlaması, məsləhət və təlimlər kimi digər xidmətlər də təklif edir.
4. Azərbaycan Gənclərin İnkişafı Fondunun (AGİF): AGİF, gənclərin sahibkarlığa qoşulmasını dəstəkləmək məqsədilə maliyyə dəstəyi, təlim və mentorluq proqramları təşkil edir.
5. Azərbaycan Respublikası Nazirlər Kabinetinin Mərkəzi İcra Hakimiyyəti (Azərbaycan MRK): MRK, kiçik və orta sahibkarlara dövlət tərəfindən təmin olunan dəstək proqramlarının koordinasiyasını və icrasını təşkil edir.

Bu qurumlar, Azərbaycandakı kiçik və orta sahibkarların inkişafını dəstəkləmək üçün əhəmiyyətli rol oynayır və sahibkarlara geniş imkanlar yaratmış olurlar. Azərbaycanda kiçik və orta sahibkarlığın inkişafına təkan verən bir sıra amillər mövcuddur. Bu amillər sahibkarlar üçün fəaliyyət şəraitlərini müəyyən edir və inkişaf səviyyələrini təyin edir: Maliyyə Səviyyəsi- Kiçik və orta sahibkarlar üçün maliyyə səviyyəsi ən əsas məsələlərdən biridir. Maliyyə səviyyəsinin aşağı olması, işin genişlənməsinə,

yeni layihələrin başlanmasına və ya innovasiyaların həyata keçirilməsinə mane olur. Qanunvericilik və Bürokratiya- Qanunvericilik və bürokratiya prosesləri, kiçik və orta sahibkarların fəaliyyətini çətinləşdirə bilər. Dərman sahəsi, səhiyyə və iş sağlamlığı, vəsaitləşdirilmə, vəzifəli sahələrə aid qanunvericiliklərə uyğunluq, iş sahiblərinə çətinlik yarada bilər [5].

Teknologiya İnfrastrukturu- Modern texnologiyalara giriş, kiçik və orta sahibkarların iş fəaliyyətlərini effektivləşdirir və onların rəqabət gücünü artırır. İnfrastruktur və texnologiya imkanlarının azlığı, sahibkarların inkişafını təhlükə altına ata bilər.

Bazar Ehtiyatları və Tələblər- Müştəri tələblərinin dəyişməsi və bazarın dinamizmi, kiçik və orta sahibkarları yeniliklərə, yenilikçi məhsullara və xidmətlərə daima uyğun olmağa təşviq edir. Buna cavab olaraq, iş sahibləri daima bazarı izləməli və müştərilərinin tələblərinə cavab verən strategiyalar hazırlamalıdırlar.

Təhsil və Bacarıqlar- Sahibkarların iş idarəetmə bacarıqları, bazar analizi və marketinq, maliyyə idarəetməsi kimi sahələrdə təcrübələri, işlərini inkişaf etdirmələrinə kömək edir.

Bu amillər, Azərbaycandakı kiçik və orta sahibkarların inkişafında rol oynayır və dövlətin və digər paydaşların dəstəyi ilə müəyyən edilmiş strateji addımların tətbiqi ilə əlverişli şərait yarada bilər.

Kiçik və orta sahibkarlığın maddi vəziyyətindəki çətinliklər də onların dinamikasının düşməsinə əks təsir göstərən faktorlardan olmuşdur. Araşdırma göstərir ki, maliyyə bazarının və bank sektorunun nisbətən zəif inkişafı, pulun tədavül tempinin zəifliyi, maliyyə sferası ilə real istehsal sektorları arasında səmərəli qarşılıqlı fəaliyyət dinamikasının hələ ki, formalaşmaması və s. iqtisadiyyatın borc yekununun yüksəlməsini şərtləndirən əhəmiyyətli amillərdir. Beləliklə, sosial – iqtisadi inkişafın yeni erasında bazariqtisadiyyatının, xüsusilə kiçik və orta sahibkarlığın inkişafı ölkənin bir sıra problemlərinin həll edilməsinə mühüm təsir göstərir. Bu isə əhəmiyyətli dərəcədə kiçik və orta sahibkarlığın investisiya imkanlarının artırılmasından birbaşa asılıdır. Sosial – iqtisadi inkişafın bütün mərhələlərində bu məsələnin mühümliyinin dövlət səviyyəsində diqqətdə saxlanıması və KOB-ların investisya imkanlarının artırılmasına gətirib çıxaracaqdır.


**Резюме**

**Роль малого и среднего предпринимательства в экономике Азербайджана**

Создание национальной экономики в Азербайджанской Республике обеспечивает развитие предпринимательского сектора в республике. Эта сфера снабжает внутренний рынок продукцией и услугами, увеличивает экспортный потенциал страны. Малое предпринимательство оказывает большое влияние на динамичное развитие рыночной экономики и определяет темпы материального роста.

Усилия по поддержке развития малого и среднего предпринимательства в Азербайджане включают правительственные инициативы, программы финансовой помощи и обучение предпринимательству. Устранив эти факторы и предоставив адресную поддержку, Азербайджан может создать более благоприятную среду для развития МСП и внести свой вклад в экономическое развитие.



**Ключевые слова:** *национальная экономика, предпринимательский сектор, внутренний рынок, рыночная экономика, малое и среднее предпринимательство.*

**Summary**

**The role of small and medium businesses in the economy of Azerbaijan**

The creation of a national economy in the Republic of Azerbaijan ensures the development of the business sector in the republic. This area supplies the domestic market with products and services and increases the country's export potential. Small business has a great influence on the dynamic development of a market economy and determines the rate of material growth.

Efforts to support SME development in Azerbaijan include government initiatives, financial assistance programs and entrepreneurship training. By addressing these factors and providing targeted support, Azerbaijan can create a more favorable environment for SME development and contribute to economic development.

**Key words:** *national economy, business sector, internal market, market economy, small and medium businesses.*

**Ədəbiyyat:**

1. Abdullayev Z.S., Bağırova Z.Ə. Müəssisənin iqtisadiyyatı, Bakı, 2003
2. İnformasiya Resurslarının İdarəedilməsi Assossiasiyası ABŞ, İnformasiya Sistemləri Müəssisəsi: Konseptlər, Metodologiyalar, Alətlər və Tətbiqetmələr, s. 1065.
3. Jörg Desel; Barbara Pernici; Mathias Weske. Business Process Management: Second International Conference, BPM 2004, Potsdam, Germany, June 17-18, 2004, Proceedings. Springer Science & Business Media. 14 June 2004. 202–. ISBN 978-3-540-22235-4. 24 December 2016
4. The Complete Business Process Handbook Volume 1: Body of Knowledge from Process Modeling to BPM. Prof. August-Wilhelm Scheer, Henrik von Sheel, Prof. Mark von Rosinq (Morqan Kaufman, ISBN 0128028602, March 2015)
5. http://aqa.az/index.php?option=com_content&view=article&id=326&Itemid=511
6. https://azerbaijan.az/related-information/139

**Социально-экономическая сущность и проблемы исследования экологического туризма**

**Бакинский Бизнес Университет**

**Мусаев Камаль**

**Ключевые слова:** экотуризм, зеленый мир, социально-экономическое развитие, современные проблемы.

**Açar sözlər:** eko-turizm, yaşıl dünya, sosial-iqtisadi inkişaf, müasir problemlər.

Среди ненефтяных секторов сектор туризма показан как один из секторов, имеющих особое значение. Под туризмом понимается процесс перемещения людей из одного места в другое с целью прогулок, осмотра достопримечательностей и отдыха. Однако столь простой подход к понятию туризм стал одним из наиболее актуальных вопросов, препятствующих потенциальному развитию туризма. Туризм – это процесс временного выезда людей из района проживания в другие районы для оздоровления, знакомства, отдыха, познавательных, спортивных, религиозных и деловых целей при условии, что они не имеют коммерческой цели. Особо отметим, что если мы посмотрим на статистику последних 20-25 лет, то увидим, что туризм уже стал необходимой потребностью людей.

Существует несколько видов туризма. К таким типам можно отнести:

1. Приключенческий туризм. Приключенческий туризм – вид туризма, возникший и начавший формироваться в последнее время. Когда мы говорим о приключенческом туризме, люди едут далеко – на вершины гор, на дно морей. Адреналиновое действо вроде путешествия в Антарктиду вполне объяснимо. В последнее время в список мест, посещаемых туристами, со своей экзотической природой попали Новая Зеландия, Австралия, Антарктида.
2. Сельский туризм. Под сельским туризмом мы понимаем тот вид туризма, который предполагает отдых людей в сельской местности, и это тот вид туризма, который более актуален в странах, где сельское хозяйство более развито, чем промышленность.
3. Медицинский туризм. Медицинский туризм – вид туризма, позволяющий людям получить медицинскую помощь и одновременно отдохнуть. Примерами таких туристических направлений являются Чехия, Украина, Грузия и даже Азербайджан.
4. Экскурсия. Этот вид туризма представляет собой вид туризма, предполагающий поток людей в страны, богатые историческими памятниками. Турция, Греция, Египет и другие – примеры стран, где развивается такой туризм.
5. Спортивный туризм. Спортивный туризм, как следует из названия, — это вид туризма, предполагающий миграцию людей из одного места проживания в другое в связи с проведением спортивных соревнований.
6. Экотуризм. Другое название – природный туризм. Это вид туризма, обеспечивающий поток людей в экологически чистые регионы.

Экологический туризм в последнее время считается одним из наиболее быстро развивающихся направлений мировой туристической индустрии. Экологический туризм – новая форма отдыха и наслаждения природой, способствующая охране биологического разнообразия, максимально продуманному использованию природно-рекреационных ресурсов, а также развивающая режим эффективного использования «неэрозионной» природы в целях обеспечить устойчивость туристической деятельности и требует реализации. [1. п. 14]

Основные направления развития экологического туризма определены Всемирной туристской организацией (ЮНВТО), которая является специализированным подразделением Организации Объединенных Наций в этой области. По прогнозам этой организации, экологический туризм входит в число пяти основных приоритетных и стратегических направлений развития туризма до 2030 года.

Наша республика рассматривается как одно из наиболее перспективных и стабильных мест с точки зрения развития экологического туризма по линии Всемирной туристской организации под эгидой Международной организации наций. Когда президент нашей страны Ильхам Алиев объявил 2011 год Годом туризма, это является ярчайшим показателем того, насколько важен этот вопрос в нашей республике.

Экотуризм – вид туризма, обладающий высоким потенциалом для защиты окружающей среды и улучшения материального и морального благосостояния местного населения, а также удовлетворения его потребностей. Таким образом, экотуризму можно дать следующее определение: «Предоставить социальные и экономические возможности предпринимателям, принимающим туристов, путем расширения существующих экономических возможностей сообществ, помочь защитить природные ресурсы посредством экологического образования и естественной интерпретации, а также узнать об истории , природа и культура посещаемых мест – это получение удовольствия от экологических поездок» [5. п. 148]

Для того чтобы рассмотреть сущность экологического туризма, необходимо сначала рассмотреть происхождение понятия «экологический туризм». Понятие «экологический туризм» происходит от английских слов «экологический туризм» или сокращенно «экотуризм». Из анализа происхождения этих слов известно, что экологический туризм – это вид туризма, обеспечивающий сохранение местной социокультурной среды и непрерывное развитие территории, формирующий дружеские отношения с природой.

Неоспоримым фактом является то, что Азербайджан имеет реальные потенциальные возможности в сфере природного экологического туризма. Это очень интересная и богатая страна с потенциальными ресурсами экотуризма, более половины ее территории покрыто песчаными ландшафтами (полупустыни и горные степи, а также предгорья). Разнообразие, уникальность и богатство географических и природных условий создали условия для разнообразия фауны и флоры. Еще одним фактом нынешнего потенциала экотуризма в нашей стране является то, что девять из одиннадцати типов климата на Земле встречаются в Азербайджане. Этот фактор всегда играет важную роль в формировании богатого биоразнообразия в Азербайджане. Распространение в нашей стране около 4500 видов высших растений показывает, что они составляют более половины видового состава очень богатой флоры Кавказа, точнее 64%. 240 из них считаются реликтовыми и эндемичными видами. 141 редкий и исчезающий вид растений занесен в «Красную книгу» нашей республики. В нашей республике распространены виды фауны: 14 тысяч насекомых, 123 рыбы, 9 земноводных, 54 пресмыкающихся, 99 млекопитающих и 360 птиц, из них 108 видов занесены в «Красную книгу». [1. п. 8]

Федеральное министерство развития и финансового сотрудничества Германии считает, что «экотуризм — это вид туризма, который минимизирует негативное воздействие на окружающую среду, помогает финансировать охраняемые природные территории и создает источник дохода для местного населения». [4. п. 45]

**Схема 1.**

**Виды экотуризма, выделенные экспертами**




**Источник:** Дэвид А. Феннелл. «Экотуризм». Составлено автором по данным книги 2017 года.

Ниже приведены основные базовые принципы экотуризма: [6. п. 197]

1. Охрана биологического богатства и разнообразия рекреационных природных территорий;
2. Повышение экономической стабильности регионов реализации экотуризма;
3. Осуществлять необходимые меры в области повышения культуры участников, занимающихся экотуристской деятельностью;
4. Сохранение этнографических особенностей и статуса зон отдыха.

Мировая практика еще раз доказывает, что экотуризм – это отрасль экономики, действительно реализовавшая идею устойчивой и долгосрочной деятельности. Таким образом, он затрагивает природные комплексы, которые обычно легко распадаются, а также открывает ранее неизвестные потребительской «группе» регионы.

Ученые оценивают воздействие туризма на природу по двум основным категориям. Итак, по мнению теоретиков, развитие туризма, а также бурное развитие экотуризма оказывают прямое или косвенное воздействие на природные комплексы. К прямым эффектам можно отнести следующее: [3. п. 162]

1. При охоте и рыболовстве наряду с воздействием на образцы фауны и флоры происходит разрушение хозяйственной деятельности территорий, а также естественной среды обитания;
2. Воздействие на процесс естественной жизнедеятельности путем кормления животных, проведения над ними научных экспериментов, искусственного разведения, разрушения гнезд, а также клеток;
3. Занос и распространение болезней и инфекций в результате деятельности человека (органические пищевые отходы, практика и т. д.).

**Аннотация:** В последнее время бурное развитие стран мира привело к международной конкуренции. Некоторые страны видят экономическое развитие исключительно в добыче

природных ресурсов, экспорте этих ресурсов в качестве сырья или производстве товаров из этих ресурсов и продаже их зарубежным странам по более высокой цене. Однако, помимо этого, существующая практика развитых стран позволяет говорить о том, что использование природных ресурсов для достижения устойчивого экономического развития не всегда дает ожидаемый результат. Поскольку фактор природных ресурсов исчерпаем, через некоторое время эти государства могут попасть в зависимость от других государств. Среди стран, которые полагаются на природные ресурсы, страны, экспортирующие больше нефти, имеют возможность получать большие доходы даже в нынешней экономической ситуации. Однако опыт многих стран мира показывает, что инвестирование в ненефтяные месторождения и разработка этих месторождений в результате этих инвестиций может принести больший экономический результат.

**Xülasə:** Son dövlərlərdə dünya ölkələrinin sürətli inkişafı ölkələrarası rəqabətə səbəb olmuşdur. Bəzi ölkələr iqtisadi inkişafı sırf olaraq təbii resursların çıxarılmasında, həmin resursların xammal kimi ixracında və ya həmin resurslardan əmtəələr istehsal edərək daha baha qiymətə xarici ölkələrə satmasında görür. Lakin bununla yanaşı, inkişaf etmiş ölkələrin mövcud olan praktikası onu deməyə imkan yaradır ki, sabit iqtisadi-inkişafı əldə etmək üçün heç də təbii resurs amilindən istifadə həmişə gözlənilən nəticəni vermir. Çünki təbii resurs amili tükənən xarakter daşıdığına görə bir müddət sonra həmin dövlətlərin digər dövlətlərdəın asılılığı yarana bilər. Təbii resursuna gövənən dövlətlər içərisində daha çox neft ixrac edən ölkələr mövcud iqtisadi vəziyyətdə də lap çox gəlir əldə etmək imkanına malikdirlər. Lakin dünya ölkələrinin çox saylı təcrübəsi göstərir ki, qeyri-neft sahələrinə investisiya qoyuluşu və bu sahələrin həmin investisiya nəticəsində inkişaf etdirilməsi daha böyük iqtisadi səmərə verə bilər.

**Summary:** In recent times, the rapid development of the countries of the world has led to international competition. Some countries see economic development solely in extracting natural resources, exporting those resources as raw materials, or producing goods from those resources and selling them to foreign countries at a higher price. However, in addition to this, the existing practice of developed countries allows us to say that the use of natural resources to achieve stable economic development does not always give the expected result. Because the natural resource factor is exhaustible, after a while these states may become dependent on other states. Among the countries that rely on natural resources, countries that export more oil have the opportunity to earn a lot of income even in the current economic situation. However, the experience of numerous countries of the world shows that investing in non-oil fields and developing these fields as a result of that investment can bring greater economic results.

**Список литературы**

1. Əsgərov Ə.T., Gülahyev Ç.G., Bilalov B.Ə.. “Ekoloji turizm” Adiloğlu, Bakı-2011
2. Hikmet Haberal. “Turizmdə Alternatif: Ekolojik Turizm, Doğa Turizmi, Yayla Turizmi”. Detay Yayıncılık-2015
3. Uğur Akdu, İsmayıl Çalık. “Doğu Karadeniz Bölgesi Sürdürebilir Turizm Konqresi” Bildiri kitabı. 2015
4. Pınar Kısa Ovalı. “Kitle turizmi ve Ekolojik Turizm” 2016
5. David A.Fennell. “Ecotourism”. 2017
6. David Weaver. “Ecotourism”. 2014
7. Martha Honey. “Ecotourism and Sustainable Development”. Second Edition. 2017

**Heydər Əliyev iqtisadi sabitliyin banisi kimi**

*Sumqayıt Dövlət Universiteti*
*Mirzəyev Vasif*

***Açar sözlər***: *milli dövlətçilik, iqtisadi, inkişaf, islahat, əmək münasibətləri*

Ulu öndər Heydər Əliyev bu dövrdən başlayaraq ölkədə baş verən proseslərin və həyata keçirilən islahatların bütün istiqamətlərinin təşkilatçısı olmuşdur. İslahatların həyata keçirilməsində hər bir sahəyə məxsus olan spesifik xüsusiyyətləri nəzərə alan Ümummilli lider bu islahatların son nəticə etibarilə sosialyönümlü olmasının hədəf kimi seçilməsini xüsusilə zəruri hesab edirdi və iqtisadi islahatların həyata keçirilməsi istiqamətində baxışlarını səciyyələndirən ən vacib xüsusiyyət-islahatların həyata keçirilməsinin istiqamətlərini düzgün proqnozlaşdırmaqdan ibarət idi. Ülu öndər Heydər Əliyev iqtisadi platformasında iqtisadi islahatlar dedikdə, Azərbaycan iqtisadiyyatını bazar iqtisadiyyatı yolu ilə aparmaq, özəl bölmənin  fəaliyyətini genişləndirmək və özəlləşdirməni həyata keçirmək, sahibkarlığa geniş imkanlar yaratmaq, ölkə iqtisadiyyatını dünyanın inkişaf etmiş ölkələrinin iqtisadi sistemi əsasında qurmaq və dünya iqtisadiyyatına inteqrasiya etmək nəzərdə tutulurdu.

Bir sözlə Ümummilli liderin hakimiyyəti dövründə əldə olunan makroiqtisadi sabitlik, sənayedə və digər sahələrdə iqtisadi göstəricilərin artımı, həyata keçirilən geniş miqyaslı iqtisadi islahatların ilkin nəticələri aparılan siyasətin düzgünlüyünü və Azərbaycanın bazar iqtisadiyyatı yolunda inamlı addımlarını təsdiq edirdi. Ulu öndərin sözü ilə desək: "İqtisadiyyatı güclü olan ölkə hər şeyə qadirdir!"

Ümummilli Lider  Heydər Əliyevin ölkə əhəmiyyətli nailiyyətlərindən biri də məhz neftlə bağlıdır. Azərbaycan neftinin dünya bazarına çıxarılması, əldə olunan gəlirlə milli büdcəni bərpa etmək, möhkəmləndirmək, əhalinin sosial səviyyəsinin yüksəldilməsi həyata keçirilən uğurlu iqtisadi siyasətin nəticəsi idi. 1994-cü il sentyabrın 20-də Bakıda Gülüstan sarayında Xəzərin Azərbaycan sektorundakı "Azəri", "Çıraq", "Günəşli" yataqlarının dərin su qatlarındakı neftin birgə işlənməsi haqqında müqavilə imzalandı. Müqavilə neft sahəsində ulu öndər Heydər Əliyevin qazandığı uğurların hələ başlanğıcı idi. Azərbaycan üçün həyati əhəmiyyəti olan bu müqavilə həm respublikanın daxilində sabitliyin bərqərar olunması, həm də xarici siyasətdə uğurların əldə edilməsində müstəsna rol oynadı.

Heydər Əliyevin özünün də vurğuladığı kimi, "Biz ölkəmizi iqtisadi cəhətdən inkişaf edən ölkə etmək istəyirik. Biz ölkəmizin vətəndaşlarına firavan həyat yaratmaq istəyirik. Biz müstəqil dövlət kimi daim yaşamaq istəyirik. Bütün bu işlər - təkcə neft sahəsində deyil, Azərbaycan iqtisadiyyatının, həyatının bütün başqa sahələrində də gördüyümüz işlər məhz bu məqsədi daşıyır".

"Əsrin müqaviləsi"nin imzalanması ilə yanaşı hasil olunacaq neftin dünya bazarına çıxarılması üçün əlverişli marşrutun axtarılıb tapılması da mühüm əhəmiyyət kəsb edirdi. Ulu öndər Azərbaycan neft kəmərinin çoxvariantlılığı ideyası ilə çıxış edərək Bakı-Supsa kəmərinin işə salınmasına, eyni zamanda "Əsrin müqaviləsi" çərçivəsində hasil olunacaq əsas neftin nəqli üçün "Bakı-Tbilisi-Ceyhan" neft kəmərinin inşa edilməsi üzrə danışıqların intensivləşdirilməsinə nail olur. 1999-cu ilin noyabrında Azərbaycan, Gürcüstan və Türkiyə prezidentləri ABŞ-ın dövlət başçısının iştirakı ilə Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft boru kəmərinin inşa edilməsinə dair hökumətlərarası saziş imzalanmışdır.

Ümummilli lider Heydər Əliyev həm də, Azərbaycan qazının dünya bazarlarına çıxarılması üçün nəzərdə tutulan və regionun kifayət qədər əhəmiyyətli layihəsi hesab olunan  Bakı-Tbilisi-Ərzurum qaz kəmərinin də təməlini qoydu, eyni zamanda neft gəlirlərinin şəffaf xərclənməsi və gələcək nəsillərə saxlanılması məqsədi ilə Dövlət Neft Fondunun yaradılması kimi xidmətləri ilə də yadda qalıb. 1999-cu

il dekabrın 29-da "Azərbaycan Respublikası Dövlət Neft Fondunun yaradılması haqqında" Fərman imzaladı.

Məhz Ulu öndər Heydər Əliyevin siyasi kursunun davamı kimi Azərbaycan yeni inkişaf mərhələsinə Prezident cənab İlham Əliyevin rəhbərliyi ilə demokratik dövlət quruculuğu modelini, öz iqtisadi inkişaf strategiyasını düşünülmüş surətdə həyata keçirmək əzmi ilə qədəm qoydu.

**Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı**

**Bakı Biznes Universiteti (magistrant)**
**Quluyev Sənan**

**Xülasə**

2020-ci il sentyabrın 27-də başlayan  və 44 gün davam edən Vətən müharibəsi nəticəsində torpaqlarımız işğaldan azad olunmuş, ölkəmizin ərazi bütövlüyü bərpa edilmişdir. 30 ilə yaxın müddətdə Ermənistan Respublikasının əsarəti altında saxlanılan bu ərazilərdə Azərbaycanın yaşayış məntəqələri, infrastruktur obyektləri dağıdılmış, milli-mədəni irsimiz məhv edilmişdir. 1 milyondan çox azərbaycanlı öz doğma torpaqlarından didərgin salınmışdır.. "Dəmir Yumruq" əməliyyatı nəticəsində Müzəffər Ali Baş Komandanın və rəşadətli ordumuzun mübarizəsi ilə işğaldan azad edilmiş torpaqlarda irimiqyaslı bərpa-quruculuq layihələri ölkəmizin qarşısında duran əsas məqsədlərdən biri hesab olunur. "İşğaldan azad olunmuş ərazilərə Böyük Qayıdış" Milli Prioritetinin icrasının həyata keçirilməsi istiqamətində "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair Dövlət Proqramı" hazırlanmışdır.

As a result of the Patriotic War that started on September 27, 2020 and lasted for 44 days, our lands were freed from occupation and the territorial integrity of our country was restored. Azerbaijan's settlements and infrastructure facilities were destroyed and our national and cultural heritage was destroyed in these territories, which were kept under the slavery of the Republic of Armenia for nearly 30 years. More than 1 million Azerbaijanis have been displaced from their native lands. As a result of the "Iron Fist" operation, large-scale reconstruction and reconstruction projects in the lands freed from occupation by the struggle of the Supreme Commander-in-Chief Muzaffar and our brave army are considered one of the main goals facing our country. "State Program on the Great Return to the Territories Liberated from the Republic of Azerbaijan" was prepared in the direction of the implementation of the National Priority "Great Return to the Territories Freed from Occupation".

В результате Отечественной войны, начавшейся 27 сентября 2020 года и продолжавшейся 44 дня, наши земли были освобождены от оккупации и восстановлена территориальная целостность нашей страны. На этих территориях, которые почти 30 лет находились под рабством Республики Армения, были разрушены населенные пункты и объекты инфраструктуры Азербайджана, уничтожено наше национальное и культурное наследие. В результате операции «Железный кулак», масштабных проектов реконструкции и реконструкции на землях, освобожденных от оккупации в результате борьбы Верховного главнокомандующего Музаффара и Музаффара, более 1 миллиона азербайджанцев были вынуждены покинуть свои родные земли. нашу храбрую армию считают одной из главных целей, стоящих перед нашей страной. «Государственная программа «Великое возвращение территорий, освобожденных от оккупации» Азербайджанской Республики» подготовлена в направлении реализации Национального приоритета «Великое возвращение территорий, освобожденных от оккупации».

**Açar sözlər:** böyük qayıdış, hədəf göstəricilər, dövlət proqramı, məcburi köçkün, prioritet

**Giriş**

Dövlət Proqramında işğaldan azad edilmiş ərazilərdə aparılmış bərpa-quruculuq işləri,  əldə olunması hədəflənən məqsədlər və onlara uyğun hədəf göstəriciləri, Dövlət Proqramının prioritet

istiqamətləri, əhalinin öz doğma torpaqlarına geri qayıdışı məsələləri, gözlənilən nəticələr, ehtimal edilən risklər və həmin risklərin idarə olunması, müvafiq vəzifələrin yerinə yetirilməsi üçün maliyyələşmə mənbələri və həyata keçiriləcək tədbirlər öz əksini tapmışdır. Dövlət Proqramının hazırlanmasında xarici ölkələrin təcrübələri, onların bu sahədə inkişaf tendensiyaları və dünya iqtisadiyyatının müasir elementləri nəzərə alımışdır. İnkişaf etmiş ölkələrdə inklüzivlik, bərabər imkanlara söykənən inkişaf, dairəvi iqtisadiyyat, "ağıllı" və dayanıqlı yaşayış məntəqələri kimi idarəetmənin yeni istiqamətləri önə çıxmışdır. Ermənistanın Azərbaycana qarşı təcavüzünün nəticələrinin aradan qaldırılması, işğaldan azad olunmuş ərazilərin yenidən, bərpası, həmin regionlara əhalinin qayıdışının təmin edilməsi, əhalinin rifah səviyyəsinin yüksəldilməsi, qorunması və son olaraq bölgənin tarazlı və dayanıqlı inkişafında effektivliyə nail olunması məqsədilə əlverişli mühitin yaradılması Dövlət Proqramının ümumi qayəsini təşkil edir.

Dövlət Proqramında nəzərdə tutulan tədbirlər bir sıra hədəf göstəricilərinə uyğun olaraq 2026-cı ilədək həyata keçiriləcəkdir. Bu hədəf göstəricilərinə infrastruktur, sosial inkişaf, iqtisadiyyatın yenidən qurulması və ətraf mühitin tarazlı inkişafı daxildir. Ərazilərin təhlükəsizliyin təmin olunması, minalardan və partlamamış hərbi sursatdan təmizlənməsi, hər kəs üçün etibarlı və əlçatan infrastrukturların təminatının həyata keçirilməsi, nəqliyyat-yol, su, qaz, istilik, rabitə və s. infrastruktur hədəf göstəricilərinə daxildir. Sosila inkişafa isə əhalinin məşğulluğu, onların sosial rifahının yüksəldilməsi yolları, təhsil, səhiyyə kimi xidmətlərə əlçatan çıxışını nümunə göstərmək olar. İqtisadiyyatın yenidən qurulması özündə sahibkarlıq mühitini, kənd təsərrüfatının və turizm sektorunun inkişafını ehtiva edir. Ətraf mühitin tarazlı inkişafı isə xarici ölkələrin təcrübəsinə əsaslan "Ağıllı şəhər", "Ağıllı kənd" və "Yaşıl enerji zonası" konsepsiyalarını, təbii ehtiyatlardan səmərəli istifadəni, ətraf mühitin qorunması amillərini özündə əks etdirir.[1]

İşğaldan azad edilmiş ərazilərin yenidən qurulması, bərpa işləri, , dayanıqlı inkişafının və əhalinin yüksək həyat səviyyəsinin təmin olunması üçün zəruri infrastrukturun yaradılması xüsusi əhəmiyyətə malikdir. 2020-ci ilin noyabr ayından etibarən işğaldan azad edilmiş ərazilərdə hava limanlarının, avtomobil və dəmir yollarının tikintisi işlərinə başlanılmış, qısa vaxt ərzində bölgədəki müxtəlif məntəqələr arasında, eləcə də bu məntəqələri ölkənin digər şəhər və rayonları ilə əlaqələndirən nəqliyyat infrastrukturu formalaşdırılmağa başlanmışdır. İşğaldan azad edilmiş ərazilərdə aparılan bütün yenidənqurma, bərpa və şəhərsalma işləri xarici ölkələrdə mövcud olunan qabaqcıl urbanizasiya modellərinin tətbiqi ilə, əhalinin həyat səviyyəsinin yüksəldilməsinə xidmət edəcək şəhərsalma prinsipləri və normalarına uyğun həyata keçiriləcəkdir. Şəhərsalma tədbirləri çərçivəsində istər texnoloji, istərsə də demoqrafik və ekoloji şərtlərin təsiri altında dünyada dəyişən qlobal şəhər planlaşdırma tendensiyaları düzgün şəkildə nəzərə alınmalıdır. Bu tendensiyaların adaptiv tətbiqi inftastrukturlarda iqtisadi məhsuldarlığın artımına, həyat səviyyəsinin yüksəldilməsinə və dayanıqlılığın möhkəmlənməsinə birbaşastimul verəcəkdir. Dövlət Proqramı çərçivəsində, işğaldan azad edilmiş ərazilərdə insan kapitalının inkişafı sahəsində bir sıra sosial xidmətlər şəbəkəsinin yəni, səhiyyə, sosial müdafiə, mədəniyyət və idman, məktəblər və məktəbəqədər uşaq-tərbiyə müəssisələrinin qurulması və digər ictimai xidmətlərin təşkilinin qurulması və maddi-texniki bazasının gücləndirilməsi, bölgədə məskunlaşacaq əhalinin keyfiyyətli səhiyyə və təhsil xidmətləri ilə təmin edilməsi, mədəniyyət və idman obyektlərinin bərpası və yenidən qurulması, məşğulluq imkanlarının çoxaldılması məqsədilə fəal özünüməşğulluq proqramlarının həyata keçirilməsi və reabilitasiya müəssisələrinin qurulmasını özündə ehtiva edir. İşğaldan azad edilmiş ərazilərdə yerləşən

tarixi abidələrin bərpası və qorunması işinin təşkili, abidələrin inventarlaşdırılması, pasportlaşdırılması, mühafizə zonalarının müəyyən edilməsi qarşıda duran əsas vəzifələrdəndir.

Qarabağda iqtisadiyyatın yenidən qurulması, və inkişafı iqtisadi canlanmanın yaradılması, iqtisadi aktivliyin təşviqi üçün səmərəli biznes mühitinin yaradılması, həmçinin su və torpaq ehtiyatlarının səmərəli idarəedilməsi mexanizminin yaradılması və bölgədə regional ixtisaslaşmanın artırılması məqsədilə tədbirlərin icrasını əhatə edəcəkdir.

İşğaldan azad edilmiş regionlarda iqtisadi canlanmanın həyata keçirilməsi üçün əsas hədəf göstəricisi postmünaqişə dövründə ərazilərin iqtisadi cəhətdən özü-özünü təmin edən regiona çevrilməsidir. Ərazilərdə sahibkarlığın inkişafı, düzgün biznes mühitinin yaradılması, bununla yanaşı innovativ texnologiyaların tətbiqinin stimullaşdırılması üçün güzəştli kreditlərin verilməsi, təşviqat işlərinin aparılması və digər maliyyə dəstəyi tədbirlərinin həyata keçirilməsi əsas tutulur. Həmçinin kiçik və orta sahibkarlığın rəqabətqabiliyyətliliyinin artırılması ilə yeni istehsal, emal və xidmət sahələri üzrə müəssisələrin yaradılması və yeni iş yerlərinin açılması həmin ərazilərin bərpasına və sosial-iqtisadi inkişafına təkan verəcəkdir. İşğaldan azad edilmiş ərazilərin potensialını və coğrafi şəraitini əsas götürsək , Kəlbəcər rayonu hasilat və turizm sənayesi, Ağdam rayonu emal sənayesi, Şuşa rayonu mədəniyyət və turizm sənayesi, Cəbrayıl rayonu ticarət-logistika xidməti, Qubadlı, Zəngilan, Laçın, Füzuli və Xocavənd rayonları isə kənd təsərrüfatı və turizm sahəsi üzrə yeni iqtisadi regionlar kimi qiymətləndirilə bilər. Bundan başqa,, turizm potensialından istifadə etməklə regionun rəqabətqabiliyyətli turizm məkanına çevrilməsi üçün bölgədə bu sənayenin inkişafı istiqamətində bir sıra xüsusi tədbirlər həyata keçiriləcəkdir. Məskunlaşacaq əhalinin məşğulluq imkanlarının əhatə dairəsinin genişləndirilməsi üçün məşğulluqyönümlü iqtisadi inkişaf siyasətinin davam etdirilməsi, əmək bazarının düzgün şəkildə tənzimlənməsi sahəsində institusional strukturun təkmilləşdirilməsi və aktiv məşğulluq tədbirlərinin əhatə dairəsinin genişləndirilməsi əsas məqsədlər sırasındadır.

Qarabağa böyük qayıdışın Azərbaycanın 2030-cu ilədək beş Milli Prioritetindən biri kimi müəyyən olunması, ölkə prezidenti Ali Baş Komandan İlham Əliyevin Sərəncamı ilə "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı"nın təsdiq edilməsi, bu sahədə qəbul olunmuş digər sənədlər və həyata keçirilən məqsədyönlü və genişmiqyaslı layihələr yeni inkişaf mərhələsindəki məqsədlərə çatmağa xidmət edərək dövlətimizin Qarabağın və Şərqi Zəngəzurun inkişafında, əhalinin dayanıqlı məskunlaşmasında və davamlı iqtisadi inkişafın təmin olunmasında məqsədyönlülüyünün göstəricisidir.

Füzulidən Şuşaya çəkilən ilk yol "Böyük Qayıdış"ın uğurlu simvollarındandır. Hazırda işğaldan azad olunan ərazilərdə 15 avtomobil yolunun tikintisi həyata keçirilir və bütün avtomobil yolu layihələrinin 2025-ci ilədək bitməsi nəzərdə tutulur. Nəqliyyat şəbəkəsi ilə yanaşı, Bakı ilə işğaldan azad olunmuş ərazilər arasında əlaqələrin qurulması, yükdaşımaların daha sürətli və səmərəli həyata keçirilməsi üçün"Qarabağın hava qapısı" adlandırılan Füzuli və Zəngilan Beynəlxalq Hava Limanları artıq istifadəyə verilmişdir. Hal-hazırda üçüncü hava limanı Laçın şəhərində tikilməkdədir.Bütün bunlar quru yol, hava yolu, dəmir yolu ilə bağlı işlərin bir qismidir, əlbəttə ki, Dövlət Proqramlarına uyğun olaraq bu proses davamlı şəkildə həyata keçiriləcək.[2]

Dövlət Proqramının məqsədlərinə uyğun olaraq, ərazilərdə məskunlaşacaq əhali üçün sosial rifahın təmin edilməsi məqsədilə yaşayış məntəqələrində müxtəlif dövlət xidmətlərinə ("ASAN" xidmət və DOST mərkəzləri və s.) universal çıxış təmin ediləcəkdir.

Dövlət Proqramının hazırlanması zamanı bir sıra amillər geniş şəkildə araşdırılmış, onların mümkün təsirləri təhlil edilmişdir. Həmçinin işğaldan azad olunmuş ərazilərdə quruculuq işləri və dayanıqlı inkişafı istiqamətində Dövlət Proqramı çərçivəsində həyata keçiriləcək tədbirlərin məqsədləri müəyyənləşdirilərkən Birləşmiş Millətlər Təşkilatının və digər beynəlxalq qurumların irəli sürdükləri qlobal inkişaf prioritetləri nəzərə alınmışdır.

Dövlət Proqramı əsasında məcburi köçkünlərin qayıdışının səmərəli təşkili və hüquqi bazasının yaradılması məqsədilə müvafiq normativ hüquqi aktların qəbul edilməsi, həmçinin əhali arasında məlumatlılığın artırılması, maarifləndirmə tədbirlərinin genişləndirilməsi üçün təbliğat işlərinin şaxələndirilməsi həyata keçiriləcək tədbirlərə daxildir. Bununla yanaşı, əhalinin geri qayıdışı ilə bağlı müvafiq məlumat bazasının yaradılması, statistik göstəricilərin təhlili və məlumatların effektivliyinin təmin olunması da prioritet işlərdəndir.

Məcburi köçkünlərin problemlərinin həlli dövlət siyasətinin əsas məqsədlərindən biri hesab olunur. Bu istiqamətdə Ulu Öndər Heydər Əliyevin müəyyənləşdirdiyi və Prezident İlham Əliyevin davam etdirdiyi strateji xətt onların yaşayış şəraitinin yaxşılaşdırılmasına, sosial müdafiəsinin, məşğulluğunun təmin olunmasına həsr olunub və hazırda da ardıcıllıqla həyata keçirilir. Birinci vitse-prezident Mehriban xanım Əliyeva da məcburi köçkünlərlə bağlı məsələlərə xüsusi diqqətlə yanaşır, onların problemlərinin həll olunmasına xüsusi diqqət və qayğı göstərir. Məcburi köçkünlərin könüllü, təhlükəsiz şəraitdə və ləyaqətlə öz doğma yurdlarına qayıdışı əsas vəzifə kimi qarşıya qoyulub. İşğaldan azad edilmiş ərazilərin dirçəldilməsi istiqamətində görülən tədbirlər getdikcə sürətlənir, Böyük Qayıdış proqramı icra olunur.[3]

Nəticə olaraq qeyd etmək lazımdır ki, "Böyük Qayıdış" 30 illik torpaqlarımızın azad olunmasından sonra qarşıya qoyulan əsas məqsədlərdən biri hesab olunur. Bərpa-quruculuq işlərində həmçinin digər dövlətlər də olduqca maraqlıdır və bu ölkələrin kadrlarının cəlb edilməsi də məqsədlər sırasındadır, çünki yenidənqurma xarici ölkələrin innovativ strukturlarına əsasən həyata keçiriləcəkdir.. Əhalinin dayanıqlı məskunlaşması, onlar üçün təhlükəsiz mühitin yaradılması, sosial rifahlarının qorunması, məşğulluğun təmin olunması və ərazilərin iqtisadi fəaliyyətə reinteqrasiyası I Dövlət Proqramının əsas prioritetlərindəndir. Qaçqın və məcburi köçkünlərin yurd həsrətinin bitməsi üçün dövlət bu məsələyə xüsusi qayğı göstərir və bu proses mərhələli şəkildə həyata keçirilir. Dövlət büdcəsindən ayrılan vəsaitlər əhalinin sosial rifahının yüksəldilməsi, onların böyük qayıdışının həyata keçirilməsi üçün məqsədyönlü şəkildə həyata keçirilir.

**Ədəbiyyat:**


1. "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı – https://e-qanun.az/framework/52757
2. Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemlər üzrə Dövlət Komitəsi, 2024 – http://family.gov.az/az/ejournals/isgaldan-azad-olunmus-erazilere-boyuk-qayidis
3. Azərbaycan Respublikası Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi, 2023 – https://idp.gov.az/az/news/1625

**Azərbaycan iqtisadiyyatı dinamik inkişaf tempinə malikdir**

**Sumqayıt Dövlət Universiteti**

**Mirzəyeva Dursun**

***Açar sözlər:*** *dövlət, siyasət, sosial, siyasət,*

Hazırda Azərbaycanda həyata keçirilən dövlət siyasətində sosial sfera mərkəzi yer tutur. Məlum olduğu kimi, son illər bu sahədə mütəmadi olaraq islahatlar həyata keçirilməkdədir. Onlar əhalinin müxtəlif təbəqələrinin, xüsusilə də aztəminatlı ailələrin və sosial cəhətdən həssas qrupların layiqli həyat səviyyəsinin yüksəldilməsinə, insanlar üçün cəmiyyətdə bərabər imkanlar yaradılmasına xidmət edir. Həyata keçirilən sosial siyasət ildən-ilə yeni çalarlar qazanmaqla daha da genişləndirilməkdədir. Qeyd etmək lazımdır ki, uğurlu sosial siyasətin reallaşdırılması kifayət qədər maliyyə tələb edir. Hazırda ölkə iqtisadiyyatının müxtəlif sahələrində aparılan islahatlar, şəffaflaşdırma tədbirləri ölkənin maliyyə imkanlarının artması ilə nəticələnmişdir. Bu isə dövlətin sosial sahəyə daha çox vəsait ayırmasına imkan yaratmışdır. Bunu Prezident İlham Əliyev də öz çıxışlarında qeyd etmişdir. O, sosial sahənin əsas prioritetlərdən olduğunu bildirməklə vurğulamışdır ki, ölkənin gəlirləri artdıqca əhalinin sosial problemlərinin həlli istiqamətində daha çox vəsait ayrılır. Eyni zamanda, sosial siyasət sahəsində tətbiq olunan yeni yanaşmalar da bu istiqamətdə uğurların əldə edilməsinə öz töhfəsini verməkdədir. Məsələn, əhalinin sosial müdafiəsini gücləndirmək məqsədi ilə ünvanlı sosial yardımın məşğulluqla əlaqələndirilməsi siyasətinin uğurları buna bariz nümunədir. Bu gün inamla söyləmək olar ki, sosial yardımın məşğulluqla əlaqələndirilməsi strategiyası uğurla həyata keçirilməkdədir. "ABAD" (Ailə Biznesinə Asan Dəstək) mərkəzlərinin yaradılması bunun bariz nümunələrindən biridir. "ABAD" Azərbaycan Respublikasının sosial-iqtisadi inkişafında vətəndaşlann fəal iştirakına, kiçik və orta sahibkarlığın inkişafına, əhalinin məşğulluq səviyyəsinin artırılmasına və rəqabət qabiliyyətli ailə təsərrüfatlarının formalaşdırılmasına dəstək vermək məqsədi ilə sosialyönümlü layihələr həyata keçirməkdədir. "ABAD" mərkəzləri tərəfindən dekorativ-tətbiqi xalq sənətkarlığı və kənd təsərrüfatı sahəsində fəaliyyət göstərən ailə bizneslərinə dəstək layihələri həyata keçirilir. Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin 23 sentyabr 2016-a il tarixli fərmanında qeyd edildiyi kimi, "ABAD" mərkəzləri, həmçinin ailə təsərrüfatlarına biznes-planlaşdırma, marketinq, brendinq və dizayn, maliyyəmühasibat, hüquqi yardım xidmətləri göstərirlər.

Sosial yardımın məşğulluqla əlaqələndirilməsi ilə bağlı tədbirlər 'Azərbaycan 2020: gələcəyə baxış" inkişaf Konsepsiyasında da öz əksini tapmışdır. Belə ki, konsepsiyada göstərilir ki, müasir sosial texnologiyalardan istifadə yolu ilə sosial yardımların səmərəliliyi artırılacaq, mövcud ünvanlı dövlət sosial yardım sistemi ilə yanaşı, fəal sosial yardım proqramları (özünədəstək, güzəştli sosial kreditləşmə) da tətbiq olunacaqdır. Azərbaycan dövlətinin həyata keçirdiyi sosial siyasətin əsas istiqamətləri sırasında şəhid ailələri və onların problemlərinin həlli mühüm yer tutur. Bu gün şəhid ailələri dövlət vəsaiti hesabına mənzillərlə və minik maşınları ilə təmin olunur; minlərlə müharibə əlilinə dərman preparatlarının verilməsi, sanatoriya-kurort müalicəsi göstəril məsi ilə əlaqədar hər il birdəfəlik maliyyə yardımı göstərilir. Ölkədə səmərəli sosial siyasətin həyata keçirilməsi, o cümlədən məşğulluq sahəsində problemlərin həlli istiqamətində görülmüş institusional tədbirlər sırasında Prezident İlham Əliyevin 9 avqust 2018-d il tarixli "Əhalinin məşğulluğu, əmək, sosial müdafiə və təminat sahələrində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında" Fərmanı da mühüm yer tutur. Fərmana əsasən təşkil edilmiş DOST Agentliyi və onun müvafiqmərkəzləri əmək, məşğulluq, sosial təminat, ünvanlı dövlət

sosial yardımı, əlillik, pensiya, sosial sığorta və digər aidiyyəti sahələrdə xidmətlərin "bir pəncərə" prinsipi üzrə təkmil və sistemli, sadələşdirilmiş, eyni zamanda, bir-biri ilə əlaqələndirilmiş şəkildə, tam şəffaf, operativ və vətəndaşlarla açıq iş şəraitində əhaliyə təqdim etməyə imkan verəcək.

Xüsusi olaraq qeyd etmək lazımdır ki, Dünya Bankının hesabatına görə, həyata keçirilən uğurlu sosial siyasət nəticəsində Azərbaycan Respublikasında işsizlik səviyyəsi 5%-ə enmişdir. Ölkəmizdə tətbiq olunan sosial siyasətin uğurlarında müxtəlif sahələrdə həyata keçirilən ayrı-ayrı dövlət proqramlarının da mühüm rolu vardır. Məsələn, "2003-2005-d illər üçün Azərbaycan Respublikasında yoxsulluğun azaldılması və iqtisadi inkişaf üzrə Dövlət Proqramı" və həmçinin "2008-2015-d illərdə Azərbaycan Respublikasında yoxsulluğun azaldılması və davamlı inkişaf Dövlət Proqramı" bu istiqamətdə mühüm rol oynamışdır. Təsadüfi deyildir ki, bu dövlət proqramlarının reallaşdırılması nəticəsində ölkəmizdə yoxsulluq 2015-d ilin statistikasına görə, 5% təşkil etmişdir. Halbuki Azərbaycanın da qoşulduğu BMT-nin "Minilliyin İnkişaf Məqsədləri"ndə 2015-ci ilə qədər yoxsulluğun 15%-dək azaldılması nəzərdə tutulurdu. Aparılan uğurlu sosial-iqtisadi siyasət nəticəsində aclıq deyilən məfhum isə ölkəmizdə tamamilə aradan qaldırılmışdır. Sosial sahədə əldə olunan uğurlarda artıq dördüncüsünün icrasına başlanan regionların sosial-iqtisadi inkişafı dövlət proqramlarının mühüm rolu vardır. Bu dövlət proqramlarının icrası regionlarda sosial infrastrukturun keyfiyyətinin yüksəldilməsinə, sahibkarlıq mühitinin daha da yaxşılaşdırılmasına, investisiya qoyuluşlarının artmasına, yeni müəssisələrin açılmasına şərait yaratmışdır. Bu isə özlüyündə yeni iş yerlərinin yaradılmasına və beləliklə də əhalinin məşğulluğunun artırılmasına, sosial rifah halının yüksəlməsinə imkan vermişdir. "Azərbaycan Respublikası regionlarının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramının təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin Fərmanında göstərilir ki, dövlət proqramlarının icra olunduğu 2004-2018- d illər ərzində ümumi daxili məhsul 3,3 dəfə, o cümlədən qeyri-neft sektoru üzrə 2,8 dəfə, sənaye üzrə 2,6 dəfə, kənd təsərrüfatı üzrə 1,7 dəfə artmışdır. Bu müddətdə həyata keçirilmiş məqsədyönlü tədbirlər nəticəsində ölkədə 1,5 milyonu daimi olmaqla 2 milyondan çox yeni iş yeri, 100 mindən artıq müəssisə yaradılmış, işsizlik 5%-ə, yoxsulluq səviyyəsi isə 5,1%-ə enmişdir.

Dövlət proqramları çərçivəsində görülmüş genişmiqyaslı işlər regionların qarşıdakı illərdə də inkişafı üçün möhkəm zəmin yaratmışdır. Azərbaycanda sosial sahədə aparılan islahatlar baxımından 2019-cu il xüsusilə diqqətçəkən olmuşdur. Belə ki, hələ ilin əvvəlindən Prezident İlham Əliyev ölkədə böyük sosial paketin icrasına başlandığını elan etmişdir. Bu çərçivədə minimum əmək haqqı cari il martın 1-dən 130 manatdan 180 manata qaldırılmışdır. Bu artım 600 minədək insanı əhatə edirdi ki, burada dövlət sektorunda çalışan 450 inin nəfərin əmək haqqı 30%, özəl sektorda çalışan 150 min nəfərin əmək haqqı isə 25% artmışdı. Minimum əmək haqqının 180 manata çatdırılması ilə bağlı dövlət büdcəsindən illik 400 milyon manat, 2019- cu il üzrə isə (10 ay ərzində) 335 milyon manata qədər əlavə vəsait yönəldiləcəkdir. 19 iyun 2019-cu il tarixdə imzalanmış sərəncamla isə minimum əmək haqqı 250 manat olmuşdur, yəni 2019-cu il ərzində minumum əmək haqqı iki dəfə, özü də ikiqat artırılmışdır. Belə ki, 2019-cu il martın 1-dən minimum əmək haqqı 130 manatdan 180 manata, sentyabrdan isə 250 manata qədər artırılmışdır. O da vurğulanmalıdır ki, təkcə minimum əmək haqqının artırılması ilə kifayətlənilməmişdir. Əhalinin sosial rifahının yüksəldilməsi çərçivəsində dövlət büdcəsindən maliyyələşən müxtəlif sahələrdə əmək haqlarının əhəmiyyətli dərəcədə artırılması ilə bağlı Prezident İlham Əliyev tərəfindən bir gündə -19 iyun 2019-cu il tarixdə 18 sərəncam imzalanmışdır. Beləliklə də, 2019-cu il sentyabrın 1-dən 1 milyondan çox insanın əmək haqqı əhəmiyyətli dərəcədə artmışdır.

Cəmiyyət həyatında insanla bağlı nə varsa, son nəticə etibarilə sosial sahə kimi səciyyələnir. Dünya yaranandan bəri cəmiyyətdə sosial problemlər mövcud olub və olacaqdır. Lakin müasir dünyada hər bir dövlətin qüdrəti onun xalqının sosial həyatı, yaşayış səviyyəsi və rifah halı ilə qiymətləndirilir. Sosial siyasət əhalinin həyat səviyyəsinin təmin olunmasına, gəlirlərinin yüksəlməsinə, məşğulluğunun təmin edilməsinə, sosial müdafiənin güclənməsinə, səhiyyə, təhsil, mədəniyyət sahəsində təminatlarının həyata keçirilməsinə yönəldilən tədbirlər sistemi olmaqla, hər bir dövlətin iqtisadi inkişaf səviyyəsi ilə sıx bağlı olan daxili siyasətin mühüm tərkib hissəsini təşkil edir.

Yəni sosial məsələlər gündəmə gətiriləndə ilk növbədə cəmiyyətdə mövcud olan bütün problemlərə nəzər salmaq lazımdır. Çünki sosial problem həm sosial sferanın obyektiv təsvirini, həm də mövcud vəziyyətdə narazılıq elementlərinin aşkara çıxarılması üçün ictimai fikrin öyrənilməsini tələb edir.

Yuxarıda qeyd etdiyimiz kimi, ümummilli lider Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra cəmiyyət həyatının bütün sahələrində olduğu kimi, iqtisadiyyatda, o cümlədən sosial sferada əsaslı dəyişikliklərin fundamental təməli qoyuldu.

Yenidən öz müstəqilliyini bərpa edən ölkəmizin qarşılaşdığı sosial problemlərin, demək olar ki, hamısı əsasən keçid dövrü ilə əlaqədar olub. İlk vaxtlarda sosializm cəmiyyətinə daban-dabana zidd olan bazar prinsiplərinə keçmək bir sıra qlobal məsələlərin həllini tələb edirdi. Onu da nəzərə almaq lazımdır ki, ərazimizin 20 faizi işğal altındadır, 1 milyon insan qaçqın və məcburi köçkün vəziyyətinə düşüb, sosial cəhətdən az təmin olunan bu sayda insan daha çox problem yaradan faktorlardan ən birincisidir.

Müstəqilliyimizin bərpasından sonrakı ilk illərdə ölkəmizin istər daxili, istər xarici siyasəti düzgün təşkil olunmadığı üçün bütün sahələrdə hərcmərclik baş alıb getmiş, xaos hökm sürmüş, maddi və mənəvi sərvətlər talan edilmişdir. Belə vəziyyət, təbii ki, əhalinin sosial vəziyyətini pisləşdirir, gün-güzəranını çətinləşdirirdi.

Şübhəsiz ki, müstəqilliyin ilk iki ili ərzində Azərbaycanda sosial siyasətə biganə münasibət vəziyyətin kəskin şəkil almasına gətirib çıxarmışdı. O zaman hakimiyyətdə olan qüvvələrin düzgün siyasət qura bilməməsi də problemlərin həllində böyük maneələr yaradırdı. Əslində, AXC-Müsavat hakimiyyəti o zaman cəmiyyətimizdə getdikcə dərinləşən sosial problemlərin və çaşqınlığın məntiqi nəticəsi idi. Onlar layiq olmadıqları postları tutandan sonra xalqın taleyini təmtəraqlı vədlərlə özlərinin zövqünə və dünyagörüşünə uyğunlaşdırmaq istəyirdilər.

Lakin XXI əsrin astanasında Azərbaycan Respublikasının müstəqil inkişaf yoluna qədəm qoyması ölkəmizin gələcək sosial-iqtisadi təkamülündə dönüş nöqtəsi idi. Bu, cəmiyyətin həyatında təkamül prosesində taleyüklü dəyişikliklərin meydana gəlib genişlənməsi üçün zəmin yaratdı. Tarixi təcrübə göstərir ki, zəngin təbii və iqtisadi sərvətlərə malik olan ölkələrdə müstəqilliyin qorunub saxlanılması bəzən onun əldə edilməsindən daha çətin və mürəkkəbdir. Düşmən təcavüzünə məruz qalan və təcrübəsiz dövlət rəhbərləri tərəfindən idarə olunan Azərbaycanda bu, daha da çətin idi. Ölkəmiz yalnız dövlət müstəqilliyini itirmək təhlükəsi ilə deyil, eyni zamanda daxildən də parçalanmaq təhlükəsi ilə qarşı-qarşıya qalmışdı.

## Azərbaycanda Sosial Sahibkarlığın inkişafı

**Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyası**

**Maya Sadıqova**

Sosial sahibkarlıq fenomeni Azərbaycan üçün də yenidir. Bu sahədə təşəbbüslər son illərdə artmaqdadır, lakin sosial sahibkarlıqla bağlı ayrıca qanunvericilik aktı olmadığından bu və ya digər təşəbbüsün sosial sahibkarlıq kimi qiymətləndirilməsi çətindir. Doğrudur, mövcud qanunvericilikdə sosial müəssisələrlə bağlı müəyyən müddəalar mövcuddur, lakin hesab edirik ki, həmin müddəalar sosial sahibkarlıq münasibətlərini tam tənzimləmək gücündə deyil.

Sosial müəssisə anlayışı «Məşğulluq haqqında» Azərbaycan Respublikası Qanununda öz əksini tapıb. Qanunun 1.1.20-ci maddəsinə əsasən, sosial müəssisə – sosial müdafiəyə xüsusi ehtiyacı olan və işə düzəlməkdə çətinlik çəkən şəxslərin məşğulluğunun təmin olunması üçün yaradılan ixtisaslaşdırılmış hüquqi şəxsdir ( http://e-qanun.az/framework/39846).

Azərbaycanda sosial sahibkarlığa xüsusi dəstək mexanizmləri müəyyənləşdirilməyib. Bu istiqamətdə fəaliyyət göstərən xüsusi institusional vahidlər də mövcud deyil. Növbəti hissədə xarici ölkələrin nümunələrində sosial sahibkarlığa dəstək mexanizmləri ilə tanış olacağıq. Onlardan Azərbaycan təcrübəsində də istifadə faydalı olardı. Bununla yanaşı onu da qeyd edək ki, Azərbaycanda bilavasitə sosial sahibkarlar üçün nəzərdə tutulmasa da, onların da yararlana biləcəyi müəyyən institusional təsisatlar var. Bunlardan biri də Startup Azərbaycan layihəsidir.

Startup Azərbaycan layihəsinin əsas məqsədi ölkədə İKT sektorunda investisiya mühitini yaxşılaşdırmaq, ən yaxşı İnternet və İT layihələrini üzə çıxarmaq, innovativ ideyaların uğurlu biznes sahəsinə çevrilməsinə yardım etməkdir. Layihə çərçivəsində startapçılar üçün təlimlər təşkil olunur, investorlarla görüşlər keçirilir. Startaplara komanda formalaşdırmağa köməklik göstərilir. İnternet biznesə başlamaq istəyənlər üçün layihə çərçivəsində keçirilən təlimlərdə uğurlu bizneslə bağlı bilik və təcrübə əldə etmək imkanları yaradılır. Startap Azərbaycan komandası uğurlu hesab ediləcək layihələrin investorlara təqdim edilməsində və investor axtarışında seçilmiş satartaplara köməklik edir. Həmçinin investorlar üçün cəlbedici layihələrə əlçatımlığın təmin edilməsi istiqamətdə fəaliyyət göstərir. Qarşıya qoyulan məqsədlərin həyata keçirilməsi məqsədilə startap görüşləri və müzakirələri təşkil olunur. Startap Azərbaycan qaliblərə simvolik mükafatlar təqdim etsə də, layihələrin birbaşa maliyyələşməsi onların investorlara və müxtəlif fondlara təqdim edilməsiylə həyata keçirilir (http://www.startup.az/azerbaijan/about-initiative).

Azərbaycanda mahiyyət etibarı ilə sosial sahibkarlıq xarakteri daşıyan təşəbbüslər var və onlar artmaqdadır. Ümid edirik ki, zəruri hüquqi və institusional islahatlar nəticəsində aşağıda təqdim etdiyimiz nümunələrin sayı çoxalacaq və onlar Ölkəmizin sosial-iqtisadi inkişafına əhəmiyyətli töhfələr verəcək.

**Education HUB.** Azərbaycanda sosial sahibkarlığın inkişafı istiqamətində mühüm fəaliyyətlər həyata keçirən Education HUB 2016-cı ildə yaradılıb. Təşkilatın əsas fəaliyyət istiqamətlərindən biri Azərbaycanda sosial sahibkarlığın təşviq olunması və bu sahədə fəaliyyət göstərən qurumlar arasında əlaqələndirmənin yaradılması, təlim və tədris proqramlarının hazırlanması, mübadilə səfərlərinin təşkili və konsultasiya xidmətləridir (2 United Nations, Inter-Agency Task Force on Social and Solidarity Economy, “Social and solidarity economy and the challenge of sustainable development” (June 2014). 2019-cu ildə Education HUB “Sosial Sahibkarlıq Proqramı” çərçivəsində təlimlər həyata keçirib,

Gürcüstanın paytaxtı Tbilisi səfərinə 3 günlük mübadilə səfəri təşkil edib. Bundan əlavə, təşkilat Mərkəzi Aran bölgəsindən olan 15 xanım üçün Bakıda Azercell şirkətinin Barama İnnovasiya və Sahibkarlıq Mərkəzində təcrübə klinikası təşkil edib. 2019-cu il Mayın 6-da Bakıda ilk dəfə olaraq "Education HUB" və Azərbaycan Qadın Sahibkarlığının İnkişafı Assosiasiyasından (AQSİA) olan tərəfdaşların təşkilatçılığı, İqtisadiyyat Nazirliyi, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi (AQUPDK), Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin (KOBİA) tərəfdaşlığı ilə Azərbaycanda ilk dəfə olaraq Sosial sahibkarlıq forumu keçirilib.

**WoWoman.** Azərbaycanda gənc yaşlarında, kənar dəstək olmadan biznes quran qadınların sayı çox deyil. Onlardan biri hazırda dünyada məşhur olan WoWoman sosial layihəsinin rəhbəri Zara Hüseynovadır. Z.Hüseynovanın sahibkarlıq fəaliyyəti hələ tələbəlik dövründə başlayıb. Azərbaycan Dövlət Neft Akademiyasının Biznes İnzibatçılığı bölümündən məzun olan Zara ali təhsilin elə ilk aylarından onlayn biznesə başlayır və çox qısa bir müddətdə artıq doqquz ildir fəaliyyət göstərən "AlZA" ziyafət geyimləri mağazasını yaradır. Tələbə olduğu müddətdə dünyanın ən böyük tələbə-gənclər təşkilatı sayılan AIESEC-də yerli komitə rəhbəri kimi fəaliyyət göstərən gənc sahibkar xanım başqa heç bir müəssisədə korporativ təcrübə keçmədən bütün bilik və bacarıqlarını öz fərdi təşəbbüsləri olan bizneslərin reallaşdırılmasına sərf edir. Təhsilə xüsusi önəm verən Zara ABŞ-ın Harvard, Stanford, MIT və Massaçusets kimi nüfuzlu universitetlərində sahibkarlıq üzrə müxtəlif proqramlarda iştirak edir, bir sıra formal və qeyri-formal təlim və seminarlara qatılır. Bu təhsil və təlim proqramları onun dünyagörüşünün formalaşması, yeni bilik və bacarıqlar əldə etməsində mühüm rol oynayır. İlk biznesini qurduğu illərdə Zara üçün hər şey heç də asan başa gəlmir. Yaşının çox gənc olması, üstəlik xanım olması ətrafında ona qarşı müəyyən inamsızlıq yaratsa da o, təslim olmur. Gənc yaşda, az sərmayə ilə, biznes əlaqələri olmadan uğurlu biznes qurmağı bacararaq o, ətrafının ikiqat ehtiramını qazanmağa nail olur. Zara düşünür ki, hər bir fəaliyyətin arxa planında müəyyən dəyər və sosial fayda olmalıdır. Bu baxımdan WoWoman platformasını qurarkən əsas motivlərdən biri də o idi ki, xanımlara seçim azadlığı imkanı yaradılsın. Bu reallığa çatmaq üçünsə onlara lazımi bilik və bacarıqların öyrədilməsi, motivasiya, fərdi inkişaf kimi önəmli mövzularda dəstək verilməli idi. WoWoman sosial biznesinin təməlində dayanan sosial hədəf gənc xanımlara öz potensiallarını gerçəkləşdirmək üçün gərəkli olan həmin dəstəyi verəcək bir platforma yaratmaq idi. Sosial sahibkarlıq haqda müxtəlif yanaşmaların olduğunu vurğulayan Zara hesab edir ki, sosial təşəbbüsün təməlində elə bir biznes model olmalıdır ki, bu təşəbbüsün davamlılığını təmin edə bilsin. Bu zaman biznesin inkişafı üçün vacib olan mənfəət və kommersiya tərəfinin fonunda sosial təsir prioritet olaraq qalır. Məhz bu sosial təsiri hədəf seçən WoWoman sosial layihəsi indiyə qədər yüzlərlə gənc xanımın həyatına müxtəlif formalarda töhfə verib. Son beş il ərzində cəmiyyətdə qadınların səlahiyyətlərinin artırılması, stereotiplərin qırılması və müxtəlif mövzularda fərqindəliyin artırılması WoWoman-ın fəaliyyətinin ana xəttləri olmuşdur. Bəlkə də ən böyük sosial faydası sırf fərqindəliyin artırılması olan WoWoman bu yolla yüzlərlə qadının dəyişim hekayələrinin gerçəkləşdiyi bir platformaya çevrilmişdir. Fərdi inkişaf, biznes təlimçiliyi, bütövlükdə təhsildən tutmuş restoran biznesinə qədər tamamilə fərqli sahələrdə fəaliyyən göstərən platformanın "Tech-tech xanım", Digital marketing, IT proqramlaşdırması kursları, "WoW Venture" startup biznes proqramları, "WoWoman in me" kimi iri layihələri ilə yanaşı fərdi inkişafa və yumşaq bacarıqların inkişafına təkan verən bir sıra proqramlarından minlərlə gənc qadın məzun olaraq öz həyatlarını bu və ya digər dərəcədə dəyişə bilmişlər. Uğurlu göstəricilərinə görə, 2018-ci ilin oktyabrında MDB ölkələrindən yeganə olaraq WoWoman Facebook tərəfindən dünyanın 100 ən yaxşı cəmiyyəti, Zara Hüseynova isə 2019-cu ildə

Forbes jurnalının Avropada 30under30 siyahısına daxil edilib. One Young World beynəlxalq konfransında Zara Hüseynova Niderland kraliçası, İrlandiyanın keçmiş prezidenti, Twitter həmtəsisçisi, Nobel mükafatı laureatları, Naomi Kempbel kimi dünya ulduzları və başqaları ilə birlikdə çıxış edərək öz timsalında Azərbaycan qadınlarının hekayəsini bütün dünya ilə paylaşıb. Hazırda davam edən təlimlər sırasında regionlarda ingilis dili müəllimlərinin bacarıqlarının artırılması təlimlərini qeyd etmək olar. "Zərif əllərin gücü" adlı tənha analar üçün sıfırdan dərzilik kurslarını təşkil edən WoWoman bu xanımlara dərziliklə yanaşı həm də öz xidmətlərini sata bilmələri üçün marketinq və satış təlimləri də keçir. Cari pandemiya səbəbilə onlayn müstəviyə keçən WoWoman komandası hazırda daha çox vebinarlar vasitəsilə fəaliyyətlərini davam etdirir (https://fed.az/az/biznes-tarixi/genc-yasda-az-sermaye-ile-biznes-yaratdi-forbes-in-siyahisina-dusdu-88133)

**Hands Art.** Bu sosial təşəbbüsün təsisçisi gənc sosial sahibkar Murad Məmmədov 9 il ərzində əlillik mövzusunda müxtəlif sosial layihələrdə iştirak edib. Layihələrdən əldə etdiyi biliklər 2019-cu ilin payızında Murada ''Hands Art'' sosial layihəsinin təməlini qoymağa təkan verir. "Hands Art"-ın əsas missiyası əlilliyi olan şəxslərin daha müstəqil həyat yaşaması üçün onların maddi gəlirlərinin artmasına dəstək olmaqdır. "Hands Art" əlilliyi olan şəxslərin hazırladıqları əl işlərinin satılmasına kömək göstərir, bu işdə əlilliyi olan şəxslərlə (ustalarla) müştərilər arasında vasitəçilik edir, əlilliyi olan ustaların tanıdılması istiqamətində fəaliyyətlər həyata keçirir. Baku Business Factory işləmək üçün "Hands Art"-a yer ayırıb. Crowdfunding vasitəsilə toplanan təxminən 300 AZN-lə fəaliyyətə başlayıb. Fəaliyyətin davamlılığını təmin etmək çətinliyi var.31 Murad Məmmədovun sözlərinə görə, buna görə də, layihənin əsas missiyası bərabərliyi təbliğ etməklə insanların dostluq və sevgi içərisində yaşamasına, fəaliyyət göstərməsinə nail olmaqdır. Murad eyni zamanda beynəlxalq təşkilatların Bakı nümayəndəlikləri ilə də yaxından əməkdaşlıq edərək onların ən yaxşı təcrübələrini paylaşır (https://fed.az/az/biznes/hands-art-sosial-biznes-layihesi-bele-yarandi-90110).

**BUTA Art & Sweets.** Sumqayıtdan olan Sara BUTA Art & Sweets layihəsinin təsisçisidir. Üç il öncə Sara Rəcəbli 160 AZN büdcə ilə öz biznesinə başlayıb. Layihənin əsas məqsədi fiziki məhdudiyyəti olan qadınların işsizlik problemini həll edərək onların maliyə müstəqilliyinə dəstək vermək idi. Sosial Sahibkarlıqda ən böyük çətinlik və ən vacib məqsəd hər hansı bir sosial problemin həllində insanların ona qarşı olan stereotipinin, yanaşmasının dəyişdirilməsi olduğunu qeyd edən Sara Rəcəbli bildirir ki, ən çətin vəzifələrdən biri də həmin qadınların həyat yoldaşlarının iş ilə bağlı stereotipini sındırmaq və qadınların həm də öz ayaqları üzərində necə dayana biləcəyini onlara əyani şəkildə aşılamaqdır. Bakı və Sumqayıtdan olan 20 nəfər qadınla əməkdaşlıq edərək onların hazırladığı şirniyyatlar müxtəlif ölkələrin tədbirlərində təqdim olunub və qadınların uğur hekayəsi paylaşılıb. 2018-ci ildə "Yunus & Youth" sosial sahibkarlıq proqramında iştirak etmiş, proqramın təqaüdünü qazanaraq Niderland Krallığının Haaqa şəhərində keçirilən "One Young World 2018" zirvəsində Azərbaycanı təmsil etmişdi. 2019-cu ildə Sara Rəcəbli "Sosial Sahibkarlıq" nominasiyası üzrə Azərbaycan Respublikası Prezident mükafatının qalibi seçilmişdir. Bu da öz növbəsində fiziki məhdudiyyətli insanlara qarşı illər boyunca formalaşmış qəliblərin müəyyən dərəcədə dağılmasına, onların səsinin daha geniş kütləyə çatdırılmasına töhfə verilmişdir. Məqsədi həm də qadınları fərdi və güclü sahibkar kimi formalaşdırmaq olan BUTA Art & Sweets layihəsi yarandığı andan etibarən indiyə qədər 50 qadın üçün 15 master klass proqramı da həyata keçirib. Eyni zamanda pandemiya dövründə Bakı və regiondan olan 100-ə yaxın qadın onlayn sosial sahibkarlıq proqramına cəlb olunmuşdu. 3 ay davam edən proqram zamanı 30-dan çox mentor iştirakçılara öz dəyərli tövsiyyə və məsləhətlərini vermişdi. Saranın sözlərinə görə Azərbaycanda Sosial

Sahibkarlığın geniş vüsət almasına təsir göstərən münbit şəraiti və ya cəmiyyətdəki bəzi sosial çatışmazlıqları nəzərə alsaq, həm sosial problemlərin həllini, həm də buna adekvat olaraq innovativ məhsulların istehsal olunmasını ideya halında birləşdirərək, güclü sosial biznes layihələri reallaşdırmaq mümkündür. "Üç il əvvəl ideyamı ətrafımda olan insanlarla paylaşanda çoxları bu layihənin reallaşacağına inanmırdı. Fiziki və əqli məhdudiyyətli insanların hazırladığı məhsulları heç kimin almayacağını düşünürdülər. Odur ki, hansısa sosial problemi həll etmək üçün heç kimi və heç nəyi gözləməli deyilik, kiçik addımlarla, hətta sıfır büdcə ilə də böyük dəyişikliklər edə bilərik" - deyə biznes ideyasına güvənməyin nə qədər vacib olduğunu vurğulayan Sara Rəcəbli, bütün maneələrə baxmayaraq hər kəsi öz sosial biznes layihəsini həyata keçirmək yolunda qətiyyətli və cəsarətli olmağa çağırır (https://aqreqator.az/az/cemiyyet/996799).

**"LOVE by veganazer".** Azərbaycanda pandemiya zamanı yaradılan çox uğurlu layihələrdən biri "Love" mağazasıdır. Bu, ölkəmizdə yaradılan ilk və hələ ki, yeganə veqan mağazasıdır. Azərbaycan Dövlət İqtisad Universitetinin (ADİU) Xüsusi istedadlar qrupundan məzun olduqdan sonra Vüsalə Məhərrəmova MBA üzrə magistratura təhsilini İsveçrədə davam etdirir. Təhsilini bitirib Bakıya qayıtdıqdan sonra xarici bir şirkətin marketinq şöbəsində çalışmağa başlayan Vüsalə səkkiz il yarım həmin şirkətdə fəaliyyət göstərir. Lakin, uşaqlıqdan heyvanlara olan xüsusi sevgisi onu çox sevdiyi iş yerindən ayrılıb hazırkı veqan biznesini qurmağa sövq edir. Üç il vegetarian həyat tərzi sürdükdən sonra veqan qidalanma tərzinə keçən Vüsalənin ən böyük çətinliyi isə dadlı milli təamlardan və ərzaqlardan imtina etməli olması idi. Paralel olaraq Vüsalə veqan ərzaq məhsullarının əlçatan olmaması səbəbilə ərzaqların tərkibinin araşdırılmasına da xeyli vaxt sərf etməli olurdu. Bütün bu prosesdə Vüsalə həm də müşahidə edir ki, veqan qidalanma tərzi haqda Azərbaycan dilində onlayn məlumat mənbəyi demək olar ki yoxdur. Bütün bunlar sonda Vüsalənin səkkiz illik iş yerindən ayrılıb özünü və vaxtını tamamilə bu sahəyə həsr etməsinə gətirib çıxardı. Nəticə olaraq, Azərbaycan dilində veqan həyat tərzi ilə bağlı ilk bloq səhifəsi yaranır. Bu səhifədə oxuculara veqanlıqla bağlı faydalı bilgilər verilir, hansı veqan məhsulun haradan alına biləcəyi haqda məlumatlar yerləşdirilir, həmçinin ekoloji həssaslığı olan insanlara təkrar emal və s. haqda tövsiyə xarakterli məzmun təqdim edilir. Vüsalə həm də bu platforma vasitəsilə veqanlıq və vegetarianlıqla maraqlanan gənclərə fərdi şəkildə dəstək olur, öz hekayəsi ilə onları ruhlandırır. COVİD-19 ilə bağlı bu prosesdə müəyyən ləngimələr yaşansa da, xarici tədarükçülərin işlərində durğunluq olmasına baxmayaraq Vüsalə inadla veqan mağazasını açmağa nail olur. Artıq bu ilin aprel ayından Bakıda ilk veqan dükanı fəaliyyətə başlayır. Çatışmayan veqan qatıq, veqan pendir kimi ərzaqları isə Vüsalə özü şəxsən hazırlayaraq alıcılara təqdim edir. Vüsalənin vegan dükanının fərqi və üstünlüyü həm də ondadır ki, bu mağaza təkcə veqan məhsulların satışını təşkil etmir, o, həm də başqa bir sosial hədəfi də özündə birləşdirir. Belə ki, sahibkar xanım mağazada müxtəlif sosial qruplardan olan şəxslərin sosial-ekoloji faydası olan əl işləri və məhsullarının tamamilə təmənnasız şəkildə satışına dəstək olur. Dükanda qurulmuş iki xüsusi vitrin məhz bu məhsullar üçün ayrılıb (https://buta.ws/news/41647?utm=w).

Təqdim edilən bu nümunələr onu deməyə əsas verir ki, Azərbaycanda sosial dəyər yaratmaq, cəmiyyətin həyatında müsbət dəyişikliklərə nail olmaq, mövcud problemlərə yeni, daha yaradıcı həll üsulları gətirmək motivasiyası ilə yüklənmiş xeyli təşəbbüslər var. Bu təşəbbüslərin daşıyıcılarına zəruri dövlət dəstəyinin göstərilməsi, onların fəaliyyətinin təşviq edilməsi və stimullaşdırılması Azərbaycanda sosial sahibkarlığın inkişafına mühüm təkan verə bilər.

## Ədəbiyyat siyahısı


1. https://ulfet-az.com/
2. (http://e-qanun.az/framework/39846)
3. (http://www.startup.az/azerbaijan/about-initiative)
4. (https://fed.az/az/biznes-tarixi/genc-yasda-az-sermaye-ile-biznes-yaratdi-forbes-in-siyahisina-dusdu-88133)
5. (https://fed.az/az/biznes/hands-art-sosial-biznes-layihesi-bele-yarandi-90110)
6. (https://aqreqator.az/az/cemiyyet/996799)
7. (https://buta.ws/news/41647?utm=w)

**Qarabağa xarici investisiya yatırımlarının iqtisadi inkişafa təsiri**

**Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyası**

**İsmayılzadə Məhəmməd**

**Xülasə**

İşğal altında olan torpaqlarımız azad edildikdən sonra Azərbaycan hökuməti Ermənistan tərəfindən viran qoyulmuş bu ərazilərin bərpasına başlayıb. İşğaldan azad olunan ərazilərdə həyata keçiriləcək mühüm tədbirlərdən biri də investisiya qoyuluşudur. Prezident İlham Əliyev tərəfindən yaradılan "Qarabağ Dirçəliş Fondu" işğaldan azad edilmiş ərazilərə xarici və daxili investisiyaların cəlb edilməsi, iqtisadiyyatın yenidən qurulması və inkişafı üçün olduqca mühüm amildir.

***Açar sözlər:*** *böyük qayıdış, investorlar, kapital, infrastruktur, sahibkarlar, ağıllı şəhər*

İşğal altında olan torpaqlarımız azad edildikdən sonra Azərbaycan hökuməti Ermənistan tərəfindən viran qoyulmuş bu ərazilərin bərpasına başlayıb. Prezident İlham Əliyev Qarabağ bölgəsinin bərpasının Azərbaycan üçün xüsusi əhəmiyyət daşıdığını deyib və 1990-cı illərin əvvəllərindən bəri Ermənistanın təxminən 30 illik işğalı dövründə ciddi şəkildə zərər görmüş bölgələrin dirçəldilməsi üçün əlindən gələni edəcəyini bildirib.

Ağdam, Füzuli, Cəbrayıl, Zəngilan və Qubadlı rayonlarının, Şuşa şəhərinin və işğal altında olmuş digər ərazilərin bütün infrastrukturu məhv edilib. Dağıdılan obyektlərin ümumi dəyəri milyardlarla dollar həcmində qiymətləndirilir. Zərərlərin hesablanmasına Cəbrayıl, Füzuli, Zəngilan, Qubadlı və Şuşa şəhərləri də daxil olmaqla 300-dən çox yaşayış məntəqəsi azad edildikdən sonra başlanılıb.

Azərbaycan hökuməti artıq azad edilmiş torpaqları bərpa etmək üçün "Böyük Qayıdış" adlı genişmiqyaslı kampaniyaya başlayıb. Cari ilin dövlət büdcəsindən bu ərazilərin bərpası və yenidən qurulması üçün 2,2 milyard manat ayrılıb. Füzulidə Şuşa şəhərinədək uzanacaq yeni avtomobil yolunun və hava limanının təməli qoyulub. Tərtər rayonunun Talış və Suqovuşan kəndlərində yeni yolların inşası işləri başlayıb. Bu il Qarabağ bölgəsinin müxtəlif yerlərində bir sıra iqtisadi və mədəni tədbirlərin təşkili təklif olunur.

İşğaldan azad olunan ərazilərdə həyata keçiriləcək mühüm tədbirlərdən biri də investisiya qoyuluşudur. Böyük potensiala malik olan bu regiona xarici və daxili investorların cəlb edilməsi hazırda qarşıda duran prioritet məsələlərdən biridir.

Prezident İlham Əliyev tərəfindən yaradılan "Qarabağ Dirçəliş Fondu" işğaldan azad edilmiş ərazilərə xarici və daxili investisiyaların cəlb edilməsi, iqtisadiyyatın yenidən qurulması və inkişafı üçün olduqca mühüm amildir. İnvestisiyaların bu ərazilərə yönəldilməsi zamanı həmin regionun təbii sərvətlərinin, iqliminin, geoloji mövqeyinin hər bir rayon üzrə tədqiq edilməsi və ümumi strukturun qurulması, bu prosesin sürətlənməsinə, eyni zamanda, daxili və xarici investorların bu sahədə daha səmərəli fəaliyyətinə təkan verəcək: "Regionda aqrar sektorun inkişafı üçün torpaq və iqlim faktorları mühüm rol oynayır. Qarabağ ərazisindəki 7 rayonun əkinə yararlı torpaq sahələrinin ümumi həcmi 535 min hektardan artıqdır. Bunu nəzərə alsaq, bu sektora böyük investisiya qoyuluşları çox böyük fayda verəcək. Bundan başqa, Qarabağda həyata keçiriləcək bərpa və yenidənqurma işləri zamanı yerli tikinti materiallarından istifadə olunması üçün əlverişli şərait mövcuddur. Nəticə etibarilə tikinti xammalına

qoyulan investisiya həm investora, həm də dövlətə yol və nəqliyyat xərclərinin azaldılması, tikinti materiallarının güzəştli istehsalı və satışı kimi məsələlərdə gəlir və səmərəlilik gətirəcək".

Qarabağ ərazisində nəqliyyat infrastrukturunun tamamilə yararsız hala salınması bu problemin həllini xüsusilə vacib edir. Bu baxımdan nəqliyyat infrastrukturunun bərpası istiqamətində yeni layihələrin həyata keçirilməsi, investisiyanın cəlb olunması həmin ərazilərdə əhalinin məskunlaşmasına birbaşa təsir göstərəcək. Bu sahədə artıq müəyyən işlər də görülüb. Belə ki, Füzuli-Hadrut, Kəlbəcər-Laçın avtomobil yolları, Horadiz-Ağbənd, Bərdə-Ağdam dəmiryolları yenidən qurulur, Füzuli-Şuşa və Horadiz-Ağbənd dəmir yolu xətti tikilir. Artıq Füzuli beynəlxalq hava limanı istifadəyə verilib. Bütün bu tədbirlər bölgədə aparılan iqtisadi islahatların sürətlənməsinə münbit şərait yaradır.

İşğaldan azad olunmuş ərazilərin işgüzar fəallığının stimullaşdırılması və sərmayə potensialının təşviqi üzrə layihələrə xüsusi diqqət yetirilməlidir. Bununla yanaşı, dövlət-özəl sektor tərəfdaşlığının təşviqi xüsusi əhəmiyyət kəsb edir və bu tərəfdaşlığın təşviqi Fondun qarşısında qoyulmuş vəzifələrdən biridir.

Bu istiqamətdə vəzifələri yerinə yetirərkən Fond müxtəlif müvafiq dövlət strukturları, xarici investisiya şirkətləri və fondları, eləcə də fərdi və korporativ investorlar kimi maraqlı tərəflərlə tərəfdaşlıq edərək, aşağıdakı istiqamətlər üzrə layihələri həyata keçirəcək:

• Qarabağ ərazisinin dayanıqlı inkişafına töhfə vermək, məşğulluğun və əhalinin rahat şəraitdə yaşamasını təmin etmək məqsədilə bu regionun investisiya qoyuluşunun potensialının, perspektivli istiqamətlərinin təşviqi;

• Qarabağda ətraf mühitə mənfi təsir göstərməyəcək balanslaşdırılmış inkişafı formalaşdırmaq məqsədilə burada yaşıl energetika, həmçinin ekoloji cəhətdən təhlükəsiz və səmərəli sosial infrastruktur, bina və digər obyektlərin (o cümlədən "ağıllı kəndlər"in) inkişafına dair təkliflər və layihələrin hazırlanması üçün dəstəyin göstərilməsi;

• Potensial investorlardan təkliflərin toplanması və təhlili, müvafiq sənədlərin öyrənilməsi və onların daha perspektivlilərinin müvafiq dövlət orqanlarında baxılması üçün yönləndirilməsi;

• Müxtəlif dövlət və özəl qurumları ilə imzalanmış Əməkdaşlıq Memorandumlarının çərçivəsində müvafiq layihələrin həyata keçirilməsi. [https://qdf.gov.az/fealiyyet/prioritetler/153-Qarabagin-investisiya-ve-ishguzar-potensialinin-teshviqi.html]

İşğaldan azad olunmuş əraziləri bərpa etmək üçün buraya həm milli, həm də xarici investisiyalar yatırılacaq. Hökumət bölgəni yenidən qurmağa xarici investisiyalar cəlb etmək üçün hüquqi prosedurların daha da sadələşdirilməsinə, qanunvericiliyə dəyişikliklərin edilməsinə və sifariş edilmiş tikinti materiallarının bazar qiymətlərinin yenilənməsinə çalışır. Artıq bir neçə ölkə azad edilmiş ərazilərin bərpasına dəstək verməkdə maraqlı olduqlarını bildiriblər.

Türkiyə şirkətləri Füzuli – Şuşa yeni avtomobil yolunu inşa edirlər. Türkiyənin "Ziraat Bank"ı Azərbaycanın Şuşa şəhərində bir filial açmaq niyyətindədir. Həmçinin Türkiyənin İş Adamları və Sahibkarlar Dərnəyinin İdarə Heyətinin sədri İlhami Öztürk azad edilmiş torpaqlara 50 milyon dollar sərmayə yatırmağı planlaşdırdığını açıqlayıb. Toxuculuq istehsalı çoxmilyonluq investisiyalar üçün əsas sahə kimi müəyyən olunub.

Böyük Britaniya hökuməti də Qarabağ bölgəsinin texnoloji inkişafına dəstək verməyə hazırdır. Krallığın Azərbaycandakı səfiri Ceyms Şarp Azərbaycan hökumətinin nümayəndələri ilə bölgədə "ağıllı şəhərlər"in yaradılmasını müzakirə edib.

“Azərenerji” ASC ilə İtaliyanın “Ansaldo Energia” şirkəti arasında Qarabağ bölgəsindəki dörd yarımstansiya üçün avadanlıq tədarükü ilə bağlı təchizat müqaviləsi imzalanıb. Hər birinin gücü 110 kilovat olan yarımstansiyalar erməni işğalından azad edilmiş Ağdam, Füzuli, Qubadlı və Kəlbəcər rayonlarında yerləşəcək. Avadanlıqlar mart ayının sonunadək çatdırılmalıdır və obyektlər 2021-ci ilin iyun ayınının sonunadək tikilib istifadəyə veriləcək.

2022-ci ildə Azərbaycanın Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının inkişafına ümumilikdə 4 milyard 18 milyon 769,9 min manat (cari məzənnə ilə təxminən $2,4 milyard) investisiya yatırılıb ki, bu da 2021-ci ilin göstəricisindən 1,8 dəfə çoxdur. Bu barədə “İnterfaks-Azərbaycan” agentliyinə Dövlət Statistika Komitəsindən məlumat verilib.

Hesabat dövründə Qarabağ iqtisadi rayonuna investisiyalar 1 milyard 860 milyon 873,2 min manat (2022-ci ildə Azərbaycan üzrə əsas kapitala yönəldilmiş bütün investisiyaların 20,1%-i) təşkil edib ki, bunun da 1 milyard 821 milyon 663,5 min manatı tikinti-quraşdırma işlərinin yerinə yetirilməsinə yönəldilib.

2022-ci ildə Qarabağ iqtisadi rayonuna kapital qoyuluşu 2021-ci illə müqayisədə 38,7%, tikinti-quraşdırma işlərinə kapital qoyuluşu isə 38,4% artıb.

Ən çox investisiya - 682 milyon 149 min manat (Qarabağ üzrə bütün investisiyaların 36,7%-i) Şuşa rayonuna yatırılıb ki, bu da 2021-ci ilin göstəricisindən 2,9 dəfə çoxdur. Füzuli rayonu üzrə investisiyalar 549 milyon 711,4 min manat, Ağdam rayonu üzrə 329 milyon 636,2 min manat təşkil edib.

2022-ci ildə Şərqi Zəngəzur iqtisadi rayonu üzrə əsas kapitala 2 milyard 157 milyon 896,7 min manat vəsait (Azərbaycan üzrə əsas kapitala yatırılan bütün vəsaitin 23,3%-i) yönəldilib ki, bunun da 2 milyard 124 milyon 722,4 min manatı tikinti-quraşdırma işlərinin yerinə yetirilməsinə sərf olunub. Hər iki göstərici üzrə artım 2,5 dəfə təşkil edib.

Qeyd olunan vəsaitin böyük hissəsi - 730 milyon 714,3 min manat (Şərqi Zəngəzur üzrə əsas kapitala yönəldilən vəsaitin 33,9%-i) Zəngilan rayonuna yatırılıb. Cəbrayıl rayonu üzrə vəsait qoyuluşu 613 milyon 90,4 min manat, Kəlbəcər rayonu üzrə 365 milyon 104,7 min manat məbləğində olub.

2022-ci ildə Azərbaycanda əsas kapitala 9 milyard 257 milyon 720,9 manat məbləğində, yaxud 2021-ci illə müqayisədə 17% çox vəsait yönəldilib. [https://interfax.az/view/887623/az]

Macarıstan hökuməti də yenidənqurma işlərinə qoşulmaq niyyətindədir. Bu ölkənin xarici işlər və ticarət naziri Peter Siyarto bildirib ki, milli “Exim Bank” artıq azad edilmiş Azərbaycan torpaqlarının bərpasında iştirak etmək niyyətində olan Macarıstan şirkətləri üçün 100 milyon dollar məbləğində kredit xətti açıb. Həmçinin İsrail, Yaponiya və İran şirkətləri də yenidənqurma layihələrinə investisiya yatırmağa hazır olduqlarını bildiriblər. [https://ikisahil.az/post/196716-xarici-investorlar-qarabaga-boyuk-maraq-gosterirler]

Qarabağ və Şərqi Zəngəzurda infrastrukturun böyük hissəsi artıq yaradılıb.

Həmin ərazilərdə investisiya mühitinin qurulması üçün növbəti mərhələ sayılan fiziki infrastrukturun böyük hissəsi artıq qurulub. İşğaldan azad olunmuş ərazilər elektrik enerjisi ilə tam təmin olunub. Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları ölkənin vahid enerji şəbəkəsinə qoşulub. Nəqliyyat infrastukturu tam sürətlə bərpa olunmaqla, ölkənin digər şəhər və rayonlarının yol infrastukturu ilə birləşdirilir. Region üçün xüsusi əhəmiyyət kəsb edən Tərtər–Çaylı–Suqovuşan-Talış, Əhmədbəyli–Füzuli–Şuşa avtomobil yolunun (Zəfər yolu) və Laçın şəhərinə daxil olmadan yeni alternativ avtomobil yolunun tikintisi artıq başa çatdırılıb. Digər avtomobil yollarının tikinti və bərpasının 2026-cı ilin

sonunadək başa çatdırılması nəzərdə tutulub. Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının su ilə təmin olunması məqsədilə dövlət proqramında su anbarlarının, suvarma və paylayıcı kanalların, nasos stansiyalarının, subartezian quyularının, hidroqovşaqların və digər su təsərrüfatı obyektlərinin mərhələli şəkildə təmiri, bərpası və yenilərinin tikintisinin 2026-cı ilin sonunadək yekunlaşdırılması planlaşdırılıb. Postkonflikt ərazilərində artıq iki beynəlxalq hava limanı fəaliyyət göstərir. Üçüncü aeroportun - Laçın hava limanının tikintisinin isə iki il ərzində başa çatdırılacağı gözlənilir.

2026-cı ilə qədər xarici investorların (o cümlədən Türkiyə, BƏƏ, İtaliya, Böyük Britaniya və Rusiyadan) fəal cəlb edilməsi hesabına Qarabağdakı layihələrə ayrılan investisiyaların təxminən 10 milyard dollar (ÜDM-in 18%-i) səviyyəsində planlaşdırılır.

Rusiyanın “Qazprombank” bankının Təhlil şöbəsinin müdir müavini, MDB ölkələri üzrə baş iqtisadçı Gülnarə Xaydarşina deyib.

"İnfrastrukturun və sosial əhəmiyyətli obyektlərin modernləşdirilməsi ilə yanaşı, qeyri-xammal məhsullarının istehsalına və ixracına yönəldilmiş yeni sənaye və iqtisadi zonalar yaradılacaq. Bizim hesablamalarımıza görə, 2023-cü ildə Qarabağda layihələr geniş vüsət alacaq və yalnız büdcə deyil, həm də xarici investisiyalar cəlb ediləcək ki, onların iqtisadi artıma töhfəsi 2,5 faiz ola bilər”, - bankın iqtisadçısı vurğulayıb.

Onun sözlərinə görə, iri nəqliyyat marşrutlarının inkişafına yönəlmiş yeni layihələr 2024-cü ilə qədər Azərbaycanın ÜDM-də nəqliyyat sektorunun payını demək olar ki, 20%-ə çatdıracaq. Xatırladaq ki, 2019-cu ildə pandemiyadan əvvəlki dövrdə nəqliyyat sektorunun Azərbaycanın ÜDM-ə töhfəsi 10%-i demək olar ki, ötməyib. [https://report.az/amp/infrastruktur/2026-ci-ile-qeder-qarabagdaki-layihelere-ayrilan-investisiyalar-10-milyard-dollara-catacaq/]

Azərbaycandakı mövcud münbit investisiya mühiti həmişə xarici sahibkarları özünə cəlb edir. Ona görə ki, ölkəmizdə xarici sərmayələrin qorunması üçün mükəmməl qanunvericilik bazası yaradılıb. Bu üzdən dünya iqtisadiyyatındakı çətinliklərə baxmayaraq, Azərbaycan iqtisadiyyatına xarici kapital qoyuluşu davam edir. Hesabat dövrü ərzində xarici müəssisə və təşkilatlar tərəfindən əsas kapitala 560,2 milyon manat vəsait yönəldilib. Xarici ölkələr və beynəlxalq təşkilatların vəsaitləri hesabına əsas kapitala yönəldilmiş vəsaitin 554,7 milyon manatı Birləşmiş Krallıq, ABŞ, Yaponiya, İsveçrə, Türkiyə, Norveç, Malayziya, Hindistan, Rusiya və İran sərmayədarlarına məxsus olub.

44 günlük Vətən müharibəsində torpaqların işğaldan azad edilməsi ölkəmizə xarici sərmayə qoyuluşuna yeni imkanlar yaradır. Belə ki, bu ərazilərdə biznes fəaliyyəti ilə məşğul olmaq üçün 28 ölkədən olan xarici şirkətlər dövlətimizə müraciət edib. Onlar tərəfindən Azərbaycan Kiçik və Orta Biznesin İnkişafı Agentliyinə (KOBİA) 226 layihə təqdim olunub. Bu müraciətlərdə Türkiyə, Rusiya, İsrail və Qazaxıstandan olan sahibkarlar üstünlük təşkil edir.

Dövlət Şərqi Zəngəzur və Qarabağ iqtisadi zonalarında yerli və xarici sahibkarları bərpa-quruculuq işlərində dəstəkləmək üçün müxtəlif stimullaşdırıcı addımlar atır. Gələcəkdə burada çalışan sahibkarlar müxtəlif vergi və rüsumlardan azad oluna bilər. İşğaldan azad edilmiş ərazilərdə bərpa-quruculuq işlərində əsas maliyyə qaynağı dövlət vəsaiti olacaq. Ancaq bu ərazilərə iri məbləğdə xarici investisiya qoyuluşu həyata keçiriləcəyi də heç kəsdə şübhə doğurmur. Ona görə ki, dövlət tərəfindən burada çalışan şirkətlərə hər cür dəstək verilir və onlar da dövlətimizə inanaraq iri layihələrdə iştirak etmək barədə müraciət edirlər.
[https://azerbaijan-news.az/az/posts/detail/isgaldan-azad-edilmis-erazilerde-islemek-ucun-28-olkeden-226-layihe-teqdim-olunub-1649363903]

**Summary**

After the liberation of our lands under occupation, the government of Azerbaijan started to restore these territories destroyed by Armenia. One of the important measures to be implemented in the territories freed from occupation is investment. The "Karabakh Revival Fund" created by President Ilham Aliyev is a very important factor for the attraction of foreign and domestic investments to the liberated territories, economic reconstruction and development.

**Краткое содержание**

После освобождения наших земель, находящихся под оккупацией, правительство Азербайджана приступило к восстановлению этих территорий, разрушенных Арменией. Одной из важных мер, которые необходимо реализовать на территориях, освобожденных от оккупации, являются инвестиции. Созданный президентом Ильхамом Алиевым «Фонд возрождения Карабаха» является очень важным фактором для привлечения иностранных и внутренних инвестиций на освобожденные территории, экономического восстановления и развития.

***İstifadə edilən ədəbiyyatlar:***

1. https://azerbaijan-news.az/az/posts/detail/isgaldan-azad-edilmis-erazilerde-islemek-ucun-28-olkeden-226-layihe-teqdim-olunub-1649363903
2. https://xalqqazeti.az/az/iqtisadiyyat/145369-xarici-investisiyalara-yasil-isiq-yandirilib
3. https://ikisahil.az/post/196716-xarici-investorlar-qarabaga-boyuk-maraq-gosterirler
4. https://interfax.az/view/887623/az
5. https://qdf.gov.az/fealiyyet/prioritetler/153-Qarabagin-investisiya-ve-ishguzar-potensialinin-teshviqi.html
6. https://report.az/amp/infrastruktur/2026-ci-ile-qeder-qarabagdaki-layihelere-ayrilan-investisiyalar-10-milyard-dollara-catacaq/

**Azərbaycan Respublikasında sənaye müəssisələrində müasir sənaye innovasiya istiqamətləri**

**Sumqayıt Dövlət Universiteti**
**Sülhanə Behbudzadə**

**XÜLASƏ**

Azərbaycan Respublikasında innovasiya siyasətinin həyata keçirilməsinə dövlət səviyyəsində çox böyük əhəmiyyət verilir. Məqalədə Azərbaycan Respublikasında sənaye müəssisələrində sənaye innovasiya siyasətinin məqsədi dövlətin iqtisadi cəhətdən uğurlarınn əldə edilməsi üçün sənaye müəssisələrində yaradılan innovasiya proqramları və onlara verilən istiqamətlər önə çıxarılmışdır. Azərbaycan Respublikasının sənaye sektorunun inkişafına bir çox səmərəli proqramların həyata keçirilməsi, dövlətin göstərdiyi dəstələri izah edildiyi qeyd edilmişdir. Sənaye komplekslərində aparılan innovativ inkişaf resursları xüsusi qeyd edilmişdir.

**Açar sözlər:** inkişaf, sənaye, innovasiya, texnologiya, layihə, rəqabət, sənaye parkı, iqtisadi artım.

## GİRİŞ

Ölkənin iqtisadiyyatının və sosial mənfəətini təmin etməkdə mühüm məsələlərdən vacib olanı sənaye sektorunun əhəmiyyəti və onun innovasiyasıdır. Bu məsələlərdə əsas məqamlara iqtisadi əhəmiyyət, iş yaradılması, texnologiyalı inkubatorlar, tədqiqat və innovasiya, texnoloji transfer, infrastrukturun inkişafını nümunə göstərə bilərik. Bu məqamlar Azərbaycan Respublikasının iqtisadiyyatının əsas dayağını təşkil etməklə yanaşı məhsulların istehsalı və xidmətlərin təminatı ilə iqtisadi dövriyyəni nizama salır, əhalinin işsizlik səviyyəsini azaldır, yeni fikirlərin, layihələrin dəstəkləməklə yanaşı bu layihələr sənaye tətbiqinə yeniliklər gətirir, texnoloji transferlər nəticəsində xarici, yeni texnologiyalari sənaye müəssisələrinə tətbiq edərək sektorun inkişafına və beynəlxalq rəqabəti artırmağa kömək edir və bu məqamlar sayəsində sənaye sektorunda proseslərin effektivliyini və məhsulun keyfiyyətini artırır.Ölkəmizdə innovativ fəaliyyətin vəziyyəti cəmiyyət və iqtisadiyyatın mühüm indikatorudur.Bu prioritet məsələlər kimi invesitisiya fəaliyyətinin təkmiləşdirilməsi sosial-iqtisadi məqsədlərə nail olmaq üçün müəyyən edilmişdir.Buna görə də ən mühüm tətbiq məqsədi elmi tətqiqatların tətbiqatının səmərəlilik inkişafıdır. “Səmərəli fəaliyyət göstərən iqtisadi sistem istehsalatda köhnə texnologiyanın fasiləsiz olaraq yenisi ilə əvəz edilməsi və istehsalın müasir dövrün tələbləri səviyyəsində idarə edilməsini tələb edir.İqtisadiyyatda innovasiya sferası struktur dəyişikliklərinin əsas nüvəsi, özəyi hesab olunur və onun inkişaf səviyyəsi milli iqtisadi sistemdə aparılan sürətli və keyfiyyətli dəyişikliklərin müəyyənedici amili kimi çıxış edir ”. [1, s.65].

Verilən məqamların hamısı göstərir ki, sənaye sektorunun Azərbaycan Respublikasında var olan əhəmiyyəti və innovasiyanın rolu, ölkənin sürətli iqtisadi inkişafına və onun sosial məsələlərin həllinə dəstək verir.

**Azərbaycan Respublikasında sənaye innovasiya siyasəti**

Məlumdur ki, müasir innovasiya siyasətinin məqsədləri Azərbaycanın müasir vəziyyətini nəzarət altına alaraq, ölkənin sənaye sektorunda və ümumilikdə iqtisadiyyatın inkişafını dəstək olmaq, innovativ fikirlərin və texnologiyaların irəli sürülməsini təmin etmək, və beynəlxalq rəqabətdə uğur qazanmaqdır. Siyasətin məqsədləri ölkəmizdə öz əhatə çərçivəsində tədbir və proqramlar vastəsi ilə təşkil edilərək

Azərbaycanın sənaye sektorunun və iqtisadiyyatının inkişafına dəstək olur. “Dövlətin innovasiya siyasətinin məqsədi elmi-texniki potensialın inkişafı, rasional yerləşdirilməsi və səmərəli istifadə olunmasından, onun strukturunu formalaşdırmaqdan elm və texnikanın ölkə iqtisadiyyatının inkişafına töhfələrin artırılmasından, mühüm sosial məsələlərin reallaşdırılmasından, maddi istehsal sahəsində müsbət struktur dəyişikliklərinin təmin olunmasından, onun səmərəliliyinin və rəqabət qabiliyyətliliyinin yüksəldilməsindən, ölkənin müdafiə qabiliyyətinin gücləndirilməsi və şəxsiyyətin, cəmiyyətin, dövlətin təhlükəsizliyinin təmin edilməsindən ibarətdir”. [1, s.66 ]

Azərbaycan Respublikasında sənaye sektorunun inkişafını və innovasiyaların tətbiqini dəstəkləmək məqsədi ilə sənaye müəssisələrinə təşviq və ölkənin iqtisadi inkişafına dəstək üçün hazırlanmış və həyata keçirilmiş bir sıra proqramlar vardır. Hansı ki, bu proqramlar sayəsində sənaye sahəsindəki fəaliyyətlər dəstəklənir, yeni investisiyalar cəlb edilir, sənaye sahəsindəki texnoloji yeniliklər tətbiq edilir ki, bunun sayəsində sənaye sektorunun rəqabət gücünün artırılır.Təşviq və dəstək proqramları arasında investisiya təşviqi, texnologiya transferi, investisiya kreditləri və sairə aid edilir. Bu proqramların əsas fəaliyyətinin məqsədi sənaye müəssisələrinin inkişafınə maksimum dəstək göstərmək və ölkənin iqtisadiyyatının və sosial infrastrukturunun inkişafına dəstək olmaqdır.

“Milli innovasiya sisteminin bütün elementlərinin formalaşması və səmərəli qarşılıqlı əlaqəsi dövlətin innovasiya siyasətinin əsas məqsədidir”. [4, s.57 ]

Müasir dövrdə innovasiya ən əsas element kimi çıxış edir. Bunun səbəbi isə makroiqtisadi tarazlığın, iqtisadi inkişafın təmin edilməsi ilə bağlıdır. Respublikamızın sənayesində texnoloji innovasiyaya yatırılan maddi dəstək yolu ilə milli və xarici yeniliklər gətirmişdir. İnnovasiyalı inkişafa keçid cəmiyyətimiz üçün yaradılan hədəflərə çatmaq imkanını genişləndirərək, inkişaf tələblərinə uyğun olaraq iqtisadi artımın yaranmasına imkan verir.İnnovasiya siyasətinin başlıca məqsədi milli innovasiya elementlərinin formalaşması və səmərəli qarşılıqlı əlaqəsidir. İnnovativ siyasət nəyinki iqtisadi inkişaf sürətinə, həmçinin o ölkənin iqtisadi xarakterinə də təsir bağışlayır. İnnovasiya siyasəti dövlət tərəfindən dəstəklənən zaman bir çox kompleks tədbirlər həyata keçirir. Bu kompleks tədbirlərə normativ təşkilati təminat, iştirak edən müəssisənin və ya təşkilatın dəstəyi, beynəlxalq əməkdaşlıq inkişafi və sairə aid etmək mümkündür. “Davamlı iqtisadi inkişaf innovasiyaya, o cümlədən yeni texnika və texnologiyanın mənimsənilməsinə şərait yaradan əlverişli iqtisadi, həmçinin sosial-siyasi mühitin mövcudluğuna əsaslanır”. [1, s.67 ]

Dövlətin innovasiya inkişafının yüksəlməsində investisiya siyasəti də mühüm rol oynayır.bu siyasətin reallaşmasında pul-kredit sisteminin xüsusi yeri vardır. Pul-kredit sisteminin əsas istiqamətləri məzənnədə sabitlik, inflyasiyanın qarşısının alınması, əlverişlı innovativ mühitin yaradılması əsas prioritetlərdən sayılır. “İnnovasiyaya çəkilən xərclərəsasən emal sənayesində proses innovasiyalar sahəsində artmışdır. Belə bir artım innovasiya yönümlü iqtisadiyyatın inkişafına nə qədər diqqət yetirildiyinin əyani sübutudur”. [1, s.70-71 ]

**Müasir sənaye innovasiya istiqamətləri**

Sənaye müəssisələrində sektorun işlək və professionallığını artırmaq, yeni texnoloji texnika tətbiqini genişləndirmək və beynəlxalq səviyyədə texniki professional rəqabətə nail olmaq məqsədi ilə avtomatlaşdırma və robotlaşdırma texnologiyaları təşkil edilir. Bu texnologiyalar sayəsində sənayenin müxtəlif sahələrində tətbiq edilərək, ölkənin sənaye sektorunun inkişafını dəstəkləyir və iqtisadiyyatın diversifikasiyasını təmin edir.Sənaye müəssisələrində avtomatlaşdırmanın texniki, universal vasitələri vardır ki, onların elemetlərinə mikroprosessorlar, yaddaş quruluşlu elemetlər, rəqəmli texniki elemetlər

və sairə aid edilir. Texniki vasitələrin özü isə sinif mexanizmlərinə bölünür, bu mexanizm sinifləri ilkin çeviricilər, avtomatlaşdırma obyektləri və onunla əlaqədə olan icra mexanizmləridir. "Avtomatlaşdırma obyekti ilə onun idarə edilməsi üçün layihələndirilən informasiya və idarəedici sistemlərin qarşılıqlı münasibətlərinə maksimal surətdə nail olmaqdan ibarətdir". [5, s.12 ]

Azərbaycan Respublikasında sənaye sektorunda istifadə olunan texnologiyayardan biri də yenilənən (alternativ) enerji texnologiyalarıdır. Bu yenilənən enerji texnologiyaları enerji istehsalı, istifadəsi və idarə edilməsi sahələrində inkişaf edən vəziyyəti əhatə edir. Hansı ki, bu texnologiyaların məqsədi tez-tez dəyişən enerji mühitində sürətli və effektiv həll yolu təmin etməkdir. Azərbaycan Respublikası sənaye sektorunda yenilənən enerji texnologiyalarına günəş enerjisi, külək enerjisi, hidroelektrik enerji, bioloji yenilənmə enerjisi və enerji səmərəli infrastrukturlar aiddir."Azərbaycan Respublikası Beynəlxalq Bərpa olunan Enerji Agentliyinin (IRENA) Nizamnaməsini imzalamışdır.IRENA-nın əsas məqsədi bərpa olunan enerjinin qlobal səviyyədə geniş və davamlı istifadəsinə təkan vernəkdən ibarətdir". [3, s.22 ]

Azərbaycan Respublikasının Prezidenti 21 oktyabr 2004-cü ildə sərəncam qəbul etmişdir. Qəbul edilən bu sərəncam "Alternativ və bərpa olunan enerji mənbələrindən istifadə edilməsi haqqında" Dövlət proqramı mühüm əhəmiyyət kəsb edir. Dövlət proqramının xüsusi məqsədi isə Respublikamızda bu enerjilərdən səmərəli istifadə etməkdir.Bundan əlavə innovativ texnologiyaların mübadiləsi ölkəmizdə çox geniş yayılmışdır və buna texnoloji transfer adı vermək olar.Texnoloji transfer,elə bir mexanizmdir ki, sənaye müəssisələri tərəfindən yaradılmış innovativ texnologiya, bilik və ya məhsul, hansı ki o başqa bir müəssisə, şirkət tərəfindən istifadə oluna bilir və sənaye tətbiqi üçün dəyişdiriləcək formaya çevrilir. Bu, bir müəssisənin, digər müəssisənin texnoloji təcrübəsindən və biliklərindən faydalanması adlanır.Texnoloji transfer prosesi müxtəlif formada olur.Buna misal olaraq universitetlərdə yaradılan akademik tədqiqatın sənaye tərəfindən ticarətə çevrilməsini , bir texnologiya şirkəti tərəfindən yeni bir məhsulun digər şirkətlərlə lisenziya müqaviləsi ilə paylanmasını, və ya bir ölkədə yaradılan texnologiyaların digər ölkələrə transfer edilməsi və tətbiq olunmasını nümunə göstərə bilərik.Texnoloji transfer, innovativ fikir və texnologiyaların daha böyük bir cəmiyyətin istifadəsinə və tətbiqinə kömək edir, sənaye sektorunun inkişafını təmin edir. Bununla da texnoloji səviyyə artırılır."Azərbaycanda Bakı şəhərində Balaxanı sənaye parkı, Sumqayıt şəhərində Kimya Sənaye Parkı, və Sumqayıt Yüksək Texnologiyalar parkı yaradılmışdır". [2, s.13 ]

Elmi və innovativ infrastruktur kimi hədəflərə çatmaq üçün, sənaye parklarının təşəkkül etdirilməsi, texnoloji inkişafın irəliləməsinə təkan verir.Azərbaycanda texnoloji parklar, inovasiya və texnologiya transferinin təmin edildiyi, start-up-ların, inovativ layihələrin, tədqiqat mərkəzlərinin, mühəndislik firmalarının və sairənin bir araya gəldiyi məkanlardır. Bu gün Azərbaycanda ənənəvi sənaye sektorlarından fərqli olaraq hərbi sənaye, kosmik və bərpa olunan enerji sənayesi sahələri də öz fəaliyyətlərini göstərir. Günümüzdə Orbitə "Azərspace" və "Azərsky" adlı Azərbaycan peykləri çıxarılmışdır. Mingəçevir, Gəncə və Sumqayıtda kimya, toxuculuq və metallurgiya sahələrinin inkişafı, innovasiya infrastrukturu subyektləri açılması üçün bir sıra işlər görülür. "Azərbaycan Polad İstehsalı Kompleksi" QSC respublikanın polad və çuqun məmulatlarına olan daxili tələbatın ödənilməsinə dəstək olur.Bu kompleks 2013-cü ildə yaradılmışdır.

Bu parklar, sənaye sektorunun inkişafını dəstəkləyir, innovativ məhsulların və texnologiyaların yaradılmasına və ticarətə çevrilməsinə kömək edir.Azərbaycanda fəaliyyət göstərən bəzi texnoloji parklar vardır ki, onların fəaliyyət səviyyələri fərqlidir. Bu parklara Bakı Texnoloji parkı, Sumqayıt

Texnoloji parkı, Araz İnnovasiya parkı, Sumqayıt Kimya sənaye parkı, İnnopark, High Tech park misal gətirmək olar. Bu parklar, sənaye müəssisələrinin müasir texnologiyalardan faydalanmasını təmin edir, dövlətin innovasiya potensialını artırır, sənaye sektorunun inkişafına dəstək olur.

Azərbaycanda "Sənaye 4.0" prinsipi elə bir innovativ mədəniyyətin inkişafını ifadə edir ki, burada sənaye sahəsində dijital inkişaf və texnoloji dəyişikliklər ilə sənaye proseslərində, texnologiyalarda və digər dijital texnologiyaların, yəni robotlaşdırma, süni intellekt, nəzarət sistemi, nəqliyyat və şəbəkələşmə, kibernetika və sensor texnologiyalarının geniş tətbiqi ilə bağlıdır. Bu isə sənaye sektorunun müasir texnologiyalardan, data analitikasından, avtomatlaşdırmadan, nəzarət və monitorinq sistemlərindən faydalanması ilə inkişafina təkan verdiyini göstərir. "Sənaye 4.0" prinsipinin tətbiqi ilə sənaye müəssisələri dijital innovasiyalardan maksimum səviyyədə faydalanaraq daha effektiv, səmərəli və rəqabətqabiliyyətli olmasını özündə hədəfləyir.Bununla da istehlak prosesləri təkmilləşir, iş gücünün effektivliyi artır.

## NƏTİCƏ

Azərbaycanda sənaye müəssisələrində innovativ sahədə gələcək üçün bir neçə məsləhət və perspektivlər vardır. Bu perspektivlərə əsasən sənaye müəssisələrinin məqsədi, innovasiya və tədqiqat mərkəzləri ilə əməkdaşlıq etməsidir. Bu mərkəzlər, sənaye sahəsində innovativ fikirlərin dəstəklənməsi, inkişafı və tətbiqi üçün optimal mühitlər təmin edir. Yeni texnologiyaları öyrənmək, inkişaf etdirmək və həmçinin inovativ həlləri həyata keçirmək üçün sənaye müəssisələri bu mərkəzlərlə əməkdaşlıq edərək lazımi resurslara çatmaq imkanına malik olurlar. Bu əməkdaşlıq, sənaye müəssisələrinin inovasiya sürətini artıraraq və müxtəlif sahələrdə yeniliklərin tətbiqinə imkan verərək rəqabət gücünü artırmağa təkan verə bilər.

Başqa bir perspektiv isə sənaye müəssisələrinin araşdırma və inkişaf layihələrinə dəstək verməkdir. Dövlət və özəl sektor tərəfindən bu layihələrə maddi dəstək təmin edilərək və bu sahədə əməkdaşlığın gücləndirmək, sənaye sahəsində innovasiya və yaradıcılığın dərinləşdirilməklə yeniliklər əldə etməyə imkan verə bilər. Bundan əlavə yeni fürsətlərin əldə edilməsi üçün araşdırma və inkişaf layihələrinə maddi dəstək göstərmək, yeni texnologiyaların və həllərin aşkarlanması üçün yeni fikirlərin istifadəsinə dəstək olmaq lazımdır. Bu perspektivlər sənaye müəssisələrinin innovativ inkişaf yolunda irəliləyiş göstərməsinə hətta bu istiqamətlərin həyata keçirilməsində kömək edə bilər.

## ƏDƏBİYYAT


1. Dövlətin innovasiya-investisiya siyasəti. Mahmudova L.F.Sumqayıt 2017. SDU Redaksiya və Nəşr işləri şöbəsi.
2. “Ekspress” qəzeti, 25.04.2013 il nəşri.
3. İnnovasiyanın inkişafında yüksək texnologiyalar. Tağıyev A.H, İsgəndərov R.K. Bakı 2017. “Təknur” MMC-nin mətbəəsi.
4. İnnovasiya siyasəti. Tağıyev A.H, Köçərli H.R. Bakı 2013. “Təknur” MMC-nin mətbəəsi.
5. Sahə texnoloji proseslərinin avtomatlaşdırılması. Bakı 2016. “Poliart” mətbəəsi.


## РЕЗЮМЕ


В Азербайджанской Республике большое значение придается реализации инновационной политики на государственном уровне. В статье целью индустриально-инновационной политики на промышленных предприятиях Азербайджанской Республики является освещение

инновационных программ, созданных на промышленных предприятиях, и направлений, придаваемых им в целях достижения экономических успехов государства. Было отмечен что были даны разъяснения по реализации многих эффективных программ развития промышленного сектора Азербайджанской Республики, оказанной со стороны государства помощи. Особо были отмечены ресурсы инновационного развития, осуществляемые в промышленных комплексах.

**Ключевые слова:** развитие, промышленность, инновации, технологии, проект, конкуренция, индустриальный парк экономический рост..

**ABSTRACT**

In the Republic of Azerbaijan, great importance is attached to the implementation of innovation policy at the state level. In the article, the goal of the industrial innovation policy in industrial enterprises in the Republic of Azerbaijan is to highlight the innovation programs created in industrial enterprises and the directions given to them in order to achieve economic success of the state. It was noted that the implementation of many effective programs for the development of the industrial sector of the Republic of Azerbaijan, and the assistance provided by the state were explained. Innovative development resources carried out in industrial complexes were specially mentioned.

**Keywords:** development, industry, innovation, technology, project, competition, industrial park, economic growth..

**Azərbaycanda demoqrafik vəziyyətin qiymətləndirilməsi və proqnozlaşdırılması**

**Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyası**
**Nəsibzadə Lalə**

Məqalə Azərbaycan Respublikasında əhalinin demoqrafik qocalmasının inkişaf qanunauyğunluqlarının tədqiqinə həsr edilmişdir. Əsər 20-21-ci əsrlərdə əhalinin sayı və yaş strukturunun dəyişmə mərhələlərini araşdırır. əhalinin məhsuldarlıq və ölüm proseslərinin tarixi təkamülü nəticəsində. Məhsuldarlıq və gözlənilən ömür uzunluğu tendensiyalarının təhlili əsasında göstərilir ki, yaş strukturunun qocalmasında indiyədək məhsuldarlığın azalması əsas amil olub, yaşlı yaşlarda isə ölüm hallarının azalması buna ancaq öz töhfəsini verməyə başlayır. proses. Doğuş zamanı cins nisbətindəki anomaliyaların əhalinin sürətlə qocalmasına səbəb olduğu vurğulanır. Göstərilir ki, tədricən qocalma və əmək qabiliyyətli əhalinin xüsusi çəkisinin azalması, habelə əmək qabiliyyətli əhalinin üzərinə düşən demoqrafik yükün artması və birinci demoqrafik divident imkanlarının tədricən tükənməsi başlayır.

**Məqsəd –** Azərbaycanda demoqrafik dəyişikliklərin ümumi tendensiyalarını və xüsusiyyətlərini müəyyən etməkdir.

**Metodologiya –** neft-qaz sənayesində bağlanmış müqavilələrin xüsusiyyətləri, onların nəticələrinin respublika iqtisadiyyatının sosial-iqtisadi inkişafına təsirinin öyrənilməsi, neft gəlirlərindən istifadə edərək qeyri-neft sektorunun inkişafının təmin olunması məsələləri araşdırılmışdır.

**Tədqiqatın nəticələri -** Gələcəkdə regional iqtisadi və mədəniyyət mərkəzlərinə çevriləcək kiçik və orta şəhərlərdə sənaye istehsalının rasional təmərküzləşməsinin təşkili, burada şəhər mühitinin üstünlüklərinin həmin əlverişli cəhətlərlə rasional uzlaşdırılması üçün imkanlar yaradılacaqdır.

***Açar sözlər:****Azərbaycan, yaş strukturu, gözlənilən ömür, doğum səviyyəsi, əhalinin qocalması, əhalinin artım tempi, əhalinin sayı.*

**Giriş**

Ölkənin sosial-iqtisadi inkişaf proqramının uğurla həyata keçirilməsi üçün mühüm ilkin şərtlərdən biri də ailənin möhkəmlənməsinə töhfə verən, analığın qadınların sosial müdafiədə fəal iştirakı ilə birləşməsi üçün daha yaxşı şəraitin yaradılmasına xidmət edən səmərəli demoqrafik siyasət tədbirlərinin ardıcıl surətdə həyata keçirilməsidir. işçi qüvvəsi, insanların ömrünün və əmək fəallığının artırılması. Bu baxımdan istər respublikada, istərsə də onun regionlarında əhalinin inkişafının və sosial-iqtisadi inkişafın öyrənilməsi böyük əhəmiyyət kəsb edir.

Məlumdur ki, ölkədə mövcud demoqrafik vəziyyət ayrı-ayrı regionlar üzrə əhalinin təbii çoxalmasının xarakterində əhəmiyyətli fərqlərlə səciyyələnir. Azərbaycan demoqrafik inkişafda əhalinin təkrar istehsalında münbit şəraitlə yanaşı, nisbətən yüksək doğum səviyyəsi (2021-cu ildə 14,3%), ölüm səviyyəsinin aşağı olması (2021-cu ildə 5,6%), əhalinin artım tempinin və əmək qabiliyyətinin yüksək olduğu respublikalardan biridir. resursları, bir sıra neqativ tendensiyalar da mövcuddur. Onların arasında doğum səviyyəsinin durmadan aşağı düşməsi, bəzi yaş qruplarında ölümün sabitləşməsi və müəyyən səbəblərdən artımı, respublikanın kənd yerlərində gözlənilən ömür uzunluğunun azalması, ərazi və peşə imkanlarının zəifləməsi prosesini xüsusi qeyd etməliyik [2].

Hazırda əksər tədqiqatçılar iqtisadi inkişafın əsasını insan kapitalı və bunun nəticəsində innovativ inkişaf və tərəqqi təşkil edən yanaşmanı dəstəkləyirlər.

Bu yanaşmaya görə demoqrafik dəyişikliklər institusional, siyasi və texniki xarakterli dəyişikliklərə səbəb olur. Siyasi və təbii xarakterli subyektiv amillərə baxmayaraq, demoqrafik artım iqtisadi inkişafa töhfə verə bilər. Beləliklə, müasir baxışlara uyğun olaraq demoqrafik proseslər iqtisadi inkişafın müəyyənedici amilidir. Qeyd etmək lazımdır ki, iqtisadi inkişafın əsas demoqrafik amilləri aşağıdakılardır: məhsuldarlığın dinamikası, ölüm, əhalinin sayı, onun yaş-cins strukturunda dəyişikliklər.

Azərbaycan bazar iqtisadiyyatı şəraitində MDB-nin aparıcı ölkələrindən birinə çevrilməyi bacaran, SSRİ-nin dağılması ilə onun geosiyasi rolu daha da güclənən ölkədir. Azərbaycanda kəndlərin əhəmiyyəti son dərəcə böyükdür.

Azərbaycanda əhalinin daxili miqrasiyası, yəni əhalinin müxtəlif inzibati ərazi vahidləri vasitəsilə müvəqqəti və ya daimi yaşayış məqsədilə ölkə daxilində hərəkəti ilə bağlı statistik məlumat bazası yaradılmayıb. Bununla belə, daxili miqrasiya axınları əhalinin izlənilməsi məqsədilə hüquq-mühafizə orqanları tərəfindən mövcud qanunvericiliyə uyğun olaraq uçota alınır. “Yaşayış yeri və olduğu yer üzrə qeydiyyat haqqında” Azərbaycan Respublikası Qanununun 10-cu maddəsinə əsasən, vətəndaş öz rəsmi yaşayış yerindən kənarda 60 gündən artıq müddətə müvəqqəti yaşamaq istədikdə , /müvəqqəti yaşayış yerinə köçdüyü andan 7 gün müddətində ərizə formasını dolduraraq müvafiq dövlət orqanına təqdim etməlidir.

İqtisadi inkişafın peşəkar planlaşdırılması, xüsusən də ictimai nəqliyyat yüklərinin tarazlaşdırılmış regional inkişafı və etibarlı proqnozlaşdırılması baxımından daxili miqrasiya axınlarına dair statistik məlumatlar toplanmalı və mütəmadi olaraq yenilənməlidir. Xüsusən də Azərbaycan kimi əhalinin böyük əksəriyyətinin kiçik bir coğrafi ərazidə cəmləşdiyi yerlərdə daxili miqrasiya statistikasının olması son dərəcə vacibdir. Təkcə regional inkişaf sahəsində ixtisaslaşmış tədqiqatçılar arasında deyil, hətta gündəlik həyatını yaşayan insanlar arasında da çoxları hesab edir ki, ölkənin regionları boşaldılıb, ölkənin demək olar ki, yarısı paytaxt Bakıya və onun paytaxtına köçüb.

Çox güman ki, hüquq-mühafizə orqanları, ən azı, əhalinin coğrafi bölgüsü ilə bağlı dəqiq məlumatlara malikdir və mərkəzi hökumət daxili miqrasiyanın real mənzərəsini bilir. Bununla belə, rəsmi qurumlar mövzunun ictimai müzakirələri zamanı davamlı olaraq susur. Hökumətin daxili miqrasiya ilə bağlı qeyri-şəffaf davranışının və susmasının səbəbini təxmin etmək çətin deyil. Son 20 ildə hökumətin qurmaq istədiyi uğur hekayələrindən biri də neft pullarından regional inkişafa uğurla sərmayə qoyulan milyardlarla manat, habelə bu layihələr vasitəsilə yaradılan sosial, nəqliyyat və kommunikasiya infrastrukturudur.

**Materiallar və metodlar.**

Əsərdə insan elmlərinin geniş spektri, xüsusilə demoqrafiya və sosiologiya, sosial coğrafiya üzrə tədqiqat aparan həm yerli, həm də xarici alimlərin nəzəri və praktiki tədqiqatlarının materiallarından istifadə olunub. Demoqrafik inkişafın və əhalinin coğrafiyasının öyrənilməsinə və qiymətləndirilməsinə yanaşmalar nəzərdən keçirilərkən ədəbi mənbələrin retrospektiv təhlili metodlarından istifadə edilir. İnduktiv, deduktiv və statistik mülahizələrə əsaslanaraq nəzəri sintez və ümumiləşdirmə metodundan istifadə edilir. Bundan əlavə, demoqrafiyada meta-məqsədlər təyin edilərkən modelləşdirmə metodundan istifadə olunur.

Azərbaycanda mövcud demoqrafik vəziyyət ümumilikdə MDB ölkələri və xüsusilə Avropa ölkələri ilə müqayisədə əhalinin və əmək ehtiyatlarının daha yüksək artım templərini təmin edir. Beləliklə, əgər 1999-2021-cu illər üçün. MDB ölkələrində əhalinin sayı 0,4 faiz, Azərbaycanda 20,4,0 faiz artmış, respublika üzrə əhalinin orta illik artım tempi MDB ölkələri üzrə eyni göstəricidən 2 dəfə yüksəkdir. Əhalinin yüksək artımı xüsusilə respublikanın kənd yerləri üçün xarakterikdir ki, bu da bir sıra sosial, iqtisadi və psixoloji amillərlə, burada yaşayan əhalinin həyat və əmək şəraiti ilə, ən son böyük mədəniyyət ənənələrinin daha sabit qorunub saxlanılması ilə izah olunur.

Bu hal, ilk növbədə, urbanizasiyanın yüksək səviyyədə olması (2021-cu ildə respublikanın şəhər əhalisi ümumi əhalinin 54,6%-ni təşkil etmişdir) və şəhər həyat tərzinin kəndlərə, xüsusən də kəndlərə təsirinin genişlənməsi ilə bağlıdır.

Respublika əhalisi hələ də milli adət-ənənələrin təsiri altında formalaşır və burada yüksək doğum səviyyəsi, zəif miqrasiya hərəkətliliyi və boşanmaların aşağı səviyyəsi şəhərlərlə müqayisədə 2 və daha çox uşağı olan ailələrin xeyli çoxluğunu müəyyən edir (orta uşaq sayı şəhərdə 2,0; kənd yerlərində - 3,0). Azərbaycan Respublikasının müasir şəraitində bütün iqtisadi rayonlarda şəhər və kənd yerləri arasında məhsuldarlıq səviyyəsinin yaxınlaşması prosesi kifayət qədər ardıcıl şəkildə gedir. Əgər 1999-cu ildə kənddə şəhərlə müqayisədə 5,0 nəfər çox idisə, 2021-cu ildə cəmi 2,4 nəfər olmuşdur. (hər 1000 nəfərə), bəzi rayonlarda isə bir

sıra sosial-iqtisadi səbəblərə görə kənd yerlərində doğum səviyyəsi şəhər yaşayış məntəqələrinə nisbətən bir qədər aşağıdır [6].

İntensiv istehsal amillərinin artımı, ölkəmizin əksər hissəsinin şəhərləşmiş ölkələrə xas olan əhalinin təkrar istehsalı növünə keçməsi dövründə onun sağlamlığı baxımından əhalinin keyfiyyət vəziyyətinin əhəmiyyəti artır.

İnsanların sağlamlığının yaxşılaşdırılması mühüm əhəmiyyət kəsb edir". Sağlamlığın vəziyyəti və onun qorunması və möhkəmləndirilməsi üçün həyata keçirilən tədbirlərin səmərəliliyi müxtəlif sosial-demoqrafik qruplar arasında dəyişir və yaşdan, cinsdən, ailə vəziyyətindən, iş şəraitindən, istehsalatdan, peşədən, təhsildən, işin xarakterindən və s. asılıdır. Çox vaxt bu amillər bir istiqamətdə fəaliyyət göstərir və sıralamaq çətindir. Əhalinin sağlamlığını xarakterizə edən mühüm göstəricilər orta ömür uzunluğu və ölümdür. Respublikamızda sonuncu digər MDB ölkələri ilə müqayisədə nisbətən aşağıdır.

Şəhər və kənd əhalisinin gözlənilən ömür uzunluğu və ölüm meyllərinin öyrənilməsi regionlarda məqsədyönlü demoqrafik siyasətin inkişafı üçün zəruri şərtdir, çünki bu, həqiqətən də əldə edilmiş həyat səviyyəsini xarakterizə edir və sağlamlığa və əmək fəaliyyətinə təsir edən bir çox amilləri əks etdirir. əhalinin - yaşayış, iş və gündəlik həyat

Respublikada urbanizasiya gücləndikcə şəhər və kənd arasındakı fərqlərin azaldılması istiqamətində mühüm dəyişikliklər baş verir, eyni zamanda iki yaşayış mühitinin sosial gigiyenası ilə bağlı problemlər yaranır. 1999-2021-cu illər üçün orta ömür uzunluğu göstəricilərinin müqayisəsi. Azərbaycan Respublikasında şəhər və kənd yerlərində meydana çıxan iki əks tendensiyanın mövcudluğunu göstərir. Xüsusilə, bu dövrdə şəhərlərdə artıb, kəndlərdə isə azalıb. Eyni zamanda, şəhər və kənd yerləri arasında gözlənilən ömür uzunluğunda əvvəllər mövcud olan uçurum (0,4 il) indi demək olar ki, tamamilə düzəldilir və yalnız əhəmiyyətsiz bir dəyərə bərabərdir (0,2 il).[8]

Şəhər və kənd əhalisinin ümumi ölüm göstəricilərinin və gözlənilən ömür uzunluğunun yaxınlaşmasına baxmayaraq, bu göstəricilərin yaşa bağlı differensiallaşdırılması kənd həyat tərzinin bəzi üstünlükləri və mənfi cəhətləri haqqında mühakimə yürütməyə imkan verir. Beləliklə, şəhərlərdə uşaq ölümü sahəsində əhəmiyyətli irəliləyişlər əldə edilmişdir, bunun səviyyəsi daha çox sosial-iqtisadi inkişaf amillərindən asılıdır: ixtisaslı tibbi yardımın mövcudluğu, uşaqlara qulluq xidmətlərinin göstərilməsi, mənzil tikintisinin inkişafı, maddi təminat, xidmət sahəsi, valideynlərin əmək şəraiti və s. e. Əgər son 20 ildə respublikanın şəhərlərində hər 1000 doğuşa 1 yaşadək uşaqların sayı 1,6 faiz artmışdırsa. kənd yerlərində isə 10,5% azalıb.

Yaşı 30-a qədər olan kənd sakininin ölüm ehtimalı şəhər sakini ilə müqayisədə daha yüksəkdir ki, bu da sağlamlıq baxımından bu yaş intervalında şəhərin əmək ehtiyatlarının daha keyfiyyətli tərkibini göstərir. Sonuncu, əsasən kənd yerlərində elmi-texniki tərəqqinin müasir vasitələrinin kənd təsərrüfatı istehsalına tətbiqi, onların gündəlik həyatda və məişətdə istifadəsi adekvat şəraitlə müşayiət olunmadığı zaman qəzalar, zəhərlənmələr və xəsarətlər nəticəsində ölənlərin sayının artması ilə izah edilə bilər.

Ölüm nisbətinə məşğul əhalinin əməyinin xarakteri və onun peşəkar statusu əhəmiyyətli dərəcədə təsir göstərir. Tədqiqat müəyyən edib ki, fiziki əməklə məşğul olan insanlar arasında ölüm halları əqli əməklə məşğul olanlar arasında, kənd yerlərində isə əqli əməklə məşğul olanlarla müqayisədə daha yüksəkdir.

Kişilər və qadınlar arasında ölüm nisbəti şəhərlərə nisbətən daha aşağıdır, əl əməyi ilə məşğul olanlar arasında isə əksinə, kəndlərdə, qadınlarda isə kişilərə nisbətən daha yüksəkdir ki, bu da açıq-aydın səbəbdir. kənd təsərrüfatı əməyinin ağır şəraitinin qadınların sağlamlığına daha əlverişli təsiri Kənd təsərrüfatının daha da intensivləşdirilməsi prosesi, kənd sakinlərinin qeyri-kənd təsərrüfatı sahələrinə cəlb edilməsi gənclərin sənaye əməyinin zəruri bilik və bacarıqlarına yiyələnməsinə böyük diqqət yetirməyi tələb edəcəkdir.

Kənd yerlərində əhalinin orta ömür müddətinin azalmasına sosial vəziyyətin mövcud səviyyədə saxlanması nəticəsində baş verən gənclərin (əsasən kişilər) respublikanın şəhərlərinə miqrasiyası müəyyən təsir göstərir. Kənd əhalisinin yaş nisbətinin pozulmasına, onun qocalmasına və nəticədə ümumi ölüm səviyyəsinin artmasına səbəb olan kənd yaşayış məntəqələrinin şəhər yaşayış məntəqələrindən iqtisadi inkişafı, o cümlədən

onların istehsal və sosial infrastrukturu. SSRİ-nin dağılması nəticəsində Azərbaycanın sərhədləri həm keçmiş ittifaq respublikalarından, həm də xaricdən sərbəst giriş üçün tamamilə açıq oldu.[5]

Azərbaycanda iş axtaran iqtisadi mühacirlərin (əsasən Əfqanıstan, Pakistan, Çin və Gürcüstandan olan mühacirlər) sayı 30-40 min nəfərdir. Müharibələrdən və yerli münaqişələrdən qaçaraq sığınacaq üçün müraciət edən rəsmi qeydiyyatdan keçmiş qaçqınların sayı təxminən 3 min nəfərdir. (Bu axının 80%-i Əfqanıstan, Suriya, Pakistan və İraq sakinlərinin payına düşür). Üçüncü qrup miqrantlar - tranzit miqrantlar haqqında məlumat yoxdur ki, onlar üçün Azərbaycan inkişaf etmiş Qərb ölkələrinə nüfuz etmək üçün aralıq mərhələdir. Hökumətin hesablamalarına görə, şəhərdə qanunsuz olaraq 30 minə yaxın əcnəbi var.

Şəhər əhalisi, xüsusən də kişilər arasında 30 ildən sonra ölüm ehtimalının artması urbanizasiyanın mənfi nəticələri ilə izah olunur, yəni əhalinin sıxlığı, havanın çirklənməsi, avtonəqliyyat vasitələrinin doyması və s.

2. Funksiyası maliyyə fəaliyyətini həyata keçirməkdən ibarət olan xüsusi səlahiyyətli dövlət orqanları. Bu dövlət orqanları isə maliyyə fəaliyyətini və maliyyə nəzarətini həyata keçirən orqanlardır. Dövlətin maliyyə fəaliyyətini həyata keçirən orqanları sırasında Azərbaycan Respublikasının Maliyyə Nazirliyi əsas yeri tutur. Nazirlik Azərbaycan Respublikasının maliyyə siyasətini işləyib hazırlayan və həyata keçirən, dövlət maliyyəsinin idarə olunmasını təşkil edən, dövlət və icmal büdcələrin layihələrini hazırlayan və dövlət büdcəsinin kassa icrasını təmin edən, dövlət borcunun və maliyyə öhdəliklərinin idarə edilməsi, mühasibat uçotunun təşkili və aparılması sahələrində dövlət tənzimlənməsinin, dövlət büdcəsi vəsaitindən istifadə, qiymətli metalların və qiymətli daşların istehsalı, emalı və dövriyyəsi sahələrində dövlət nəzarətinin həyata keçirilməsini təmin edən mərkəzi icra hakimiyyəti orqanıdır. [2s2-5]

**Strukturu:**

1) *Dövlət Xəzinədarlığı Agentliyi* - dövlət büdcəsinin kassa icrasını həyata keçirən və həmin maliyyə əməliyyatlarının uçotunu aparan, büdcə xərcləri üzrə dövlətin adından büdcə təşkilatları qarşısında öhdəlikləri qəbul edən, dövlətə məxsus maliyyə vəsaitlərinin vahid mərkəzdən idarə edilməsi, bu vəsaitlərin daxil olması və məqsədyönlü xərclənməsi sahəsində cari nəzarəti həyata keçirən icra hakimiyyəti orqanıdır. *Agentliyin fəaliyyət istiqamətləri aşağıdakılardır*:

a) büdcə təşkilatlarının satın aldığı mallara, qəbul etdiyi iş və xidmətlərə görə qabaqcadan dövlət (büdcə) öhdəlikləri götürür və bu öhdəliklər çərçivəsində satınalmalardan yaranan kreditor borclarının ödənilməsini həyata keçirir;

b) dövlət büdcəsinin icrasını yerinə yetirməklə büdcə gəlirlərinin büdcəyə daxilolmasını və xərclərinin vahid büdcə təsnifatına uyğun olaraq ünvanlı istifadəsini təmin edir;
c) dövlət xəzinədarlığının inkişafını, vahid xəzinə hesabının idarə edilməsini və bu hesabdan vəsaitin silinməsinə sərəncam verilməsini təmin edir;
d) qanunvericiliklə müəyyən edilmiş digər istiqamətlərdə fəaliyyət göstərir.
2) *Dövlət Borcunun və Maliyyə Öhdəliklərinin İdarə Edilməsi Agentliyi* - *"*Dövlət borcu haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq, dövlət borcalmalarının həyata keçirilməsini, dövlət zəmanətlərinin verilməsini təmin edən və dövlət borclarının ödənilməsi sahəsində müvafiq tədbirlər həyata keçirən, habelə dövlət borcunu və maliyyə öhdəliklərini idarə edən və digər vəzifələri həyata keçirən icra hakimiyyəti orqanıdır.
3) *Dövlət Maliyyə Nəzarəti Xidməti*- dövlət büdcəsinin, o cümlədən məqsədli büdcə fondlarının və büdcə təşkilatlarının büdcədənkənar vəsaitlərinin, habelə dövlət zəmanəti ilə alınmış kreditlərin məqsədli və səmərəli xərclənməsi üzərində dövlət maliyyə nəzarətini həyata keçirən icra hakimiyyəti orqanıdır.
*Xidmətin fəaliyyət istiqamətləri aşağıdakılardır:*
a) dövlət büdcəsinin, o cümlədən məqsədli büdcə fondlarının vəsaitlərinin xərclənməsi, habelə büdcə təşkilatlarının büdcədənkənar əməliyyatlar üzrə vəsaitlərinin əldə edilməsi və xərclənməsi üzərində dövlət maliyyə nəzarətini həyata keçirir;
b) dövlət zəmanəti ilə alınmış və dövlət büdcəsinin vəsaiti hesabına verilmiş kreditlərin xərclənməsi üzərində dövlət maliyyə nəzarətini həyata keçirir;
c) Azərbaycan Respublikasında dövlət maliyyə nəzarətinin həyata keçirilməsi işinə metodiki rəhbərlik edir, bu sahədə mövcud olan nöqsanları və neqativ halları doğuran səbəblərin aradan qaldırılması məqsədilə mütəmadi tədbirlər görür və s.
4) *Qiymətli Metallara və Qiymətli Daşlara Nəzarət Dövlət Xidməti* - Azərbaycan Respublikasının ərazisində dövlət əyar nəzarətini və qiymətli metalların və qiymətli daşların istehsalı, emalı, istifadəsi, dövriyyəsi, uçotu və saxlanılması sahəsində dövlət nəzarətini həyata keçirən icra hakimiyyəti orqanıdır. [2s5-7]

**Ədəbiyyat siyahısı**
1) https://www.pa.edu.az/?/az/library/list/14/
2) N.R. Qəhrəmanova. Maliyyə Hüququ. Dərs vəsaiti. Bakı 2021.

# DÜNYANIN QIZIL BAZARLARI

**Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyası**

**Məmmədova Pərvin**

**Xülasə**

Qızıl bazarları qızıl və digər qiymətli metalların alınıb satıldığı ticarət mərkəzləridir. Onlar dünyanın böyük şəhərlərində yerləşirlər və tarix boyu çox vaxt mühüm ticarət mərkəzləri olublar. Bu bazarlar həm turistlər, həm də qızıl ticarəti üçün əhəmiyyətli cazibə mərkəzləridir və yerli iqtisadiyyata əhəmiyyətli töhfələr verir. Onlar qızıl bazarları, ənənəvi əl işləri və qiymətli zinət əşyaları ilə məşhurdur və böyük tarixi, mədəni və iqtisadi əhəmiyyətə malikdir.

**Açar sözlər:** Qızıl,ticarət,mədən,zərgərlik,qiymət,bazar,satıcı.

## Dünya qızıl bazarının tarixi.

Qızıl bazarları tarixi əhəmiyyətli ticarət mərkəzləridir və çox vaxt qızıl və digər qiymətli metalların alınıb satıldığı yerlər kimi tanınır. Bu bazarlar dünyanın müxtəlif sivilizasiyalarının və mədəniyyətlərinin ticarət mərkəzi olmuşdur. Qədim dövrlərdən bəri mövcud olan bu bazarlar zaman keçdikcə iqtisadi, mədəni və sosial əhəmiyyət qazanmışdır.

Xüsusilə, Yaxın Şərq və Asiyada bəzi şəhərlər tarixən məşhur qızıl bazarlarına ev sahibliyi ediblər. Məsələn, İstanbuldakı Qapalı Çarşı və Dubaydakı Qızıl Çarşısı dünyanın ən məşhur qızıl bazarlarındandır. Eynilə Hindistanın Mumbay şəhərindəki Zaveri bazarı da məşhurdur.

Qızıl bazarlarının tarixi ticarət yollarının və mədəni qarşılıqlı əlaqələrin tarix boyu necə inkişaf etdiyini göstərir. Bu bazarlar zamanla müxtəlif sivilizasiyaların ticarətini, mədəniyyətlərini və sərvətlərini bir araya gətirib. Bu gün qızıl bazarları qiymətli metalların ticarəti ilə yanaşı turistlər üçün hələ də əsas cazibə yeridir.

## Qızılın hasilat tarixi.

Qızıl hasilatı tarixən min illərdir mövcud olub, lakin müasir qızıl hasilatı sənayesi 19-cu əsrin ortalarında böyük inkişaf etməyə başlayıb. Qızıl gəlirləri ilə bağlı əsas dövrlər bunlardır:

*1. Qədim Dövrlər*: Qədim dövrlərdən bəri insanlar qızılı çıxararaq və emal edərək istifadə etmişlər. Qədim Misir, Mesopotamiya, Yunanıstan və Roma kimi sivilizasiyalar qızıl hasilatı və emalı ilə məşhurdur. Qızıl zərgərlik məmulatları hazırlamaq, ticarətdə istifadə etmək və pul vahidi kimi istifadə etmək üçün vacib idi.

*2. Orta əsrlər:* Orta əsrlərdə Avropada qızıl hasilatı və emalı davam edirdi. Bundan əlavə, qızıl hasilatı Yaxın Şərq və Asiyada da aparılmışdır. Xüsusilə Mərkəzi Amerikada ispan müstəmləkəçiləri qızıl hasilatı yolu ilə böyük miqdarda qızıl kəşf etdilər.

*3. Qızıl miqrasiyaları və qızıla hücum dövrü:* 19-cu əsrin ortalarında ABŞ (xüsusilə Kaliforniya və Alyaskada) və Avstraliyada qızıl miqrasiyaları baş verdi. Bu dövrdə qızıl hasilatı böyük bir bum yaşadı və bir çox mədənçi qızıl tapmaq üçün bölgəyə axın etdi.

*4. Sənaye İnqilabı:* Sənaye inqilabı ilə qızıl hasilatında istifadə edilən texnoloji və mexaniki avadanlıq təkmilləşdi. Bu dövrdə qızıl hasilatı daha səmərəli oldu və daha çox qızıl çıxarıldı.

*5. Müasir Dövr:* 20-ci əsrin əvvəllərindən başlayaraq qızıl hasilatı müasirləşdi. İri mədən şirkətləri müasir avadanlıq və üsullarla qızıl hasilatını davam etdirirdilər. Bundan əlavə, qızılın iqtisadi və maliyyə sistemində rolu əhəmiyyətli dərəcədə artmışdır.

## Qızılın hasilat prosesi.

Bu gün də qızıl bütün dünyada mühüm dəyər anbarı hesab olunur və bir çox ölkədə mədənçilik fəaliyyəti davam edir. Bununla belə, qızıl hasilatı da müxtəlif ekoloji və sosial problemlərlə üzləşir və davamlılıq problemləri gündəmdədir.
Qızılın "gəlirləri" termini ümumiyyətlə qızılın istehsalından əldə edilən məbləği ifadə edir. Qızıl təbii bir mineraldır və dünyanın bir çox ölkəsində hasil edilir. Qızıl hasilatı yeraltı mədənlərdən və ya çaylardan qızıl filizinin çıxarılması yolu ilə həyata keçirilir.
Qızıl hasilatı əsasən texnoloji və iqtisadi amillərdən asılıdır. Texnoloji tərəqqi və dağ-mədən avadanlıqlarının inkişafı qızıl hasilatının səmərəliliyini artırdı. Bundan əlavə, qızıl qiymətləri də qızıl mədən sənayesinə təsir edən mühüm amildir. Yüksək qızıl qiymətləri mədənçiləri daha çox investisiya qoymağa və yeni ehtiyatlar kəşf etməyə təşviq edə bilər.
Qızıl hasilatı ətraf mühitə təsirlərinə görə də tənqidlə üzləşir. Mədən fəaliyyəti suyun çirklənməsi, torpaq eroziyası və yaşayış mühitinin itirilməsi kimi ekoloji problemlərə səbəb ola bilər.
Qızıldan əldə edilən gəlirlər hər il ölçülür və müxtəlif mənbələrdən toplanmış məlumatlar əsasında hesabat verilir. Dünyada qızıl istehsalı ümumiyyətlə böyük qızıl mədənlərinə, kiçik miqyaslı mədən əməliyyatlarına və qızılın təkrar emalına əsaslanır.
Bununla belə, qeyd etmək lazımdır ki, qızıl hasilatı son dərəcə mürəkkəb bir sənayedir və gəlirə təsir edən bir çox dəyişən var. Bu dəyişənlərə mədən şirkətlərinin strategiyaları, texnoloji inkişaflar, mədənlərin geoloji xüsusiyyətləri, ətraf mühitin mühafizəsi qaydaları və iqtisadi amillər daxildir. Ona görə də qızıldan əldə olunan gəlirlərə geniş perspektivdən baxılmalı və çoxsaylı amillər nəzərə alınmalıdır.

**Qızıl bazarlarının iqtisadi əhəmiyyəti.**

Qızıl bazarları tarix boyu mühüm iqtisadi mərkəz olub və bu gün də bu əhəmiyyətini qoruyub saxlayır. Bu bazarların iqtisadi əhəmiyyətini anlamaq üçün bəzi əsas məqamlar bunlardır:
1. ***Qızıl Ticarəti və Qiymətləndirmə:*** Qızıl bazarları qızıl və digər qiymətli metalların alınıb satıldığı yerlərdir. Bu bazarlar qlobal qızıl ticarətinin mərkəzidir. Qızıl investisiya aləti və zərgərlik məmulatlarının istehsalı üçün tələb olunan bir metaldır. Buna görə də, qızıl bazarları qızılın qiymətinə və ticarətinə böyük təsir göstərir.
2. ***İqtisadi Canlılıq:*** Qızıl bazarları adətən iri şəhərlərin ticarət mərkəzlərində yerləşir. Bu bazarlar yerli iqtisadiyyata əhəmiyyətli töhfələr verir. Qızıl ticarəti bölgədəki iş adamlarının və biznesmenlərin gəlirlərini artırır və məşğulluq yaradır.
3. ***Turizm və Xarici Ticarət:*** Məşhur qızıl bazarları turistlər üçün önəmli yerlərdir. Turistlər yerli mədəniyyətlə tanış olmaq və ənənəvi əl işləri almaq üçün bu bazarlara baş çəkirlər. Eyni zamanda, bu bazarlar xarici ticarətdə də mühüm rol oynayır. Beynəlxalq qızıl ticarəti bu bazarlar vasitəsilə həyata keçirilir.
4. ***Mədəni və Tarixi İrs:*** Bəzi qızıl bazarları min illik tarixə malikdir və mədəni irsin bir hissəsidir. Bu bazarlar keçmiş ticarət yollarının və mədəni qarşılıqlı əlaqələrin izlərini daşıyır. Bu aspektlərdə qızıl bazarları tarix, mədəniyyət və iqtisadiyyat arasında mühüm əlaqədir.
Bütövlükdə, qızıl bazarları iqtisadi cəhətdən mühüm mərkəzlərdir və qlobal ticarətdə həlledici rol oynayır. Hər ikisi yerli iqtisadiyyata töhfə verir və mədəni və tarixi baxımdan qiymətlidir.

**Dünya qızıl bazarının subyektləri.**

Dünyanın bir çox ölkəsində qırmızı bazarlar var. Bu bazarlar ümumiyyətlə böyük şəhərlərdə və turizm bölgələrində yerləşir və yerli iqtisadiyyata əhəmiyyətli töhfə verir. Dünyadakı mühüm qırmızı bazarların bəzi nümunələri bunlardır:

1. Dubay Qızıl bazarı (Dubay, Birləşmiş Ərəb Əmirlikləri): Dubaydakı Qızıl Çarşı dünyanın ən məşhur qırmızı bazarlarından biridir. Bu yer yüzlərlə zərgərlik və qızıl mağazası ilə doludur və ziyarətçilərə qızıl və zərgərlik əşyalarının geniş seçimini təklif edir.

2. Qapalı Çarşı (İstanbul, Türkiyə): İstanbuldakı Kapalıçarşı tarix boyu mühüm ticarət mərkəzi olmuşdur. Bazarda ziyarətçilərə ənənəvi və müasir qızıl zinət əşyaları təklif edən çoxlu qızıl dükanları var.

3. Zaveri bazarı (Mumbay, Hindistan): Mumbaydakı Zaveri bazarı Hindistanın ən böyük və ən qədim qızıl bazarlarından biridir. Bu yer hind toylarında və xüsusi mərasimlərdə istifadə edilən qızıl, eləcə də kommersiya qızıl zinət əşyalarının ticarəti ilə məşhurdur.

4. Qızıl bazarı (Deira, Dubay): Deiradakı Qızıl Çarşı Dubayın digər məşhur qızıl bazarlarından biridir. Bu yer Dubayın tarixi hissəsində yerləşir və çoxlu qızıl dükanları ilə doludur.

5. İpək bazarı (Pekin, Çin): Pekindəki İpək bazarı Çinin ən məşhur ticarət mərkəzlərindən biridir və eyni zamanda qızıl və zinət əşyalarının satıldığı yerdir.

6. Jewelry Quarter (London, Birləşmiş Krallıq): London Zərgərlik Məhəlləsi dünyanın ən qədim və ən böyük zərgərlik bazarlarından biridir. Burada lüks zərgərlik mağazaları və dizaynerlər, eləcə də qızıl topdansatışçılar yerləşir.

Bu bazarlar bütün dünyada qızıl və zərgərlik ticarətinin intensiv olduğu və turistlərin diqqətini cəlb edən mühüm mərkəzlərdir. Hər biri özünəməxsus mədəni və tarixi xüsusiyyətləri ilə unikaldır və yerli iqtisadiyyata mühüm töhfə verir.

**Dünya qızıl bazarının obyektləri.**

Dünyadakı qızıl bazarları adətən qızıl və zinət əşyalarının satıldığı böyük ticarət mərkəzləri və ya bazarlardır. Bu bazarlarda çoxlu müxtəlif qızıl və zərgərlik satıcıları var və adətən bir-birinə yaxın yerləşir. Dünya qırmızı bazarlarında tez-tez rast gəlinən əsas obyektlərdən bəziləri bunlardır:

**1. Qızıl və Zərgərlik Mağazaları:** Qızıl bazarlarının əsas elementlərindən biri qızıl və zərgərlik mağazalarıdır. Bu mağazalarda ümumiyyətlə qızıl boyunbağı, üzük, bilərzik və sırğa kimi zinət əşyaları satılır. Həmçinin almaz, yaqut və zümrüd kimi qiymətli daşlarla bəzədilmiş zinət əşyalarına da rast gəlmək olar.

**2. Gümüş və qiymətli daş satıcıları:** Bəzi qızıl bazarlarında təkcə qızıl deyil, gümüş zinət əşyaları və digər qiymətli daşlar da satılır. Bu dilerlər adətən qızıl mağazalarının yanında və ya eyni ərazidə yerləşir.

**3. Antik zərgərlik və zərgərlik mağazaları**: Bəzi qızıl bazarlarında antik və ya köhnə zərgərlik və zinət əşyaları satan mağazalar da ola bilər. Bu mağazalarda nadir və ya tarixən əhəmiyyətli zərgərlik əşyalarına tez-tez rast gəlmək olar.

**4. Qızılın Topdan Satıcıları və İstehsalçıları:** Bəzi qızıl bazarlarında qızıl topdansatış və istehsalçılarına rast gəlmək olar. Bu müəssisələr tez-tez böyük miqdarda qızıl ticarəti edir və zərgərlik istehsalçılarını xammalla təmin edirlər.

**5. Təmir Sexləri və Xüsusi Dizayn Xidmətləri:** Bəzi qızıl bazarlarında qızıl zinət əşyalarının təmiri və xüsusi dizayn xidmətləri təklif edən müəssisələr ola bilər. Bu emalatxanalar müştərilərin istəyinə uyğun olaraq xüsusi dizaynlı zinət əşyaları istehsal edə və ya zədələnmiş zinət əşyalarını təmir edə bilər.

Bu obyektlər, bütün dünyada qırmızı bazarların canlı və rəngarəng atmosferini yaradır. Hər biri müxtəlif təchizatçılara və müştərilərə xidmət göstərərkən qızıl və zərgərlik ticarətinin müxtəlifliyini və zənginliyini əks etdirir.

**Dünya üzrə ən çox qızıl ehtiyatına malik olan ölkələr.**

Bununla belə, dünyada ən çox qızıl ehtiyatına malik ölkələr ABŞ, Almaniya, İtaliya, Fransa və Çin kimi böyük iqtisadiyyatlardır.

*Şəkil 1. Qızıl ehtiyatlarına görə 2024-cü ilin ilk 10 ölkəsi*




*Mənbə: https://www.statista.com/chart/19123/stockpiling-gold/*

*Şəkil 2. 2010-cu ildən 2023-cü ilə qədər bütün dünyada qızıl mədən ehtiyatları*




*Mənbə:* https://www.statista.com/statistics/1125421/world-mine-reserves-of-gold/

*Cədvəl 1. 2009-2010-c illərdə ən iri şirkətlər tərəfindən qızılın hasilatı*

| Kompaniyaların adları | İllər üzrə hasilat, ton | | Artım/azalma, % |
|---|---|---|---|
| | 2009 | 2010 | |
| Barrick Gold | 230,9 | 241,1 | +4 |
| Newmont Mining | 161,9 | 166,4 | +3 |
| AngloGold Ashanti | 143,0 | 140,0 | -2 |
| Gold Fields | 106,7 | 102,9 | -4 |
| Goldcorp | 75,3 | 79,3 | +5 |
| Newcrest Gold | 49,2 | 73,6 | +50 |
| Kinross Gold | 64,0 | 72,3 | +13 |
| Navoi MMC | 62,0 | 63,0 | +2 |
| Freeport McMoRan | 74,8 | 59,1 | -21 |
| Harmony Gold | 45,2 | 42,1 | -7 |

*Mənbə:* https://anl.az/el/Kitab/2016/Azf-291082.pdf

2009-ъу илдя Чиндя (314 тон), Австралийада (227 тон), АБШда (216 тон) гызыл щасил едилмишдир. 2010-ъу илдя Чин артыг 3-ъц дяфя гызыл щасилаты цзря дцнйа базарында 1905-ъи илдян лидер мювгейиндя олан Ъянуби Африканы сыхышдырараг биринъи йеря чыхмыш – дир. Ъянуби Африкада гызыл щасилаты 9% ашаьы дцшмцш, Латын Америкасында ися Арэентина, Бразилийа вя Мексикада йени лайищялярин щесабына 30 тон артмышдыр. МДБ юлкяляри гызыл щасилатыны 20 тон артырмышдыр ки, бу да яввялки илля мцгайисядя 6% чохдур. ЭФМС консалтинг компанийасынын мялуматларына ясасян, Русийа яразисиндя гызыл истещсалы 2010-ъу илдя хейли (16 тон) артмышдыр. Русийада гызыл щасил едян 16 ширкят вар. Бурада гызыл щасилатынын лидери Полйус Золото ширкятидир ки, базарын 20%-и онун пайына дцшцр. Даща чох гызыл Чукотск МВ, Краснойар дийары вя Амур вилайятиндя щасил едилир. Гызыл щасилатынын азалдыьы юлкялярдян Ъянуби Африка вя АБШ-ы хцсуси гейд етмяк лазымдыр. Бу ики юлкядя щасилатын щяъми топламда 28,4 тон азалмышдыр.

**Nəticə və təklif.**

Qızıl bazarlarının daha da inkişafı üçün bir neçə təklif verə bilərəm:

1. **İnfrastrukturun təkmilləşdirilməsi:** Qızıl bazarlarının infrastrukturunun gücləndirilməsi bizneslərin daha səmərəli fəaliyyət göstərməsinə şərait yarada bilər. Bu, daha müasir və istifadəçi dostu mağazaların yaradılması, təhlükəsizlik tədbirlərinin artırılması və alış-veriş təcrübəsini yaxşılaşdıracaq digər imkanların təmin edilməsi demək ola bilər.
2. **Təhsil və Kvalifikasiyaların artırılması:** Qızıl və zərgərlik sənayesində işçilərin təhsil səviyyələrinin və ixtisaslarının artırılması onlara müştərilərə daha yaxşı xidmət göstərməyə imkan verə bilər. Müştərilərə qızıl haqqında daha çox məlumat vermək və onlara zərgərlik seçimində məsləhət vermək alıcılara daha inamlı və məlumatlı qərarlar qəbul etməyə kömək edə bilər.
3. **Davamlılığın və Etik Standartların Təkmilləşdirilməsi:** Qızıl hasilatı və zərgərlik sənayesi çox vaxt ətraf mühit və etik məsələlərlə əlaqələndirilir. Buna görə də qızıl bazarların davamlılığının və etik standartlarının təkmilləşdirilməsi ətraf mühitə təsirlərin azaldılması və mədən sənayesində sosial problemlərin həlli istiqamətində mühüm addım ola bilər.
4. **Rəqəmsallaşma və Elektron ticarət:** Qızıl bazarlarının rəqəmsallaşdırılması və e-ticarət platformaları ilə inteqrasiya bizneslərə daha geniş müştəri bazasına çatmağa imkan verə bilər. Onlayn satış kanalları vasitəsilə müştərilərə daha geniş çeşiddə məhsullar təklif oluna və alış-veriş təcrübəsini daha əlçatan edə bilərlər.
5. **Turizm və Təbliğat Fəaliyyətləri:** Qızıl bazarlarının turizm potensialını artırmaq üçün tanıtım tədbirlərinin təşkili vacibdir. Turistləri bölgəyə cəlb etmək üçün təsirli tədbirlər, festivallar və ya xüsusi promosyonlar təşkil edilə bilər. Bundan əlavə, bölgədə mehmanxana və yerləşdirmə obyektlərinin inkişafı da turizmi inkişaf etdirə bilər.

Bu tövsiyələr, qızıl bazarlarının daha yaxşı alış-veriş və turizm təcrübəsi təklif etməsini və qızıl sənayesinin daha dayanıqlı olmasını təmin etmək üçün icra edilə bilən addımları əhatə edir.

**Ədəbiyyat**

1. Azərbaycan Respublikasının Sərəncamı, 10 yanvar 2014-ci il. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2013-cü ilin sosial-iqtisadi inkişafının yekunlarına və 2014-ci ildə duran vəzifələrə həsr olunmuş iclası.
2. Azərbaycanın Statistik göstəriciləri. Bakı -2014 il.
3. Bakı Fond Birjasının materialları. www.bse.az
4. Z.F. Məmmədov. Bank işi. Bakı 2014 il.
5. Z.F.Məmmədov "Beynəlxalq valyuta-kredit münasibətləri və xarici ölkələrin pul-kredit sistemi. Bakı-2012 il
6. Azərbaycan Respublikası Mərkəzi Bankının illik hesabatı 2014 il
7. Z.F.Məmmədov, V. Zeynalov "Maliyyə və kredit" Bakı-2007 il.
8. Н.П.Гасанов. «Международные валютно-кредитные отношения» М, Инфо, М. 2006 год.
9. Sepril C. Hatice D. Finansial pazarlar- istanbul, 1997 il.
10. File: \\c\Dokuments and setinqs\ рабочий стол\ Qızıl banklar.az...html.

**İxrac əməliyyatları üzrə öhdəliklərin yerinə yetirilməsinin təhlili**

**Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyası**
**Camalzadə Səkinə**

Ölkənin iqtisadi inkişafında beynəlxalq xarici iqtisadi əlaqələrinin düzgün qurulması mühüm rol oynayır. Xarici iqtisadi əlaqələr dövlətlər arası ixrac və idxal əməliyyatlarının həcmindən birbaşa asılıdır. Hazırda, Azərbaycan Respublikası dünya bazarında xammal ixracatçısı və hazır məhsul idxalatçısı kimi çıxış edir. Xarici iqtisadi əməliyyatlarda mühüm məqamlardan biri də, bağlanmış müqavilələrin şərtlərinə sadiq qalmağı təmin etməkdir ki, bu da öz növbəsində iqtisadi nüfusun yüksəlməsinə zəmin yaradır. Ölkəmizdə xarici ticarətin inkişaf etdirilməsi ilə bağlı addımlar ixrac mallarında hazır məhsulların kütləsinin artırılması və idxalın azaldılması istiqamətində aparılır.

Açar sözlər: Beynəlxalq, ticarət, idxal, ixrac, gömrük, balans, iqtsadi.

İxrac əməliyyatları beynəlxalq əmək bögüsünə əsaslanaraq mal və xidmətlərin ixracını əks etdirən beynəlxalq iqtisadi münasibətlərin formasıdır. İxrac əməliyyatları geri idxal edilməməsi şərti ilə ölkənin gömrük ərazisindən malların ixracıdır. İxrac əməliyyatları dedikdə, yenidən təkrar idxal etməmək şərtilə ölkənin gömrük ərazisindən kənara malların, iş və xidmətlərin ixracı ilə əlaqədar təsərrüfat həyatı faktlarının həyata keçirərəkən yaranan beynəlxalq iqtisadi münasibətlərin forması başa düşülür.

Təhlilin mühüm istiqamətlərindən biri ixrac əməliyyatlarının təsnifatlaşdırılmasıdır. İxrac əməliyyatlarının təsnifatlaşdırılması kriteriyaları bunlardır:

- Bazar ərazisinin əhatə olunması çoğrafiyasından asılı olan ticarətin istiqamətləri;
- Hesablaşma formaları (pul , avans, inkassa hesablaşmaları, akkreditiv hesablaşmalar);
- Ticarət obyektlərinə görə;
- Subyektlərinə və obyektlərinə görə;
- Əməliyyatın həyata keçirilmə xarakterinə görə;
- Malların emalı üsulunua görə.

Həyata keçirilməsi subyektinə görə birbaşa və dolayı ixaracı bir-birindən fərqləndirirlər. Birbaşa ixrac:

- iqtisadi subyektin daxili bölmələrinin ixrac əməliyyatlarının əks etdirilməsi,
- xarici iqtisadi bağlaşmaların digər sahələrində olan ticarət vasitəçiləri vasitəsilə malların satışı formasında həyata keçirilir.

Dolayı ixrac ölkə daxilində vasitəcilər vasitəsilə xarici iqtisadi fəaliyyətin həyata keçirilməsi prosesidir.

**Xarici ticarət dövriyyəsi**

- Ölkənin ixrac və idxalının cəmi xarici ticarət dövriyyəsidir.

**Xarici ticarət balansı**

- Xarici ticarət balansının kəmiyyəti müsbət yaxud mənfi, nadir hallarda sıfır ola bilər. Ticarət balansının saldosunun mənfi olması ticarət balansının passiv, müsbət saldo olması ölkənin ticarət balansının aktiv olduğunu xarakterizə edir. Xarici ticarət balansı tədiyə balansının (Current Account) tərkib hissəsidir.

İdxal və ixrac əməliyyatlarının 2018 və 2022-ci illər arasında dəyişmə tempi: (şəkil1)




İdxal İxrac (şəkil1)

Qrafikdən göründüyü kimi, ixracın həcmi mütəmadi olaraq idxalı üstələyir. Eyni zamanda, ixrac məhsullarının həcmi artan tendensiyada davam edir. Bu isə öz növbəsində xarici iqtisadi ticarətin inkaşına sübutdur.
Müasir dövrdə beynəlxalq ticarət təcrübəsində ümumi qiymət indekslərinin hesablanmasının iki, Laspeyresin - əsas dövrün mallarının müqdarı üzrə çəkili və Paaşenin - cari dövründə malın miqdarı üzrə düsturlarından istifadə edilir.

(1)

$$I_p = \frac{\sum p_1 q_1}{\sum p_0 q_1}$$

(2)

$$I_p = \frac{\sum p_1 q_0}{\sum p_0 q_0}$$

**Laspeyresin düsturu** (1) **Paaşenin düsturu** (2)

**İxracatın öhdəlikləri**

- ixracat mallarının miqdarı yaxud onların fiziki həcmi;
- ixracın dəyəri;
- malların göndərmə müddəti və onların keyfiyyəti;
- göndərmələrin çeşidi və istehlakçı firmalar.

**Xarici ticarət dövriyyəsinin kəmiyyət göstəricilərinin xüsusiyyətləri vardır. Adi natural fiziki ölçü vahidləri başaq malın üç çəkisi ola bilər.**
Brutto çəki - malın daxili və xarici qabı ilə birlikdə çəkisidir. Brutto çəkidən adətən daşımaların həcmini təhlil edərkən istifadə edilir.
Netto çəki - malın daxili qabı ilə çəkisidir. Xarici ticarətin iqtisadi təhlili üçün netto çəkidən tez-tez istifadə edilir.
Netto-leqal çəki - brutto çəkidən müəyyən qabın norma güzəştini çıxmaqla hesablanmış çəkidir. Malı qabdan ayırmaq mümkün olmadıqda bu üsuldan istifadə edilir.
Natural ifadədə mal göndərmələri üzrə müqavilənin yerinə yetirilməsi səviyyəsinin qiymətləndirilməsi üçün bu düsturdan istifadə edilir:

(3)

$$MÖ = \frac{q_1}{q_0}$$

Müqavilə öhdəliklərinin yerinə yetirilmə səviyyəsinin ölçülməsi üçün bu düsturdan istifadə edilir:

(4)

$$MÖYY = \frac{\sum p_1 q_1}{\sum p_0 q_0}$$

İxracatda ən çoxəməkdaşlıq etdiyimiz qitələr: (şəkil 2)




(şəkil 2)

Qrafikə baxaraq demək olar ki, son illərdə ixracın həcminin artmasına səbəb asiya ölkələrinə ixracatın artması ilə əlaqədardır. Bu artımı TANAP və TAP layihələrinin həyata keçirməsi yolu ilə təbii qaz ixracatının artması ilə açıqlaya bilərik. Əlbəttə, ixracat malları dedikdə təkcə təbii qazın adını çəkə bilmərik. Təzə meyvə-tərəvəz, metallurgiya məhsulları kimi bir çox digər məhsullar ixracatda əhəmiyyətli rola malikdir.

**İxracat mal və xidmətlərin rəqabətqabiliyyətliyinin səviyyəsini müəyyən edən texniki-iqtisadi amillər:**

- keyfiyyət və maya dəyəri;
- ticarətin forma və metodları;
- göndərmənin müddəti, şərtləri, qiymət və daşınma;
- texniki xidmətin keyfiyyəti və dəyər;
- təmir, növbəli aqreqatlatəmin edilməsi;
- modanın tələblərinə və yerli bazarın şərtlərinə uyğunluq;
- alıçılarla ödəmələrin və hesablaşmaların növləri və formaları;
- istehsalçıların və satıçıların nüfuzu;
- malın nüfuzu (əmtəə nişanı);
- reklamın səmərəliliyi və s.

**Xarici iqtisadi əlaqələrin dəyərinin dinamikası göstəricilərinə aiddir:**
Dəyər indeksi - firmanın xarici iqtisadi əməliyyatlarının çoxalmasını göstərir.
Qiymət indeksi - qiymət amili nəticəsində müəssisənin xarici iqtisadi əməliyyatlarını dəyərinin dəyişməsini xarakterizə edir.
Fiziki həcm indeksi - idxal və ixrac mallarının miqdarının və quruluşunun dəyişməsini xarakterizə edir.
Miqdar indeksi - göndərmələrin həcminin idxal və ixracın ümumi dəyərinə təsirini göstərir.
Quruluş indeksi - malların idxal və ixracının quruluşunda başa verən dəyişikliyi xarakterizə edir.

## Ədəbiyyat:


12. Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin internet saytı https://www.stat.gov.az/
13. V. M. Quliyev, V. M. Süleymanov “Xarici iqtisadi fəaliyyətin uçotu”. Bakı, 2018-ci il
14. “Malların ixrac qeydi ilə satışı Qaydası”nın təsdiq edilməsi haqqında Azərbaycan respublikası nazirlər kabinetinin qərarı
15. Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi internet saytı https://customs.gov.az/az/
16. S.A.Abbasov «Maliyyə menecmentinin təşkili və təkmilləşdirilməsi problemləri». Bakı, 2009-cu il.

## Azərbaycan Respublikasının bank sistemi

**Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyası**
**Səmədova Leyla**

**Xülasə**

Azərbaycanın bank sistemi — "Banklar haqqında" qanunla tənzimlənir. Qanunvericiliyə əsasən ölkənin bank sistemi ikipilləlidir – Azərbaycan Respublikasının Mərkəzi Bankından və kredit təşkilatlarından ibarətdir. Əsas pilləni təmsil edən Mərkəzi Bank dövlətin mərkəzi bankıdır və onun fəaliyyəti Azərbaycan Respublikasının Konstitusiyası, "Azərbaycan Respublikasının Mərkəzi Bankı haqqında" Qanun, Mülki Məcəllə və digər normativ hüquqi aktlarla tənzimlənir. Qanunvericiliyə uyğun olaraq Mərkəzi Bank – bank fəaliyyətini lisenziyalaşdırır və tənzimləyir, qanunla müəyyən edilmiş qaydada bank fəaliyyətinə nəzarəti həyata keçirir. Bank sisteminin ikinci pilləsini kredit təşkilatları təşkil edir. Kredit təşkilatlarının fəaliyyəti Azərbaycan Respublikasının Konstitusiyası, "Banklar haqqında" qanun, Mülki Məcəlləsi, "Azərbaycan Respublikasının Mərkəzi Bankı haqqında", "Bank olmayan kredit təşkilatları haqqında" və "Kredit İttifaqları haqqında" qanunlar və s. normativ hüquqi aktlarla tənzimlənir.
Bank sektorunun inkişafı səviyyəsini cəmi aktivlərin ÜDM-ə nisbəti ilə də ölçmək olar. Ekspertlərin hesablamalarına görə, iqtisadi cəhətdən zəif inkişaf etmiş ölkələrdə bank sektorunun cəmi aktivlərinin ÜDM-də payı 5%-i ötmür. Azərbaycanda bank sektorunun cəmi aktivlərinin ÜDM-də payı təxminən 32%-ə bərabərdir.

**Summary**

The banking system of Azerbaijan is regulated by the law "On Banks". According to the legislation, the country's banking system is two-tiered - it consists of the Central Bank of the Republic of Azerbaijan and credit institutions. The Central Bank, which represents the main level, is the central bank of the state, and its activities are regulated by the Constitution of the Republic of Azerbaijan, the Law "On the Central Bank of the Republic of Azerbaijan", the Civil Code and other normative legal acts. In accordance with the legislation, the Central Bank - licenses and regulates banking activities, supervises banking activities in accordance with the law. Credit organizations form the second level of the banking system. The activities of credit organizations are governed by the Constitution of the Republic of Azerbaijan, the Law "On Banks", the Civil Code, the laws "On the Central Bank of the Republic of Azerbaijan", "On non-bank credit organizations" and "On Credit Unions", etc. regulated by normative legal acts. The level of development of the banking sector can also be measured by the ratio of total assets to GDP. According to experts' calculations, the share of the total assets of the banking sector in the GDP of economically underdeveloped countries does not exceed 5%. The share of the total assets of the banking sector in the GDP is approximately 32%.

**Açar sözlər:** Bank, Bank sistemi, Mərkəzi Bank, qanun, kredit, aktiv, sektor.

**Giriş**

XX əsrin əvvəlləri XX əsrin əvvəllərində Azərbaycanda borc-bank sisteminin inkişafı, borc verən idarələrin ayrı-ayrı ərazilər üzrə qeyri-bərabər paylanması bəzi rayonlarda bank kapitalının daha çox, digərində isə az cəmlənməsi kapitalist təsərrüfat sisteminə xas olan sənaye kapitalı ilə bank kapitalının çulğaşması ilə xarakterizə olunurdu.Neft sənayesinin XX əsrin əvvəllərindəki dünya böhranının

nəticələrinə məruz qalmış Bakı şəhərində 1909-cu ilə qədər, 1907-ci ildə fəaliyyətə başlayan şəhər xüsusi lombardından başqa, borc verən heç bir yeni idarə açılmamışdı. Neft istehsalının və neft məhsulları ilə ticarətin həcminin azaldığı, gəmiçilikdə yük daşınmasının ixtisara düşdüyü, əməyə tələbatın xeyli azaldığı, vergilərin çoxunun geri qaytarıldığı və bir çox idarənin iflasa uğradığı şəraitdə Rusiya səhmdar kommersiya bankları öz fəaliyyət dairələrini genişləndirmək, Bakı rayonunda yeni şöbələr açmaq istəmirdi. Kredit-bank sistemi 1909-cu ildə neft sənayesi və onunla bağlı istehsal müəssisələri uzunmüddətli durğunluqdan sonra öz fəaliyyətini bərpa etdiyi bir şəraitdə Bakıda kredit-bank sisteminin yeni inkişaf mərhələsi başladı.

1909-cu ildə Sankt-Peterburq Beynəlxalq Kommersiya Bankı Balaxanı kəndində özünün ikinci şöbəsini açdı. 1914-cü il aprelin 15-də ilk yerli səhmdar kommersiya bankı - Bakı Tacir Bankı açıldı. Onun idarə heyətinin sədri Musa Nağıyev, bank şurasının sədri isə H.Z.Tağıyev idi. 1900-1913-cü illərdə Bakıdakı 9 bank kontoru arasında ən mühümləri Əbdül Həmid Ələsgərov, Hacı Şıxəli Dadaşov, H.Z.Tağıyev və Tumanyan qardaşlarına məxsus idi, onlar kommersiya banklarından daha çox ixtisaslaşması ilə fərqlənirdi. Səhmdar bankların inkişafı ilə əlaqədar olaraq onların rolu heçə endi.Bakıda borc (kredit) verən Qarşılıqlı Borcvermə Cəmiyyəti, Şəhər Borcvermə Cəmiyyəti, xəzinəyə və xüsusi şəxsə məxsus olan şəhər lombardı kimi idarələr də fəaliyyət göstərirdi.Gəncə, Şuşa, Şəki, Lənkəran və Naxçıvan kimi ticarət-sənaye mərkəzlərində də kredit-bank sistemi inkişaf edirdi. Bu şəhərlərdəki kredit-bank sisteminin xüsusiyyəti dünya sənaye sistemini bürümüş böhrandan sonrakı durğunluq dövründə də inkişaf etməsi idi. Bunun başlıca səbəbi böhranın, neft sənayesindən fərqli olaraq, yerli sənaye sahələrinə və sənətkarlığa göstərdiyi təsirin zəif olmasında idi. Əvvəlki dövrlərin kapital yığımı sayəsində Şuşada yerli tacirlərin və sənaye sahiblərinin təşəbbüsü ilə 1904-cü ildə ilk kredit idarəsi - Qarşılıqlı Kredit Cəmiyyəti, 1910-cu ildə Volqa-Kama Kommersiya Bankı Tiflis şöbəsinin komisyonerliyi, 1914-cü il iyulun 25-də isə nizamnaməsi hələ 1905-ci ildə təsdiq olunmuş Qarşılıqlı Kənd təsərrüfatı Kredit Cəmiyyəti açıldı.Bank idarələrinin mövcud olduğu Gəncə şəhərində 1905-ci il yanvarın 3-dən Qarşılıqlı Borcvermə Cəmiyyəti, iki ildən sonra isə 1910-cu il yanvarın 1-dən Yelizavetpol Qarşılıqlı Kredit Kommersiya Cəmiyyəti adlandırılan ikinci belə cəmiyyət, həmin il Volqa-Kama Kommersiya Bankı Tiflis şöbəsinin 1913-cü ildən həmin bankın agentliyinə çevrilən komisyonerliyi, 1912-ci il avqustun 16-dan Tiflis kommersiya bankının şöbəsi fəaliyyətə başladı. Şəkidə ilk bank idarəsi - Qarşılıqlı Kredit Cəmiyyəti 1908-ci il mayın 20-də, bir ildən sonra Əhmədov qardaşlarının Banklar Evi və və 1910-cu ildə isə Tiflis Kommersiya Bankının şöbəsi açıldı. Uluxanlıdan İran sərhədinə qədər dəmir yol xətti çəkildikdən sonra XX əsrin əvvəllərində mühüm ticarət mərkəzinə çevrilmiş Culfada 1910-cu ildə Azov-Don Kommersiya Bankının şöbəsi, 1911-ci ildə İran Hesab-Borc Bankının şöbəsi və 1912-ci ildə isə Tiflis Kommersiya bankının şöbəsi yaradıldı. Azərbaycanın başqa şəhərlərində - 1910-cu ildə Naxçıvanda Qarşılıqlı Kredit Bankının şöbəsi, 1911-ci ildə Lənkəranda Rus-Asiya bankının 1913-cü ildə həmin bankın şöbəsinə çevrilən komisyonerliyi, Astarada İran Hesablama-Borc Agentliyinin şöbəsi açıldı.

Kommersiya bankları Kommersiya bankları XX əsrin əvvəllərində Azərbaycanın müxtəlif şəhərlərində fəaliyyət göstərən kredit-bank sistemində əsas həlqə idi. Rusiyanın Azərbaycan ərazisini fəaliyyət mühiti etmiş dövlət və səhmdar torpaq bankları sırasına 1900-cü ildən Don Səhmdar Torpaq Bankı, 1903-cü ildən Yaroslavl-Kostroma Səhmdar Torpaq Bankı, 1907-ci ildən Poltava Səhmdar Bankı, 1906-cı il fevralın 15-dən Kəndli Torpaq Bankın ın Zaqafqaziya şöbəsi daxil idi. Dövlət zadəgan torpaq bankı Zaqafqaziya şöbəsinə öz fəaliyyətini Azərbaycanda yaymağa icazə vermişdi, lakin bankın mərkəzi

idarəsinin siyasəti yerli mülkədar və bəyləri onun müştərisi olmaqdan məhrum etmişdi. Bunun başlıca səbəbi onların imtiyazlısilkə mənsubluğunu və mülklərinin sərhədlər üzrə onların mülkiyyətində olduğunu təsdiqləyən sənədlərin olmaması idi. Yerli və Qafqaz inzibati orqanları bankın mərkəzi idarəsi qarşısında dəfələrlə vəsatət qaldırdığına baxmayaraq, bəylər öz torpaqlarını burada girov qoymaq hüququ ala bilməmişdilər. Yalnız xan nəslindən olanlar və rus əsilzadələri öz torpaqlarını bu banka girov qoya bilərdilər. Kredit (borcvermə) idarələri

Azərbaycanın kredit-bank sisteminin digər bir həlqəsi kiçik kredit (borcvermə) idarələri idi. Rusiyanın, o cümlədən Azərbaycanın kənd təsərrüfatında XX əsrin əvvəllərində kapitalist münasibətlərinin inkişafı ölkədə kiçik kreditin vəziyyətini əsaslı surətdə dəyişməyi tələb edirdi. Çar hökumətinin 1904-cü il iyunun 7-də təsdiq etdiyi "Kiçik kredit idarələri haqqında əsasnamə"yə görə, Rusiya dövlət bankı - kiçik kredit işləri üzrə idarə yaradıldı və ona tapşırıldı ki, kiçik kredit müəssisələri yaradılmasına himayədarlıq, onların fəaliyyətinə nəzarət və rəhbərlik etsin. Bu qanun Rusiyada kiçik kredit idarələri şəbəkəsinin yaradılması işini geniş inkişaf yoluna saldı. Azərbaycanda bu istiqamətdə ilk addımlar 1906-1907-ci illərdə atıldı. Dövlət bankının Tiflis və Bakı şöbələrinin nəzdində kiçik kredit üzrə Bakı və Yelizavetpol quberniya komitələri yaradıldı. Bank şöbələrində çalışan müfəttişlər kəndli təsərrüfatlarının xahişlərini nəzərdən keçirməli, imkan olduqda kiçik kredit müəssisələri açmalı idilər. Kiçik kredit müəssisələri açılması Maliyyə Nazirliyinin 1905-ci ilin noyabrında təsdiq etdiyi Nizamnamə əsasında tənzimlənməli idi. Bu sənəd Azərbaycanda kiçik kredit müəssisələrinin iki növünün - kredit və borc-kredit şirkəti açılmasına yol verirdi. Lakin kiçik müfəttişlərin sayca məhdudluğu, haqq-hesabın yerli dildə aparılmaması, qolçomaq-sələmçilərin müqaviməti və s. ona gətirib ona çıxartdı ki, Azərbaycanda ilk kiçik kredit müəssisəsi yalnız 1908-ci ildə açıldı. 1909-1913-cü illərdə kiçik kredit müəssisələrinin artım mənzərəsi belə idi: 1909-cu ildə 9, 1910-cu ildə 12, 1911-ci ildə 5, 1912-ci ildə 42, 1913-cü ildə 19, ümumiyyətlə isə həmin müddətdə cəmi 86 kiçik kredit müəssisəsi açılmışdı. Kiçik kredit müəssisələrinin çoxu Bakı quberniyasında, 8-i Naxçıvan qəzasında, 2-si isə Zaqatala dairəsində idi. Kredit şirkətləri çoxluq, borc-əmanət şirkətləri isə azlıq təşkil edirdi. Azərbaycanda kiçik kredit müəssisələri şəbəkəsinin genişliyi öz əksini bankir idarələri, qarşılıqlı kredit cəmiyyətləri və Bakı tacir bankı yaradılmasında tapırdı. Bu isə maliyyə oliqarxiyasının hakimiyyətinə gətirib çıxardı.

**Azərbaycan iqtisadiyyatında rolu**

Kredit-bank müəssisələrinin sürətli artımı Azərbaycan iqtisadiyyatında kapitalist inkişafının tələbi ilə şərtlənirdi. Bank kapitalı kredit müəssisələri çoxaldıqca və fəaliyyətlərini genişləndirdikcə yerli sənayenin, ticarət və kənd təsərrüfatının, əhalinin təsərrüfat həyatının bütün sahələrini əhatə edirdi. Girov əvəzinə verilən borclar, bankların fəal əməliyyatının yayılma dairəsinin həcmi və s. bank kreditinin Azərbaycan iqtisadiyyatı ilə nə qədər geniş qovuşduğunu sübut edir.Bakı banklarının, demək olar ki, hamısı əsasən neft sənayesi, ona xidmət edən sənaye sahələri və neft məhsulları ticarəti ilə bağlı idi və onlara xidmət edirdi. Veksel və əmtəə kreditlərinin əsas hissəsi neft sənayesi sahəsinə düşürdü. Çəltik və buğda dəyirmanları, tütün fabrikləri, balıq sənayeçiləri, manufaktura tacirləri, qənd, meyvə, pambıq və s. ilə ticarət edənlər də bank kreditindən geniş istifadə edirdilər.

Rusiya kommersiya banklarının Bakı şöbələri neft sənayesi ilə, yerli sənayenin başqa sahələri və ticarətlə qovuşdu, bank kapitalı sənaye kapitalı ilə qaynayıb qarışdı. Bankların şöbələri kapitalın və inhisarların təmərküzləşməsi prosesini sürətləndirib gücləndirdi, iqtisadiyyatın müxtəlif sahələrindəki qarşılıqlı əlaqələri yüksək dərəcədə qüvvətləndirdi. Bankların şöbələri təsərrüfat həyatının mərkəzinə çevrildi. Bank şöbələrinin Gəncə qrupu 7-10 mln rublluq veksellərin hesabını aparırdı. Gəncədəki bütün

bank şöbələri kənd təsərrüfatının müxtəlif sahələrini, əsasən isə çaxır və araq istehsalını, pambıqçılığı və ipəkçiliyi kreditlə təmin edirdi. Nuxa və Şuşa bankları baramaçılığa və ipək sənayesinə, həmçinin başqa istehsal sahələrinə kredit verirdi. Bank şöbələrinin apardığı veksel hesabının məbləği hər il Nuxada 3-4, Şuşada isə 2-3 mln rubl olurdu. Torpaq banklarının bir qrupu özlərinin 1916-cı ilə qədərki fəaliyyəti dövründə kənd malikanələrini girov götürməklə, Azərbaycanın torpaq sahiblərinə 7 mln rubl uzunmüddətli borc vermişdi. Mülkədarlar bu kapitalın müəyyən hissəsini öz təsərrüfatlarını genişləndirməyə, onları kapitalist yolu ilə inkişaf etdirməyə yönəltmişdilər. Bu banklar, yəni Bakıda fəaliyyət göstərən Bakı şəhər Kredit Cəmiyyəti, Tiflis Zadəgan Torpaq Bankı, Don Torpaq Bankı, Tiflis Zadəgan Bankının Şuşadakı agentliyi, Poltava torpaq bankının Gəncədəki agentliyi həmin şəhərlərdə aparılan inşaat işləri üçün girov müqabilində borc vermişdi. Azərbaycanda fəaliyyət göstərən kiçik kredit müəssisələri 1909-cu ildən 1913-cü ilədək xırda kənd burjuaziyasından olan üzvlərinə 6,5-7 mln rubla qədər borc vermişdi. Bu məbləğ kənd təsərrüfatının müxtəlif sahələrinə qoyulmuşdu.

## Nəticə

Aparılmış araşdırmalardan belə nəticəyə gəlmək olar ki, müharibədən qabaqkı illərdə Azərbaycanda iqtisadiyyatın müxtəlif sahələrinə - sənaye, kənd təsərrüfatı və ticarətə hər il 100-150 mln rubl bank kapitalı yönəldilmişdi. Bank kapitalı Azərbaycan iqtisadiyyatının bütün sahələrinə daxil olmuş, təsərrüfatı aparmaq üsullarını, onun strukturunu, bütün pul münasibətlərinin mahiyyətini dəyişmiş, sənayedə, kənd təsərrüfatında və ticarətdə əmtəə təsərrüfatı və kapitalizmin inkişafını sürətləndirmişdi. 2010-cu ildə bankların aktivlərinin cəmi 13290,81 milyon manat təşkil etmişdir. Orta hesabla bir bankın aktivi 295,35 milyon manata bərabər olub. Ölkənin bank sistemində təmərküzləşmə (konsentrasiya) səviyyəsi 60,7% təşkil edir. 5 bankın (Azərbaycan Beynəlxalq Bankı, Kapital Bank, Bank Standard, Xalq Bank və Paşa Bank) aktivlərinin cəmi bütün aktivlərin 60,7%-ni təşkil edir. Ölkə üzrə bankların nizamnamə kapitalının 39,2%-i, depozitlərin 61,9%-i, kredit portfelinin 58,2%-i adıçəkilən 5 bankın payına düşür. Bank sistemində yeganə dövlət bankı olan Azərbaycan Beynəlxalq Bankıdır. Aktivlərin 41,6%-i Azərbaycan Beynəlxalq Bankına məxsusdur. Ölkə üzrə kredit portfelinin 41%-nə, depozitlərin 36%-nə bu bank nəzarət edir. Yerdə qalan 20 bankın bazar payı 5%-dən də azdır. Bu bankların aktivləri ümumilikdə 639 milyon manat, orta hesabla hər bankın aktivi isə təxminən 32 milyon manata bərabərdir. Ölkə üzrə kredit portfelinin 8,3%-i, depozitlərin 2,5%-i bu bankların payına düşür. Orta hesabla hər bir bankın kredit portfeli 38 milyon Azərbaycan manatı, depozit portfeli isə 6,9 milyon Azərbaycan manatıdır.

**Aqrar sahə istehsalının təşkili və idarə olunmasında dövlət dəstəyinə dair**

**Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyası**
**Rəhimli Hüseyn**

**Xülasə**

Məqalədə kənd təsərrüfatında istehsalın təşkili üçün mövcud olan problemlər araşdırılmışdır. Burada kənd təsərrüfatı məhsulları istehsalı və emalı sahəsində kapital qoyuluşları üzrə daxili investorların imkanlarının məhdudluğu, həmçinin bu yönümdə dövlətin maliyyə yardımı imkanlarının zəifliyi şəraitində daxili ərzaq bazarında əlverişli rəqabət mühitinin formalaşdırılması sahəsində çatışmazlıqların qeyd olunmuşdur. Bununla əlaqədar bir sıra kənd təsərrüfatı məhsullarının reallaşdırılması üzrə antiinhisar tənzimlənməsi tədbirlərinin vaxtlı vaxtında həyata keçirilməsi işlək normativ hüquqi bazanın formalaşdırılmasının qarşıda duran vacib məsələlərdən olduğu bildirilmişdir.

**Açar sözlər: kənd təsərrüfatı məhsulları, təşkili və idarə olunması, aqrar sahə, istehsal.**

Azərbaycan Respublikası dövlət müstəqilliyini bərpa etdikdən sonra ölkə iqtisadiyyatı sosialist təsərrüfatçılıq sisteminin tamamilə tənəzzülə uğradığı bir gerçəkliklə qarşılaşmışdı. Artıq bu iqtisadi sistemin davam etdirilməsinin mənasızlığını görən ümumilli lider Heydər Əliyev bazar iqtisadiyyatına keçilməsini bir mənalı surətdə ortaya qoydu. İlkin olaraq aqrar sahədə həyata keçirilən islahat nəticəsində kənd təsərrüfatında mülkiyyət forması dəyişdirildi, torpaq islahatı həyata keçirildi, kolxoz və sovxoz əmlakı özəlləşdirildi.

Nəticədə əvvəlki, sistemdən fərqli kiçik və orta ölçülü özəl sahibkarlar təbəqəsi formalaşdırıldı. İlk illərdə ölkədə ərzaq qıtlığının aradan qaldırılmasında kənd əhalisinin gəlirlərinin artırılmasında mühüm rol oynayan bu təsərrüfatlar zaman keçdikcə ciddi problemlərlə qarşılaşdılar. Bu çoxsaylı problemlərdən biri və bəlkədə ən əsasları onların maddi texniki baxışlarının zəif olması, maliyyə imkansızlığı, bazar iqtisadiyyat şəraitində istehsalın təşkili və idarə olunma bacarığının olmaması səbəblərindən geniş təkrar istehsal təşkil edə bilməməsindən və sahənin az gəlirliyindən irəli gəlirdi.

İqtisadiyyatın liberallaşdırılması və mərkəzləşdirilmiş proqnozlaşdırma sistemindən imtina edilməsi nəticəsində kənd təsərrüfatı məhsullarının tədarükünü dövlət inhisarından çıxarılması, aqrar bazarın təşkilindəki nöqsanlar, tədarük sistemində azad rəqabət və antihisar mühitindəki qeyri sabitlik və sığorta sisteminin tətbiqi arealının zəif inkişafı təbii olaraq zəif inkişafı təbii olaraq aqrar sahədə sürətli irəlləyişə zəmin yarada bilməmişdir. Başqa sözlə dövlətin bu sahədə son illərdə həyata keçirdiyi proqram xarakterli tədbirlərdən hələ ki, bu istehsal sahəsində ciddi irəlləyişlərin əldə olunmasına imkan yaradıla bilməmişdir. (S.V.Salahov 2005: 45)

Araşdırmalar göstərir ki, kənd təsərrüfatı məhsulları istehsalı və emalı sahəsində kapital qoyuluşları üzrə daxili investorların imkanlarının məhdudluğu, həmçinin bu yönümdə dövlətin maliyyə yardımı imkanlarının zəifliyi şəraitində daxili ərzaq bazarında əlverişli rəqabət mühitinin formalaşdırılması mümkün deyildir. Bununla əlaqədar bir sıra kənd təsərrüfatı məhsullarının reallaşdırılması üzrə antiinhisar tənzimlənməsi tədbirlərinin vaxtlı vaxtında həyata keçirilməsi işlək normativ hüquqi bazanın formalaşdırılması hazırkı şəraitdə ən ümdə məsələlərdəndir.

Məlumdur ki, aqrar sahənin əsas tərkib hissəsi sayılan kənd təsərrüfatının təbii iqlim şəraitindən asılılığı onu riskli bir sahə kimi səciyyələndirir. Ölkənin siyasi inkişaf modelinin dəyişdirilməsi bu sahədə mövcud olan problemləri daha da artırır. Məhz belə bir şəraitdə istehsalın təşkili və idarə olunmasındakı çətinliklərlə yanaşı daxili ərzaq bazarında da dempik siyasəti daha da fəallaşır. Sənaye və kənd təsərrüfatı məhsulları qiymətləri arasındakı nisbət birincilərin hesabına daha da sürətlə artma imkanına malik olur. Bu halda milli iqtisadiyyatın səmərəliliyini yüksəltmək, yerli istehsalçıların maliyyə şəraitini sağlamlaşdırmaq ölkənin ərzaq və iqtisadi müstəqilliyini təmin etmək məqsədilə bütövlükdə aqrar sahənin dövlət tənzimlənməsinə keçid mühüm mahiyyət kəsb edir. (Əhmədov İ.V., Bakı, 2006:321)

Yalnız bu yolla aqrar sahənin dayanıqlı inkişafına keçilə bilər. Kənd ərazilərində aqrar sahənin dayanıqlı inkişafı bu sahənin inkişafının proqnozlaşdırılmasından da bilavasitə asılıdır və bu eyni zamanda aqrar iqtisadiyyatın dövlət tənzimlənməsində mühüm əhəmiyyət kəsb edir. Aqrar sahənin inkişafının proqnozlaşdırılmasının əsas məqsədi aşağıdakılardan ibarətdir (Salahov S.V.2004:75)

- aqrar sahənin iqtisadi səmərəlilik göstəriciləri nəzərə alınmaqla son məhsula olan tələbin səviyyəsinin yüksəldilməsi;
- kənd təsərrüfatında çalışan işçilərin yaşayış səviyyəsinin yüksəldilməsi, sosial ədalətsizliyin aradan qaldırılması, sosial infrastrukturun inkişafına dövlət yardımının əsaslandırılması;
- kənd təsərrüfatı istehsalında istifadə edilən kimyəvi preparatların neqativ təsirlərinin neytrallaşdırılması;
- fizioloji qida normalarına uyğun ərzaq istehlakı strukturunun yaxşılaşdırılması;
- aqrar sahənin məhsullarına olan artan tələbin formalaşdırılmasından.

Bu məqsədlə bazarda tələblə-təklif arasındakı tarazlığın təmin edilməsi xüsusi əhəmiyyətə malikdir.

Dayanıqlı inkişafa nail olunması aqrar sahədə məhsul istehsalının iqtisadi səmərəliliyinin, əmək məhsuldarlığının və kənd təsərrüfatına yararlı torpaqlardan istifadə səviyyəsinin yüksəldilməsinin mütərəqqi texnologiyaların tətbiqi yolu ilə məhsul vahidinə sərf edilən material xərclərinin aşağı salınması, ərzaq və yeyinti məhsulları ticarətində xarici ticarət saldosunun minimuma endirilməsi ilə sıx əlaqədardır. Yeni iqtisadi münasibətlərin formalaşdırılması, istehsalın idarə edilməsinin strukturu və təşkilinin bazar münasibətlərinə uyğun təkmilləşdirilməsi, çoxcəhətli sosial-iqtisadi vəzifələrin həlli istehsalın səmərəliliyinin yüksəldilməsinə yönəlik tədbirlərdəndir.

Aqrar sahədə dayanıqlı inkişafa nail olunmasının ən mühüm prioritetlərindən biri kəndin sosial səviyyəsinin yüksəldilməsilə bağlı zəruri tədbirlərin həyata keçirilməsi və əmək qabiliyyətli əhalinin məşğulluq səviyyəsinin tənzimlənməsidir. Buna da ilk növbədə kadrların ixtisas səviyyəsinin və peşə hazırlığının yüksəldilməsi, kənd əhalisinin gəlirlərinin artırılması, kənd əhalisinin yaşayış səviyyəsinin yaxşılaşdırılması, kəndin sosial infrastrukturunun təkmilləşdirilməsi yolu ilə nail olunmaqdadır.

Dayanıqlı inkişaf eyni zamanda ekoloji mühafizə və ətraf mühitin qorunması ilə bağlı tədbirlər sisteminin həllini özündə əks etdirir. Ekoloji mühitin sağlamlaşdırılması ilk növbədə kənd təsərrüfatı bitkilərinin becərilməsində istifadə edilən mineral gübrələrin, kimyəvi mühafizə vasitələrinin keyfiyyətinin yüksəldilməsini, onlardan istifadəyə nəzarətin gücləndirilməsini, torpaqların meliorasiya vəziyyətinin yaxşılaşdırılmasını nəzərdə tutur.

Kənd təsərrüfatının idarə edilməsi və tənzimlənməsi sahəsində xarici ölkələrin təcrübəsinin öyrənilməsi Azərbaycan Respublikasında yerli özünüidarəetmə səviyyəsində aqrar siyasəti

təkmilləşdirmək və aqrar sənaye istehsalının inkişafina imkan yaradan innovasiya istiqamətlərini üzə çıxarmaq üçün zəruri idi. Çünki yeni təsərrüfatçılıq qurumlarının inkişafı ciddi problemlərlə qarşılaşırdı.

Bu sahədə xarici ölkə təcrübəsinin öyrənilməsi bazar iqtisadiyyatı şəraitində kənd təsərrüfatı məhsulları istehsalının dövlət səviyyəsində idarə edilməsinin və tənzimlənməsinin məqsədləri: ölkədə istehsal edilən kənd təsərrüfatı məhsullarının əsas növləri üzrə tam ərzaq təhlükəsizliyinin təmin olunması; əhalinin münasib (aşağı) qiymətli ərzaq məhsulları ilə təmin edilməsi; və imkanlar yaradılması fermerlərin həyat səviyyəsinin yaxşılaşdırılması, onların gəlirliliyin artırılması, ixracın dəstəklənməsi; ətraf mühitə mənfi təsirinin aradan qaldırılması zəruriyyətindən irəli gəlir.

Xarici ölkələrdə kənd təsərrüfatının idarə edilməsi sistemi dövlət səviyyəsində idarəçilikdən (dövlət tənzimləməsindən) və təsərrüfat səviyyəsində idarəçilikdən ibarətdir. Bu halda dövlət tənzimləməsi kənd təsərrüfatını dövlət və bələdiyyə idarəetmə orqanlarının prioritetli idarəçilik funksiyalarından ibarət olur.

İnkişaf etmiş ölkələrdə təsərrüfat səviyyəsində idarəçilik sistemi kənd təsərrüfatının tərkibinə daxil olan təsərrüfat subyektlərinin kooperasiya və inteqrasiyası əsasında qurulur. Fermer kooperativlərinin, müvafiq ittifaqların və assosiasiyaların sərəncamında iri həcmli anbar yerləri, avadanlıq və kompüter texnikasında istifadə imkanları artır. Bu qurumlar kənd təsərrüfatı məhsullarının yetişdirilməsi, emalı, saxlanması, satışı və başqa fəaliyyət növləri ilə məşğul olan təsərrüfat subyektlərinin təsərrüfat fəaliyyətlərinin asanlaşdırılmasına xidmət edirlər. Onlar emal müəssisələri və ticarət müəssisələri arasında kontraktasiyaya əsaslanan əlaqələri yaradılması və idarə olunmasında əvəzsiz funksiya daşıyıcıları rolunu oynayırlar. (Əhmədov İ.V., Bakı, 2006:506)

Aqrar cəhətdən inkişaf etmiş ölkələrdə dövlət orqanları ilə yerli özünüidarə orqanlarının qarşılıqlı fəaliyyətini və bu halda istifadə edilən iqtisadi, təşkilati və başqa mexanizmləri araşdırarkən məlum olur ki, yerli hakimiyyət orqanlarına özünüidarə hüququ verilmiş olsa da, onların qüvvədə olan milli qanunvericilik çərçivəsindən kənara çıxmaması üçün dövlət hakimiyyəti orqanları yerli hakimiyyət orqanlarının fəaliyyətinə nəzarət etmək funksiyasına malikdirlər.

İnkişaf etmiş xarici ölkələrdə aqrar-sənaye kompleksi sahəsində mərkəzi və yerli idarəetmə orqanlarının qarşılıqlı təsirinin kifayət qədər effektiv modellərindən istifadə edilir. Uzun illər ərzində yaranmış bu modellərin kənd təsərrüfatı məhsulları, xammal və ərzaq istehsalı və satışında tətbiqi müsbət nəticələr verir. Avropa İittifaqının üzvü olan bir sıra ölkələrdə (Fransa, Almaniya, İtaliya və başqaları) yerli orqanların dövlət orqanlarına müəyyən səviyyədə tabeçiliyi sistemi əsasında qurulmuş modellərdə bu orqanların qarşılıqlı vertikalı saxlanılır. Bəzi modellərdə bu orqanların qarşılıqlı təsir imkanları tənzimlənir. Məsələn, ABŞ-da, Böyük Britaniyada tətbiq edilən modellərdə hüquqi baxımdan tabeçilik münasibətləri yoxdur, amma praktikada həm kənd təsərrüfatı məhsullarının istehsalı vaxtı, həm də milli və dünya ərzaq bazarlarında bu məhsullarin satışı zamanı qarşılıqlı əlaqə və böyük asılılıq, əsasən, maliyyə asılılğı mövcuddur. (S.V.Salahov 2004: 120)

Aparılmış müqayisəli təhlillər göstərir ki, müxtəlif ölkələrdə mərkəzi və yerli idarəetmə orqanlarının qarşılıqlı əlaqəsi modellərində müəyyən oxşarlıqlarla yanaşı bərabər prinsipial fərqlər də vardır. Məsələn, Amerika va Alman modelləri arasında yadda qalan ondan ibarətdir ki, bu ölkələrdə təsir vasitələri onların reallaşdılma prinsipləri tamamilə oxşardır. Lakin buna baxmayaraq hər bir yerli orqan bu təsir vasitələrinin yerli fermerlər üçün daha münasib olan formasını seçə bilir. Digər ölkələrin əksəriyyətində dövlət hakimiyyəti orqanları ilə yerli idarəetmə orqanları arasında qarşılıqlı təsir modelləri heçdə mükəmməl sayılmır, çünki həmin ölkələrdə tarixi ənənələr, yerli əhalinin kənd

təsərrüfatı məhsullarına ehtiyacı, kənd ərazilərinin inkişaf səviyyəsi, təbii landşaftların qorunub saxlanması və ən başlıcası kənd əhalisinin yaşayış səviyyəsinin və kənd təsərrüfatı əmtəə istehsalçılarının gəlirlərinin artırılması zərurəti heçdə həmişə lazımi qədər nəzərə alınmır. (S.V.Salahov 2005: 235)

Kənd təsərrüfatına dövlət dəstəyinin artırılması bu sahədə nəinki məhsul istehsalının artırılmasına, həmçinin ölkənin ərzaq təhlükəsizliyini təmin etməklə yanaşı əhali məşğulluğunun səviyyəsinin yüksəldilməsinə, ixrac potensialının və xarici valyuta daxilolmalarının artırılmasında mühüm rol oynaya bilər.

Yuxarıda sadalanan inkişaf etmiş ölkələrin bu sahədəki təcrübəsinə bir daha istinad edərək qeyd edək ki, kənd təsərrüfatı istehsalının iqtisadi-hüquqi tənzimlənmə metodları vasitəsilə stimullaşdırılması dövlətin özünün strateji maraqları naminə həyata keçirilir. Bu xüsusda iqtisadiyyatda dövlət sahibkarlığı terminalogiyasından istifadə olunur. Dövlət sahibkarlığı əslində strateji, lakin rəqabətə davamlılığı aşağı sahələrin stimullaşdırılması, burada iqtisadi aertımın təmin edilməsi, milli sahibkarlığın formalaşdırılması proseslərində dövlətin fəal iştirakını şərtləndirir.

Bir sözlə, qeyd edilən reallıqlar göstərir ki, bazar iqtisadiyyatı şəraitində ölkə üçün vacib və eyni zamanda fəaliyyəti riskli sayılan aqrar sahə dövlət dəstəyi, idarəetmədə dövlət nəzarəti zəruridir və məqbuldur. Yəni bu istehsal sahəsinin çoxsaylı qlobal çətinlikləri yalnız məqsədli dövlət proqramları sayəsində həllini tapmalıdır.

İnkişaf etməkdə olan ölkələrin milli təhlükəsizliyinin təmin olunması onların digər ölkələrdən asılılığının azaldılması, eləcə də siyasi cəhətdən qeyri-stabil şəraitdə cəmiyyətdə sosial sabitliyin qorunması məqsədilə dövlət sahibkarlığına üstünlük verilməsi əslində dövrün tələbidir. Bu baxımdan həmin ölkələrin iqtisadiyyatının aqrar sahəsində dövlət sahibkarlığının və yaxud dövlət-özəl sahibkarlıq formalarının fəaliyyətinə istehsalın stimullaşdırılmasına, yerli kapitalın cəlb edilməsinə daha çox diqqət yetirilməlidir.

Keçid iqtisadiyyatlı ölkələrin 30 illik təcrübəsi göstərir ki, tam bazar iqtisadiyyatına uyğunlaşma prosesi aqrar iqtisadiyyatın hüquqi tənzimlənməsindən, dövlətin iqtisadiyyata müdaxilə dərəcəsindən və tənzimlənmənin metodlarının seçilməsindən birbaşa asılı olur.

Bu aspekt də aqrar sahənin prioritetliyi nəzərə alınmaqla dövlət dəstəyinə aşağıdakı təsnifat verilir:

- maliyyələşdirmə, kreditləşdirmə, vergi, sığorta sistemlərini təkmilləşdirməklə aqrar sahədə əlverişli iqtisadi mühitin yaradılması;
- daxili bazarın xarici təsirlərdən qorunması və fəaliyyətinin tənzimlənməsi;
- xarici iqtisadi fəaliyyətlərdə yerli əmtəə istehsalçılarının maraqlarının qorunması;
- innovativ texnologiyaların tətbiqinin stimullaşdırılması;
- aqrar elmi inkişafına xüsusilə toxumçuluq və seleksiya tədqiqatlarına üstünlük verilməsi;
- kəndin sosial inkişafı və əhalinin sosial müdafiəsinin təmin edilməsi və s.

Kənd təsərrüfatı məhsulları istehsalının artırılması səmərəli tədarük sisteminə və idxalın əlverişsiz təsirlərindən etibarlı qorunma mexanizminə malik ərzaq bazarının formalaşdırılmasından birbaşa asılıdır. Ona görə də sahəyə dövlət qayğısı eyni zamanda aşağıdakı sferalarıda özündə əks etdirməlidir:

- antiinhisar siyasətinin səmərəliliyinin hər vasitə ilə artırılması;
- təbii inhisar sahələrində məhsul istehsalı və xidmətlərdə tənzimləyici qiymətlərin tətbiqi;
- bazarlarda daxili inhisarın nəzarətdə saxlanması;

- dövlət və özəl sektorun qarşılıqlı təsisçiliyi əsasında topdan satış birjalarının formalaşdırılması;
- istehsal və istehlak qiymətlərini tənzimləyən vasitələrdən istifadə yolu ilə inflyasiya risklərinin minimallaşdırılması;
- strateji məhsullar üzrə minimum qiymət hədlərinin tətbiqi və i.a.

Kənd təsrrüfatı istehsalının aşağı gəlirliliyi nəzərə alınmaqla sahənin maliyyələşdirmə-kreditləşdirmə sisteminin tənzimlənməsi məqsədilə girov mexanizmlərinin təkmilləşdirilməsinə və kredit faizlərinin subsidyalaşdırılması məsələlərinədə xüsusi diqqət yetirilməlidir. Bu sahədə ölkəmiz üçün konkret hər hansı bir ölkənin təcrübəsinin birbaşa tətbiqi mümkün nəticə vermədiyindən hazırda Azərbaycanda aqrar sahədə yeni təsərrüfatçılıq sisteminin formalaşması və idarə olunması xarakterik sembioz model əsasında həyata keçirilməkdədir. Lakin zaman keçdikcə ölkənin inkişaf səviyyəsindən asılı olaraq bu modelin təkmilləşdirilməsi zəruridir.

**Ədəbiyyat**


1. Niftullayev V.N. Sahibkarığın əsasları. Bakı, Zaman, 2002, 618 s.
2. Əhmədov İ.V. Kənd təsərrüfatının idarə edilməsi. Bakı, 2006, 880 s.
3. Xəlilov H.A. Aqrar iqtisadiyyatda sistem transformasiyaları və modernləşdirmə şəraiti. Bakı, mütərcim, 2005, 228 s.
4. Salahov S.V. Aqrar sahənin dövlət tənzimlənməsi. Bakı, Nurlar, 2004, 504 s.
5. Salahov S.V. Qloballaşma şəraitində dövlətin aqrar sahədə himayəçilik fəaliyyətinin prinsipləri. Aqrar Elmi jurnalı, 2004, № 4.
6. Xəlilov H.A. Aqrar iqtisadiyyatda sistem transformasiyaları və modernləşdirmə şəraiti. Bakı, mütərcim, 2005, 228 s.



Summary

The article examines the existing problems for the organization of production in agriculture. Here, the limitations of domestic investors' opportunities for capital investments in the field of agricultural products production and processing, as well as shortcomings in the formation of a favorable competitive environment in the domestic food market in the context of the weakness of the state's financial assistance opportunities in this direction, were noted. In this regard, it was stated that the timely implementation of anti-monopoly regulation measures for the realization of a number of agricultural products is one of the important issues ahead of the formation of a functional normative legal framework.



Резюме

В статье рассматриваются существующие проблемы организации производства в сельском хозяйстве. Здесь отмечаются ограничения возможностей отечественных инвесторов по капитальным вложениям в сфере производства и переработки сельскохозяйственной продукции, а также недостатки в формировании благоприятной конкурентной среды на внутреннем продовольственном рынке в условиях слабости финансовой помощи государства. были отмечены возможности в этом направлении. В связи с этим было констатировано, что своевременная реализация мер антимонопольного регулирования реализации ряда сельскохозяйственной продукции является одним из важных вопросов в преддверии формирования функциональной нормативно-правовой базы.

# Ticarət əlaqələrində maliyyə münasibətlərinin tənzimlənməsi və maliyyə nəticələrinin uçotu

**Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyası**
**Əsrar Şahniyarov**

***XÜLASƏ***

*Tezisdə beynəlxalq ticarət münasibətlərinin, idxal və ixrac əməliyyatları arasında tarazlığın qorunmasının dövlətin iqtisadi inkişafına təsiri barəsində ətraflı şəkildə analiz olunmuş, ticarət münasibətlərinin formalaşma mənbələri, ticarət əlaqələrinin qurulması prinsipləri və onun təkmilləşdirilməsi istiqamətində təhlili aparılmışdır.*

***Açar sözlər:*** *beynəlxalq ticarət, idxal, ixrac, beynəlxalq standartlar, mühasibat uçotu, maliyyə münasibətləri*

**Asrar Shahniyarov**
*Azerbaijan Academy of Labor and Social Relations,*
*Graduate student*
shahniyarov65@list.ru

## REGULATION OF FINANCIAL RELATIONS IN TRADE RELATIONS AND ACCOUNTING OF FINANCIAL RESULTS

***RESUME***

In the thesis, the influence of international trade relations, maintaining the balance between import and export operations on the economic development of the state was analyzed in detail, the sources of the formation of trade relations, the principles of establishing trade relations and the direction of its improvement were analyzed.

***Keywords***: international trade, import, export, international standards, accounting, financial relations

### Giriş

Xarici mühit faktorlarının təsiri altında hər bir ölkənin mühasibat uçotu praktikası fərqli şəkildə formalaşır. İqtisadi, tarixi, institusional və mədəni amillərin kompleks qarşılıqlı təsiri bütün ölkələr üzrə mühasibat uçotu praktikasının şaxələndirilməsinə gətirib çıxarır. Bu müxtəliflik qloballaşan kapital bazarlarının və transmilli şirkətlərin təsiri ilə birlikdə mühasibat uçotu sahəsində harmoniyanın zəruriliyini ortaya qoyur. Beynəlxalq Mühasibat Uçotu və Beynəlxalq Maliyyə Hesabatları standartları bütün dünyada mühasibat uçotunun uyğunlaşdırılmasına olan ehtiyacın nəticəsi olaraq yaradılmışdır.

Beynəlxalq ticarət bazarına daxil olarkən, dövlətlərarası ticarət axınları və ölkə qaydalarını bilməklə yanaşı, konkret məhsulun beynəlxalq ticarət əməliyyatlarının uçot qaydalarını və üsullarını bilmək vacibdir. Xarici ticarət müxtəlif ölkələrdə məhsul istehsalçıları arasında əlaqə yaratmağa imkan verən və kommersiya əməliyyatları vasitəsilə malların (o cümlədən xidmətlər və vasitəçilər) dövriyyəsini hədəfləyən prosesdir. Xarici ticarət əməliyyatları ticarəti həyata keçirmək və mübadiləni reallaşdırmaq üçün müxtəlif ölkələrin qarşılıqlı fəaliyyətlərini ehtiva edən mürəkkəbliyə malikdir. Bu əməliyyatlara malların göndərilməsi, ödəniş prosesləri, gömrük rəsmiləşdirilməsi, sığorta tədbirləri və digər logistika mərhələləri daxildir. Hər bir xarici ticarət əməliyyatı konkret məhsulun satışı, maliyyə lizinqi və ya

hasilatın pay bölgüsü formasında ola bilər və bu əməliyyatlar standart alqı-satqı müqavilələri ilə tənzimlənir.

Xarici ticarət ölkələr arasında ticarət müqavilələri ilə xarakterizə edilən fəaliyyətdir. Ölkələrin müxtəlif iqtisadi sistemlərə, bazar strukturlarına və valyutalarına malik olmaları, eyni zamanda coğrafi baxımdan uzaq olmaları beynəlxalq ticarəti daxili ticarətdən fərqli və mürəkkəb edir. Bu səbəbdən də xarici ticarətlə məşğul olacaq qurum və ya fərdlərin beynəlxalq ticarət qaydalarını bilməsi son dərəcə vacib, mühüm məsələdir.

Hər bir ölkə cəmiyyətin rifah halını yaxşılaşdırmaq və artan əhalinin ehtiyaclarını ödəmək üçün mal və xidmətlər istehsal edir. Lakin hər bir ölkənin öz tələbatını ödəmək üçün istehsal potensialı olmaya bilər. Xüsusilə İkinci Dünya Müharibəsindən sonra müstəqilliklərini elan edən və dövlətlərini quran müstəmləkə qruplarının əhalisinin sürətlə artması ilə əmtəə və xidmət istehsalında sürətli irəliləyiş oldu.

Xarici ticarət əməliyyatlarının uçotu ticarət şirkətləri üçün xərclərin və vahid qiymətlərin dəqiq müəyyən edilməsində mühüm rol oynayır. Son illərdə qloballaşmanın təsiri ilə artan xarici ticarət həcmi əməliyyatların maliyyə hesabatlarında dəqiq əksini həm ticarət şirkəti, həm də alqı-satqı edilən biznes üçün kritik hala gətirmişdir.

Xarici ticarətdə müəssisələr arasında etimad maliyyə hesabatlarının əsasını təşkil edir. Dəqiq maliyyə hesabatlarının hazırlanması ilə yanaşı, bu hesabatların tərəflər arasında bərabər şəkildə başa düşülməsi də son dərəcə vacibdir. Xarici ticarət tərəflərinin maliyyə hesabatlarından eyni şeyi başa düşməsini təmin etmək üçün Beynəlxalq Maliyyə Hesabatları Standartlarının (BMHS) böyük əhəmiyyəti məhz buradadır. Bu standartlar beynəlxalq səviyyədə qəbul edilmiş mühasibat dili ilə əməliyyatların dəqiq qeyd edilməsini, təsnifləşdirilməsini və hesabat verilməsini təmin edir. Beləliklə, xarici ticarət müəssisələri ilə ticarət edilən müəssisələr arasında maliyyə məlumatlarının qarşılıqlı başa düşülməsi və müqayisəliliyi artır.

Xarici ticarət daxili ticarətdən daha çox risklidir. Bu vəziyyət coğrafi və siyasi sərhədlərin olması və müxtəlif ölkələrdə yerləşən tərəflər arasında idxalçı ilə ixracatçı arasında əməliyyatın olması səbəbindən yaranır. Lakin tərəflər arasında kifayət qədər məlumatın olmaması risklərə təsir edir və bu risklər ödəniş üsulundan asılı olaraq dəyişə bilər. Risklərin ödəniş üsullarına görə fərqlənməsinin səbəbi ödəniş prosesinin vaxtı, etibarlılığı və tamamlanması ilə bağlı qeyri-müəyyənliklərin olmasıdır. Məsələn, ixracatçı nağd ödənişlərdə riski azaldarkən, idxalçı riski arta bilər. Çünki ixracatçı malı göndərdikdən sonra ödənişi almamaq riski ilə üzləşə bilər. Digər tərəfdən, akkreditiv və ya ödəmə müddəti kimi ödəniş üsullarında risklərin balanslı şəkildə bölüşdürülməsinə çalışılır. Bu riskləri azaltmaq üçün tərəflər arasında etimadın təmin edilməsi və dəqiq məlumatların paylaşılması vacibdir. Bundan əlavə, beynəlxalq ticarətdə istifadə olunan beynəlxalq ödəniş üsulları, sığorta və zəmanət xidmətləri kimi alətlər də riskləri idarə etməyə kömək edə bilər.

İxracatçılar ixrac etdikləri malların dəqiq qiymətini bilməsələr də, ödəməli olan idxalçının ödəmə qabiliyyəti haqqında dəqiq məlumata malik deyillər. Eynilə, idxalçılar müqavilənin predmeti olan malların xüsusiyyətləri haqqında dəqiq məlumata malik ola bilməzlər. İxracatçı ümumiyyətlə malın dəyərini qabaqcadan tələb etmək istəsə də, idxalçı qiyməti malın çatdırılmasından sonra ödəməyə üstünlük verir. Xarici ticarətdə idxalçı və ixracatçının haqlı şübhələrini aradan qaldırmaq üçün idxal və ixrac əməliyyatları ümumiyyətlə sənədlər əsasında aparılır və bank zəmanəti ilə tamamlanır.

Xarici ticarətdəki struktur çətinlikləri və artan rəqabət ödəniş üsullarını vacib edib. Beynəlxalq ticarətin artması ilə alıcılar və satıcılar arasında inam probleminin həlli və ödəniş asanlığının təmin

edilməsi vacib hala gəldi. Bu çərçivədə akkreditiv ödəniş üsulları kimi ödəniş alətlərinin əhəmiyyəti gündən-günə artır. Banklar xarici ticarətdə böyük əhəmiyyət kəsb edir, çünki ixracatçıların mülkiyyət hüququnu ifadə edən sənədlər idxalçılara göndərilərkən ümumiyyətlə banklar vasitəsilə işlənir.

Birbaşa ( ilkin ) ödəniş ixracatçının mal və ya xidmətlərin qiymətini alması üçün bütün ödənişin ixracatçıya çek, nağd və ya öz bankı vasitəsilə köçürmə şəklində edilməsi deməkdir. Hazırda ən asan və etibarlı üsul kimi nağd ödənişə üstünlük verilir. Böyük şirkətlər və maliyyə institutları bu üsuldan tez-tez istifadə edirlər. İxracatçının inhisarda olduğu və ya alıcının əvvəlcədən ödəniş endirimlərindən faydalandığı hallarda avans ödənişlərinə üstünlük verilə bilər. Bu ödəniş üsulu ixracatçı üçün kredit növü kimi xidmət edir. İdxalçı bu vəziyyətdə istehsalın maya dəyərinin maliyyələşdirilməsi baxımından iştirak edir. Bu üsulda idxalçı malın qiymətini milli valyuta ilə öz ölkəsindəki banka yatırır və bank ixracatçının ölkəsindəki müxbir banka ödənişi tapşırır.

Hər bir ölkənin mühasibat uçotu təcrübəsi iqtisadi, tarixi, institusional və mədəni amillərin kompleks qarşılıqlı təsiri ilə formalaşır. Buna görə də mühasibat uçotu təcrübələri ölkədən ölkəyə fərqlidir. Lakin qloballaşan kapital bazarlarının və transmilli şirkətlərin təsiri ilə mühasibat uçotunun uyğunlaşdırılmasına ehtiyac yaranır. Bu ehtiyac beynəlxalq mühasibat uçotu və maliyyə hesabatı standartlarının formalaşmasını təşviq edir. Xarici ticarət əməliyyatları bütün dünyada mühüm rol oynayır və daim artır. Bu vəziyyət beynəlxalq şirkətlərin sayının artması ilə yanaşı, ölkələr arasında mühasibat uçotu təcrübələrindəki fərqləri ortaya qoyur. Bu fərqlər maliyyə məlumatlarının müqayisəsini çətinləşdirir, kapital bazarlarının inkişafına mane olur və beynəlxalq şirkətlərin fəaliyyətini məhdudlaşdırır. Buna görə də ümumi mühasibat dilinin yaradılması zərurəti yaranır. Bu kontekstdə bir çox ölkə və təşkilatlar beynəlxalq ümumi mühasibat uçotu və maliyyə hesabatları standartlarının zəruriliyi ilə bağlı konsensus formalaşdırmağa başlamışlar. Bu standartlar mühasibat uçotu təcrübələrindəki fərqləri aradan qaldırmaqla maliyyə məlumatlarının müqayisəliliyini təmin etmək məqsədi daşıyır. Bu yolla beynəlxalq şirkətlərin fəaliyyəti daha şəffaf və başa düşülən olur, eyni zamanda kapital bazarlarının səmərəliliyi yüksəlir.

**ƏDƏBİYYAT SİYAHISI**


1. Q.Ə.Abbasov, Mühasibat uçotunun nəzəriyyəsi, Bakı-2009
2. Q.Ə.Abbasov, Sıfırdan başlayan mühasibat ( maliyyə ) uçotu, Bakı – 2013
3. M.Ağamalıyev, T.Şükürov “Ticarət müəssisələrinin iqtisadiyyatı”, Bakı – 2010
4. N.R.Quliyev, M.M.Mahmudov “Beynəlxalq maliyyə münasibətləri”, Bakı – 2011
5. Elektron ticarət haqqında Azərbaycan Respublikasının Qanunu, Bakı - 2005

**ELEKTRON BANKÇILIQ**

**Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyası**
**Kazımova Sara**

*Xülasə*

Müasir şəraitdə bütün sahələrə elmi-texniki tərəqqinin nailiyyətləri öz təsirini göstərmişdir. İqtisadiyyatın əsas sahələrindən olan bankçılıq da elmi texniki tərəqqidən bəhrələnmişdir. Vaxt keçdikcə, elektron bankçılıq sistemi  yaranmağa başlamışdır. Məqaləmizdə elektron bankçılıq sistemindən bəhs edəcəyik. Elektron bankçılıq sistemi bizə bank xidmətlərindən distant şəkildə istifadə etməyə imkan yaradır. Onlayn bankçılıqda əməliyyatın təsdiqi müştəri məlumatlarının təhlükəsizliyini və qorunmasını təmin edən müxtəlif autentifikasiya üsullarından istifadə etməklə baş verir. Hər texnoloji yeniliyin olduğu kimi, elektron bankçılığın da özünəməxsus mənfi və müsbət cəhətləri vardır ki, onları da məqaləmizdə təhlil etmişik.

*Açar sözlər: bank, elektron,internet bankçılıq, mobil bankçılıq,parol, tranzaksiya*

**Giriş**

Cəmiyyətdə iqtisadi münasibətlərin rəqəmsal iqtisadiyyatın tələblərinə cavab verən səviyyəyə keçidi sosial həyatın bütün sahələrinə rəqəmsallaşma proseslərinin fəal şəkildə tətbiqi ilə müşayiət olunur. Bank sektorunda bu, distant xidmət texnologiyalarının inkişafında, bank əməliyyatlarının rəqəmsallaşdırılmasında, onlayn bankların sayının artmasında və bank məhsulları və xidmətləri üçün bazarların yaranmasında özünü göstərir.

Elektron bankçılıq müştərilərə bank əməliyyatlarını həyata keçirməyə, eləcə də ofisinə gəlmədən bank məhsul və xidmətlərindən istifadə etməyə imkan verən distant bankçılıq texnologiyası növüdür. Onun əsas üstünlükləri bank xidmətlərində rahatlıq və sürət, həmçinin xərclərin optimallaşdırılmasıdır.

**Elektron bankçılıq formaları**

Bir qayda olaraq, əksər kredit təşkilatlarında elektron bankçılıq iki formanı ehtiva edir:

1. **İnternet bankçılıq.** Bu, müştərilərə kompüterin, mobil telefonun və ya İnternetə çıxışı olan digər cihazın İnternet brauzeri vasitəsilə uzaqdan xidmətə çıxışı təmin edən texnologiyadır. Ondan istifadə etmək üçün bank filialından və ya terminallardan sistemə daxil olarkən daxil etməli olduğunuz login və parol əldə etməlisiniz.
2. **Mobil bank.** Bu, mobil bank proqramları vasitəsilə bank xidmətlərinə daxil olmaq üçün texnologiyadır. Bu interfeys onlayn banka bənzər əməliyyatların siyahısını yerinə yetirməyə imkan verir, lakin daha rahat istifadə formatında fərqlənir. Həmçinin, onlayn bankçılığın bu formasının üstünlükləri arasında müştərilərin təkcə ənənəvi bank məhsullarına uzaqdan daxil olmaq deyil, həm də həm maliyyə (sığorta, investisiyalar və s.), həm də qeyri-maliyyə (məsələn, ərzaq məhsulları) müxtəlif xidmətləri təşkil etmək imkanı daxildir. çatdırılma xidmətləri, onlayn mağazalar və s.). Bu, əksər bankların öz ekosistemlərinin inkişafı sayəsində mümkün olmuşdur.

Onlayn bankçılıqdan yalnız qanuni tələblərə uyğun olaraq müəyyən edilmiş və xüsusi müqavilə imzalamaqla distant bank xidmətlərinə razılıq vermiş bank müştəriləri istifadə edə bilərlər. Elektron

bankda əməliyyatları təsdiqləmək üçün SMS təsdiqi və ya bank push bildirişində alınan kodu daxil etməklə yoxlama tələb olunur.

Mobil bankçılığın köməyi ilə müştəri mobil cihazının internetə çıxışı olan istənilən yerdə olmaqla, konkret bankda buraxılan məhsullarının vəziyyətini uzaqdan izləyə bilən şəxsi hesabına giriş əldə edir. Mobil bankçılıq hesab və depozit qalıqlarına nəzarət etmək, kreditləri ödəmək, ödənişlər etmək və vəsait köçürmək imkanı verirmi? Digər əməliyyatları yerinə yetirin.

Bu imkan xüsusilə təcili olaraq bu və ya digər hərəkəti yerinə yetirmək zərurəti yarandığı, lakin stasionar İnternet bankçılıq sistemi vasitəsilə bank filialı ilə əlaqə saxlamaq və ya əməliyyat həyata keçirmək mümkün olmadığı vəziyyətlər üçün aktualdır. Hazırda əksər maliyyə institutları öz müştərilərinə mobil bankçılıq xidmətlərini pulsuz, bəziləri isə nominal ödənişlə təqdim edirlər.

**İnternet bankçılığın xüsusiyyətləri**

İnternet bankçılığın necə işlədiyini öyrənmək üçün müştəri öz bankının sistemində qeydiyyatdan keçməli və loqin və parol kimi şəxsi etimadnaməsini almalıdır. Daha sonra brauzer və ya mobil proqram vasitəsilə daxil ola bilər. Bu daxil olma hər hansı bir cihaz vasitəsilə ola bilər - smartfon, PC, planşet və ya noutbuk.

Onlayn bankçılıqda əməliyyatın təsdiqi müştəri məlumatlarının təhlükəsizliyini və qorunmasını təmin edən müxtəlif autentifikasiya üsullarından istifadə etməklə baş verir.

Ən çox yayılmış üsul birdəfəlik parollardan (OTP) istifadə etməkdir. Müştəri məhdud müddət ərzində yalnız bir dəfə etibarlı olan unikal kod alır. Müəyyən bir əməliyyatı, məsələn, pul köçürməsini təsdiqləyə bilərsiniz. Parol istifadəçiyə SMS və ya push bildirişi vasitəsilə göndərilir. Xüsusi cihazda e-poçt və ya nəsil vasitəsilə göndərməyə də icazə verilir.

Təhlükəsizlik iki faktorlu autentifikasiya vasitəsilə də təmin edilir ki, bu da iki müstəqil şəxsiyyət yoxlama metodunu tələb edir. Məsələn, müştəri öz istifadəçi adı və şifrəsini daxil edir, sonra sistemə daxil olmaq üçün daxil edilməli olan birdəfəlik kodla SMS alır.

Tranzaksiyaların yoxlanılmasının digər yollarına biometriklərin (məsələn, barmaq izinin skan edilməsi və ya sifətin tanınması) və USB açarları və ya smart kartlar kimi xüsusi cihazların istifadəsi daxildir.

**Necə qoşulmaq və daxil olmaq olar?**

Artıq bu bankda xidmət göstərən, məsələn, kartdan istifadə edən mövcud müştəri İnternet bankçılığına qoşula bilər. Bir qayda olaraq, bu aşağıdakı addımları tələb edir:

- Brauzerdə bankın rəsmi saytını açın və ya İnternet bankinq proqramını mobil telefonunuza endirin. Proqramı yükləmək üçün yalnız rəsmi smartfon mağazasını və ya bank vebsaytını seçin.
- Saytın əsas səhifəsində İnternet bankçılığına həsr olunmuş bölməni tapın və mobil proqramda qeydiyyata və ya daxil olun.
- Yeni müştəri olmağınızdan və ya artıq qeydiyyatdan keçməyinizdən asılı olaraq “Qeydiyyatdan keç” və ya “Giriş” linkinə klikləyin.

Əgər yeni müştərisinizsə, qeydiyyatdan keçmək üçün təlimatlara əməl edin, qeydiyyat formasını doldurmalı, hesab yaratmalı və parol təyin etməlisiniz.

Əgər siz artıq qeydiyyatdan keçmisinizsə, xidmətə daxil olmaq üçün istifadəçi adı və parol kimi etimadnaməsini daxil edin. Bəzi hallarda sizdən SMS vasitəsilə alınan və ya əlavə cihaz tərəfindən yaradılan birdəfəlik parol kimi əlavə təhlükəsizlik kodu təqdim etməyiniz tələb oluna bilər.

Sistemdə uğurlu avtorizasiyadan sonra müştəri öz bank hesabına giriş əldə edir və bütün xidmət seçimlərindən istifadə edə bilər. Bəzi banklar onlayn İnternet bankçılıqda özünü qeydiyyatdan keçirməyə icazə vermirlər, giriş və parol almaq üçün pasportunuzla ofisə getməlisiniz;

Müştəri onlayn bankçılıq sisteminə qoşulmaqda və ya daxil olmaqda çətinlik çəkirsə, əlavə yardım və təlimatlar üçün bankın dəstək komandası ilə əlaqə saxlamaq tövsiyə olunur. Nəzərə alın ki, sanksiyalara görə bir çox bankların tətbiqləri Apple texnologiyasının istifadəçiləri üçün əlçatan deyil. Bu halda, ofisə baş çəkmək lazımdır, bir mütəxəssis proqramı quraşdırmağa kömək edəcəkdir. Və ya saytın mobil versiyasından istifadə edə bilərsiniz.

**İnternet bankçılıq nə dərəcədə təhlükəsizdir?**

Hər bir bank bank hesablarına və müştərilərin ödəniş məlumatlarına icazəsiz girişin qarşısını almaq üçün xeyli iş görür. Bura fişinq, fırıldaqçılıq və zərərli proqramlardan qorunma daxildir.

Təhlükəsizliyi təmin etmək üçün müxtəlif texnologiya və üsullardan istifadə olunur:

- giriş zamanı iki faktorlu autentifikasiya;
- birdəfəlik parol ilə əməliyyatların təsdiqi;
- ekranda balansların görünməsini gizlətmək;
- ödəniş məlumatlarının şifrələnməsi;
- bankın mühafizə xidməti tərəfindən şübhəli əməliyyatların və ya hesabların dondurulması;
- əməliyyat nəzarəti üçün əməliyyatlar barədə bildirişlər;
- qısa müddətdən sonra ərizəyə və ya onlayn bankçılığa aktiv girişin bloklanması;
- kartın itirilməsi halında istifadəçi tərəfindən xərcləmə limitinin məhdudlaşdırılması.

İnternet bankçılıqdan necə təhlükəsiz istifadə etmək olar:

- Özlərini bank və ya dövlət qurumunun nümayəndələri kimi təqdim etsələr belə, heç vaxt giriş məlumatlarınızı və ya parollarınızı üçüncü tərəflərlə paylaşmayın. Bank heç vaxt kartın parolunu, birdəfəlik kodunu, PİN və ya CVV kodunu tələb etməyəcək.
- Təfərrüatlarınızı daxil etməzdən əvvəl onlayn bank URL-nizi diqqətlə yoxlayın. Fişinq saxta səhifəsində deyil, bankın rəsmi saytında olduğunuzdan əmin olun. Brauzer çubuğunda URL-in orfoqrafik yazısını, https-in və onun qarşısında asma kilid işarəsinin olmasını yoxlayın. Səhifənin özündə dizaynı və qrafikləri qiymətləndirin, eləcə də səhvlər və qırıq bölmələr fişinq əlamətidir.
- Mobil cihazlarda onlayn bankçılığı əldə etmək üçün yalnız rəsmi bank proqramından istifadə edin. Etibarsız mənbələrdən proqramları yükləməyin və ya quraşdırmayın.
- Şübhəli fəaliyyət üçün mütəmadi olaraq e-poçtunuzu və bankınızdan gələn mesajları yoxlayın. Qəribə bir şey tapsanız, dərhal bankınızla əlaqə saxlayın.
- Şübhəli əməliyyat görsəniz və ya dələduzluğun qurbanı olsanız, dərhal bankınızla əlaqə saxlayın və hadisə barədə məlumat verin. Zərərçəkmiş müraciəti nə qədər tez alırsa, pulu dərhal geri almaq şansı bir o qədər yüksəkdir. İki saat ərzində əməliyyat sadəcə ləğv edilə bilər.
- Məlumatlarınızı və bank məlumatlarınızı müntəzəm olaraq xarici yaddaş qurğusuna ehtiyat nüsxəsini çıxarın ki, o itirilərsə və ya sındırılarsa, ehtiyat nüsxəniz olsun.
- Cihazınızın zərərli proqramla yoluxduğunu görsəniz, dərhal onu skan edin və antivirus proqramından istifadə edərək lazımsız hər şeyi silin.
- İctimai əlçatan kompüterlər və ya cihazlar vasitəsilə maliyyə əməliyyatları aparmayın, çünki onlar viruslara yoluxa bilər. Eyni qayda ictimai WiFi-yə də aiddir, bank sisteminə daxil olarkən yalnız şəxsi İnternet çıxış nöqtələrindən istifadə edin

- Ən son təhdidlər və ehtiyat tədbirləri haqqında xəbərdar olmaq üçün internet bankçılıq təhlükəsizlik xəbərlərini izləyin. Proqramı vaxtında yeniləyin.
- Giriş parolunuzu və ya proqram qısa kodunu mütəmadi olaraq dəyişdirin. Sadə, asan oxunan birləşmələrdən istifadə etməyin.

Onlayn bankçılığın təhlükəsizliyi ilə bağlı hər hansı şübhə və ya sualınız varsa, əlavə yardım və məsləhət üçün bankla əlaqə saxlaya bilərsiniz.

**Onlayn bankçılığın müsbət və mənfi tərəfləri**

İnternet bankçılıq bir sıra üstünlüklərə malikdir:

- Rahatlıq və vaxta qənaət - ofisə getməyə, növbəyə durmağa və sənədləri doldurmağa ehtiyac yoxdur. Xidmət istənilən yerdən gecə-gündüz mövcuddur
- Məlumata sürətli çıxış - siz maliyyə əməliyyatları haqqında tez məlumat əldə edə, bankomat tapa, söhbətdə ekspertə sual verə bilərsiniz.
- Təhlükəsizlik - xidmət etibarlı şəkildə qorunur və xərclərin idarə edilməsini asanlaşdırır
- Azaldılmış xərclər - onlayn bankçılıq üçün komissiyalar filialda oxşar əməliyyatların aparılması ilə müqayisədə əhəmiyyətli dərəcədə aşağıdır və ya mövcud deyil

Qüsurlar:

- Daimi İnternet bağlantısı ehtiyacı,
- Kibercinayətkarlıq riski,
- Texniki nasazlıqlar,
- Şəxsi ofis ziyarəti ilə müqayisədə məhdud seçimlər.

**Elektron bank xidmətləri**

Həm internet bankçılıqda, həm də mobil interfeysdə müştərilər:

- hesablarınız, kartlarınız, depozitləriniz, kreditləriniz və onlarla aparılan əməliyyatların tarixçəsi haqqında məlumatlara baxmaq;
- fiziki və hüquqi şəxslərin hesablarına və kartlarına, o cümlədən SBP-dən istifadə etməklə köçürmələr etmək;
- bank məhsullarının açılması və bağlanması;
- müxtəlif xidmətlər üçün ödənişlər, o cümlədən avtomatik ödənişlərin qurulması və QR kodları vasitəsilə;
- kartı bloklamaq və yenidən buraxmaq;
- valyutanın alqı-satqısını həyata keçirmək;
- ekosistemlər daxilində əlavə məhsullar almaq;
- xüsusi çatlar vasitəsilə bank mütəxəssislərindən məsləhət almaq;
- bank filiallarının və bankomatlarının ünvanları və onların iş saatları ilə tanış olmaq.

**Bankda elektron imza**

Elektron imza üç komponentə bölünə bilər: açıq açar, gizli açar və sertifikat. Sertifikat rəqəmsal imzanın sahibi haqqında məlumatları ehtiva edir və təkcə şəxsi məlumatları deyil, həm də şirkət rekvizitlərini, yəni möhürün analoqu kimi xidmət edə bilər.

Şəxsi açar elektron sənəd üçün imza yaratmaq üçün istifadə olunur. Açıq açar imzanı yoxlamaq üçün istifadə olunur. Elektron sənəd dövriyyəsi sisteminin bütün iştirakçılarına görünür.

Şəxsi açar imzanın özünü yaratmaq üçün istifadə olunur və adətən smart kartda (daxili çipli kart) və ya flash sürücüdə - açar fobda saxlanılır.

Elektron rəqəmsal imza yaratmaq üçün kompüterinizdə xüsusi (adətən ödənişli) sertifikatlaşdırılmış kriptoprovayder proqramını (CryptoPro, Lissi və s.) quraşdırmaq lazımdır.

Rəqəmsal imza sertifikatda müxtəlif kripto provayderlərin və müxtəlif məlumatların olmasına imkan verdiyindən, imzadan istifadə edərkən onun müəyyən bir elektron sənəd dövriyyəsi sisteminə, məsələn, elektron ticarət sisteminə uyğun olduğundan əmin olmalısınız.

Bəzi bank xidmətləri üçün onları uzaq formatda almaq üçün zəruri şərt müştərinin bank sənədlərində şəxsin əlyazma imzasına bənzər elektron rəqəmsal imzaya malik olmasıdır. Bu fəaliyyət növü üçün akkreditə olunmuş ixtisaslaşmış mərkəzlərdə istehsal olunur. Məsələn, rəqəmsal imza ipoteka əməliyyatlarının elektron qeydiyyatı və ya korporativ müştərilər tərəfindən bank əməliyyatlarının təsdiqi üçün istifadə olunur.

**Nəticə**

Onlayn bankçılıq daha da təkmilləşdikcə, yalnız elektron banklar kimi fəaliyyət göstərən və müştərilərin istifadə etməsi üçün fiziki mağazası olmayan banklar formalaşıb. Ənənəvi banklar kimi fiziki "kərpic və minaatan" strukturların alınması və saxlanması xərcləri olmadan, onlayn banklar əmanət hesabları üzrə daha yüksək faiz dərəcələri təklif edə bilirlər (faiz ödənişləri müştərilərin pullarını bankda saxlamaq üçün yığdıqları ödənişlərdir). Onlayn banklardakı müştərilər bütün standart bank əməliyyatlarını (o cümlədən, onlayn ödəmə, ləğv edilmiş çeklərin şəkillərinə baxmaq və digər banklardakı hesablara və brokerlərə pul köçürmək) həyata keçirmək üçün İnternetdən istifadə edə bilərlər.

Bu müştərilərin bir çoxunun işəgötürənləri öz maaşlarını avtomatik olaraq bank hesablarına elektron şəkildə yerləşdirirlər (birbaşa depozit adlanan üsul, ənənəvi bankların müştəriləri tərəfindən də çox istifadə olunur). Bəzi işəgötürənlər birbaşa depozit təklif etmirlər. Onlayn bankın müştərisi kağız çek alırsa, o, öz bankına girib onu nağdlaşdıra bilməz. O, çeki öz bankına poçtla göndərməli və ya banklarına əmanət qəbul edən bankomata qoymalıdır. Bəzi müştərilər bu narahatçılığı onlayn bankdan istifadənin çatışmazlığı kimi qiymətləndirirlər.

**Ədəbiyyat:**


1. *https://www.banki.ru/*
2. *https://frankmedia.ru/*
3. *https://finuslugi.ru/*
4. *https://www.encyclopedia.com/*

## Tədiyyə balansı və onun tərkib hissələri

**Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyası**

**Yaqubova Gülnar**

Tədiyyə balansı ölkənin rezidentləri və qeyri rezidentləri arasında baş verən əməliyyatların nəticəsi kimi statistik göstəricilərdən ibarətdir. Bu da ölkənin müəyyən bir tarix ərzində xarici ölkələrlə qarşılıqlı əlaqələrini, idxal və ixrac əməliyyatlarını xarakterizə edir. Ölkənin dövrün sonunda inkişaf səviyyəsini, xarici ölkələrlə qarşlıqlı əlaqələrini və ixrac idxal əməliyyatlarının vəziyyətini məhz tədiyyə balansı vasitəsilə müəyyən etmək mümkündür. Ölkədə baş verən bütün əməliyyatlar tədiyyə balansının dəyişməsinə təsir göstərir.

**Açar sözlər. Balans, idxal, ixrac, iqtisadiyyat, tədiyyə balansı, xarici əlaqələr.**

Tədiyyə balansı - ölkənin digər ölkələrlə qarşılıqlı əlaqələrini əks etdirən statistik göstəricilər sistemidir, yəni ölkənin rezidentləri və qeyri - rezidentləri arasında iqtisadi əməliyyatların nəticələrini xarakterizə edən göstəricilərdən ibarətdir.

Tədiyyə balansının hazırlanması BVF-nun tövsiyələri nəzərə alınmaqla “Tədiyyə Balansı haqqında Təlimatlar”a əsasən hazırlanır. Tədiyyə balansı haqqında təlimatlar isə BMtərəfindən qəbul edilmişdir. Bu təlimatlara əsaslanan göstəricilər beynəlxalq xarakter daşıdığı üçün bütün dövlətlərin tədiyyə balansları arasında müqayisə etməyə şərait yaradır.

Ümumiyyətlə, tədiyyə balansının strukturu 2 hissəyə ayrılır. Birincisi, horizantal struktur, digəri isə vertikal strukturdur. Bu tövsiyələrə uyğun olaraq tədiyyə balansının cari əməliyyatlar hesabı ilə kapital hesabı bir - birindən ayrılır. Bu hesabların nisbəti tədiyyə balansının horizantal strukturunu yaradır.

Tədiyyə balansı da mühasibat yazılışlarında olduğu kimi ikili yazılış prinsipinə əsaslanır, yəni burada da əməliyyatların bir hissəsi debet, digər hissəsi isə kredit hissədə əks olunur.

Əməliyyatlar “müsbət” işarə ilə debet hissədə, “mənfi” işarə ilə kredit hissədə göstərilir. Bu işarələr hər bir mübadilənin mədaxil və məxaric tərəflərini göstərir. Tədiyyə balasnında ixrac və idxal arasındakı fərqə tədiyyə balansının saldosu deyilir. Əgər ixrac idxaldan çox olarsa, yəni ölkəyə daxil olan valyuta ödənişləri və ya gəlirlər ölkənin xərclərindən çox olarsa bu zaman tədiyyə balansının saldosu müsbət olacaqdır, əksinə idxal ixracdan çox olarsa isə saldo mənfi olacaqdır.

**Tədiyyə balansının strukturu:** Tədiyyə balasnının strukturu əsas aşağıdakı qruplardan ibarətdir:

1. Cari əməliyyatlar hesabı;
2. Kapitalın və maliyyənin hərəkəti hesabı;
3. Ehtiyat aktivlər;
4. Balanslaşdırıcı maddələr.

**Cari əməliyyatlar hesabı**: Ölkənin iqtisadi əməliyyatları içərisində ən mühüm olan əməliyyatları məhz bu hesabda qeydə alınır. Ən mühüm iqtisadi əməliyyatlar dedikdə, yəni idxal və ixrac olunan məhsulların qeydiyyatı nəzərdə tutulur. Yuxarıda da qeyd etdiyimiz kimi məhsul və xidmətlərin ixracı kredit əməliyyatlarına, idxalı isə debet əməliyyatlarına aiddir. İxrac və idxal əməliyyatları arasındakı fərqə isə cari əməliyyatlar balansı deyilir. Lakin bunu xarici ticarət balansı ilə qarışdırmaq olmaz. Ümumiyyətlə, xarici ticarət dedikdə, yalnız görünən maddələr, yəni əmtəə və malların ticarəti nəzərdə tutulur. Tədiyyə balansına isə bütün beynəlxalq iqtisadi tranzaksiyalar aiddir. Yəni, bura həm “görünən ticarət”, “görünməyən ticarət”, və dövlətin digər xarici dövlətlərə verdiyi hədiyyələr, ianələr, qarşılıqsız yardımlar daxildir. Qısaca olaraq, tədiyyə balansı daha geniş bir məhfumdur, ticarət balansı isə tədiyyə balansının bir hissəsidir.

**Kapital və maliyyə hesabatı -** Kapital hesabı kapital transferlərində xarici əməliyyatları ölçür və əldə olunmuş, istehsal olunmayan, qeyri – maliyyə aktividir. Misal olaraq, ticarət markaları, brend adları göstərmək olar. Həmçinin digər nümunə kimi, kreditorlar tərəfindən borcların bağışlanmasını və sabit aktivlərin əldə edilməsi və ya istifadəsini cəlb edən nağd transferləri demək olar. Maliyyə hesabı rezidentlər və qeyri – rezidentlər arasında maliyyə aktivləri və öhdəlikləri əməliyyatlarını qeydə alır. Bu onu göstərir ki, iqtisadiyyatın xarici əməliyyatları necə maliyyələşdirilir.

Maliyyə hesabında əməliyyatlar funksiyalarına görə təsnifatlaşdırılır.

1. Birbaşa investisiyalar;
2. Portfel investisiyalar;
3. Maliyyə törəmələri;
4. Digər investisiyalar;
5. Ehtiyat aktivlər.

- **Birbaşa investisiya -** xarici investisiyaya əsaslanır, hansı ki, hər hansı ölkənin sərmayədarı digər bir ölkədə yerləşmiş müəssisənin idarə edilməsində və nəzarətin həyata keçirilməsində keçərli səsə malik olur. Həmçinin investorun müəssisəyə investisiya etməkdə uzunmüddətli marağı olur. İqtisadi məqsədlər üçün, səhmlərin 10 % - i və ondan artığı xarici sərmayədara məxsus olduqda bu, birbaşa investisiya hesab olunur.
- **Portfel investisiyaları -** isə xarici səhm qiymətli kağızlara və borc qiymətli kağızlarına qoyulan investisiyalardır. Birbaşa investisiyalarla müqayisədə, xarici müəssisələrin səhmlərinə və borc öhdəliklərinə edilən portfel investisiyalarında sərmayədarın müəssisənin idarə edilməsində uzunmüddətli marağı olmur.
- **Maliyyə törəmələri -** xüsusi maliyyə göstəriciləri ilə bağlı olan maliyyə alətləridir. Maliyyə törəmələrinə seçim tipli müqavilələr ( məs: zəmanətlər və seçimlər ) və gələcək tipli müqavilələr ( gələcək pul köçürmələri, faiz dərəcələri svapları, xarici mübadilə müqavilələri ).
- **Digər investisiyalar -** digər maliyyə iddialarına və qeyri rezidentlərə olan öhdəliklərə əsaslanır. Bunlar birbaşa investisiya, portfel investisiyası, maliyyə törəmələri, ehtiyat aktivlər kimi təsnifləşdirilmir. Digər investisiyalara qeyri kommersiya borcları, valyutalar və depozitlər, ticarət kreditləri və müqavilələri və digər aktiv və öhdəliklər aid edilir.
- **Ehtiyat aktivlər -** xarici aktivlərdir, hansı ki, iqtisadiyyatın valyuta mübadiləsini tənzimləməkdən ötrü mübadilə bazarlarına müdaxilə üçün dövlət tərəfindən idarə olunur.

**Ehtiyat aktivlər -** ehtiyat aktivlər isə cari əməliyyatlar və kapitalın və maliyyənin hərəkəti balansı ilə birbaşa əlaqəli olub onların nəticəsini göstərir, yəni bu əməliyyatlar nəticəsində ölkənin valyuta ehtiyatlarının artıb və ya azalmasını ifadə edir. Məsələn, cari əməliyyatlar hesabında defisit baş verdikdə və bu defisiti aradan qaldırmaq üçün xaricdən kredit cəlb etmək mümkün olmadıqda, Mərkəzi Bank valyuta bazarına valyuta ehiyatları vasitəsilə müdaxilə edir. Bu, ehtiyat aktivlər hesabına aid edilir.

**Balanslaşdırıcı maddələr** – bildiyimiz kimi, tədiyyə balansı ikili yazılış sisteminə əsaslanır və buna görə də tədiyyə balansının debet və kredit hissələri biri- birinə bərabər olmalıdır. Lakin iqtisadiyyatda ölkənin beynəlxalq əlaqələrinin inkişafı ilə əlaqədar olaraq buna nail olmaq çətin olur. Ümumiyyətlə, debet və kredit hissəni dəqiq qeyd etmək üçün müxtəlif informasiya mənbələrindən istifadə olunur və bu informasiyalardan hər hansı biri natamam olduqda debet və

kredit hissədə müəyyən fərqlər yaradır. Arada yaranan bu fərqlər balanslaşdırıcı maddələr adlanır.

**Cədvəl 1: Tədiyyə balansına dair nümunə**

| | | |
|---|---|---|
| Cari əməliyyatlar | Əmtəə | |
| | Xidmətlər həmçinin investisiyadan gəlir | |
| | Transfert | |
| | | Şəxsi köçürmələr |
| | | Rəsmi birtərəfli köçürmələr |
| Cəmi | | Cari əməliyyatlar hesabının balansı |
| Kapital axını | Uzunmüddətli kapital | |
| | | Birbaşa investisiya |
| | | Portfel investisiyası |
| | Qısamüddətli kapital | |
| Cəmi | | Kapitalın hərəkəti balansı |
| Qızıl valyuta ehtiyatlarının hərəkəti | Qızıl valyuta ehtiyatları | |
| | | Qızıl |
| | | Xarici valyuta ehtiyatları |
| | | Xüsusi iqtibas hüquqları |
| | | Ekyu |
| | | Xarici ölkələrdəki bankların aktivləri |
| Cəmi | | Qızıl valyuta ehtiyatlarının hərəkəti balansı |
| Cəmi balans | | |

**ƏDƏBİYYAT:**

1. Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli Fərmanı ilə təsdiq edilmiş Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi;
2. Dövlətin İqtisadi Siyasəti: Dayanıqlı və Davamlı İnkişafın Təntənəsi. Bakı2011. Arif Şəkərəliyev
3. http://banco.az/az/news/tediye-balansi-nedir;
4. http://customs.gov.az/en/
6. https://www.stat.gov.az/;

**Azərbaycanda uşaqların sosial müdafiəsində konseptual və praktik əsasları**

**Bakı Biznes Universiteti**
**Aysel Rzazadə**

**Xülasə**

Uşaqlar "özlərinin" bu günüdür və bugünkü uşaqları ən yaxşı formada böyütmək "bizim" məsuliyyətimizdir. Şübhəsiz ki, böyüyən bir insanın yaşadığı vaxtdan ən səmərəli və yaxşı şəkildə istifadə etməsi vacibdir. Uşaqlara gələcək və gələcəyin nələr gətirə biləcəyi haqqında düşünmələrinə kömək etməyin dəyəri böyükdür. Uşaqların müdafiəsi qlobal səviyyədə həlli yolları axtarılan əsas problemlərdəndir. Onların sağlam şəkildə şəxsi inkişaflarına nail olmaq üçün bizim köməyimiz vacibdir.

**Açar sözlər: uşaq, uşaqların müdafiəsi, uşaqların gələcəyi, sosial müdafiə, sosial iş.**

**Резюме**

Сегодняшние дети - "их", и это "наша" обязанность - воспитывать сегодняшних детей наилучшим образом. Для растущего человека, несомненно, важно наиболее эффективно и оптимально использовать имеющееся у него время. Также очень важно помочь детям задуматься о будущем и о том, что оно может их ожидать. Защита детей - одна из главных глобальных проблем. Наша помощь крайне важна для их здорового личностного развития.

**Ключевые слова: дитя, защита детей, будущее детей, социальная защита, социальная работа**.

**Summary**

Children today are "theirs" and it is "our" responsibility to raise today's children in the best possible way. It is undoubtedly important for a growing person to make the most efficient and best use of the time they have. There is also great value in helping children to think about the future and what it might hold. Child protection is one of the main global challenges. Our help is crucial for them to achieve healthy personal development.

**Key words: child, child protection, children's future, social protection, social work.**

**Giriş**

Uşaqlar cəmiyyətimizin ən qiymətli mənbəyidir. Onlar firavanlığın, harmoniyanın və gələcəyin yaradıcıları olmaqla yanaşı həmçinin gələcəyin qurucularıdır. Bununla belə, onların kollektiv rifahımıza verdiyi töhfələr əsasən "yaxın gələcəkdə" kimi düşünülür. Dövlət siyasətində biz onların dəyərini artırmağa meyilli oluruq. Uşaqların hüquq sahibi olması və sosial müdafiənin uşaq hüquqları ilə bağlı öhdəlikləri yerinə yetirmək üçün vacib olan amillər əsas götürülür.

Uşaq ailənin, xalqın, dövlətin ən qiymətli sərvətidir. Bu qiymətli sərvəti fiziki və mənəvi cəhətdən sağlam, cəmiyyətə faydalı vətəndaş, Vətənə sadiq övlad kimi böyütmək çətin və məsuliyyətli olduğu qədər də şərəflidir. Əgər gələcəyimizi bugünün uşaqlarına əmanət ediriksə, onların düzgün tərbiyə olunması, hansı ideyalara qulluq etməsi hər birimizi ciddi düşündürməlidir.

Ona görə də uşaqlara hər zaman diqqət və qayğı göstərilir, onların düzgün tərbiyə olunmalarına, qarşılaşdıqları problemlərin aradan qaldırılmasına, hərtərəfli təhsil almalarına dövlət səviyyəsində nəzarət edilir. Axı uşaqlar dövlətin gələcəyi, dayağıdır. Bu gün müstəqil Azərbaycanın uşaqları diqqət və qayğı ilə tam əhatə olunub. Hətta regionlarda ən ucqar kəndlərdə də uşaq bağçaları fəaliyyət göstərir. Ulu öndər Heydər Əliyevin "Uşaqlar bizim sevincimiz, xoşbəxtliyimiz, cəmiyyətin gələcəyidir. Ona görə də hər bir insanpərvər cəmiyyətdə uşaqlara daimi xüsusi qayğı, xüsusi diqqət göstərilibdir"-müdrik kəlamı uşaqlara olan məhəbbətinin təzahüri idi. [1]

Sosial müdafiə uşaqları yoxsulluğun ömürlük təsirlərindən qorumaq üçün lazım olan proqramları və siyasətləri əhatə edir. Uşaq Hüquqları haqqında Konvensiya və İnsan Hüquqlarının Ümumdünya Bəyannaməsi sosial müdafiəni hər bir uşağın hüququ kimi tanıyır. Dayanıqlı İnkişaf Məqsədləri də ifrat yoxsulluğun aradan qaldırılması üçün sosial müdafiənin əhatə dairəsinin sürətlə genişləndirilməsini tövsiyə edir.

Uşaqların sosial müdafiəsi – hüquqi təminatlar əsas məsələlərdən biridir. Azərbaycanda uşaqların sosial müdafiəsi ilə bağlı bir çox təşkilatlar fəaliyyətdədir. Azərbaycanın qoşulduğu BMT Uşaq hüquqları Konvensiyasında fundamental prinsiplər öz əksini tapmışdır. Konvensiyanın 24-cü maddəsində "dövlətlər uşaqların səhiyyə sistemi xidmətlərindən, xəstəliklərin müalicəsi, sağlamlığın bərpası vasitələrindən, ən yüksək standartlara müvafiq tibbi yardımdan istifadə etmək hüququnu təmin edir, uşaqların xəstəliklərinə və doyunca yeməməsinə qarşı mübarizə aparır, analara doğumdan əvvəl və sonrakı dövrlərdə səhhətin mühafizəsi sahəsində lazımi xidmət göstərilməsinə zəruri şərait yaratması" öz əksini tapmışdır. Həmçinin 26-cı maddəyə əsasən, iştirakçı dövlətlər hər bir uşağın sosial sığorta daxil olmaqla sosial təminat imtiyazlarından istifadə hüququnu təmin etməyə borcludurlar. Bir sıra hüquqi aktlar uşaqların sosial müdafiəsinin təşkili üçün zəmin yaradır. Məsələn, "Körpələrin və erkən yaşlı uşaqların qidalanması haqqında" və "Uşaqların icbari dispanserizasiyası haqqında", "Uşaq hüquqları haqqında", "Əlilliyin və uşaqların sağlamlıq imkanları məhdudluğunun qarşısının alınması, əlillərin və sağlamlıq imkanları məhdud uşaqların reabilitasiyası və sosial müdafiəsi haqqında", "Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında", qanunlarda onların sosial müdafiəsinə təminat verilməsi ilə bağlı hüquqi müddəalar əks olunub.

Təyinatına, məqsədinə uyğun olaraq bu qanunların hər biri 18 yaşadək sağlamlıq imkanları məhdud uşaqların dövlət tibb müəssisələrində büdcə vəsaiti hesabına pulsuz tibbi xidmətdən istifadə etməsini, bununla yanaşı sanatoriya-kurort müalicəsi ilə təmin olunmasını, valideynini itirmiş və valideyn himayəsindən mərhum olmuş uşaqların minimum dövlət sosial standartlarından aşağı olmayan həddə sosial müdafiəsinin təşkilini, sağlam yaşaması və inkişafı üçün onların sosial-iqtisadi hüquqlarının qorunmasını, təhlükəsiz və adekvat qidalanmasına dövlət zəmanətinin verilməsini, onların sağlamlıq problemlərini zamanında aşkarlamaq üçün icbari dispanserizasiyasının həyata keçirilməsini təmin edir.

Uşaq müdafiəsi və təhlükəsizliyi dedikdə, uşaqlara qarşı hər cür laqeyd davranış, istismar və zorakılıq hallarından yarana biləcək zərərin önlənməsi və qabaqcıl tədbirlərin görülməsi nəzərdə tutulur (UNICEF). Beləliklə, anlayış uşaqlara dəymiş zərərə müvafiq cavab tədbirlərinin görülməsini də özündə ehtiva edir. Çoxsaylı araşdırmalar göstərir ki, uşaqların sağlam və təhlükəsiz mühitdə böyüməsi, tam potensialına çatması onların fərd olaraq inkişafı ilə yanaşı, sağlam cəmiyyətin formalaşmasının da əsaslarından birini təşkil edir. Buna görə də, müxtəlif hökumətlər, qeyri-hökumət

təşkilatları (QHT) və beynəlxalq təşkilatlar uşaqlara qarşı zorakılıq hallarının azaldılmasının vacibliyini vurğulayır. Nəticədə, uşaq müdafiəsi və təhlükəsizliyini ilə bağlı beynəlxalq təcrübədə müxtəlif layihələr həyata keçirilmişdir.

Uşaq Hüquqları Konvensiyası dünyada 2 dövlət istisna olmaqla, bütün dövlətlər tərəfindən təsdiq olunmuş, dünya səviyyəsində ən geniş qəbul olunmuş insan hüquqları alətidir. Konvensiya uşaqların insan hüquqlarının bütün növlərini – mülki, siyasi, iqtisadi, sosal və mədəni – bir sənəddə birləşdirir. Konvensiya BMT Baş Assambleyası tərəfindən 20 noyabr 1989-cu il tarixində qəbul olunmuş və 1990-cı ilin sentyabrında qüvvəyə minmişdir. Konvensiyanın 41 maddəsində 18 yaşdan aşağı hər bir uşağın insan hüquqlarına hörmət olunması və müdafiə edilməsi təsvir edilir. [2]

Beynəlxalq təcrübəyə nəzər salsaq, qurumlararası əməkdaşlıq ölkələrdə uşaq müdafiəsi və təhlükəsizliyi sahəsində yayılmış bir təcrübədir. Avstraliya Uşaqlarının Müdafiəsi üzrə Milli Strategiya (2021) sənədi təhsil işçiləri, hökumət orqanları, sosial xidmətlər və səhiyyə arasında milli əməkdaşlığın, məlumat mübadiləsinin, həyata keçiriləcək tədbirlərin önəmini vurğulayır, İngiltərədə həmçinin oxşar siyasət Uşaqlar haqqında akt sənədi ilə tənzimlənir (Foster, 2020). Nəticədə, müxtəlif təşkilatlar qiymətləndirmələri aparmaq, müdaxilə planları hazırlamaq, həssas uşaqlara və ailələrə dəstək vermək üçün birlikdə işləyir və müxtəlif layihələr həyata keçirirlər.

Qloballaşan dünyada ölkələr bir-birləri ilə əlaqədə uşaq müdafiəsi və təhlükəsizliyi sahəsində işlər görür. Uşaqlara qarşı zorakılıq halları zamanı köməklik, bununla yanaşı məlumat məqsədilə yaradılan məxfi uşaq qaynar xətləri də uşaqların təhlükəsizliyinin təmin edilməsində mühüm rol oynayır. Çağrı mərkəzləri uşaqları təhlükədə olan zaman təcrübəli mütəxəssislər tərəfindən dəstək və məsləhətlə təmin edir. Beynəlxalq Uşaq Yardım Xətti şəbəkəsi hazırda 135-dən çox ölkəni əhatə edir və bu uşaqların müdafiəsi ilə bağlı ən yaxşı nümunədir.

Yetişməkdə olan gənc nəslin sağlamlığının təmin edilməsində, intellektual və mədəni səviyyəsinin yüksəldilməsində, onların vətənpərvərlik hisslərinin tərbiyəsində, əməyə, vətənin müdafiəsinə hazır olan mərd, cəsur insanlar kimi yetişməsində idmanın rolu əvəzsizdir. Dünya təcrübəsi, əsrlər boyu sübut etmişdir ki, fərdin mənəvi və fiziki sağlamlığı, son nəticədə xalqın ümumi sağlamlığı, millətin bu günü və gələcəyidir. Uşaq və gənclərin tərbiyəsində müstəsna rol oynayan bədən tərbiyəsi və idmanın inkişafını daha da sürətləndirmək, bu sahədə kütləviliyi təmin etmək üçün Azərbaycanda məqsədyönlü və hərtərəfli işlər görülür. Təbii ki, idmanın inkişafı, həm də sağlam həyat tərzinin təbliğinə xidmət edir. “Sağlam millət, sağlam gələcək” deməkdir. Azərbaycan dövləti sağlam gələcəyin təminatçısıdır. Bu baxımdan deyə bilərik ki, paytaxt və bölgələrdə tikilib istifadəyə verilən Olimpiya idman kompleksləri, idman zalları, stadionlar Azərbaycan xalqının sağlamlığına xidmət edir. Bu cür idman qurğuları həm də Azərbaycanın idman ölkəsi kimi uğurlarında əhəmiyyətli rol oynayır. Dövlət qayğısı ilə əhatə olunan idmançılarımızın dünya arenalarında əldə etdikləri uğurların sayı ildən-ilə artır. Ölkəmizin beynəlxalq yarışların mərkəzinə çevrilməsi də təsadüfi deyil. Beynəlxalq idman qurumları mötəbər yarışları Azərbaycana həvalə edir. Çünki bu qurumlar yaxşı bilirlər ki, ölkəmiz belə tədbirlərin təşkilində kifayət qədər təcrübəyə malikdir. [3]

Uşaq və yeniyetmələrin sosial profilaktikası və reabilitasiyası müəssisələri:

Rusiya Federasiyasının 6 sentyabr 1993-cü il tarixli 1338 N-li “Azyaşlıların qanunpozma hallarının və diqqətdən kənarda qalmalarının profilaktikası və onların hüquqları” adlı qərar yeniyetmələr arasında dezadaptasiya prosesinin inkişafında profilaktik işlər üzrə dövlət qurumlarının işlərinin aktivləşdirilməsində geniş imkanlar yaratmışdır. Ailə əlaqələrini itirmiş, internat

müəssisələrində yaşamaq istəməyən, köməksiz və vasitəsiz qalan, daimi yaşayış yeri olmayan uşaqlara yardım üçün ixtisaslaşmış sosial müəssisələr yaradılmışdır. Bu müəssisələrə sosial və yeniyetmə sığınacaqları, uşaqlara yardım mərkəzləri, valideyn himayəsindən məhrum olmuşlar və azyaşlılar mərkəzləri daxildir. 1996-cı ildə Rusiyada bu tipli 450 ixtisaslaşdınlmış müəssisə yaradılmışdır. RF hökuməti tərəfindən “1997-1998-ci illərdə yeniyetmələrin bu məqsədlə diqqətdən yayınma və qanun pozuntularının profilaktikası” başlığı altında məqsədyönlü proqramlar hazırlanmış və həyata keçirilmişdir. Moskvada Rusiya Xeyriyyə Fondu “Alkoqolizm və narkomaniyaya yox” devizi altında “Azyaşlı risk qrupunun reabilitasiya məkanı konsepsiyası” çərçivəsində “Küçə uşaqları” proqramı qəbul edilmişdir. [5, s. 234]

Bununla əlaqədar olaraq, uşaq hüquqlarını qorumağı nəzərdə tutmaqla təhsil sistemində sosial işin inkişaf dinamikasına böyük diqqət yetirilir. [5, s. 234]

Rusiyanın bir çox regionlarında yardıma ehtiyacı olan uşaqların müəyyənləşdirilməsi sistemi kimi onlara  bilavasitə yardım formaları da həyata keçirilir. Hər şeydən əvvəl bu, onunla əlaqədardır ki, ölkədə sosial-maddi vəziyyətin kəskin şəkildə dəyişməsi dövlət uşaq müəssisələri, uşaq evləri və internatlara ehtiyacı olan uşaqların sayının artması ilə nəticələndi. [5, s. 234]

Azərbaycanda sosial iş məsələlərində əsas prioritlər əlillik, uşaq müdafiəsi, ailələrlə sosial iş, məişət zorakılığı, müvəqəti zaminə buraxma, insan alveri, erkən (uşaq) evlilikləri, qaçqın və məcburi köçkün məsələləridir. Azərbaycan Sosial Müdafiə Sistemi Milli Məclisin Sosial Siyasət Komitəsi (Milli Məclis), Əhalinin Əmək və Sosial Müdafiə Nazirliyi, kənd və şəhər yerlərində Sosial Müdafiə Mərkəzi və qeyri-hökümət təşkilatları tərəfindən təmin edilir. Sosial xidmətlərin əksəriyyəti əsasən QHT-ı tərəfindən təmin edilir. ƏƏSMN tərəfindən həyata keçirilən dövlət müqavilə sistemi (sosial sifarişlər) var və ƏƏSMN sosial xidmətləri əsasən ölkə regionlarında illik maliyyələşdirir. Xidmətlər əlilliyin bərpası, uşaqlann gündəlik qayğısı, ailə məsləhətçisi və s. kimi ağır sahələri nəzərdə tutaraq geniş aspektləri əhatə edir. [4, s. 96]

Azərbaycan Sosial İş İctimai Birliyinin tədqiqatlarına əsasən, QHT tərəfindən təmin edilən sosial xidmətlərin əksəriyyətinin peşəkar sosial işçi heyəti yoxdur, tədqiqatçılar vasitəsilə toplanan sübutlara əsasən ximətlər inkişaf etdirilmir, ehtiyacların dəyərləndirilməsi və bir çox hallarda xidmətlərin böyük şəhərlərdə və ya şəhər mərkəzlərində yaradılması ucqar ərazilərdə yaşayan insanların gündəlik istifadəsi üçün mümkün olmur. Ölkəmizdə məişət zorakılığından qorunmaq üçün sosial, qanuni, psixoloji dəstək və tibbi yardımla təmin edilən üç sığınacaq var (AS İİB, 2018). [5, s. 96]

Azərbaycanda aşağıdakı adlarda və istiqamətlərdə sosial xidmət müəssisələri fəaliyyət göstərir: 1 saylı sağlamlıq imkanları məhdud uşaqlar üçün sosial xidmət müəssisəsi, 2 saylı sağlamlıq imkanları məhdud uşaqlar üçün sosial xidmət müəssisəsi, 1 saylı psixonevroloji sosial xidmət müəssisəsi, 2 saylı psixonevroloji sosial xidmət müəssisəsi, 3 saylı psixonevroloji sosial xidmət müəssisəsi, 1 saylı sağlamlıq imkanlan məhdud gənclərin peşə-reabilitasiya mərkəzinin direktoru, Dövlət uşaq müəssisələrinin valideyn himayəsindən məhrum olmuş məzunlan üçün “Məzun evi” Sosial Müəssisəsi, Yaşayış yeri olmayan 18 yaşdan yuxan şəxslər üçün Sosial Sığmacaq, Baxımsız, kimsəsiz və sosial təhlükəli vəziyyətdə olan yetkinlik yaşına çatmayanlar üçün Sosial Sığınacaq və Reabilitasiya Müəssisəsi, Yetkinlik yaşma çatmamış görmə imkanı məhdud şəxslər üçün Bərpa Mərkəzi. [5, s. 97]

Uşaqlarla bağlı yeni işlər görülür və bir sıra layihələr həyata keçirilir. Uşaqlara aid ən mühüm tədbir onların savadlı bir şəxs olaraq gələcəyə yönəlməsidir. Buna görə də  təhsil sistemində görülən

işlər ən çox diqqət mərkəzindədir. Qeyd etmək lazımdır ki, ölkəmizdə də uşaqların rifahının yaxşılaşdırılması qanunla tənzimlənir. Azərbaycan Respublikası Prezidentinin Sərəncamı əsasında "Uşaqlara dair Strategiyanın həyata keçirilməsi üzrə 2020-2025-ci illər üçün Fəaliyyət Planı"nın təsdiq edilməsi barədə tədbirlər planında həmçinin uşaqlara qarşı hər cür zorakılığın mənfi nəticələri haqqında maarifləndirmə tədbirlərinin genişləndirilməsi istiqamətində tədbirlərin keçirilməsi nəzərdə tutulur.

**Nəticə:**

Beləliklə, uşaq müdafiəsi və təhlükəsizliyi həm dünyada, həm də ölkəmizdə aktual mövzulardan biridir. Qəbul edilən hüquqi sənədlər, müxtəlif qurumlar arasında tərəfdaşlıqlar, həmçinin uşaqlar üçün mövcud olan qaynar xətt xidmətləri uşaqların müdafiəsi üçün dünyada yayılmış təcrübələr sırasındadır. Ölkəmizin təhsil sistemində uşaqların rifahı və hüquqlarının qorunması da hüquqi sənədlərə əsaslanır. Həyata keçirilən "Təhsil sistemində uşaq müdafiəsi və təhlükəsizliyi" layihəsi də ümumtəhsil müəssisələrində uşaqların müdafiəsi və təhlükəsizliyi sisteminin yaradılmasını təşviq edir. Layihə uşaqların məktəbdaxili və məktəbdənkənar rifahının təmin olunması üçün inzibati və pedaqoji heyətin gördüyü tədbirlərə əsaslanır. Atılan addımlar həm uşaqlara qarşı zorakılıq hallarının qarşısının alınmasına, həm də valideynlər, şagirdlər və müəllimlərin maarifləndirilməsinə dəstəkdir. Yuxarıda sadalanan bütün fəaliyyətlərin icrasında keçirilən təlimlər və görüşlər vacib rol oynayır. Beləliklə, gələcəkdə uşaq müdafiəsi təlimlərinin metodik xidmətin bir hissəsinə çevrilməsi uşaq müdafiəsi konseptinin müəllimlərə daha dərindən mənimsədilməsinə kömək edə bilər.

"Uşaqlar bizim gələcəyimizdir, gələcəyimizi nə cür tərbiyə edəcəyiksə, ölkəmizin, millətimizin, dövlətimizin sabahı bundan asılı olacaqdır". Heydər Əliyev, ümummilli lider

**Ədəbiyyat**


1. https://www.muallim.edu.az/news.php?id=6701
2. https://www.coe.int/az/web/compass/convention-on-the-rights-of-the-child
3. https://portal.azertag.az/az/node/15564
4. M.V.Firsov, E.Q.Studenova. Sosial işin nəzəriyyəsi. Ali məktəblər üçün dərslik 3-cü nəşr. Bakı, "Elm və təhsil", 2018, 480 səh. [səh. 234]
5. Üzeyir Şəfiyev. Azərbaycanda sosial iş və sosial siyasət, Bakı, "Elm və təhsil" 2018, 696 səh. [ səh. 96,97]

**İngilis dili işgüzar ünsiyyət vasitəsi kimi**

**Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyası**
**İsgəndərova Günay**

**XÜLASƏ**

Xarici dillərin öyrənilməsi müasir dünyada ən vacib amillərdən biridir. Beynəlxalq əlaqələrin genişlənməsində, mədəniyyətlərin öyrənilməsində, biznes dünyasında fəal iştirakda xarici dil bilməyin rolu çox böyükdür. Xarici dil öyrənmək ünsiyyət və kommunikasiya əlaqələrini genişləndirir, dünyaya yeni baxışın formalaşmasına zəmin yaradır. Müasir dünyada ən işlək dillər ingilis, ispan, fransız, alman və çin dilləri hesab olunur. Lakin ingilis dilinin ən populyar dil olduğu məlumdur.İngilis dili bütün dünyada beynəlxalq dil olaraq qəbul edilmişdir.Bugün dünyanın hər yerində və hər bir sahədə elm, siyasi, sosial, maliyyə, iqtisadi, biznes, IT, tibb, reklam, turizm və bir çox başqa sahələrdə məhz ingilis dili bilən mütəxəssislərə tələbat artır.

***Açar söz : Xarici dilin öyrənilməsi , biznes , ticarət , marketinq , rabitə , yüksəliş***

**КРАТКОЕ СОДЕРЖАНИЕ**

Изучение иностранных языков, является одним из важнейших факторов в современном мире. Роль знания иностранного языка в расширении международных связей, в изучении культур, в активном участии в деловом мире очень важна. Изучение иностранного языка расширяет общение и коммуникативные отношения, создает основу для формирования нового мировоззрения. Наиболее распространенными языками в современном мире являются английский, испанский, французский, немецкий и китайский. Но известно, что английский язык является самым популярным языком. Английский язык принят в качестве международного языка во всем мире. Сегодня он используется повсюду и во всех областях науки: политической, социальной, финансовой, экономической, деловой, информационных технологий, медицины. Реклама, туризм и многие другие. В этих областях растет спрос на специалистов, владеющих английским языком.

***Ключевые слова;*** Изучение иностранных языков, бизнес, торговля, маркетинг, коммуникация, продвижение.

**SUMMARY**

Learning foreign languages is , one of the most important factors in the modern world. The role of knowing a foreign language in the expansion of international relations, in the study of cultures, and in active participation in the business world is very important. Learning a foreign language expands communication and communication relationships, creates a foundation for the formation of a new world view. The most used languages in the modern world are English, Spanish, French, German and Chinese. But it is known that English is the most popular language. English is accepted as an international language all over the world. Today it is used everywhere and in every field of science, political, social, financial, economic, business, IT, medicine, advertising, tourism and many others. The demand for specialists who speak English is increasing in these fields.

***Keywords:*** Learning foreign languages, business, trade, marketing, communication, promotion

## GİRİŞ

Dil insanların bir-birinə söz demək ehtiyacından yaranan ünsiyyət vasitəsidir. Dil ünsiyyət vasitəsi kimi yalnız müəyyən şəraitdə insan cəmiyyətində yaranır və fəaliyyət göstərir. Buna görə də dil ictimai hadisə sayılır. Dilin varlığı üçün bəşər cəmiyyətinin var olması mühüm şərtdir. Insan cəmiyyəti olmayan yerdə dil mövcud ola bilməz. Birdən çox dil bilmək dünyaya birdən çox pəncərədən baxmaq deməkdir. Xarici dilin öyrənilməsi müxtəlif: səyahət , təshil , iş və s. səbəblərdən ola bilər. Müasir dünyada yeni bir dilin öyrənilməsi vacibdir. Bəs niyə ingilis dilinin öyrənilməsi daha vacibdir? İngilis dili dünyada qlobal ünsiyyət vasitəsi kimi qəbul edilmişdir. Dünyada hər 4 nəfərdən 1-i ingilis dilini bilir. Ünsiyyət vasitəsi olmaqla yanaşı ingilis dili elm , təhsil , tibb , informasiya texnologiyası , biznes , səyahət və bir çox digər sahələrdə əlaqələrin qurulmasında əsas rol oynayır. Qloballaşan müasir dünyada ingilis dilini bilmək korporativ dünyada uğur qazanma şansınızı artıra biləcək rəqabət üstünlüyüdür.Tarixə baxdığımızda , dil qədim zamanlardan toplu zərurətindən ortaya çıxmışdır.

İngilis dili "beynəlxalq ortaq dil" statusunu qazanmış ilk dildir, yəni başqa dillərdə danışan insanlar arasında ortaq ünsiyyət vasitəsidir. İngilis dili müasir dünyada ən çox danışılan dillərdən biridir. Müasir dövrümüzdə ingilis dili siyasi danışıqlar və biznes dilinə çevrilib. Əsas elmi və tibbi araşdırmarlar da ingilis dilində aparılır. Beynəlxalq razılaşmalara əsasən, təyyarələrdə işləyən bələdçilər ingilis dilini bilməlidir. Yer kürəsinin ən güclü dövləti ABŞ başda olmaqla, Avstraliya, Böyük Britaniya, CAR ( Cənubi Afrika Respublikası ) Yeni Zelandiya, İrlandiya və Sinqapur kimi inkişaf etmiş ölkələrin dövlət dilidir. İngilis dili 400 milyon insanın ana dili, 1 milyard 400 milyon insanın isə ikinci dilidir. 53 ölkənin və BMT də daxil olmaqla əksər beynəlxalq təşkilatların əsas rəsmi dillərindən biri, İngilis Millətlər Birliyinin rəsmi dilidir. Bu dil Okeaniyadan Avropaya, Afrikadan Amerikaya qədər dünyanın hər tərəfində əsas ünsiyyət vasitəsidir. Müxtəlif dillərin danışıldığı ölkələrdə insanların bir- biri ilə ünsiyyətini təmin etmək üçün çox vaxt ingilis dili rəsmi dövlət dili kimi çıxış edir. İngilis dili 24 müxtəlif dilin hər birində bir milyondan artıq insanın danışdığı bu ölkədə hamı üçün ümumi dildir.

İngilis dili hal-hazırda dünyada diplomatiya, kommersiya, dənizçilik, elmi-texniki və kütləvi informasiya dili rolunu oynayır. İki, üç və daha çox dil bilmək dünyagörüşünün formalaşmasına müsbət mənada təsir edir, hadisələrə daha geniş prizmadan baxmağa kömək edir. Volterin sözü ilə desək, çox dil bilmək bir qalanın bir neçə qapısının açarına sahib olmaqdır. Bir fərd nə qədər savadlı olsa da, əcnəbi dil bilmədən biliyini dar çərçivədən çıxarıb daha da təkmilləşdirməsi, dünya təcrübəsindən faydalanması, elmi mübadilə aparması mümkün deyil.

İngilis dilini səlis bilən mütəxəssislərə üstünlük verir. İngilis dilini bilmək vaxta və xərclərə qənaət etmək deməkdir. Tərcüməçiyə müraciət etmədən informasiyanı alır, analiz edir, ötüir.

İngilis dilini bilmək iş tapmaqda başlıca rol oynayır. Belə ki, bu gün yerli və xarici şirkətlər ingilisrür, bir sözlə, öz işimizi özümüz görürük. Bu gün nəşr olunan və son iki əsrdə nəşr olunmuş ədəbiyyatın və kütləvi mətbuatın böyük qismi, internet resurslarının 80%-i ingilis dilindədir. Yəni istər elmi biliklərin öyrənilməsində, istər diplomatik münasibətlərin, istər ticari, iqtisadi əlaqələrin qurulmasında, istər xarici ölkələrə səfərlərdə dünyanın hansı ucqar nöqtəsi olur-olsun, ingilis dili əvəzedilməz funksiya ifadə edir. Əvvəldə qeyd etdiyimiz kimi məhz ingilis dili elm , siyasət , iqtisadiyyat , IT , tibb , biznes , reklam , turizim və bir çox başqa sahələrin dilidir. Bu gün ki çıxışımda mən Maliyyə - İqtisad fakültəsi tələbəsi olaraq məhz işgüzar ingilis dilində öz fikirlərimi demək istəyirəm.

## BİZNESDƏ İNGİLİS DİLİ NƏDİR?

Biznes İngilis dili ticarət və peşəkar şəraitdə istifadə olunan "ingilis dilinin" xüsusi formasıdır. Söhbət təkcə dilin özündən getmir; buraya biznesin uğurla aparılması üçün lazım olan xüsusi lüğət, ifadələr və ünsiyyət tərzi daxildir. İşgüzar ingilis dilində aydınlıq və dəqiqlik böyük əhəmiyyət kəsb edir, çünki anlaşılmazlıqlar baha başa gələn səhvlərə səbəb ola bilər.

## BİZNESDƏ İNGİLİS DİLİNİN ƏHƏMİYYƏTİ

**Qlobal Rabitə**

İngilis dili tez-tez qlobal biznes dili adlandırılır. Bir çox beynəlxalq şirkətlər ingilis dilindən ünsiyyət üçün əsas dil kimi istifadə edirlər ki, bu da onu dünya üzrə peşəkarlar üçün vacib edir. İşgüzar ingilis dilini bilmək imkanlar üçün qapılar açır və sizə müxtəlif mədəniyyət və mənşəli insanlarla əlaqə saxlamağa imkan verir.

**Peşəkar Etibarlılıq**

İşgüzar ingilis dilini bilmək peşəkar etibarınızı artırır. Biznes kontekstində effektiv ünsiyyət qura bildiyiniz zaman bu, bacarıqlarınıza və səriştələrinizə müsbət təsir göstərir. İşəgötürənlər aydın və qısa işgüzar ünsiyyət qura bilən şəxsləri qiymətləndirirlər.

**Karyera yüksəlişi**

İstər iş axtarırsınız, istərsə də karyera yüksəlişini hədəfləyirsiniz, işgüzar ingilis dilini yaxşı mənimsəmək dəyərli varlıqdır. Bir çox iş elanları namizədlərdən ingilis dilini mükəmməl bilmələrini tələb edir və bu bacarığı nümayiş etdirmək sizə digər müraciət edənlərdən fərqlənməyə kömək edə bilər.

Biznes İngilis dili və Peşəkar İngilis dili isə işgüzar ingilis dilinin peşəkar ingilis dilindən nə ilə fərqləndiyi ilə maraqlana bilərsiniz. Hər ikisi peşəkar şəraitdə istifadə edilsə də, bir qədər fərqli məqsədlərə xidmət edir:
İşgüzar İngilis dili iş dünyasında tələb olunan dil və ünsiyyət bacarıqlarına xüsusi diqqət yetirir. Buraya maliyyə, marketinq, danışıqlar və s. ılə bağlı lüğətlər daxildir. O, praktiki və məqsədyönlüdür, əməliyyatları və qarşılıqlı əlaqələri asanlaşdırmaq üçün nəzərdə tutulmuşdur.
Peşəkar İngilis dili isə müxtəlif peşələr üzrə tələb olunan dil bacarıqlarını əhatə edən daha geniş bir termindir. Sahənizdən asılı olaraq tibbi, hüquqi, akademik və ya texniki dil daxil ola bilər. Bu, işgüzar ingilis dilindən daha az ixtisaslaşmışdır və tez-tez müəyyən bir peşə və ya sənaye daxilində istifadə olunur.

**Brendləşmə**

Menecerlər insanları yerli işçilər deyil, qlobal işçi kimi tanımağa təşviq etməlidirlər. Bir çox böyük şirkətlərin işçilər indi şirkətin sosial şəbəkə saytı vasitəsilə bütün dünya üzrə həmkarları ilə qarşılıqlı əlaqədə olur və onlarla əlaqə saxlayırlar. Universal İngilis dili siyasətinin qəbul edilməsi qlobal ünsiyyətin yaratdığı liderlik problemlərinin sonu deyil.

İngilis dilinin iş dili kimi istifadə edilməsi işçilərin mənəviyyatına zərər verə bilər, yerli və ana dili olmayanlar arasında qeyri-sağlam fərqlər yarada bilər və komanda üzvlərinin ümumi məhsuldarlığını azalda bilər. Liderlər işçilərin qlobal ingilis dili siyasətini nisbi rahatlıqla qəbul edə biləcəkləri bir mühit yaratmaqla bu potensial tələlərdən qaçmalı və onları yumşaltmalıdırlar. Bu yolla şirkətlər ünsiyyəti və əməkdaşlığı inkişaf etdirə bilərlər. Biznes İngilis dilini sənaye sahəsi üçün uyğunlaşdırmaq vacibdir. Hər bir sənaye sahəsinin öz jarqonu və xüsusi terminləri var. İxtisaslaşdırılmış Biznes İngilis dili kursları sənaye sahələrinə uyğun olaraq dili mənimsəməyə kömək edə bilər.

Maliyyədən tutmuş qonaqpərvərliyə qədər, Biznes İngilis dilini öyrənməyə kömək edəcək diqqət mərkəzində olan kurikulum və resurslar mövcuddur. Biznes yazı bacarıqları üzərində işləyə bilmək də çox mühümdir. Yazı işgüzar ingilis dilinin əsas komponentidir. İstər e-poçtların, biznes hesabatlarının, təkliflərin, danışıqların və ya müqavilələrin hazırlanması, biznes ingilis dilində yazı bacarıqlarınızı inkişaf etdirməyiniz müsbət təəssürat yaratmaqla fikirlərinizi və ideyalarınızı effektiv şəkildə təqdim etməyə kömək edəcək. Biznes İngilis dilində Davamlı Təkmilləşdirmə Biznes İngilis dilini öyrənmək davamlı bir səyahətdir. Daim dəyişən biznes və iqtisadi mühitdə bacarıqlarınızı aktual saxlamaq üçün davamlı öyrənmə və təcrübə lazımdır.

## NƏTİCƏ

İngilis dili öyrənmək sahələrində müxtəlif olan bir dildir. Dünyada hərkəsə çatması istənilən musiqilər ingilis dilində səsləndirilir, filmlərin ingilis dilində orjinalları var və ya kitaplar ingilis dilində çap olunur digər iqtisadi şirkətlərdə e-maillərin düzəldilməsində danışıqda üstünlük təşkil edir.Müxtəlif mədəniyyətləri araşdırmaq üçün nə etmək istədiyinizi düşünün. Bu halda, ehtimal ki, İngilis və ya Amerika mədəniyyəti ilə uyğunlaşmaq şansı var. Bu mədəniyyətdə olan insanlar sizinlə ünsiyyətdə çətinlik çəkirlər, çünki ilk dili ingilis dilidir, ancaq ingilis dilini bilmirsinizsə, onlarla ünsiyyətdə çətinlik çəkirsiniz.

Rabitə və İngilis dili ikilisini bir az daha dərinliyə nəzərdən keçirə bilərik. Bu vəziyyətdə, artıq ifadə etdiyimiz kimi, tarazlıq ortaya çıxacaq. Bir Alman şirkəti ilə ünsiyyət qurmaq istədiyiniz zaman, Alman dili danışmırsan, ehtimal ki, ortaq diliniz ingiliscə olacaq. İspan şirkətləri ilə ünsiyyət qurmaq istədiyiniz zaman eyni.

Beynəlxalq məzmunda qurulacaq hər hansı bir ünsiyyət bir şəkildə ingilis dili ilə kəsişir. Buna görə, özəl şirkətlər işəgötürülən işçilərdən ingilis dili tələb edirlər. İngilis dili dünyanın müxtəlif ölkələrində insanlarla ünsiyyət qurmaqda sizə kömək olacaq. Aparılan araşdırmalar nəticəsində əldə edilən statistikalar ingilis dilinin dünyada ən çox danışılan dil olduğunu sübut edir. Bu statistik rəqəmlərə görə deyə bilərik ki, dünyadakı hər dörd insandan biri ingilis dilində anlayır və danışır. Bununla yanaşı, ingilis dili dünyanın müxtəlif ölkələrində rəsmi dövlət dili olaraq da qəbul edilmişdir. Nəticə etibarı ilə, ingilis dilini bilmək dünyanın müxtəlif ölkələrində

insanlarla ünsiyyət qurmaqda sizə kömək edəcək. Beləliklə, siz fərqli ölkələrə səyahət edərkən yerli əhali ilə rahat ünsiyyət qurub onların tarixini və mədiniyyətini dərindən öyrənə bilərsiniz.

İngilis dili kariyeranızda yüksəlmək üçün sizə kömək olacaq. Bildiyimiz kimi, ingilis dili iş həyatında da ən çox istifadə edilən dillərdəndir. Belə ki, beynəlxalq konfranslar və sammitlərdəki danışıqlar adətən ingilis dilində olur. Bununla yanaşı, bir çox şirkət yalnız bir bazarda deyil də, xarici bazarlarda da fəaliyyət göstərir. Bu məqsədlə, ingilis dilində danışa bilən şəxslərə ehtiyac duyurlar. İngilis dilini bilmək yaxşı bir şirkətdə işə başlamaq və kariyeranızda yüksəlmək üçün sizə lazım olacaqdır.

**ƏDƏBİYYAT**


1. David Cotton David Falvery Simon Kent – Market Leader ( Pre – intermediate )
2. Əsgərova, A. İngilis dilinin tədrisində metodunun tətbiqi;
3. https://muallim.edu.az/news.php?id=4553&lang
4. Xarici dilin tədrisi metodikasinin bəzi istiqamətləri. Azərbaycan məktəbi, 5, 91-93.
5. Xarici dillərin tədrisinin aktual problemləri mövzusunda Respublika elmi konfransının tezisləri (2018). (06-07 dekabr 2018-ci il, Azərbaycan). ADU.
6. Bill Mascull – “ Business Vocabulary in Use “ Elementary to Pre İntermediate Cambridge University Press 2006

**İNTERNET RESUSLARI**

7. https://www.market- leader.net.
8. .https://translate.google.com
9. .https// cabridge.org

**Pedaqoji ünsiyyətin psixoloji mexanizmləri**

**Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyası**
**Bəşirova Fatimə**

Pedaqogika — tərbiyə, təlim və tədrisin forma və metodlarını öyrənən elmdir. Pedaqogikanın bir elm kimi obyekti pedaqoji proses və onun mərkəzində duran insandır. Onun mövzusu isə pedaqoji prosesin qanunauyğunluqlarını aşkara çıxarmaq, insanın şəxsiyyət kimi formalaşması və tərbiyəsi məsələlərini həll etməkdir. Hər bir elmdə olduğu kimi, pedaqogikanın da özünəməxsus anlayışlar sistemi vardır. Pedaqoji proses, tərbiyə, təhsil, təlim və şəxsiyyətin inkişafı proseslərinin vəhdətidir. Pedaqoji prosesin bu tərkib hissələri bir-birindən ayrılıqda yox, bir-biri ilə əlaqəli şəkildə eyni məqsədə xidmət edən vahid proses kimi çıxış edir. Digər elmlərdə olduğu kimi, pedaqogika da elmi-tədqiqatların nəticəsində inkişaf edir. Şəxsiyyətin inkişafında aparıcı rollardan biri də pedaqoji ünsiyyətindir.

Ünsiyyət dedikdə, insanların informasiya mübadiləsi, qarşılıqlı təsiri və bir-birini qavraması prosesi başa düşülür. O, əsas sosial tələbatlardan biri olmaqla şəxsiyyətin inkişafı və formalaşmasının vacib şərtini təşkil edir. Pedaqoji ünsiyyəti isə müəllimin şagirdlərlə təlim və tərbiyə prosesində həyata keçirdiyi peşə ünsiyyətidir. Bu cür ünsiyyət hərtərəfli inkişaf etmiş şəxsiyyətin formalaşması üçün şərait yaradılmasma yönəlmiş olur, kollektivdəki sosial-psixoloji prosesləri idarə etməyə və səmərəli psixoloji iqlim yaratmağa imkan verir. Ona görə də hər bir müəllimin pedaqoji ünsiyyətin mahiyyəti, onun sosial-psixoloji mexanizmləri ilə dərindən tanış olması və şagirdlərlə birgə fəaliyyəti zamanı ondan lazımi şəkildə istifadə etməsi zəruridir.

Pedaqoji ünsiyyət şagird şəxsiyyətinin psixoloji inkişaf mühitini, eləcə də öyrənmə mühitini yaradan müəllim işinin tərkib hissəsidir. Pedaqoji ünsiyyət problemi müəllimin "bütün təhsil mühitinin təşkilatçısı, onun hər bir şagirdlə qarşılıqlı əlaqəsinin tənzimləyicisi və nəzarətçisi" olması fikrinə inanan L.S.Vıqotskinin əsərlərində inkişaf etdirilməyə başlanılmışdır.(3,s.34) Pedaqoji ünsiyyət sosial-psixoloji proses kimi həm müəllimin, həm də şagirdin şəxsiyyətini bilməyə, təhsil subyektləri arasında məlumat mübadiləsinə, şagirdlərin bir-birinə və müəllimə empatiyasının inkişaf etdirilməsinə yardım edir.

Pedaqoji ünsiyyətin əsas vəzifələri məlumat mübadiləsi, qarşılıqlı anlaşma, özünə ünsiyyət partnyorunun gözü ilə baxmaq bacarığı, ünsiyyət iştirakçılarının ehtiyatlarını səfərbər etmək, şagird və müəllimlərin ən güclü və parlaq keyfiyyətlərini müəyyən etmək, qarşılıqlı əlaqədir. Eləcə də birgə fəaliyyətin təşkili, ünsiyyət iştirakçılarının qarşılıqlı məmnunluğu, məhsuldar və yaradıcı vəzifələrin birgə həllidir. Pedaqoji ünsiyyətin əsas funksiyası təhsil fəaliyyətində şəxsiyyətin hərtərəfli inkişafı üçün sosial-psixoloji əsasların - şəxsiyyətin inkişafının hərəkətverici qüvvələri kimi çıxış edən dialektik ziddiyyətlər sisteminin yaradılması; fərdin özünü açıqlamasına və özünü inkişaf etdirməsinə (özünütərbiyə və özünütəhsil) kömək edən psixoloji vəziyyətin yaradılması; ünsiyyət prosesində fərdin inkişafına mane olan sosial-psixoloji amillərin (sərtlik, utancaqlıq, qeyri-müəyyənlik və s.) aradan qaldırılmasını təmin edir. (1,s.358)Beləliklə, pedaqoji ünsiyyət təkcə biliklərin mənimsənilməsi üçün şəraitin təşkilinə deyil, həm də təlim prosesində şagirdin şəxsiyyətinin inkişafına yönəlmişdir.

Pedaqoji ünsiyyət, V. A. Kan-Kalik tərəfindən qeyd edildiyi kimi, kifayət qədər mürəkkəb bir quruluşa malikdir və bir neçə mərhələdən ibarətdir: proqnostik, "kommunikativ hücum", ünsiyyətin idarə edilməsi və ünsiyyətin təhlili.(4,s.21-22) Proqnoz mərhələsi auditoriyanın xüsusiyyətlərini bilməyi tələb edir. Belə ki, idrak fəaliyyətinin təbiəti, ehtimal çətinlikləri və işin dinamikasını bilmək çox vacibdir. Tədris materialı müəllim tərəfindən qarşılıqlı əlaqə şəraitində zehni olaraq təqdim edilməli və təkcə müəllimin adından deyil, həm də məktəblilər adından, mümkünsə, müxtəlif

versiyalarda düşünülmüş olmalıdır. “Kommunikativ hücum” adlanan mərhələ müəllimi tez bir zamanda işə istiqamətləndirir. Bunun üçün müəllim özünü təqdim etmə və dinamik təsir üsullarını mənimsəməlidir. Ünsiyyətin idarə edilməsi mərhələsində məktəblilərin təşəbbüsünü dəstəkləmək, dialoq ünsiyyətini təşkil etmək, planı real şəraitə uyğunlaşdırmağı bacarmaq lazımdır. Ünsiyyətin təhlili mərhələsi məqsəd, vasitə və nəticənin əlaqələndirilməsinə yönəldilmişdir.

Pedaqoji ünsiyyət ümumiyyətlə ünsiyyətin bütün xüsusiyyətlərini özündə əks etdirir. Ona görə də birinci növbədə həmin cəhətləri nəzərdən keçirək.

Sosial-psixoloji ədəbiyyatda ünsiyyətin bir-birilə sıx bağlı olan üç cəhəti qeyd edilir. Bu cəhətlərin hər biri pedaqoji ünsiyyətə də aiddir. Pedaqoji ünsiyyətin yerinə yetirdiyi vəzifələrə görə onun aşağıdakı növlərini ayırmaq mümkündür:

1)informasiya mübadiləsi
2) başqa adamın davranışını tənzim etmək
3) şəxsiyyətlərarası anlama

Müəllimin ünsiyyətdəki mövqeyinə və tərəfmüqabilliyin xarakterinə görə də pedaqoji ünsiyyətin növlərini müəyyənləşdirmək mümkündür. Adətən, şagirdlərlə və valideynlərlə ünsiyyət zamanı müəllim qiymətləndirən rolunda, direktorla, dərs hissə müdiri ilə, metodistlə, inspektorla pedaqoji ünsiyyət zamanı isə qiymətləndirilən rolunda çıxış edir və buna müvafiq olaraq ünsiyyət vasitəsi də dəyişilir. Pedaqoji ünsiyyəti öz məzmununa və müəllimin şagirdə müraciət tərzinə görə də növlərə ayırmaq mümkündür. Bunlara təşkiledici, qiymətləndirici, intizam yaradan pedaqoji ünsiyyət növlərini aid etmək olar. Müəllimin kommunikativ fəaliyyətinin öyrənilməsi göstərir ki, pedaqoji ünsiyyətin xarakteri və məzmunu müxtəlif amillərlə şərtlənir ki, bunlardan müəllimin fərdi ünsiyyət üslubu, mövqeyi, ustanovkasını xüsusi qeyd etmək lazımdır.Bunlar bir növ ünsiyyətin vasitəsi rolunu oynayırlar. Adətən hamıda, eləcə də müəllimlərin hamısında ünsiyyət üslubu eyni olmur. Konkret bir şəxsiyyət kimi hər bir müəllimdə ünsiyyətin təşkili priyom və metodları nisbətən sabit şəkilde cəmlənir. Kommunikativ məsələni həll etməyə yönəldilmiş bu cür davamlı keyfiyyətlər fərdi ünsiyyət üslubu adlanır. İdarəetmə ilə bağlı olaraq sosial psixologiyada beş cür rəhbərlik üslubu qeyd olunur: avtokratik, avtoritar, demokratik, laqeyd (etinasız, liberal) və qeyri-sabit (ardıcıl olmayan) rəhbərlik üslubu.(2,s.101-102) Buna uyğıın olaraq pedaqoji ünsiyyətin də eyni üslubları qeyd etmək mümkündür. Adətən, avtokratik və avtoritar rəhbərlik üslubuna malik olan müəllimlər pedaqoji ünsiyyətin təşkilində demək olar ki, eyni mövqe tuturlar. Bu cür rəhbərlik üslubuna malik olan müəllimlər şagirdlərə yalnız obyekt kimi yanaşırlar. Şagird ünsiyyətin bərabər hüquqlu tərəf müqabili kiıni qəbu! edilmir. Belə müəllimlər həmişə hökmüran olmağa çalışırJar. Onlarla ünsiyyət zamanı şagirdlər təşəbbüskarlığı itirirlər. Bu cür ünsiyyət üslubuna malik olan müəllimlər ünsiyyət zamanı şagirdlərin fərdi xüsusiyyətlərini nəzərə almır, hamı ilə eyni ünsiyyət saxlamağa can atırlar. Onlar şagirdlərin fərdi xüsusiyyətlərini göstərsələr də, tamamilə qeyri-real model qurur, həinin fərqi olduqca şişirdir, real hesab edirlər. Şagird başqala-rına nisbətən bir qədər fəal olduqda, müəllimin gözündə o iştirakçı kimi, bir qədər passiv olduqda isə -tənbəl, avara kimi görüniir. Belə müəllimlər üçün neqativ ustanovka, başqa sözlə şagirdə qarşı qeyrişüuru, pis münasibət xarakterik haldır. Bu cür miiəllimlər ünsiyyətdə seçici, qiymətləndirmədə isə subyektiv olurlar. Ona görə də bu cür ünsiyyət üslubu səmərəli xarakter daşıya bilmir. Bu sahədə tədqiqat aparan müəlliflərin əksəriyyəti ən səmərəli ünsiyyət üslubu kimi demokratik üslubu qeyd edirlər. Belə rəhbərlik üslubunda şagird subyekt kimi qavranılır. Bu cür rəhbərlik üslubuna malik olan müəllim şagird kollektivi ilə razılaşır. Qərar qəbul edərkən kollektiv və onun liderinin təklifini nəzərə alır.

Məktəblilərin müstəqilliyini boğmur, şagirdlərə daima xahiş, məsləhətlə yanaşır, müsbət emosional əlaqəyə üstünlük verir.. Bu cür ünsiyyət ülslubuna malik olan müəllimlər şagirdlərin fərdi

xüsusiyyətlərini və şəxsi təcrübələrini, fəallıq və tələbatlarını nəzərə almağa çalışırlar. Belə müəllimlərdə neqativ ustanovka olmur və ya onu təzahür etdirmirlər.Onlar qiymətləndirmədə obyektiv, təmas yaratmaqda isə təşəbbüskardırlar. Təcrübə göstərir ki, şagirdJərlə qarşılıqlı münasibətdə pedaqoji ünsiyyətin demokratik üslubundan istifadə edən müəllimlərlə şagirdlər arasında olduqca səmərəli təmas yaranır. Şagirdlər bu cür müəllimlərlə ünsiyyətə daima can atır, onlardan hər cür köməklik gözləyirlər. Laqeyd və yaxud liberal rəhbərlik üslubuna malik olan müəllimlərin şagirdlərlə ünsiyyəti də kortəbii xarakter daşıyır. Burada ünsiyyətin xarakteri müəllimin özündən deyil, şagirdlərdən asılı olur, şagirdlər tərəfindən diktə olunur. Belə müəl-lim şagirdlərin işinə qarışmamağa çalışır, özünün qətiyyətsizliyi ilə fərqlənir, neytrallığa can atır. Məqsədi yayğın xarakter daşıyır. Heç vaxt qarşıdakı məqsədi həyata keçirməyə can atmır. Ona görə də şagirdlər bu cür müəllimlə ünsiyyət zamanı öz tələbatlarını lazımi şəkildə ödəyəcəklərini güman etmirlər. Müəllimlə şagirdlərin qarşılıqlı ünsiyyəti nə qədər səmərəli olarsa, kollektivin idarə olunması, onun üzvlərinin tərbiyə işinin təşkili də bir o qədər səmərəli olacaqdır.

Şagirdlərlə qarşılıqlı ünsiyyətin səmərəliliyinə görə müəllimləri şərti olaraq 4 qrupa bölmək mümkündür:

Birinci qrupa şagirdlərlə daima ünsiyyətdə olan müəllimləri aid etmək olar. Bu cür müəllimlər təkcə dərsdə, məktəbdə, təlimlə bağlı məsələləri həll edərkən şagirdlərlə ünsiyyətdə olmaqla kifayətlənmirlər. Onların şagirdlərlə ünsiyyəti şagird həyatının bütün sahələrini əhatə edir. Bu cür ünsiyyət öz səmərəliliyi, müəllimin şagirdlərə inamı ilə fərqlənir. Həmin müəllimlər demokratik rəhbərlik üslubuna malik olurlar. Şagirdlərlə qarşılıqlı ünsiyyətin səmərəliliyinə görə ikinci qrupu şagirdlərə hörmətlə yanaşan və şagirdlərdə onlara qarşı dərin inam və etimad mövcud olan müəllimlər təşkil edir. Lakin onun şagirdlərlə qarşılıqlı ünsiyyəti ən çox təlim prosesində mövcud olur, təlimdən kənar vaxtiarda isə müxtəlif səbəblərdən bu cür ünsiyyət müntəzəm xarakter daşımır. Buna baxmayaraq bu və ya digər şagird çətinliyə düşdükdə və bunu həll edə bilmədikdə həmin müəllimə müraciət edir, bu zaman onların arasındakı ünsiyyət açıq qəlbdən və inam səviyyəsindən gedir. Həmin qrupa daxil olan müəilimlərdə demokratik rəhbərlik üslubu üstünlük təşkil edir. Bununla yanaşı olaraq ikinci qrupa daxil olan müəllimlərdə bəzən avtoritar rəhbərlik üslubu da özünü göstərir. Şagirdlərlə qarşılıqlı ünsiyyətin xarakterinə görə üçüncü qrupa daxil olan müəllimlər əvvəlkilərdən bir sıra cəhətlərinə görə fərqlənirlər. Bu cür müəllimlər, adətən, şagirdlərlə yaxın ünsiyyət saxlamağa cəhd göstərir, bü cür ünsiyyətə can atırlar. Lakin bu cür ünsiyyətə nail ola bilmirlər. Bu cür ünsiyyətin baş tutmamasının səbəbinə gəldikdə, onlar vaxtın çatmaması üzündən öz cəhdlərini həyata keçirə bilmiriər. Ünsiyyətə cəhd göstərməsinə baxmayaraq, şagirdlər onlara inanmadıqlarına görə qarşılıqlı ünsiyyət baş tutmur. Belə müəllimlər ya həddindən artıq mentor (öyüdçü) pozası tutur, ya onlara verilən sirri saxlaya bilmir, ya da şagirdlərin hörmətini qazana bilmirlər. Ona görə də bu cür müəllimlərin şagird kollektivini idarəetmələri çətinləşir. Bu cür müəllimlər arasında avtoritar rəhbərlik üslubuna malik olanlar tez-tez özünü göstərir. Bununla yanaşı həmin qrupa daxil olan müəllimlər arasında müəyyən miqdarda demokratik və ardıcıl olmayan rəhbərlik üslubuna malik olan müəllimlərə də rast gəlmək mümkündür. Dördüncü qrupa gəldikdə, buraya daxil olan müəllimlər şagirdlərlə çox məhdud işgüzar ünsiyyətlə kifayətlənirlər. Bu cür müəllimlər şagirdlərlə ünsiyyətə can atmadıqları kimi, dərs dedikləri şagirdlər də onlarla yaxın ünsiyyətə, ürək sözlərini deməyə, onlarla məsləhətləşməyə meyl göstərmirlər. Bu qrupa, əsasən avtokratik və etinasız rəhbərlik üslubuna malik olan müəllimlər daxil olurlar.

Pedaqoji ünsiyyətin formalaşmasında və inkişafında həlledici rolu müəllimin şəxsiyyəti, peşəkarlığı və bacarığı oynayır. Pedaqoji ustalığın, onun peşəkar keyfiyyətinin tərəflərindən biri isə pedaqoji incəlik -taktikadır. Pedaqoji taktika müəllimin şagirdlərə pedaqoji cəhətdən məqsədəuyğun

təsirinin, məhsuldar ünsiyyət tərzinin qurulması bacarığının ölçüsüdür. Pedaqoji taktika ümumi nəzakət anlayışından onunla fərqlənir ki, o, təkcə müəllimin şəxsiyyət xüsusiyyətlərini deyil, həm də şagirdlərə düzgün yanaşmanı seçmək bacarığını ifadə edir, yəni tərbiyəvi xarakter daşıyır. O, özünü müəllimin davranışının balansında göstərir. Pedaqoji nəzakət bacarıqla yanaşı mənimsənilir və müəllimin mənəvi yetkinliyinin, xüsusi biliklərə yiyələnmək və uşaqlarla ünsiyyət bacarıqlarını inkişaf etdirmək üçün öz üzərində çox çalışmasının nəticəsidir. İlk növbədə bu, yaş psixologiyası və müasir uşaqların fərdi xüsusiyyətləri haqqında bilikdir. Əxlaqın əsaslarını bilmək, hərəkətlərdə əxlaqi məna görmək bacarığı ondan az əhəmiyyət kəsb etmir.

**Nəticə.**Qənaətimiz budur ki,müasir müəllimin qarşısında duran vəzifələr onun öz təfəkküründə edəcəyi,yaxud etməli olan yeniliklərlə bağlıdır.Pedaqoji prosesin müasirləşməsi,müəllimin şagirdlərlə münasibətlərinin “subyekt-subyekt” kontekstində tənzimlənməsi yeni təfəkkürün başlıca prinsipidir.Müasir təhsildə başlıca məqsəd şagird maraqlarının ödənilməsi,onların qabiliyyətlərinin yaradıcı istiqamətdə inkişaf etdirilməsidir.Müəllim-şagird münasibtlərinin əsas forması olan pedaqoji ünsiyyətin səmərəliliyini şərtləndirən başlıca amil onun motividir.Demokratik düşüncə tərzinə,vətənpərvərlik və məsuliyyət hissinə malik olan hər bir müəllim şagirdlərlə münasibətlərində uğur qazana bilər.Bu şərtlərlə qurulan pedaqoji ünsiyyət üslubu ən səmərli üslub olacaqdır.Nəhayət, pedaqoji ünsiyyət müvafiq normalar çərçivəsində getməlidir. Müəyyən normaların gözlənilməməsi bir növ pedaqoji ünsiyyətin səmərəliliyini itirir və ünsiyyət istənilən nəticəni vermir.

## İstifadə edilmiş ədəbiyyat

1.Əlizadə Ə.Ə.,Əlizadə H.Ə.,Pedaqoji psixologiya.Bakı: ADPU-nun mətbəəsi,2010,600s.
2.Əlizadə S.H., Müəllimin məktəbdə rəhbərlik üslubunun sosial-psixoloji məsələləri. diss..psixol.üzrə fəl.dok. Bakı:2015,159 s.
3. Выготский Л. С. Собр. соч.: В 6 т. М, 1982. Т. 1.
4. Кан-Калик В. А. Учителю о педагогическом общении. М., 1987.

## Xülasə

Məqalədə pedaqoji ünsiyyət üslublarının psixoloji problemləri müzakirə olunur. Göstərilir ki, müəllimin liderlik üslubu şagirdlərin məzmununu müsbət başa düşmək, onları sevmək, uğur qazanmağa təşviq etməkdir. Burada müəllimin səmərəli pedaqoji ünsiyyətinin əsas göstəricisi kimi fərdi iş üslubuna da diqqət yetirilir. Bu, tələbənin anlama ehtiyacı, bu ehtiyacları ödəməyin yolu, tempi, dinamikası və çevikliyi ilə kompromisdir. Əgər müəllim qrup işini təşkil etməyi bacarırsa, düzgün mühitə yiyələnirsə və şagirdlərin marağına səbəb olacaq şəkildə həyati bacarıqlar formalaşdırmaq bacarığına yiyələnirsə, o zaman müəllimin pedaqoji ünsiyyət tərzinin səmərəliliyindən danışmaq olar.
***Açar sözlər:*** *pedoqoji ünsiyyət,müəllim-şagird münasibətləri, birgəfəaliyyət, ünsiyyət psixologiyası,ünsiyyətin emosional quruluşu,ünsiyyətin intellektual quruluşu*

## Резюме

В статье рассматриваются психологические проблемы стилей педагогическо-го общения. Показано, что стиль руководства учителя заключается в том, чтобы по-зигивно понять содержание учеников, любить их, и убежлать их преуспевать. Он также фокусируется на индивидуальном стиле работы, как на главном индикаторе эффективной педагогической коммуникации учителя. Это компромисс с потребностью ученика в понимании, способом

удовлетворения этих потребностой, темпа-ми, динамикой и ловкостью. Всли преподаватель способен организовать групповую работу, приобрезние правильной среды и умение формировать жизненные навыки в Интересяя учеников, то можно говорить об эффективности педагогического стиля общения учителя эофектишость.
***Ключевые слова:*** *педагогическое общение, отношения учителя и ученика, совместная деятельность, психология общения, эмоциональная структура общения, интеллектуальная структура общения.*

**Summary**

Psychological problems of pedagogical communication styles are discussed in the article. It is shown that the teacher's leadership style is to positively understand the content of the students, to love them, to encourage them to succeed. Here, attention is also paid to the individual work style as the main indicator of effective pedagogical communication of the teacher. It is a compromise with the student's need for understanding, the way to meet those needs, pace, dynamics and flexibility. If the teacher is able to organize group work, acquires the right environment and acquires the ability to form life skills in a way that arouses the interest of students, then we can talk about the effectiveness of the teacher's pedagogical communication style.
***Key words:*** *pedagogical communication, teacher-student relations, joint activity, psychology of communication, emotional structure of communication, intellectual structure of communication*

**Müharibədə iştirak edən gənclərin sosial problemləri**

**Azərbaycan Universiteti**

**Cəfər Nadirov**

***Açar sözlər:*** veteranlar, gənc veteranlar, qazilər, gənc qazilər, sosial problemlər, social dəstək

***Ключевые слова: ветераны, молодые ветераны, ветераны, молодые ветераны, социальные проблемы, социальная поддержка***

***Keywords: veterans, young veterans, veterans, young veterans, social problems, social support***

**Xülasə**

Qazilər travmatik xatirələri ilə mübarizə aparmaq üçün bir çox fərqli mübarizə strategiyalarından istifadə edirlər. İyirmi beş Britaniya İkinci Dünya Müharibəsi veteranı həm müharibə zamanı, həm də ondan sonrakı illərdə sosial dəstəkdən necə istifadə etdikləri ilə bağlı müsahibə alıb. Nəticələr göstərir ki, sosial dəstəyin əsaslı şəkildə fərqli şəkildə istifadə olunur. Müharibə illərində yoldaşlıq xüsusi əhəmiyyət kəsb edirdi və hətta müharibədən əlli il sonra yoldaşlar hələ də müharibə təcrübələrini müzakirə etmək və travmatik xatirələrin emosional məzmunu ilə məşğul olmaq üçün qiymətli mənbədir. Veteranlar mübarizənin daha fiziki və praktiki elementləri ilə məşğul olmaq üçün həyat yoldaşlarına və ailələrinə güvənirlər, lakin onlarla travmatik xatirələrini müzakirə etmirlər. Nəticələr göstərir ki, sosial dəstək İkinci Dünya Müharibəsi veteranları üçün mühüm ömürlük mübarizə strategiyasıdır.

Travmatik hadisələrin qurbanları müxtəlif yollarla yaşadıqları hər hansı bir psixoloji çətinliklərin öhdəsindən gəlirlər. Mübarizənin öhdəsindən gəlməyin iki əsas yolu hadisə ilə bağlı xatirələri emal etmək və ondan qaçmaqdır . Həm emal, həm də qaçınma ilə əlaqəli olan digər mühüm mübarizə vasitəsi sosial dəstəkdir [1]. Bu tədqiqat müharibə təcrübəsinin çox uzunmüddətli psixoloji nəticələrində sosial dəstəyin rolunu araşdırır.

Sosial dəstək HİV xəstələrdən cinsi təcavüzə qədər müxtəlif vəziyyətlərdə istifadə olunur. Gündəlik stresslər, müharibə stressləri daxil olmaqla müxtəlif vəziyyətlərdə sosial dəstək və rifah arasında əlaqə var və işgəncə qurbanları araşdırıldı [2]. Cohen və Wills geniş miqyaslı araşdırmada iki imkan təklif edir; rifahın dəstəyin ümumi faydalı təsirinə (əsas təsir modeli) və ya insanları stressli epizodların potensial zərərli təsirlərdən qorumaq prosesinə (tamponlama modeli) aid edilə bilər. Cohen və Wills hər iki model üçün dəstək tapdı. Əsas effekt modelinin sübutu insan böyük bir sosial şəbəkəyə inteqrasiya edildikdə baş verir [3].

Engdahl və başqaları sosial dəstəyin səviyyəsinin keçmiş İkinci Dünya Müharibəsi və Koreya Müharibəsi əsirlərinin böyük bir nümunəsində sonrakı düzəliş səviyyələrini proqnozlaşdırdığını aşkar etdi [4]. Fairbank və başqaları keçmiş İkinci Dünya Müharibəsi əsirlərinin post-travmatik stress pozğunluğu (TSSB) olanların TSSB olmayanlara nisbətən daha çox sosial dəstəkdən istifadə etdiyini aşkar etdilər. Bununla belə, şəkil mürəkkəbdir [6]. Solomon müəyyən etdi ki, sosial dəstəyi aşağı səviyyədə olan döyüş veteranları yüksək səviyyədə sıxıntı yaşamaq ehtimalı daha yüksəkdir. Horowitz və Stinson belə nəticəyə gəldilər ki, sosial dəstək insanı travmadan sonra yaranan emosional qarışıqlıq vasitəsilə saxlayır. Sosial dəstəyin effektivliyini nəzərdən keçirməzdən əvvəl onun işlədiyi proses olmalıdır.

Tamponlama modelinin sübutu, insanın stresli hadisələrin yaratdığı ehtiyaclara cavab verən şəxsiyyətlərarası resurslara malik olduğu zaman baş verir. Uğurlu sosial dəstək əsgər tərəfindən müharibə zamanı bölmə vasitəsilə və müharibədən sonrakı ailədən alınır. Döyüş bölməsində sosial

dəstək şəbəkəsi lazımi səviyyədə işləmirsə, psixoloji problemlər yarana bilər. Bufer kimi sosial şəbəkə TSSB-nin modulyasiyasında vacib ola bilər [5].. Jordan TSSB olan Vyetnam veteranlarının ailələrinin nikahda və ailədə uyğunlaşma, valideynlik bacarıqlarında və zorakı davranışda nəzərəçarpacaq dərəcədə yüksək səviyyələr göstərdiyini aşkar etdi. Sosial dəstəyin müharibə şəraitində yaşayan ailələr üçün də təsirli olduğunu göstərmişdir. Sosial dəstəyin olmaması qurbanın təcrid olunmasına və ya ayrılmasına səbəb ola bilər.

Krausa görə, sosial dəstək üç müxtəlif şəkildə mübarizə mexanizmi kimi çıxış edə bilər: (1) moderator kimi, (2) bastırıcı kimi və (3) çətinlikdən çəkindirici kimi. Moderator modeli yəqin ki, ən çox araşdırılan modeldir. Burada sosial dəstəyin stressli hadisəyə tənzimləyici təsir göstərdiyi görülür. Açıq suallar toplusundan daha çox ümumi müsahibə protokollardan istifadə edildi. Bu, mümkün olduğu qədər iştirakçıların xüsusi cavablara yönləndirilməməsi və müsahibənin iştirakçı üçün vacib olan yollarla, lakin sosial dəstək, mübarizə və travmatik yaddaş kimi ümumi mövzular çərçivəsində inkişaf etməsini təmin etmək idi. İştirakçıları daha ətraflı məlumat verməyə təşviq etmək üçün göstərişlərdən istifadə edilmişdir. Bunun yüksək stress səviyyələrində ən təsirli olduğu təklif edilir. Supressor modelində dəstəyin səviyyəsi mövcud olan stressin miqdarından asılıdır. Müsahibələr əsaslandırılmış nəzəriyyə prosedurlarından istifadə etməklə həyata keçirildikdən dərhal sonra transkripsiya edilmiş, kodlaşdırılmış və təhlil edilmişdir . Bu, nəzəri inkişafın əvvəldən həyata keçirilməsi və müsahibə protokolunun ortaya çıxan mövzulara və kateqoriyalara uyğun olaraq dəyişməsinə imkan verdi. Müsahibələr davam etdikcə protokola əlavə olunacaq yeni suallar ortaya çıxdı və sonra köhnə suallar ləğv edildi. Beləliklə, eyni sualı növbəti dəfə verməklə heç bir faydanın əldə edilməyəcəyi nöqtə kimi müəyyən edilmişdir. Bu yolla nəzəri işlənməyə nail olundu. Növbəti iştirakçılar qrupunun suallarını məlumatlandırmaq üçün bir qrup iştirakçının cavablarından istifadə etmək, eyni suallar toplusunun bütün müddət ərzində istifadə olunmasındansa, yaranan mövzuları daha dərindən başa düşməyə imkan verdi. Bu, stress artdıqca fərdlərin sosial dəstəyi artırmaq üçün hərəkətə keçdiyini bildirən resurs səfərbərliyi yanaşmasını nəzərdə tutur. Beləliklə, stress dəstəyi artırır, bu da stressi yatırır. Təhlükədən çəkindirmə modeli tənzimləyici modeldən onunla fərqlənir ki, stressli hadisə və dəstək bir-birindən müstəqildir, lakin onlar birlikdə nəticəyə əlavə təsir göstərirlər. Rook bu sonuncu modeli dəstəkləyərək, fəaliyyətlərdən müştərək həzz almağı nəzərdə tutan yoldaşlıq və problem yönümlü və yardım və ya yardım göstərməyə çalışan qarşılıqlı əlaqə olan sosial dəstək arasında fərqə işarə etdi.

**Ədəbiyyat siyahısı:**


1. BARRETT, T.W. & MIZES, J. S. (1988). Combat level and social support in the development of posttraumatic stress disorder in Vietnam veterans. Behaviour Modification, 12, (1), 100–115.s.
2. BASOGLU, M., PAKER, M., PAKER, O., OZMEN, E., MARKS, I., INCESU, C., SAHIN, D. & SARIMMURAT, N. (1994). Psychological effects of torture: A comparison of tortured with non-tortured political activists in Turkey. American Journal of Psychiatry, 151, (1), 7.
3. COHEN, S. & WILLS, T.A. (1985). Stress, social support, and the buffering hypothesis. Psychological Bulletin, 98, (2), 310–357s.
4. ENGDAHL, B. E., PAGE, W. F. & MILLER, T. W. (1991). Age, education, maltreatment, and social support as predictors of chronic depression in former prisoners of war. Social Psychiatry and Psychiatric Epidemiology, 26 (2), 63–67
5. ESCOBAR, J. I. (1987). Commentary: Posttraumatic stress disorder and the perennial stress-diathesis controversy. The Journal of Nervous and Mental Disease, 175, (5), 265-266

6. FAIRBANK, J. A., HANSEN, D. J. & FITTERLING, J. M. (1991). Patterns of appraisal and coping across different stressor conditions among former prisoners of war with and without posttraumatic stress disorder. Journal of Consulting and Clinical Psychology, 59, (2), 274–281.
7. FARHOOD, L., ZURAYK, H., CHAYA, M., SAADEH, F., MESHEFEDJIAN, G. & SIDANI, T. (1993). The impact of war on the physical and mental health of the family: The Lebanese experience. Social Science and Medicine, 36, (12), 1555–1567.
8. HARVEY, J. H., ORBUCH, T. L., CHWALISZ, K. D. & GARWOOD, G. (1991). Coping with sexual assault: The roles of account-making and confiding. Journal of Traumatic Stress, 4, (4), 515–531.
9. HOROWITZ, M. J. & STINSON, C. (1994). Stress-response syndromes: Personality features related to neurotic responses to events. Current Opinion in Psychology, 7, 144–149.
10. HUNT, N. & ROBBINS, I. (1998). Telling stories of the war: Aging veterans coping with their memories through narrative. Oral History, 26, (2), 57–64.
11. KENTISMITH, D. K. (1986). Principles of battlefield psychiatry. Military Medicine, 151, 89–96.
12. LOO, C. M. (1993). An integrative-sequential treatment model for posttraumatic stress disorder: A case study of the Japanese American internment and redress. Clinical Psychology Review,13, 89–117.
13. MULDER, C. L. & ANTONI, M. H. (1994). Acquired Immuno-Deficiency Syndrome (AIDS) in homosexual men: Psychological distress and psychotherapy. Clinical Psychology and Psychopathology, 1, (2), 69–81.
14. SHENAN, C. L. (1987). Spouse support and Vietnam veterans' adjustment to post-traumatic stress disorder. Family relations, 36, 55–60.

**Jafar Nadirov**

**Psychological problems of young people participating in the war**

**Summary**

Veterans use many different coping strategies to deal with their traumatic memories. Twenty-five British World War II veterans were interviewed about how they used social support both during and after the war. The results show that social support is used in fundamentally different ways. Comrades were especially important during the war, and even fifty years after the war, comrades are still a valuable resource for discussing war experiences and dealing with the emotional content of traumatic memories. Veterans rely on their spouses and families to deal with the more physical and practical elements of combat, but do not discuss their traumatic memories with them. Findings suggest that social support is an important lifelong coping strategy for World War II veterans.

**Джафар Надиров**

**Психологические проблемы молодежи, участвующей в войне.**

**Реэюоме**

Ветераны используют множество различных стратегий преодоления трудностей, чтобы справиться со своими травмирующими воспоминаниями. Двадцать пять британских ветеранов Второй мировой войны были опрошены о том, как они использовали социальную поддержку как во время, так и после войны. Результаты показывают, что социальная поддержка используется принципиально по-разному. Товарищи были особенно важны во время войны, и

даже спустя пятьдесят лет после войны товарищи по-прежнему являются ценным ресурсом для обсуждения военного опыта и работы с эмоциональным содержанием травматических воспоминаний. Ветераны полагаются на своих супругов и семьи, чтобы справиться с более физическими и практическими элементами боя, но не обсуждают с ними свои травмирующие воспоминания. Результаты показывают, что социальная поддержка является важной стратегией выживания на протяжении всей жизни

## Məişət zorakılığı anlayışı,obyekti,predmeti və əsas xüsusiyyətləri

**Bakı Biznes Universiteti**
**Məhərrəmova Rəqsanə**

### Xülasə

Qeyd edə bilərik ki, bütün cəmiyyətlərdə mövcud olan məişət zorakılığı qlobal problemlərdən biri hesab olunur. Məişət zorakılığna məruz qalan qadınlar,uşaqlar,əlilliyi olan şəxslər və digər kateqoriyaya aid olan şəxsləri cəmiyyətin həssas əhali qrupu hesab etmək olar. Bu kateqoriya şəxsləri müdafiə etmək dövlətin və cəmiyyətin başlıca istiqamətlərindən biridir.Bu problemin qarşısının alınması və həll olunması insan haqqlarının qorunması və cəmiyyətin sosial təhlükəsizlik müdafiəsinin göstəricisidir. Hazırda bu istiqamətdə Azərbaycan Respublikasında dövlət proqramları eyni zamanda QHT -lərin nəznində bir sıra layihələr həyata keçirilir.

### Summary

We can note that domestic violence, which exists in all societies, is considered one of the global problems. Women, children, persons with disabilities and other categories of persons subjected to domestic violence can be considered a vulnerable group of the society. Protecting this category of persons is one of the main directions of the state and society. Preventing and solving this problem is an indicator of protection of human rights and protection of social security of society. At present, in this direction, state programs and a number of projects are being implemented by NGOs in the Republic of Azerbaijan.

### Краткое содержание

Можно отметить, что домашнее насилие, существующее во всех обществах, считается одной из глобальных проблем. Женщины, дети, инвалиды и другие категории лиц, подвергшихся домашнему насилию, могут считаться уязвимой группой общества. Защита данной категории лиц является одним из основных направлений деятельности государства и общества. Предупреждение и решение данной проблемы является показателем защиты прав человека и защиты социальной безопасности общества. В настоящее время в этом направлении неправительственными организациями Азербайджанской Республики реализуются государственные программы и ряд проектов.

***Açar sözlər: məişət zorakılığı,qadınlar,fiziki,cinsi,iqtisadi,psixoloji.***

Hərfi mənada zorakılıq sözü hücum etmək anlamına gəlir. Biz zorakılıqdan danışan da çoxlarımızın ağlına, döymək, zorlamaq, güc tətbiq etmək və.s kimi hallar gəlir. Lakin zorakılığı yalnız bununla məhdudlaşdırmaq olmaz..Zorakılıq ,eyni zamanda , onun gündən günə artan formaları,növləri təkcə Azərbaycanın deyil,bütün dünyanın sosial problemləri içərisindədir. Məişət zorakılığı-bu anlayış haqqında hazırda körpə uşaqlarımızda bilir.Buna səbəb olaraq dövrümüzdə zorakılıq halının çox baş verməsini qeyd edə bilərik. Hər bir zorakılıq halı eyni zamanda məişət zorkılığı uşaqlar,qadınlar,ailələr ümumilikdə cəmiyyət üçün dərin və ağır fiizki, psixoloji,iqtisadi və elece de sosial nəticələr doğurur.Vurğulamaq lazımdır ki, məişət zorakılığı uşaqların tərbiyəsinə,təhsilinə,psixoloji vəziyyətinə,sağlam düşüncə tərzinin formalaşmasına ciddi təsir göstərir, bununla yanaşı onların davranışında da problemlər ortaya çıxır. Ailə mühitində zorakılığın müşahidəsi nəticəsində uşaqlar arasinda yuxu pozuntusu,qida qəbulunda çətinliklər,fikirlərini ifadə edə bilməmək,özünü dikbaş,ədəbsiz aparmaq və s.bu kimi problemlərə rast gəlinir. Belə uşaqların gələcəkdə zorakılıq törətmə ehtimalı daha yüksəkdir.

Məişət zorakılığı kifayət qədər geniş yayılmış həmçinin çətin,ciddi nəticələrə səbəb olan situasiyadır.Bir çox hallarda bu zorakılıq halına cəmiyyətin müdafiəsiz üzvləri məruz qalır:

uşaqlar,ahıllar,qadınlar,əlilliyi olan şəxslər. Bu qavramın obyekti kimi ahıllar,uşaqlar,əlillər hesab edilsə də,aparılmış tədqiqatlara və çoxsaylı sorğulara,statistik məlumatlara əsasən məişət zorakılığının obyekti qadınlar olduğu ortaya çıxır. Buna misal olaraq hər ötən gün qadınların üçdə birinin zorakılığa məruz qaldığı faktını qeyd etmək olar. Azərbaycanın rəsmi statistik məlumatlarına nəzər yetirsək görərik ki,2019-2020-ci ildə təxminən 1040-a yaxın qadın məişət zorakılığına məruz qalıb, təqribi 680 cinayət törədilmişdir. Nəzərə alınmalıdır ki, bu rəqəmlər məsələnin görünən tərəfidir...

Məişət zorakılığına məruz qalan şəxslərin iqtisadi vəziyyətləri,cinsi müxtəliflikləri,yaş xüsusiyyətləri,dini görüşləri,etnik mənsubiyyətləri eləcə də aid olduqları irqləri nəzərə alınmır.Bu kimi hallar baş verdiyi təqdirdə hər bir sosium da buna dərhal müdaxilə edilməli, eyni zamanda gələcək nəsillərə ötürülməsinin qarşısını almaq lazımdır.Məişət zorakılığı bütünlüklə cəmiyyətə təsir edən xəstəlikdir.

Məişət zorakılığı bir şəxsin digərinə qarşı həyata keçirdiyi sistematik zərbə və ya nəzarət modeli silsiləsinə aid olan təhqiramiz davranışdır.Məişət zorakılığı ilə bağlı qanunvericiliyin tərifinə əsasən məişət zorakılığı qohumluq münasibətindən eləcə də biryerdə yaşamaqdan sui-istifadə etməklə başqasına qarşı qəsidli fiziki və ya mənəvi zərər vurulması hesab edilir.Məişət zorakılığının qurbanı kimi ailə üzvlər,yaxın qohumlar,nikahda olmadan birgə yaşayan şəxslər,nikaha xitam verilmiş şəxslər qəbul edilir.

Qadınların bütün növ zorakılığa qarşı qorunması eləcə də qadınlara qarşı məişət zorakılığının izlənməsini və aradan qaldırılmasını məişət zorakılığının predmeti hesab etmək olar.

Məişət zorakılığının qarşısının alınması haqqında Azərbaycan Respublikasının Qanunun əsasən "Məişət zorakılığının psixi,fiziki,cinsi,eləcə də iqtisadi kimi fornaları mövcuddur.

1. məişət zəminində fiziki zorakılıq - bu Qanunun şamil edildiyi şəxslərin birinin digərinə qəsdən fiziki təzyiq göstərməsi, yəni zor tətbiq etməklə təhlükəsizliyini pozması, döyməsi, sağlamlığına zərər vurması, işgəncə verməsi, azadlıq hüququnu məhdudlaşdırması;

2. məişət zəminində psixi zorakılıq - bu Qanunun şamil edildiyi şəxslərin birinin digərinə qəsdən psixi təzyiq göstərməsi və ya dözülməz psixi şərait yaradılmasına yönəlmiş hərəkətləri;

3. məişət zəminində iqtisadi xarakterli qanunsuz məhdudiyyətlərin tətbiqi - bu Qanunun şamil edildiyi şəxslərin birinin digərini onun mülkiyyətində, sərəncamında və ya istifadəsində olan əmlakdan, gəlirlərdən məhrum etməsinə, iqtisadi asılılıq yaratmasına, belə asılılığı saxlamasına və ya ondan sui-istifadə etməsinə yönəlmiş hərəkətləri;

4. məişət zəminində cinsi zorakılıq - bu Qanunun şamil edildiyi şəxslərin birinin digərini onun iradəsi əleyhinə seksual xarakterli hərəkətlərə məcbur etməsi "[1].

Məişət zorakılığından danışarkən bunu qeyd etmək yerinə düşər.İnsanlar bir münasibətə başlayarkən ilkin tanışlıq mərhələsində qarşı tərəfin təhqiredici şəxs olub-olmadığını təyin etməkdə çətinlik çəkirlər.Lakin bir müddət sonra bu özünü büruzə verir. Bu halları ümumilikdə sui-istifadə modelləri adlandırmaq olar. Sui-istifadənin başlanğıc mərhələsində - adla müraciət,təhdit etmə,"yiyələnmə" və s. kimi önəmsiz sayılan davranışlar sərgilənir. Sui-istifadə modellərinin bəzilərinə nəzər yetirək:

" -Ailənizə və dostlarınıza qısqanclıqla yanaşdığınızı və vaxt keçirdiyinizi göstərmək

- Sizi aldatmaqda ittiham etmək

-Sizi dostlarınız və ya ailə üzvlərinizlə görüşməkdən çəkindirmək

-Evdə xərclənən hər qəpiyə nəzarət etmək" [3]

## ƏDƏBİYYAT


1. https://e-qanun.az/framework/20131
   "Məişət zorakılığının qarşısının alınması haqqında" Azərbaycan Respublikasının qanunu (22 iyun 2010-cu il)
2. https://saglamusaq.az/site/article/170
   sağlamusaq.az saytının xəbərindən
3. https://coda18.gov/victims-services/domestic-violence/
4. https://teleqraf.com/news/toplum/210436.html
   teleqraf.com saytının xəbərindən (18.05.2019)
5. https://www.injuria.az/news/meiset-zorakiligi-yaranma-sebebleri-ve-onunla-mubarize-usullari

**Gülüstan müqaviləsi**

**Xəzər Universiteti**
**Minurə Cavadova**

***Açar sözlər:*** *Qacar, Cənubi Qafqaz, Andlı öhdəlik, knyaz, xanlıq, sultanlıq*
***Keywords:*** *Gajar, South Caucasus, Andli ohdalik, knyaz, khanate, sultanate*
***Ключовые слова:*** *Каджар, Южный Кавказ, Андли Охдалик, князь, ханство, султанат*

**Xülasə**

Ərazi bütövlüyümüzün pozulmasına səbəb olmuş müqavilələrdən biri olan Gülüstan müqaviləsi mövzusuna toxunmaqda məqsədimiz çarizmin müstəmləkəçilik siyasətinin Azərbaycan torpaqlarında necə yürüdüldüyünü sizlərə çatdırmaqdır. 1813-cü il 12 oktyabr Gülüstan sülh müqaviləsinin imzalanması ilə 1-ci Rusiya-Qacar müharibəsi yekunlaşdı. Gülüstan sülh müqaviləsi Azərbaycan üçün ədalətsiz idi. Bu müqavilə ilə Azərbaycan İrəvan və Naxçıvan istisna olmaqla bütün ərazilərini itirdi. Şimali Azərbaycan Rusiyanın işğalı altına düşdü. Şimal ərazilərimizin və Cənubi Qafqazın çar Rusiyası tərəfindən istilası təsdiq edildi. Araz çayının şimali Rusiya təbəəliyinə keçdi. Xalqımızın gələcək faciələrinin bünövrəsi qoyuldu. Bu müqavilə ilə təkcə müasir Azərbaycan torpaqları deyil, həm də Dağıstan camaatlıqları və Gürcüstan çarlıqları Rusiyanın ixtiyarına keçmiş oldu.

**Summary**

Our goal in touching on the subject of the Gulustan Treaty, which is one of the treaties that caused the violation of our territorial integrity, is to convey to you how the tsarist colonial policy was carried out in the lands of Azerbaijan. On October 12, 1813, the 1st Russo-Qajar War ended with the signing of the Gulistan Peace Treaty. The Gulistan peace treaty was unfair for Azerbaijan. With this agreement, Azerbaijan lost all its territories except Iravan and Nakhchivan. Northern Azerbaijan fell under Russian occupation. The invasion of our northern territories and the South Caucasus by Tsarist Russia was confirmed. The north of the Araz River passed to Russia. The foundation of the future tragedies of our people was laid. With this agreement, not only the lands of modern Azerbaijan, but also the communities of Dagestan and the kingdoms of Georgia came under the control of Russia.

**Краткое содержание**

Наша цель, затронув тему Гюлистанского договора, который является одним из договоров, повлекших за собой нарушение нашей территориальной целостности, - донести до вас, как проводилась царская колониальная политика на землях Азербайджана. 12 октября 1813 года подписанием Гюлистанского мирного договора завершилась 1-я Русско-Каджарская война. Гюлистанский мирный договор был несправедливым по отношению к Азербайджану. По этому соглашению Азербайджан потерял все свои территории, кроме Иревана и Нахчывана. Северный Азербайджан попал под российскую оккупацию. Вторжение царской России на наши северные территории и Южный Кавказ было подтверждено. Север реки Араз отошёл к России. Была заложена основа будущих трагедий нашего народа. По этому договору под контроль России перешли не только земли современного Азербайджана, но и общины Дагестана и грузинские царства.

Azərbaycan tarixində imzalanan bir çox müqavilələr vardır. Bu müqavilələrdən də biri Gülüstan müqaviləsidir, hansi ki, Azərbaycanın ərazi bütövlüyünü pozmuş, sonrasında fəlakətlər gətirmişdir. Bildiyimiz kimi Gülüstan müqaviləsi 1-ci Qacar-Rusiya müharibəsinin (1804-1813) nəticəsi olaraq imzalanmış, bununla da müharibə bir müddətliyinə bitmişdir.

1-ci Qacar-Rusiya müharibəsinin başlamasna qədər Rusiya öz təcavüzkar siyasətini 1-ci Pyotrun Azərbaycana yürüşündə də icra eləmişdi. Lakin, o yürüşdə Rusiyanın məqsədi fərqli idi. Onda məqsəd Xəzəryanı bölgələri tutmaq və burda möhkəmlənmək idi. Bunun üçün 1-ci Pyotr Artemi Volinskini Azərbaycana göndərmişdi. Elçinin Azərbaycana göndərilməsində 2 əsas məqsəd vardı:

**1.** Xəzər dənizinin qərb sahillərini öyrənmək

**2.** Azərbaycandakı sosial-iqtisadi və siyasi vəziyyəti öyrənmək

Lakin, Rusiya İsveçlə müharibə (1700-1721) apardığı üçün cənuba yürüş etmək imkanında olmadı. Bu səbəbdən Pyotr gələcək işğal planlarını həyata keçirmək üçün diplomatik və kəşfiyyat xarakterli tədbirlər həyata keçirməklə kifayətləndi.

Pyotrun Xəzəryanı bölgələrə yürüşdən öncə həyata keçirdiyi tədbirlər arasında Xəzərin qərb sahillərinə ekspedisiya göndərmək, həmçinin Şirvanda rus konsulluğu açmaq cəhdi də vardı.

Rusiyanın Xəzəryanı bölgələrə yürüşü zamanı işğal edilən ərazilər bunlardır:

**1.** Dərbənd və Rəşt (1722)

**2.** Bakı və Salyan (1723)

**3.** Cavad, Salyan, Lənkəran, Astara, Qızılağac (1727)

**4.** Quba və Təngə (1728)

18-ci əsrdə Osmanlı ilə müharibələr aparıb Şimali Qafqazda möhkəmlənən Rusiyanın hədəfi Cənubi Qafqaz idi. 19-cu əsrin ilk illərində Rusiyanın Azərbaycan torpaqlarına işğalçılıq planlarını çar 1-ci Aleksandr (1801-1825) və çar 1-ci Nikolay (1825-1855) reallaşdırdı, beləliklə yürüş başladı. İşğal olunan ərazilər: Qazax, Şəmşəddil, Borçalı sultanlıqları və Pəmbək (1801-ci il sentyabr), Car-Balakən camaatlığı (1803-cü il aprel), Gəncə (1804-cü il 3-4 yanvar), Samux hakimliyi (1804-cü il yanvar), İlisu sultanlığı (1804-cü il mart)

### 1804-1813-cü illər Rusiya-İran müharibəsi

**Müharibənin başlanması.**

Gürcüstanın birləşdirilməsi, Gəncənin tutulması və Rusiyanın getdikcə Azərbaycanın daxilinə doğru irəliləməsi İranı qəti tədbirlər görməyə məcbur elədi. Transqafqaz ölkələrindən əl çəkmək istəməyən İran dövləti öz qonşuluğunda Rusiya imperiyasının hökmranlıq qazanmasını qəbul edə bilmirdi. Beynəlxalq durum İranın Rusiya işğallarına qarşı çıxmasına şərait yaradırdı **[1, s30,31]**

Bu savaş əslində hər iki imperiya üçün ədalətsiz idi. Çünki özgə torpaqlarının ələ keçirilməsi uğurunda gedirdi. Rusiya çarlığı İranla yanaşı Quzey Azərbaycan xanlıqlarına qarşı da savaş aparırdı, onları da ələ keçirərək yerli xalqın mənafeyini tapdalayırdı. Rusiya burada ələ keçirdiyi torpaqları bütöv bir etnik toplum, etnik birlik kimi özünə qatmır, Balkanlarda olduğu kimi dövlət qurumları yaratmırdı. Bu isə bu torpaqların hüquqsuz müstəmləkə kimi imperiyanın sümürgəc sisteminə qatıldığını göstərirdi **[4, s.587].**

1804-cü ilin mayında İran rus qoşunlarının Transqafqazdan çıxarılmasını tələb etdi. Rusiya bu tələbi rədd etdi. 1804-cü il iyunun 10-da iki qüdrətli imperiya arasındakı mövcud diplomatik münasibətlər kəsildi. Savaş başlandı.

İran tərəfinin planına görə, qoşunlar iki yöndə: İrəvan-Qazax və Şuşa-Gəncə üzərinə hücum edib Tiflisi tutmalı idilər, Qafqazda yerini bərkitməli, Quzey Qafqazı Qızıyar xəttinə kimi "gavurlardan təmizləməli" idilər. Rusiya komandanlığı üçün ön planda Azərbaycan xanlıqlarının ələ keçirilməsi dururdu. İrana qarşı ayrıca bir əməliyyat aparmaq nəzərdə tutlmurdu, çünki komandanlığın əmri altında olan rus qoşunları az idi. Əsas diqqət İran qoşunlarının hərəkətinin qarşılanmasına yönəlmişdi. Bir də 1-ci Aleksandr və onun Qafqaz komandanlığı "hər zaman zəfər çalmağa öyrəşmiş" Rusiya qoşunlarının ciddi dirənişlə qarşılanacağını düşünmürdülər.

**İlk döyüşlər.**

Fətəli şahın oğlu Güney Azərbaycanın hakimi şahzadə Abbas Mirzənin 50 minlik ordu ilə İrəvana yaxınlaşması Sisianov üçün gözlənilməz olmadı. O, qış boyu qoşunu hazırlamış, səfər tədarükü görmüşdü. İrəvan xanı Məhəmməd xanın onu "vaxt itirmədən" İrəvana çağırması nəzərə alındı, 1804-cü il iyunun sonunda 3600 piyada, 3 eskadron atlı və 300 kazakdan ibarət rus qoşunu 12 top ilə İrəvana çatmışdı. 1804-cü il iyulda Üçkilsə (Eçmiədzin) və Qəmərlidə olan ilk döyüşlərdə Sisianov üstünlük qazandı. İrəvan şəhərini mühasirəyə aldı **[1, s.31].** Gənc oğlunun uğursuzluğunu eşidən Fətəli şah özü də bura gəldi. İkiqat çevrə yarandı: ruslar İrəvanı, iranlılar isə rusları arxadan araya aldı. Bütün giriş-çıxış sonuncuların üzünə qapandı.

Sisianovun ağır durumda olması dərhal onun (yerli) müttəfiqləri arasında pozuntu saldı. Əvvəlcə onunla yürüşə çıxan gürcü knyazları döyüş meydanından qaçdılar. Lakin qapalı yol keçidlərində İran əsgərlərinə əsir düşdülər. Fətəli şah yanında olan çarın oğlu Aleksandrı gizli tapşırıqla Tiflisə göndərdi. Qazax və Borçalı türkləri Rusiyadan üz döndərdilər, itaət eləmədilər. Pənbəkli türklər də belə elədilər **[4, s.588].**

Korluq çəkən qoşuna görə Sisianov azuqə gətirməyə cəhd etdi. Lakin göndərdiyi 150 əsgər Qara mayor başda olmaqla üsyana qalxmış pənbəklilər tərəfindən məhv edildilər. Rus qoşunu arasında qızdırma-titrəmə (tropik malyariya) azarı yayıldı. 1804-cü il sentyabrın 4-də Sisianov aradan çıxıb Tiflisə qayıtdı. Üsyan eləmiş Borçalı və s. Gürcüstan elatı yenidən Rusiya təbəəliyinə keçdi.

**Qarabağ xanlığının Rusiyaya tabe edilməsi. Kürəkçay andlaşması**

Gəncə xanlığı işğal edilən kimi Sisianov Qarabağ xanlığına təzyiqi gücləndirdi. O, mayor Lisianeviçi Gəncədən birbaşa İbrahim xanın (1763-1806) yanına göndərdi və Rusiyanın tabeliyinə keçməyi təklif etdi. İbrahim xan "mayora xoş cavablar verərək, onu ehtiram və hörmətlə yazılmış məktublarla yola saldı"(Mirzə Camal Cavanşir). Çünki, Gəncə faciəsi göz önündə idi **[4, s.588,589].**

Bu zaman xanlıqda vəziyyət mürəkkəb idi. Şuşada əyanlar bir-birinə düşmən iki dəstəyə bölünmüşdü. Bu dəstələrdən biri rusların Zaqafqaziyanın işlərinə qarışmasını gözləyərək heç bir vəchlə İrana tabe olmaq istəmir, digər dəstə isə İran hökmdarını hər vasitə ilə razı salmağa çalışırdı.

Son anda Qarabağda ruslara rəğbət bəsləyən Məhəmmədhəsən ağanın dəstəsi üstün gəldi. O zamankı İran sərkərdələrinin və şahın rəyinə görə, alınmaz qala olan Şuşa şəhəri iranlılar üçün Zaqafqaziyanın açarı, ruslar üçün isə İranın qapısı hesab edilirdi. Fətəli şah qulluğunda duran üç xanı Qarabağa göndərdi. Şah "bu elçiləri mülayim və şəvqətli sözlər, möhkəm təəhhüdlər və qəliz andlarla dolu fərmanla İbrahim xanı yanına göndərib söz verdi ki, bütün Qarabağ mahalını, şah xəzinəsinə çatmalı olan mədaxili ilə birlikdə əbədi olaraq mərhum İbrahim xanın nəslinə verəcək; övladlarından iki nəfərini də Şuşa qalasına, İbrahim xanın yanına girov göndərəcəkdir". Bu eşidilməmiş güzəşt qarşılığında Gəncə və Tiflis yolu üstündə çox önəmli yer tutan Əsgəran qalası İrəvan qoşununa təhvil verilməli idi.

İbrahim xan şahın fərmanını cavabsız buraxdı.Tiflisə elçi göndərib Sisianovdan kömək istədi. Mayor Lisianeviç rus əsgəri bölüyü ilə Qarabağa göndərildi.

1805-ci ilin yazında Sisianov İranı qabaqlayıb Azərbaycan xanlıqlarını tabe etmək üçün Gəncəyə gəldi. Burdan İbrahim xana məktub yazıb Rusiya ya İran dövlətinə tərəf olduğunu açıq bildirməyi ötkəmliklə tələb etdi.Yazdı ki, "sizə yalnız yaxşısını seçmək" qalır **[3, s.473]**. Sisianova görə, "yaxşı yol" Rusiya idi. Yaşı səksəni keçmiş xan belə bir kəskin vaxt azlığı ilə qarşılaşmamışdı. Sisianov Gəncənin gündoğar hissəsində Kürəkçay üzərində düşərgə salmışdı. İbrahim xan oğulları və başqa Qarabağ əyanları ilə bura gəldi. Kürəkəni olan Şəki hakimi Səlim xanı da əyanları ilə "böyük sərdarın" yanına çağırdı. Sonra andlaşma oldu. Xanlar "Andlı öhdəlik" adlanan müqaviləyə öz

möhürlərini basdılar, Sisianov isə qol qoydu. 1805-ci il 14 may Kürəkçay andlaşması 11 maddədən ibarət idi **[1, s.32,33]**. Qarabağ xanı Rusiya çarının vassalı olmağa razılıq verdi (maddə 1), müstəqil xarici siyasət hüququndan çarın xeyrinə imtina edir (maddə 4), çar xəzinəsinə hər il 8000 çevron bac verməyi öhdəsinə götürürdü (maddə 8). Rusiya da öz öhdəsinə müəyyən təəhhüdlər götürür, daxili idarəetmə ilə bağlı hakimiyyət işlərinin xanın öhdəsində qalacağına söz verilirdi. Rusiya çarı özünün və vəliəhdlərinin adından "zati-alilərinin və onun varislərinin ölkəsinin bütövlüyünün saxlanmasına öz imperator zəmanətini verir" (maddə 2). Rusiya dövləti həmdə söz verirdi ki, xan və varislərinin Qarabağ xanlığı üzərində hakimiyyəti dəyişilməz qalacaq. Hakimiyyət işləri, məhkəmə və divanxana, ölkədən yığılan gəlir xanın səlahiyyətində qalacaq (maddə 5). Lakin bu, xanlığın daxili idarəçiliyinin olduğu kimi saxlanılması, bir çar vassalı kimi xana tam daxili siyasi muxtariyyət verilməsi demək deyildi.Çünki, general-leytenant rütbəsi alan xan artıq Qafqaz komandanlığının əmrlərini də yerinə yetirməli idi. Bununla yanaşı, mayor Lisianeviç başda olmaqla 500 rus əsgərinin qalaya bitişik Xanbağı adlanan yerdə yerləşdirilməsi də xanın davranışına məhdudiyyət qoyurdu.

**Şəki xanlığının Rusiya tabeliyinə keçməsi**

Sisianov əski Şəki hakimi Məhəmmədhəsən xana çox inamsız yanaşırdı. Gəncənin çökdürülməsindən altı gün sonra o, Məhəmmədhəsən xana Təhqir dolu bir məktub göndərdi. Xanı milçək, öz dövlətini isə qartal adlandıran Sisianov burda yazırdı: "Əmin ol,mənim bir buyuruğum yetər və onda Nuxa xanlığı da Gəncə xanlığı kimi yox olacaq". Ancaq bu xanın yerinə göz dikmiş olan Səlim xanın da başına "ağıl qoyurdu" **[1, s.34,35].** Səlim xan xanlığın ona verilməsi barədə Sisianovun and içib söz verməsini xahiş etmişdi. Sisianov bu məktuba cavab verməmiş, onun yerinə polkovnik Karyagin xana öyüd vermişdi "ona çoxmu gərəkdir ki, siz Nuxada xan olasız, əgər Nuxa xanlığına bərpa olmaq istəyirsizsə onun çağırışı ilə Tiflisə yanına gəlib rica eləməlisiz…".

Dolğun siyasətdən sonra Səlim xan xanlığa çıxarıldı. İbrahim xanın köməyi ilə o, mərkəzi hökumətə arxalanırdı. Şəki xanlığı da əslində elə Kürəkçay andlaşması ilə tabe edildi. Xüsusi siyasətlə Şəki xanlığı haqda andlaşmanın tarixi bir həftə sonraya çəkildi: 21 may 1805-ci il. Hər iki andlaşma bir-birinin əkizi idi, şərtləri də eyni idi. Səlim xan da Rusiya ordusunun general-leytenantı oldu, çara baş komandan vasitəsilə ərizə yazıldı. Şəki xanlığına da 500 rus əsgəri göndərildi. Rus qoşunu üçün ayrıca qala tikilməsi nəzərdə tutulurdu. Lakin qala tikilmədiyinə görə memarlıq incisi sayılan Şəki xan sarayı hərbi kazarmaya çevrildi. Xanlıq üzərinə qoyulan bac Qarabağ xanlığından fərqli olaraq 7000 çevron idi **[4, s.590,591].**

**1805-ci il döyüşləri. Şirvan xanlığının tabe edilməsi**

1805-ci ilin yazında şah hökməti rusların irəliləməsini dayandırmaq və onları Quzey Azərbaycandan çıxarmaq istəyirdi.İyunun birinci yarısında Abbas Mirzə böyük qoşunla Qarabağ üzərinə hərəkətə başladı. Fətəli şahda qalan ordu ilə Ağoğlana gəlmişdi. Şahbulaq döyüşündə ruslar məğlub oldular və İran qoşunu Qazaxa daxil oldu Abbas Mirzə qazaxlıları Rusiyaya qarşı üsyana çağırdı.1805-ci il iyulun 27-də Zəyəm yaxınlığında döyüşdə Abbas Mirzə yaralandı, ordusuna geri çəkilmə əmri verdi. Şah ordusu geri çəkilərək Xudafərin körpüsünü keçdi. Bu uğursuzluqdan sonra ruslar Azərbaycandakı mövqelərini möhkəmləndirdilər **[1, s.35,36].**

Qarabağ və Şəki xanlıqları ilə müqavilə bağlayan Sisianov Şirvan xanı Mustafa xandan Rusiya təbəəliyinə keçməsini tələb etdi. Qacar qoşunlarının üstünlük qazanacağına ümid edən Mustafa xan danışıqları uzatdı və aşağıdakı şərtləri irəli sürdü:

1. Qonşu Azərbaycan xanları üzərində onun hakimiyyəti tanınsın.
2. Rusiyaya illik bac verməsin.
3. Daxili idarəçilikdə müstəqilliyinə təminat verilsin.
4. Özünə daimi məvacib təsis edilsin.

Şərtərlə razılaşmayan Sisianov danışıqları nəticəsiz saydığı üçün 1805-ci il noyabrda Şirvan üzərinə hücuma keçdi **[4, s.592,593]**. Bu yürüşdə rus qoşunlarının tərkibində iştirak edirdilər:

1. Qarabağlı İbrahim xan-məqsədi Şirvan xanlığına tabe olan Cavad ərazisini Qarabağ xanlığına birləşdirmək
2. Şəki xani Səlim xan-Mustafa xanla ədavəti vardı

Sisianovun Şirvana gəldiyini bilən Mustafa xan qala və sığıncaq olan Fit dağında mövqe tutdu. Lakin, üstün qüvvələr qarşısında dayana bilməyəcəyini anlayaraq Qarabağ və Şəki xanı kimi Kürəkçay andlaşmasını imzaladı, dekabr ayında Rusiya təbəəliyinə keçdi **[1, s.37-39]**.

**Bakı, Dərbənd, Quba, Şəki xanlıqlarının işğalı**

Gilanı tutmaq və Bakını işğal etmək məqsədilə Sisianov Xəzər dənizinə desant çıxardı **[4, s.593,594]**:

1. Xanlığn mühüm strateji məntəqələri tutuldu
2. Qacar sarayından kömək alan Bakı xanı Hüseynqulu xan rus desantını geri çəkilməyə vadar etdi.

1806-cı ilin fevralında Hüseynqulu xan Bakı qalasının açarını Sisianova təqdim edərkən Sisianov xanın əmisioğlu tərəfindən öldürüldü **[1, s.39,45-47]**. Sisianovun qətli ilə Cənubi Qafqazda vəziyyət qarışdı, fəallaşan ruslar 1806-cı il iyunda Dərbəndi, eyni il oktyabrın əvvəlində Bakını işğal elədilər **[2, s.222]**. Hüseynqulu xan əhalini qırğından qorumaq üçün Qacarlar sarayına qaçdı, xanlıq ləğv olundu. Oktyabrın sonunda isə Quba xanlığı işğal edildi və idarə edilməsi üçün Əyalət şurası yaradıldı **[4, s.598]**. Oktyabrın sonunda Şəki xanlığı işğal edildi, rusmeyilli qüvvələrdən ibarət Müvəqqəti idarə yaradıldı.

**Son diplomatiya çalışmaları, son döyüşlər**

Müharibənin gedişində işğal olunan ərazilərdə üsyanlar baş qaldırdı, lakin hamısı yatırdıldı. Böyük Britaniya hökuməti İran və Rusiya arasında barışığa yol verməməyə çalışırdı. Bu səbəblə İran həm maddi, həmdə silah-sursat və toplarla kömək edirdi **[4, s.601,602].** Qacarlarla ruslar arasındakı Qarababa (1809) və Sultanbud(1812) döyüşlərində qacarlar qalib gəldilər. Lakin Lənkəran uğurunda gedən döyüşlər müharibədə dönüş yaratdı. Sadıq xan qəhrəmanlıqla həlak oldu, Lənkəran rus ordusu tərəfindən işğal edildi **[2, s.227,228]** Aslandüz (1812-ci il oktyabr) və Lənkəran (1812-ci il dekabr) döyüşləri ilə Qacar-Rusiya savaşının taleyi həll oldu. Rusiyanın yeni baş komandanı Rtişçev təşəbbüsü öz əlinə aldı **[1, s.50,51].** İranın savaşı uduzması, beynəlxalq münasibətlərin köklü dəyişməsi barış işini tezləşdirdi. Şəraitdən istifadə edə İngiltərə Rusiya-İran arasında danışıqlarda vasitəçilik etməyə nail oldu.

**Gülüstan müqaviləsi**

1813-cü il 12 oktyabrda Qarabağın indiki Goranboy rayonu Gülüstan kəndi Zeyvə çayı yaxınlığında "əbədi sülh və dostluq" adlanan müqavilə imzalandı **[1, s.51-58]**Qacarlar dövlətinin nümayəndə heyətinin tərkibində İrandakı ingilis səfiri olan Müşavir Qor Ouzli də iştirak edirdi. Müqavilə 11 maddədən ibarət idi **[4, s.602-607]:**

- İndiyə qədər Rusiya və İran arasındaki düşmənçiliyə son qoyulsun (maddə 1)
- Sərhəd xəttləri dəqiqləşdirilir (Maddə 2)
- Gəncə, Şəki, Şirvan, Dərbənd, Quba, Bakı, Talış xanlıqları, İmeretiya, Quriya, Minqreliya, Abxaziya və Qafqaz xətti boyunca torpaqların Rusiyaya mənsub olmasını şah qəbul edirdi. Bu maddə ilə Naxçıvan və İrəvan istisna olmaqla bütün Azərbaycan Rusiya sərhədlərinə daxil olurdu (Maddə 3)
- Şah hakimiyyətinin möhkəmlənməsinə dəstək və şahın oğulları ilə arasındaki münaqişələrə qarışmamaq rus imperatorunun öhdəliyinə aid edilirdi (maddə 4)

- Hərbi gəmilər Xəzərdə rus bayrağıyla üzməli, gəmi qəzalarında hər iki tərəf bir-birinə kömək etməli idi (maddə 5)
- Əsirlərin yola salınması, qaçanların milliyətindən asılı olmayaraq qayıtması yaxud, könüllü olaraq qalması, qaçmışlara bağışlanma verilməsi hər iki tərəfin öhdəliyinə verilirdi (maddə 6)
- Ticarətə himayədarlıq edənlərə 10-dan çox rəiyyət saxlamamaq, həmin şəxslərin vəzifələrinə şərəf və ləyaqətlə yanaşmaları nəzərdə tutulurdu (maddə 7)
- Tacirlərin hüquqları, onların yazılı sənədlə quru və su yoluyla sərbəst hərəkəti, ölən tacirin mülkünün ailəsinə qanuni verilməsi nəzərdə tutulurdu (maddə 8)
- Şəhər və limanlarda uydurma gömrük rüsumlarının alınmaması, ikinci dəfə gömrük haqqının tələb olunmaması hər iki tərəfin tacirlərinə şamil edilirdi (maddə 9)
- Alıcı və satıcıdan “könüllülük şərti”lə dövlət xəzinəsinə qanuni rüsum yığılması ticarətin maneəsiz dövriyyəsi üçün şərait yaradılması nəzərdə tutulurdu (maddə 10)
- Hər iki tərəfin müvəkkilləri hərbi əməliyyatın dayandırılması əmrini yaysın və müqavilə iki tərəfin əlahəzrətləri tərəfindən ratifikasiya edilsin (maddə 11)

İmzaladılar:

1. Müvəkkil və Gürcüstanda baş komandan Nikolay Rtişçev
2. İran dövlətindən müvəkkil Mirzə Əbdül Həsənxan

**Nəticə**

1813-cü il 12 oktyabr “Gülüstan müqaviləsi” nin imzalanması ilə I Rusiya-Qacar müharibəsi bitdi. Azərbaycan torpaqları 2 hissəyə bölündü. Araz çayından şimala Rusiya təbəəliyinə keçdi. İrəvan və Naxçıvan istisna olmaqla bütün Şimali Azərbaycan torpaqları Rusiyaya verildi. Bununla Azərbaycanın gələcək fəlakətlərinin əsası qoyuldu. Müqaviləyə əsasən Şimali Azərbaycan torpaqları və Cənubi Qafqazın Rusiya tərəfindən işğalı təsdiq edildi. Müqavilə ilə təkcə Azərbaycan deyil Dağıstan camaatlıqları və Gürcüstan çarlıqları da Rusiyanın təbəəliyinə keçdi.




**Şəkil 1.**
**Gülüstan müqaviləsilə bölünən torpaqların xəritəsi.**

## İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT SİYAHISI

**1.** Ali məktəblər üçün mühazirələr kursu, “Azərbaycan Tarixi 19-21-ci əsrin əvvəli”, “Bakı Universiteti” nəşriyyatı, Bakı 2010.
**2.** Abbasqulu Ağa Bakıxanov, “Gülüstani-İrəm”, Bakı 1951.
**3.** Mehman Süleymanov, “Gülüstan müqaviləsi 1”, Bakı 2014.
**4.** Süleyman Əliyarlı, “Azərbaycan tarixi”, Bakı 2009.

**Gender xüsusiyyətlərinin ailə münasibətlərinə təsiri**

**Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyası**
**İbrahimli Gülzar**

Müasir dünyada ən aktual məsələlərdən biri də gender problemidir. Cəmiyyətdə və ailədə cinslərin hüquq bərabərliyi,qadın və kişi münasibətləri müxtəlif quruluşlarda fərqli kontekstlərdə nəzərdən keçirilib. Ailə bir institutdur. Güclü bir ailə həm də güclü bir dövlət deməkdir. Ailə insanın daxili aləmini, psixoloji dünyasını, bənzərsiz fərdiyyət cizgilərini müəyyən edir.Ailə bir institut kimi müxtəlif cəmiyyətlərdə mühüm yer tutsa da, tədqiqat obyekti kimi çox mürəkkəbdir. Bu səbəbdən yeni yanaşmaların olması vacibdir. Ailədaxili problemləri və ailələrin psixoloji xüsusiyyətlərini bilmək üçün ilk növbədə, müxtəlif cinsin nümayəndələrinə xas olan xüsusiyyətləri bilmək lazımdır. Çünki, qloballaşma, inteqrasiya, şəhərləşmə ilə yanaşı günü-gündən artan texnologiyaların yaratdığı informasiya bolluğu normal ailə münasibətlərinin qurulmasına təsirsiz ötüşmür. Lakin bir-birinin fərdi xüsusiyyətlərini bilən ər-arvad yaranan problemlərin həlli üçün ortaq nöqtə tapa bilər. Həm özünün, həm də həyat yoldaşının fərdi psixoloji xüsusiyyətlərini (xarakter, istiqamət, qabiliyyət və temperament), tələbatlarını (bioloji, sosial və mənəvi), motivasiya sahəsini bilən bir qadın səbr və təmkinlə onu idarə edə bilər. Çünki, ər-arvad arasındakı problemlərin çoxu bir-birinin fərdi xüsusiyyətlərini ya bilməməkdən, ya da bilərək bu xüsusiyyətlərə hörmət edilməməkdən yaranır. Ailə insan cəmiyyətini formalaşdıran onun özəyini təşkil edən sosial institutdur.Hər bir insanın dəyərlər sistemində ailə başlıca yer tutur. İnsanın şəxsiyyət kimi formalaşmasında ailənin önəmli rol oynadığını hamımız yaxşı bilirik. A.N.Leontiyevin sözləri ilə desək insan əsl insani xassələrə və qabiliyyətlərə ailədə yiyələnir.İnsanin ailədaxili münasibətləri ailədəki rolu onun gələcəkdə cəmiyyətdəki yer və roluna əsaslı təsir edir. Ailədə insanın şəxsiyətinə təsir edən onu formalaşdıran özgüvən və özünü qiymətləndirmə,özünü aktuallaşdırma,davranış normaları və sosial rolların mənimsənilməsi həyata keçirilir. Ailə-insanların qarşılıqlı fəaliyyətinin təkrarsız institutudur.Hər bir ailə təkrar olunmazdır və onun struktur quruluşu insan şəxsiyyətinin formalaşmasına müxtəlif cür təsir göstərəcəkdir. Hər adamın öz həyat məkanı vardır – bu digər insanlarla – qohum, dost, qonşularla olan münasibətləridir. Onlardan ən yaxınları ilə münasibət artıq bilavasitə belə düzülür: «ev», «ailə» – bu, insanların yaşadıqları yeridir, yalnız burada onlar özünü yaxşı hiss edir. Ailə, şübhəsiz, müasir dövrdə, istər ayrılıqda götürülmüş şəxsiyyət, istərsə də bütövlükdə cəmiyyət üçün əhəmiyyəti artmaqda olan ümumbəşəri dəyər, mədəni irsin, əxlaqi norma və qaydalarının ötürücüsü rolunu oynayır. Məlumdur ki, ailənin üç başlıca funksiyası mövcuddur: nəsil artırma, təsərrüfat məşğuliyyəti, uşaqların fiziki-əxlaqi və cinsi tərbiyəsi. Ailənin funksiyalarından danışarkən yadda saxlamaq lazımdır ki, söhbət cəmiyyət səviyyəsində meydana çıxan, ümumi əhəmiyyətli nəticələrə malik olan və cəmiyyətin digər institutları sırasında ailənin rolunu sosial institut kimi müəyyənləşdirən milyonlarla ailənin həyat fəaliyyətinin sosietal nəticələrindən gedir.Vurğulamaq zəruridir ki, bu, onların həyata keçirilməsi üzrə ixtisaslaşmış institutlara sanki təhkim olunmuş cəmiyyət funksiyalarıdır. Bu səbəbdən də hər bir institutun öz təkrarsızlığını, profilini müəyyənləşdirən əsas funksiyaları vardır. Ailənin funksiyalarını əsas və ikinci dərəcəlilərə bölmək olmaz, onların hamısı əsasdır, lakin ailəni digər institutlardan fərqləndirən funksiyaları seçmək zərurəti ailənin spesifik və qeyri-spesifik funksiyalarını vurğulamağa gətirib çıxarır. A. Q. Xarçevə görə, ailənin spesifik funksiyaları onun mahiyyətindən irəli gəlir və sosial hadisə kimi onun xüsusiyyətlərini əks etdirir, qeyri-spesifik funksiyalar isə müəyyən tarixi şəraitdə ailənin onları həyata keçirməyə məcbur olduğu, yaxud uyğunlaşdığı funksiyalardır.(2,s.304)

Ölkəmizdə sosial sahədə dövlət siyasətinin əsas istiqamətlərindən biri məhz ailə siyasətinin əsasını təşkil edir. Ailə institutunun təməlində duran gender bərabərliyi hər zaman cəmiyyətimizdə ciddi müzakirə mövzusu olaraq qalıb. İlk dəfə olaraq qadınların azadlığının tələb olunması, qadınların kişilərlə bərabər hüquqlarının olması feminist alimlər tərəfindən irəli sürülmüşdür. Feminizm və feminist nəzəriyyə sayəsində gender mühüm əhəmiyyətə malik sosial faktor kimi tanınmaqdadır. Sosioloq M.Vintersin qeyd etdiyi kimi, həqiqətən də, seksual fərq bu gün çoxları tərəfindən ictimai, sosial bir hadisə kimi qəbul edilir.(4,s.35)

Gender dedikdə, biz yaşadığımız cəmiyyətdə qadın və kişi olmanın qəbul olunmuş davranış və psixoloji, cins dedikdə isə kişilik və qadınlığın bioloji aspektlərini nəzərdə tuturuq.(1,s.232) Ölkəmizdə qadınların hüquqlarının ən yüksək səviyyədə qorunması, onların cəmiyyətin həyatında fəal rol oynaması üçün yetərincə siyasi iradənin, hüquqi bazanın mövcud olmasına baxmayaraq, xüsusilə bölgələrdə gender bərabərliyi istiqamətində maarifləndirməyə, təbliğat işlərinin daha da genişləndirilməsinə hələ də ciddi ehtiyac var. Kişilərlə bərabər Azərbaycan qadını ictimai həyatın hər bir sahəsində fəallıq göstərir, lakin yanlış təbliğat səbəbindən "gender bərabərliyi" adı altında çox sayda ailənin dağıldığı göz qabağındadır. Ailə dəyərləri Azərbaycan xalqının nəsildən-nəsilə ötürdüyü, qoruyub-saxladığı adət-ənənəsidir. Təəssüf ki, bir sıra hallarda milli mentalitetlə ailə dəyərlərinin yeri səhv salınır.Cəmiyyətin inkişaf etməsinə maneə olan, müasir günümüzün bəlası sayılan "mentalitet" kişi və qadın bərabərsizliyini yaradır.Heç "mentalitet " anlayışının mənasını bilməyənlər "qadınlar mentalitetə uyğun olmayan hərəkətlər edirlər" ifadəsini işlədirlər.Çünki mentalitetimizdə qadın və kişi bərabərliyi qəbul edilmir. Nə qədər ki, belə olacaq cəmiyyət və ailədə bir o qədər gerilik davam edəcək. Elə ailələr var ki, kişi və qadının hüquqları bərabər bölünür və ailədə nifaq yaranmadan yaşayırlar. Lakin, Patriarxal -kişilərin hökm sürdüyü ailələrdə mütləq qadın arxa planda olacaq. Qadının həm mənəvi həm də fiziki vəziyyəti dəyişir.(3,s.9) Şiddətə məruz qalan qadınlarda vardır ki,bu qadınlar evdən kənara çıxa, işləyə,ata evinə gedə bilməzdi. Qadının arzu və istəkləri də gözə görünməz olur. Qadının söz haqqı olmur.Matriarxal ailələrdə isə qadın hökm sürür.Ailə münasibətlərində qərar qəbul etmək səlahiyyətləri baxımından kişilərin üstünlüyü davam etməkdədir. Qadınların daha çox iştirakını nəzərdə tutan sahələri, məsələn, uşağın sağlamlıq məsələlərini istisna etməklə, kişilər ənənəvi olaraq qərar qəbuletmənin tələb olunduğu bütün sahələrdə daha böyük təsirə malikdir. Bununla yanaşı, cavabların müqayisəli təhlili qərarların kim tərəfindən qəbul edilməsi ilə bağlı ifadə olunmuş fikirlər arasında uyğunsuzluqların olduğunu göstərir. Kişilərin müvafiq işlərdə ata qismində iştirakı onların gender bərabərliyinin təşviqi prosesinə cəlb edilməsi məqsədilə geniş şəkildə istifadə edilməlidir. Kişilərin əksəriyyəti öz həyat yoldaşlarını antenatal qayğı ilə bağlı tibbi müayinələr zamanı müşayiət etdiyini bildirib və oxşar məlumat müvafiq olaraq qadınlar tərəfindən də verilib. Təxminən beş kişidən biri isə sözügedən tibbi müayinələrin hamısında öz həyat yoldaşını müşayiət etdiyini qeyd edib. Bununla belə, çox az sayda kişi müayinə prosesində faktiki olaraq iştirak edib. Kişilərin çoxu yoldaşını müvafiq məntəqəyə gətirdikdən sonra məkanı tərk edib və ya məntəqənin çıxışında və ya gözləmə otağında gözləyib. Bu isə öz növbəsində səhiyyə xidmətlərinin göstərilməsi, habelə anaya və yeni doğulmuş uşağa qayğı, uşağın sağlamlığı və gender bərabərliyinin təşviqi proseslərinə kişilərin mümkün qədər cəlb olunması baxımından həm itirilmiş imkan, həm də giriş nöqtəsi hesab oluna bilər: kişlərin çoxu bu kimi proseslərdən kənarda qalır, halbuki onların cəlb olunması üçün bu fürsətlərdən istifadə edilməlidir.Ataları qayğının göstərilməsində və ev işlərində iştirak etmiş, habelə gender bərabərliyinə daha müsbət yanaşan kişilər böyük ehtimalla gender məsələlərini dəstəkləməyə daha meyllidir. Gender bərabərliyini daha çox dəstəkləyən kişilərin uşaqlara gündəlik qayğının göstərilməsində daha çox iştirak etdiyinə dair məlumat əldə edilib. Atalarının ev işləri ilə məşğul olmasını uşaq ikən müşahidə etmiş kişilərin öz

uşaqlarına gündəlik qayğının göstərilməsində yaxından iştirak etməyə daha meylli olması qayğı məsələlərinə dair nəsillərarası dəyişikliklərin baş verdiyini nümayiş etdirir. Kişilərin uşaqlıqda zorakılığa məruz qalması ciddi gender fərqlərinin olmasını göstərir. Kişilər uşaqlıqda xüsusilə fiziki zorakılığın daha ağır formalarından əziyyət çəkdiklərini qeyd ediblər. Belə ki, kişilər qadınlardan daha çox ağır əşyalarla döyülüb və döyülmə nəticəsində bədənlərində çapıq və zədələrin qalması barədə məlumat verib.Bu da kişilərin böyüdükdən sonra psixologiyasına heç də yaxşı təsir buraxmır. Əksinə onların uşaqlıqdan gördükləri-bacılarının əl üstünə tutulub və sevilməsi,nəsə bir dəcəllik edən kimi özlərinin döyülüməsi gələcəkdə qadınlar ilə özləri arasında ayrı-seçkiliyə yola açır.Qız uşaqları ilə müqayisədə oğlan uşaqlarının sayının çox olmasına üstünlük verən kişi və qadınlar arasında əhəmiyyətli fərqin olması Azərbaycanda kişilərin oğlan uşaqlarına üstünlüyün verilməsi məsələsində nə dərəcədə güclü aparıcı qüvvə olmasını nümayiş etdirir. Soyadın gələcək nəsillərə ötürülməsi və nəslin davam etdirilməsi , habelə kişi və qadınların çoxu tərəfindən qız uşaqlarının yük hesab edilməsi oğul övladına verilən üstünlüyün əsas səbəbini təşkil edir. Bu məlumatlar bir sıra Qafqaz ölkəsində keçirilmiş tədqiqatların nəticələri ilə üst-üstə düşür: oğlan uşaqları dəyər və ailənin dayağı kimi qəbul edilir, qızlar isə ailə quracaqları vaxtdan etibarən artıq doğulduqları ailələrinə aid olmayacaq əlavə öhdəlik hesab olunu. Bununla da qız uşaqları olanları hiss edir və oğlanların onlardan necə üstün olduğunu qəbullanmırlar . Ailədə oğlan uşağına daha çox dəyər verildiyini görür. Və bu onda qısqanclıq hissini yaradır. Bu da qadınların gələcəyində mühüm rol oynayır. Yəni , qadınların kişilərə qarşı mənfi düşüncələrini oyadan qığılcım olur. Əksər ailədə qız uşaqlarına çoxlu qadağalar qoyulur, sərbəst ola bilmirlər.Bəzi ailələrdə qız uşaqlarının təhsil almaqlarına heç də yaxşı baxmırlar. Kor-koranə böyüdürlər. Lakin , ailədə valideynlər övladlarını bərabər şəkildə sevməli, qayğı götərilməlidir. Övladlar ailədə sosial münasibətlərlə bağlı bütün həyatı boyu onlarda dərin iz buraxan praktik bacarıqlarını alır.Ailə daxilində gender bərabərdizliyi yaşanırsa,əlbəttə ki,bunun sonu münaqişələrə səbəb olur. Ailə üzvlərində əsas öhdəlik ata və ananın üzərinə düşür. Çünki, uşaqlar ilk olaraq ata və anadan örnək alırlar. Onlar arasında bərabərlik qorunub saxlanılırsa,uşaqları da ayrı seçkilik etməz həytlarında. Ümumiyyətlə,əksər uşaqlar valideynlərini idealları kimi görürlər. Yəni oğlanlar çalışır ki, hər zaman atası kimi, qızlar da anası kimi olsun. Əgər ailədə atanın sözü keçirsə,həyat yoldaşının sözü önəm daşımırsa, nəsə etməyə hüququ yoxdursa,bu olanları eynən qızına da tətbiq etmiş olur. Bu olanları da oğlan uşağı görür. Gələcəkdə,öz ailəsinə qarşı eynən atası kimi davranır. Və beləliklə artıq nəsil artdıqca genetik ayrı-seçkilik artmış olur. Ata nə qədər öz qadınına hörmət və sevgi bəslərsə,övladları bunu görür. İstər qız ,istərsə də oğlan uşağı hər şeyi ailədən görüb,götürür.Ev–təsərrüfat işlərinə münasibət hələ uşaq yaşlarından formalaşır. Belə ki, uşaqlıq dövründən ata və ana uşaqlarını formalaşmış kişi və qadın rolları stereotiplərinə müvafiq olaraq tərbiyələndirirlər. Aildə işlərin bölgüsü də olur .Kişi evdən kənar, qadın isə ev işləri ilə daha çox məşğul olur.Yəni hər şeyin təməli ailədə qoyulur.

Ailədə yaranan digər gender bərabərsizliyini də xəyanət qoyur. Xəyanət iki qütblü prosesdir; burada xəyanət edən-aldadan və xəyanətə uğrayan- aldadılan tərəflər vardır.Əksər xəyanəti də kişilər edir. Və ürək açıqlığı ilə vurğulanır ki “Mən kişiyəm,nə istəsəm onu da edərəm”. Bəzi qadınlar bunu qəbul edir.kişi xəyanət edərdisə, bu onun kişilik xarakteri ilə əlaqələndirilib toplum olaraq ona haqq qazandırılırdı. Xəyanət kişiliyə yaraşan, kişinin qüruruna, şərəfinə uyğun bir hal kimi dəyərləndirilirdi. Dini – nöqteyi nəzərdən bir kişinin dörd qadınla evlənmək haqqının olması, siğə etmək və s. Kimi dini qaydaların hökmü də ailədə kişi xəyanətinə bəraət qazandırırdı. Ənənəvi ailə modelində qadına qarşı münasibət isə tamamilə fərqli idi. Qadının əsas vəzifəsi ailə qayğıları ilə məşğul olmaq hesab olunurdu. Cəmiyyətin kişi xəyanətinə münasibəti, ictimai təzyiq forması qadınları buna göz yummağa, təmkinli olmağa, xəyanəti qəbul etməyə vadar edirdi. Qadın xəyanəti

isə həmişə mənfi qarşılanmış və bu qadın adına yaraşmayan, əxlaqsız bir davranış kimi dəyərləndirilmişdir. Qadın xəyanəti, hətta, onun ailəsinə, qohumlarına yaxılan qara ləkə hesab olunurdu.

Ailədə gender münasibətlərini tənzim etmək üçün ilk növbədə özünün xasiyyəti və temperamenti idarə etməyi, güzəştə getməyi, ailənin hər üzvünün azadlığını, hüququnu pozmamağı bacarmaq lazımdır. Şəxsiyyətin özünün xasiyyət və temperamentini müvəffəqiyyətlə idarə etməsindən onun inkişafı, bir pillədən digərinə qalxması, daha yüksək keyfiyyətli səviyyəyə çatması asılıdır. Rus psixoloqu D.A.Leontyev «Şəxsiyyətin psixologiyası» oçerkində yazır: «İnkişaf etmiş yetkin şəxsiyyət öz xasiyyətini idarə edə bilir və özünün ifadə hallarını nəzarət atında saxlamağa qadirdir».(5,s.21-22) Gender ailə münaqişələri həmişə ağır neqativ emosional vəziyyəti yaradır, ona görə də onların qarşısını almaq lazımdır.

**Nəticə.** Nəticə olaraq qeyd etmək olar ki, gender problemi cəmiyyətimizdə hələ də davam etməkdədir. Ən doğrusu bu olar ki, qadın kişinin, kişi isə qadının ailədə hansı məsələdə daha üstün hüquqa sahib olduğunu qəbul etsin və o mövqeyə hörmətlə yanaşsın. Kişi qadının, qadın da kişinin hüquq və vəzifələrini bilməli və ona uyğun hərəkət etməlidir. Ailədaxili münasibətlərdə münaqişələrin olmaması,düzgün ailə təməlinin qoyulması uğurlu bir nəslin yaranmasına səbəb olur.

**Ədəbiyyat**

**1.**Ailədə cinsi sosializasiya məsələsinə dair // Azərbaycan Dillər Universitetinin Elmi xəbərləri, Bakı, 2014, № 3, s.410-414

**2.** Ailənin tərbiyə funksiyası / Doktorantların və Gənc tədqiqatçıların XVIII Respublika Elmi Konfransının materialları. Bakı: 2013, 2 clddə. II cild, s.308-310

**3**. Qadınlar və zorakılıq. – B., 2000

**4.** Кулиев Р. Бытовое насилие против женщин: состояние и пути преодоления. – Б., 2001

**5.** Семья как социальный институт. Гендер и общество / Под общ.ред. А.А.Широбоковой, С.В.Ураловой. – Иркутск, 2001

**Xülasə**

Məqalədə ailənin sosial sistemdə yeri və statusu,ailədaxili münasibətlərin gender problemləri,ailə münasibətlərinin dinamikası və perspektivləri,ailənin cəmiyyətimizdə baş verən proseslərlə qarşılıqlı əlaqəsinə ictimai rəyin münasibəti araşdırılır.Məqalədə eyni zamanda ailə insitutu və ailə dəyərlərinin,ümumilikdə ailə sahəsində ictimai rəyin reallıqla bağlı təsəvvürlərinin,gözləntilərinin,ailənin inkişaf meyllərinin mövcud vəziyyəti öz əksini tapmışdır.Burada əsas məqsəd ailədə gender probleminin yaranması və onun sosial-psixoloji xüsusiyyətləri,eləcə də bu problemin yaranmasına səbəb olan amillər,onların aradan qaldırılması yollarının müəyyənləşdirilməsindən ibarətdir. Cəmiyyətdə gender təsəvvürlərinin öyrənilməsi,onu şərtləndirən amillərin aşkar olunması ailənin dinamik inkişafını təmin etmək baxımından ciddi əhəmiyyət kəsb edir.Digər bir tərəfdən dünya ölkələri və xalqları ilə olan əlaqələr istər istəməz ailə dəyərlərinə,eləcə də gender təsəvvürlərinə öz təsirini göstərir.Gender bərabərliyi ictimai həyatın bütün sahələrində kişi və qadınların bərabərliyini nəzərdə tutur.Bu bərabərliyi tənzimləmək üçün inkişaf etmiş ölkələrin bir çoxunda müxtəlif qanunlar qəbul edilib,müəyyən addımlar atılıb. Gender bərabərliyi məsələsini təhlil etdikdə,xalqın,millətin mədəniyyəti,ilk növbədə onun mənsub olduğu din,etnik mənsubiyyət kimi amillər diqqət mərkəzində saxlanılmalıdır.Belə problemlərin

araşdırılması bir tərəfdən gender probleminin həlli istiqamıətində tövsiyələr verməyə,digər bir tərəfdən isə bu problemin həllinin psixoloji aspektlərini müəyyənləşdirməyə imkan verir.
***Açar sözlər:*** *ailədaxili münasibətlər,ailə dəyərləri,ailə mədəniyyəti,gender problemi,gender bərabərliyi*

**Резюме**

В статье рассматриваются место и статус семьи в социальной системе, гендерные проблемы внутрисемейных отношений, динамика и перспективы семейных отношений, отношение общественного мнения к взаимодействию семьи с процессами, происходящими в нашей стране. общества., отражено современное состояние тенденций развития семьи. Здесь основной целью является определение зарождения гендерной проблемы в семье и ее социально-психологических характеристик, а также факторов, вызывающих эту проблему, и способов ее решения. устранить их. Изучение гендерных представлений в обществе и выявление факторов, их определяющих, имеют большое значение с точки зрения обеспечения динамичного развития семьи.С другой стороны, отношения со странами и народами мира неизбежно оказывают влияние о семейных ценностях, а также гендерных концепциях.Гендерное равенство во всех сферах общественной жизни.подразумевает равенство мужчин и женщин.В целях регулирования этого равенства во многих развитых странах приняты различные законы и предприняты определенные шаги. При анализе проблемы гендерного равенства в центре внимания должны находиться такие факторы, как культура народа, нации, прежде всего, религия и этническая принадлежность, к которой она принадлежит. Исследование таких проблем позволяет, с одной стороны, , дать рекомендации в направлении решения гендерной проблемы, а с другой стороны, определить психологические аспекты решения этой проблемы.
***Ключевые слова:*** *семейные отношения, семейные ценности, семейная культура, гендерная проблема, гендерное равенст*

**Summary**

The article examines the place and status of the family in the social system, the gender problems of intra-family relations, the dynamics and perspectives of family relations, the attitude of public opinion to the interaction of the family with the processes taking place in our society. , the current state of the family's development trends is reflected. Here, the main goal is to determine the generation of the gender problem in the family and its socio-psychological characteristics, as well as the factors that cause this problem and ways to eliminate them. The study of gender concepts in society and the discovery of the factors that determine them are of great importance in terms of ensuring the dynamic development of the family. On the other hand, the relations with the countries and peoples of the world inevitably have an effect on family values, as well as gender concepts. Gender equality in all areas of social life. implies the equality of men and women. In order to regulate this equality, various laws have been adopted in many developed countries and certain steps have been taken. When analyzing the issue of gender equality, factors such as the culture of the people, the nation, first of all, the religion and ethnicity to which it belongs, should be in the focus. The investigation of such problems allows, on the one hand, to give recommendations in the direction of solving the gender problem, and on the other hand, to determine the psychological aspects of solving this problem.
***Keywords:*** *family relations, family values, family culture*

**Xocalı soyqırımı erməni vandalizminin nümunəsi kimi**

**Xəzər Universiteti**
**Xanı Əmirli**

**Açar sözlər : Soyqırım , Xocalı, tanıdılma , terror , cinayət .**
**Genocide, Khojaly, recognition, terrorism, crime .**
**Геноцид, Ходжалы, признание, терроризм, преступность .**

***Xülasə : Məqaləni yazmaqda məqsəd Ermənilərin Azərbaycan xalqına qarşı törətdiyi faciəli Xocalı soyqırımı unudulmaması , daima xatırlanmasıdır. Bu əsl soyqırımdır. Ümummilli lider Heydər Əliyev 1 mart 1994-cü ildə bu haqda xüsusi Fərman vermişdir. Azərbaycan Respublikasının Milli Məclisinin Qərarı ilə 26 fevral "Xocalı soyqırımı və milli matəm günü" elan olunmuş, bu barədə bütün beynəlxalq təşkilatlara məlumat verilmişdir.***

***Summary: The purpose of writing the article is to remember the tragic Khojaly genocide committed by Armenians against the people of Azerbaijan. This is a real genocide. National leader Heydar Aliyev issued a special decree on this on March 1, 1994. By the decision of the Milli Mejlis of the Republic of Azerbaijan, February 26 was declared "Khojaly Genocide and National Day of Mourning", and all international organizations were informed about it.***

***Резюме: Целью написания статьи является память о трагическом Ходжалинском геноциде, совершенном армянами против народа Азербайджана. Это настоящий геноцид. Общенациональный лидер Гейдар Алиев издал об этом специальный указ 1 марта 1994 года. Решением Милли Меджлиса Азербайджанской Республики 26 февраля был объявлен «Ходжалинским геноцидом и Национальным днем траура», о чем были проинформированы все международные организации.***

**Giriş**

Mənbələrdə Xocalı ərazisi "Müqəddəs yurd" adlandırılır və müqəddəslərin uyuduğu diyar, müqəddəs məkan, yer mənasını verir. "Xoca" - türk sözü olub, türkdilli xalqların dilində hörmətli, müqəddəs şəxslərə deyilir. Buradakı "lı" şəkilçisi "el", "oba", "yer-yurd", "məkan" ifadə edən mənsubiyyəti bildirir.

1992-ci ilin qanlı faciəsinə kimi Xocalıda 7 min əhali yaşayırdı. Məlum hadisələr dövründə Ermənistandan, qonşu Xankəndindən ermənilər tərəfindən didərgin salınmış xeyli azərbaycanlı və 1989-cu ildə Fərqanədən qovulmuş məhsəti türkləri də burada məskunlaşmışdılar.

Xocalının rayon olaraq ümumi ərazisi 0,97 min kv km-dir. Əhalisi əsasən əkinçilik, üzümçülük və heyvandarlıqla məşğul olub. 1978-ci ilə qədər Xocalı Xankəndi rayonunun, 1978-ci ildən 1991-ci ilə qədər Əsgəran rayonunun Xocalı kəndi adlanıb. 1991-ci ildə noyabrın 26-da Dağlıq Qarabağın Muxtar Vilayət statusu ləğv edilib, Xocalıya rayon statusu verilib, keçmiş Əsgəran rayonunun bütün kəndləri və Xankəndi şəhəri ona tabe edilib.

Tarixin müxtəlif dövrlərində ermənilər tərəfindən soyqırımına məruz qalan Azərbaycan xalqı növbəti belə faciə ilə XX əsrin sonlarında Xocalıda üzləşdi. Bu, bəşər tarixində az-az təsadüf olunan dəhşətli cinayətlərdən biri və Ermənistanın ölkəmizə hərbi təcavüzünün kulminasiya nöqtəsi idi.

Xocalı 1991-cı ilin oktyabrından blokadada idi. Oktyabrın 30-da avtomobil əlaqəsi kəsilmiş və yeganə nəqliyyat vasitəsi vertolyot qalmışdı. Xocalıya sonuncu vertolyot 1992-ci il yanvarın 28-də gedib. Şuşa şəhərinin səmasında mülki vertolyotun vurulması və nəticədə 40 nəfərin həlak olmasından sonra isə bu əlaqə də kəsilmişdi. Yanvarın 2-dən şəhərə elektrik verilmirdi. Şəhər ancaq

əhalinin qəhrəmanlığı və müdafiəçilərin cəsurluğu sayəsində yaşayır və müdafiə olunurdu. Şəhərin müdafiəsi əsasən atıcı silahlarla silahlanmış yerli özünümüdafiə dəstəsi, milis və Milli Ordunun döyüşçülərindən təşkil olunmuşdu. Amma bu çox çəkmədi . Azərbaycan tarixinin ən dəhşətli və faciəli səhifələrdən biri yarandı. Xocalı soyqırımı…

Şəhər dörd tərəfdən erməni qoşunları tərəfindən əhatə olunmuş, sonra isə Xocalıya artilleriya və ağır hərbi texnikadan güclü və amansız atəş açılmış, az bir vaxt ərzində şəhərdə yanğın baş vermiş, şəhər tamamilə alova bürünmüşdür. Şəhərin müdafiəçiləri və yerli əhali buranı tərk etməyə məcbur olmuşlar. Fevralın 26-sı səhər saat 5-ə kimi şəhər erməni işğalçıları tərəfindən zəbt edilmişdir. Bir gecənin içərisində qədim Xocalı yerlə-yeksan edilmişdir.

Şəhəri tərk etməyə məcbur olan əhali dağlara, meşələrə qaçmışdır. Hər tərəfdə silahlı ermənilər dinc əhalini güllələmi., onlara amansız divan tutmuşdular. Beləliklə, soyuq, qarlı fevral gecəsində nə qədər qız-gəlin əsir düşdü, girov götürüldü. Nə qədər insan erməni silahından yayınıb meşələrə, dağlara qaçsalar da, onların çoxu soyuqdan, şaxtadan məhv oldu.

Cinayətkar erməni qoşunlarının vəhşiliyi nəticəsində Xocalı əhalisindən 613 nəfər öldürülmüş, 487 nəfər şikəst olmuş, 1275 nəfər dinc sakin — qocalar, uşaqlar, qadınlar əsir götürülərək ağlasığmaz erməni zülmünə, təhqir və həqarətlərinə məruz qalmışlar. 150 nəfərin taleyi hələ də məlum deyil.

Bu əsl soyqırım idi. Xocalıda öldürülmüş 613 nəfərdən 106 nəfəri qadın, 63 nəfəri uşaq, 70 nəfəri qocadır. Xocalı faciəsində 8 ailə bütövlükdə məhv edilmiş, 24 uşaq hər iki valideynini, 130 uşaq isə valideynlərindən birini itirmişdir. Bu cinayətdə 56 nəfər xüsusi qəddarlıqla və amansızlıqla qətlə yetirilmişdir. Onlar diri-diri yandırılmış, başları kəsilmiş, üzlərinin dərisi soyulmuş, körpə uşaqların gözləri çıxarılmış, süngü ilə hamilə qadınların qarınları yarılmışdır. Ermənilər, hətta meyitləri də təhqir etmişlər.

**Xocalı soyqırımında 613 nəfər həlak olub:**

- - Uşaqlar – 63 nəfər;
- - Qadınlar – 106 nəfər;
- - Qocalar – 70 nəfər;
- - 8 ailə tamamilə məhv edilib;
- - 27 ailənin yalnız 1 üzvü qalıb;
- - 25 uşaq hər iki valideynini itirib;
- - 30 uşzaq valideynlərindən birini itirib;
- - 239 ailə öz başçısını itirib;
- - 487 nəfər yaralanıb, onlardan:
- - Uşaqlar – 76 nəfər;
- - 200 nəfərin ayaqlarını don vurub;
- - 1275 nəfər əsir götürülüb;
- - 1165 nəfər girovluqdan azad edilib;
- - 155 nəfər itkin düşüb;

Azərbaycan dövlətinə və əhalinin əmlakına 01.04.1992-ci il tarixinə qədər 5 milyarad rubl dəyərində ziyan vurulub.

**Xocalı Qatilləri**

Erməni kafirdir! Erməni zülmkardır! Erməni insan qanı içəndir! Kafir erməni aydınlıqları qaranlıqlara döndərəndir! Kafir erməni yer üzündə zalımlıq, işgəncə və ağrı bitirəndir! Kafir erməni

insanların xoş gününü qılınclayıb cəhənnəmə döndərəndir! Böyük Allah adına, müqəddəs insan adına ləkədir kafir erməni! O cinayətlərinə və Allah kəlamını eşitmədiyinə görə yer üzündən silinib atılmalı, cəhənnəm odunda qalanıb yanmalıdır. Şəhərdən çıxan Xocalı sakinləri hətta zəruri əşyaları belə götürə bilməmişdilər. Erməni silahlı qüvvələrinin Xocalıdan çıxardıqları sakinlərə heç olmasa əşyalarının bir hissəsini götürməyə imkan verilmədi. "Memorial" müşahidəçiləri şəhərdə azğın, heç nə ilə qarşısı alınmayan soyğunçuluğun şahidi olmuşlar. Şəhərdə qalan əmlak Xankəndi və yaxınlıqdakı yaşayış məntəqələrinin əhalisi tərəfindən daşınırdı. Çox evlərin darvazalarında onların yeni sahiblərinin adları yazılmışdı. "DQR" ali sovetinin qərarına əsasən ehtiyacı olan ermənilər Xocalıdakı evlərə köçürülür və bunun üçün onlara nömrələr verilir. Jurnalist Tomas de Vaal qeyd edir ki, Ayaz Mütəllibov öz siyasi opponentlərini bu hadisələrə görə ittiham edib, lakin sonra öz bəyanatından geri çəkilib. Azərbaycan parlamentinin martın 3-də keçirdiyi iclasda müxalifətçi deputatlar teleoperator Çingiz Mustafayevin çəkdiyi filmi nümayiş etdirməyi tələb etdilər. Bu cür dəhşətli kadrlar iqtidar rejimini sarsıtdı. Martın 6-da Azərbaycan Xalq Cəbhəsinin müxalifətin ultimatumundan sonra Mütəllibov istefa verdi. Parlamentin yeni seçilmiş spikeri Yaqub Məmmədov rəsmən hökumətin başçısı oldu.

1993-cü ildə Azərbaycan prezidenti Heydər Əliyevin təşəbbüsü ilə fevralın 26-sı tarixi Xocalı soyqırımı günü kimi qəbul olundu. Heydər Əliyevin 25 fevral 1997-ci il verdiyi N 498 qərar nəticəsində, hər il fevral ayının 26-sı saat 17.00-da Azərbaycan Respublikasının ərazisində Xocalı soyqırımı qurbanlarının xatirəsinə ehtiram əlaməti olaraq sükut dəqiqəsi elan olunur. Xocalı soyqırımını ümumiyyətlə, ABŞ-də Ermənistan-Azərbaycan münaqişəsini diqqətdə saxlayan qəzetlər arasında "Washington Post", "The New York Times", "Boston Globe", "Wall Street Journal", "Sunday Times", "Chicago Tribune" qəzetləri , "Associated Press" informasiya agentlikləri, "Time" mühüm yer tutub. Amerikalı jurnalist, Tomas Qoltzun 1992-ci il fevralın 27-də "Washington Post" qəzetində yayımlanan məqaləsi Amerika ictimaiyyətinə Xocalıda törədilmiş qətliam haqqında məlumat verdi. Bununla kifayətlənməyən jurnalist o gecəki qırğından güc-bəla ilə canlarını qurtarıb, Ağdama pənah gətirən bir sıra insanlarla görüşüb, onlardan əsl həqiqəti öyrənmişdi.

**Azərbaycan mətbuatında Xocalı Soyqırımı**

Azərbaycanda Xocalı soyqırımının işıqlandırması əsasən Azərbaycanın Milli Qəhrəmanı Çingiz Mustafayevin və Seyidağa Mövsümovun_ adı ilə əlaqələndirilir. Onların qısamüddətli hərbi jurnalistlik karyerasında ən vacib xidməti Xocalıda törədilən vəhşilikləri lentə almaq olmuşdur. Ermənistan qüvvələrinin amansız atəşinə məruz qaldığına baxmayaraq Çingiz Mustafayev bu hadisəni sənədləşdirmək üçün helikopterlər ilə bir qrup jurnalistlər ilə birlikdə iki dəfə qətliam yerinə səfər etməyə nail olmuşdur. O, Xocalının qarla örtülmüş sahələri boyunca uzanmış yüzlərlə cəsədi lentə ala bilmişdir. Onun filmində çəkiliş apararaq qırğını təsvir edən Çingizin səsi onun hönkürtüləri və emosiyaları ilə əks-səda verirdi. O, gördüyü bu səhnəni bu cür təsvir edirdi:

*“Ölənlər arasında 2 yaşla 15 yaş arası onlarla uşaq, qadın, yaşlı var idi, çoxuna isə alnının tən ortasına yaxın məsafədən atəş açılmışdı. Cəsədlərin vəziyyəti onu göstərirdi ki, insanların çoxu soyuqqanlılıqla, qəsdən öldürülüb, heç bir mübarizə, yaxud qaçmağa çalışırcasına əlamət yox idi. Bəzilərini kənara çəkib tək başına güllələmişdilər; bəzi hallarda isə bütün ailənin birdən güllələndiyi görünürdü. Bəzi cəsədlərdə bir neçə yara izi var idi ki, bunlardan biri həmişə başda olurdu bu da yaralının öldürüldüyünü sübut edirdi. Uşaqların qulaqlarını kəsmişdilər; orta yaşlı qadının üzünün sol tərəfinin dərisi, kişilərin isə başlarının dərisi soyulmuşdu. Üstü-başı qarət edildiyi açıq-aşkar görünən cəsədlər var idi.”*

**Xocalı Soyqırımını tanıyan dövlətlər**

Hazırda Xocalı soyqırımının tanınması Azərbaycanın xarici siyasətinin əsas istiqamətlərindən biri kimi müəyyənləşdirilmişdir. Azərbaycandan başqa, Xocalını tam səviyyədə qətliam kimi Pakistan və Sudan tanıyır. Faciəni parlament səviyyəsində qətliam kimi Meksika, Kolumbiya, Çexiya, Bosniya və Herseqovina, Peru, Honduras, Panama, İordaniya və Rumıniya tanıyır. İndiyədək ABŞ-nin 21 ştatı Xocalını qətliam kimi tanıyan sənəd qəbul edib. 20 noyabr 2012-ci il tarixində Cibutidə keçirilmiş İslam Əməkdaşlıq Təşkilatının (İƏT) Xarici İşlər Nazirləri Şurasının 39-cu sessiyasında Xocalıda törədilmiş cinayətləri soyqırım kimi tanıyan qətnamə qəbul edilmişdir

**Nəticə**

Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü ilə 2008-ci il mayın 8-dən başlayan "Xocalıya ədalət" beynəlxalq kampaniyası çərçivəsində dövlət qurumları, gənclər təşkilatları və ali təhsil müəssisələrində Xocalı soyqırımına həsr olunan təqdimatlar təşkil edilir. Kampaniya qlobal səviyyədə fəaliyyət göstərmək və öz müraciətlərini çatdırmaq üçün müxtəlif kommunikasiya vasitələri və resurslarından, o cümlədən media, internet və canlı tədbirlərdən fəal şəkildə istifadə edir. 2019-cu il fevralın 23-də dünyanın 20-dən çox ölkəsində fəaliyyət göstərən Azərbaycan diaspor təşkilatları Brüsselin Lüksemburq meydanında "Xocalıya ədalət", "Dilqəm və Şahbaza azadlıq" və s. şüarlarla Ümumavropa Qarabağ mitinqi keçirib. 2019-cu il fevralın 26-da Bakı şəhərində Xocalı soyqırımının 27-ci ildönümü ilə əlaqədar Xətai rayonundakı "Ana harayı" abidəsinə ümumxalq yürüşündə 55 min insan iştirak edib.

25 fevral 1997-ci ildə "Xocalı soyqırımı qurbanlarının xatirəsinə sükut dəqiqəsi elan edilməsi haqqında" ulu öndər Heydər Əliyev tərəfindən Fərman verilmişdir. Hər il 26 fevralda ölkə başçısı "Xocalı Soyqırımı" ilə əlaqədar xalqa müraciət edir.

***Şəkil 1.***
***Təcavüzün qurbanı olmuş qadınlar və uşaqlar .Azərbaycan xalqı və onun dövləti Xocalı faciəsini heç vaxt unutmur və unutmayacaqdır. Xocalı Soyqırımını dünyaya Çingiz Mustafayev və Seyidağa Mövsümlü yaymışdır. Allah ölənlərimizə rəhmət etsin.***



**Ədəbiyyat:**


1. Nəsiman Yaqublu – Xocalı Soyqırımı  Bakı-2017
2. http://sfdi.gov.az/qarabagi-unutma-xocali
3. https://azerbaijan.az/related-information/7

**Ermənilərin Azərbaycan xalqına qarşı soyqırımı siyasəti**

**Xəzər Universiteti**
**Nərmin Həsənova**

**Açar sözlər : Soyqırım , xalq , Xocalı faciəsi , deportasiya , psixoloji terror, cinayət**
**Ключевые слова: Геноцид, народ, Ходжалинская трагедия, депортация, психологический террор, преступление.**
**Key words: Genocide, people, Khojaly tragedy, deportation, psychological terror, crime**

***Xülasə :*** *Məqalənin hazırlanmasında məqsəd Azərbaycan xalqına qarşı törədilmiş faciəli hadisələr yaddaşlarda möhməklənməsi və unudulmamasıdır. Azərbaycan xalqının həyatında elə böyük faciələr var ki , onlar haqqında hələ də dünya ictimaiyyətində lazımi səviyyədə məlumat yoxdur. Ermənilərin Azərbaycanlılara qarşı törətdikləri soyqırım hadisələrinə veriləcək qiymət isə bu problemi tarixi faktlara əsasən dünya ictimaiyyətinə çatdırmağımızdan , onun doğru-düzgün təbliğindən asılıdır.*
***Резюме****: Целью подготовки статьи является обеспечение того, чтобы трагические события, совершенные против азербайджанского народа, помнились и не были забыты. В жизни азербайджанского народа происходят такие великие трагедии, что мировому сообществу до сих пор не хватает адекватной информации о них. Признание геноцида, совершенного армянами против азербайджанцев, зависит от того, насколько мы донесем эту проблему до мирового сообщества, основываясь на исторических фактах, и правильно ли она будет пропагандироваться.*
***Summary****: The purpose of preparing the article is to ensure that the tragic events committed against the people of Azerbaijan are remembered and not forgotten. There are such great tragedies in the life of the Azerbaijani people that the world community still lacks adequate information about them. Appreciation of the genocide committed by the Armenians against the Azerbaijanis depends on the fact that we convey this problem to the world community based on historical facts, and that it is properly propagated.*

Azərbaycan xalqına qarşı törədilmiş və uzun illərdən bəri siyasi-hüquqi qiymətin verilmədiyi soyqırımı və tarixi torpaqlarımızın zəbti, işğalı da tarixin açılmamış səhifələrindən biridir. Son iki yüz il ərzində tarixi Azərbaycan ərazisində gedən mürəkkəb siyasi proseslər nəticəsində azərbaycanlılar öz dədə-baba ocaqlarından zorla köçürülmə, onlara qarşı ardıcıl şəkildə həyata keçirilən etnik təmizləmə və deportasiya siyasətinin qurbanları olmuşlar. Bu siyasət iki istiqamətdə gerçəkləşdirilirdi. Bir tərəfdən, Gülüstan və Türkmənçay imzalandıqdan sonra İran və Türkiyədən ermənilər kütləvi surətdə Azərbaycan torpaqlarına köçürülməyə başlanmışdı. Digər tərəfdən isə, torpaqları zəbt olunmuş azərbaycanlılar qaçqın və köçkün vəziyyətinə salınırdılar. Təkcə XIX əsrdə Çar Rusiyasının qüvvələrinin dəstəyi ilə 400 mindən artıq erməni başqa ərazilərdən Azərbaycana köçürülmüşdür. 1905-1907 və 1918-1920-ci illərin hadisələri, mart qırğınları zamanı azərbaycanlılar kütləvi surətdə qətlə yetirilir, onların yaşadıqları kəndlər talan edilir, viran qoyulur, minlərlə soydaşımızın qaçqın və didərgin vəziyyətinə salınması üçün müxtəlif silahlı qüvvələrdən və zorakı üsullardan istifadə olunurdu. 1918-ci il mayın 28-də müstəqilliyini bəyan edən Azərbaycan öz sərhədlərini təyin etmək istədikdə, yenə də erməni millətçilərinin torpaq iddialar ilə üz-üzə gəldi. Azərbaycan xanlığı İrəvan xanlığının torpaqlarında erməni dövləti yaratmaq ideyası ortaya atıldıqdan sonra bu məsələlər daha kəskinləşdi. Azərbaycanın XIX-XX əsrlərdə baş verən bütün faciələri torpaqlarının zəbti ilə müşayiət olunaraq, ermənilərin azərbaycanlılara qarşı düşünülmüş, planlı surətdə həyata keçirdiyi soyqırımı siyasətinin ayrı-ayrı mərhələlərini təşkil etmişdir. Bu gün

Azərbaycan tarix elminin qarşısında duran ən mühüm vəzifələrdən biri ermənilərin öz təcavüzkar ideyalarını reallaşdırmaq üçün xalqımıza qarşı həyata keçirdikləri soyqırım, deportasiya, ərazi iddialarının köklərini, mərhələrini açıb göstərmək, erməni şovinizminin nəinki bizim xalqımız, eləcə də qonşu xalqlaq, bütün bəşəriyyət üçün hansı təhlükələr yaratdığını dünya ictimaiyyətinə çatdırmaqdan ibarətdir.

**Tarixi mərhələlərlə erməni cinayətkarlığı və azərbaycanlıların soyqırımı**

Azərbaycan xalqına qarşı dəfələrlə törədilmiş və uzun illərdən bəri öz syasi-hüquqi qiymətini almamış soyqırımı da tarixin açılmamış səhifələrinin başlanğıc hadisələrinin kökünü ermənilərin İrəvan, Naxçıvan və Qarabağ xanlığının ərazilərinə köçürülməsi ilə başladığını qeyd etmək lazımdır. Ermənistanın bu cinayətkar siyasətinin davamlılığını sübut edən faktlardan biri də budur ki, təkcə XX əsrdə azərbaycanlılar 4 dəfə- 1905-1906, 1918-1920, 1948-1953 və 1988-1993 illərdə ermənilər tərəfindən törədilən soyqırım və etnik təmizləmələrə məruz qalmışdır. Belə ki, Çar Rusiyasının 1813-cü və 1828-ci illərdə imzalanan Gülüstan və Türmənçay müqavilələri tarixi torpaqlarımızın parçalanması ilə Azərbaycan xalqının bölünməsinin əsasını qoydu. (İradə Məmmədova, İrəvan xanlığının əhalisi, Azərbaycan Tarixçilər İctimai Birliyi, Bakı-2017,s.28) Gülüstan, Türkmənçay və 1829-cu il Ədirnə müqavilələri ilə tarixi torpaqların bölünməsinin davamı məqsədini həyata keçirərək ermənilərin kütləvi sürətdə Osmanlı Qacarlar dövlətindən İrəvan, Naxçıvan və Qarabağ xanlıqlarının ərazisinə köçürülməsi ilə Azərbaycan əraziləri suni bölgülərə məruz qalmağa başladı. Erməni gəlmələri regionda azlıq təşkil etməyinə baxmayaraq onlar tezliklə siyasi ekspansiya siyasətini həyata keçirməyə və bu siyasətin icrası üçün planlar qurmağa başladılar ki, bunu nəticəsi kimi hazırki dövrə qədər davam edən münaqişələrin təməli qoyuldu. Çünki köçürülən erməni ailələrinin əksəriyyəti yaylaqda olan Azərbaycan türklərinin evində və torpaqlarında yerləşdirildi. Bununla da, Azərbaycan xalqının milli faciəsinin davamı kimi onun torpaqlarının zəbti başlandı. Qısa bir müddətdə bu siyasi proseslə ermənilərin kütləvi surətdə Azərbaycan torpaqlarına köçürülməsi həyata keçirildi. Bu prosesdə soyqırımı Azərbaycan torpaqlarının işğalının ayrılmaz bir hissəsinə çevrildi. İrəvan, Naxçıvan və Qarabağ xanlıqlarının ərazilərində məskunlaşdırılan ermənilər orada yaşayan azərbaycanlılarla müqayisədə azlıq təşkil etmələrinə baxmayaraq öz havadarlarının himayəsi altında "Erməni vilayəti" adlandırılan inzibati bölgünün yaradılmasına nail oldular. Belə suni ərazi bölgüsü ilə, əslində, azərbaycanlıların öz torpaqlarından qovulması və məhv edilməsi siyasətinin bünövrəsi qoyuldu. "Böyük ermənistan" ideyaları təbliğ olunmağa başlandı. ( İrəvan Xanlığı: Rusiya işğalı və ermənilərin Şimali Azərbaycan torpaqlarına köçürülməsi, Bakı-2010, s.397)Bu uydurma dövlətin Azərbaycan torpaqlarında yaradılmasına "bəraət qazandırmaq məqsədi ilə" erməni xalqının tarixinin saxtalaşdırılmasına yönəlmiş geniş miqyaslı proqramlar reallaşdırıldı. Azərbaycanın və ümumən Qafqazın tarixinin təhrif olunması həmin proqramların mühüm tərkib hissəsini təşkil edirdi. 1905-1907-ci illər birinci rus inqilabı vaxtı erməni millətçi Daşnaksütyun partiyasının Bakıda erməni fəhlələri arasında millətçilik ideyaları yaymaqla bir növ gələcək etnik təmizləmələr üçün zəmin hazırladığını və məhz bu zəminin 1905-1907-ci illərdə azərbaycanlılar, türk-müsəlman əhaliyə qarşı irimiqyaslı qanlı aktlar, qırğınlar törədilməsinə, minlərlə insanın qəddarlıqla öldürülməsinə gətirib çıxarmışdır. Bakıda başlanan vəhşiliklər Azərbaycanın bütün ərazisinə və İravan xanlığına (indiki ermənistan ərazisindəki Azərbaycan kəndlərinə) yayılmışdı. Yüzlərlə yaşayış məntəqəsi dağıdıldı və yer üzündən silindi, minlərlə dinc əhali vəhşicəsinə qətlə yetirildi. Bolşeviklər və Daşnaksütyun partiyası tərəfindən 1918-ci il soyqırımları daha planlı şəkildə törədilir. Bu hadisələrin təşkilatçıları məsələnin mahiyyətinin açılmasına, ona düzgün hüquq-siyasi qiymət verilməməsi üçün azərbaycanlıların mənfi obrazını yaradaraq özlərini avantürist torpaq iddialarını əsaslandıraraq pərdələmiş. Birinci Dünya müharibəsi, Cənubi Qafqazda ermənilərin sayının artmasına töhfə

vermişdir. Suni ərazi bölgüsü ilə müşayiət olunan bu prosses regionda sabitliyin uzun müddətdə pozulmasının, gərginlik və münaqişələrin yaranmasının əsasını qoydu. Eyni zamanda Çar Rusiyasında baş vermiş 1917-ci il fevral və oktyabr çevrilişlərindən məharətlə istifadə edən ermənilər öz iddialarını bolşevik bayrağı altında reallaşdırmağa nail oldular. 1918-ci ilin mart ayından etibarən əksinqilabçılarla mübarizə şüarı altında Bakı kommunası tərəfindən ümumən bakı quberniyasını azərbaycanlılardan təmizləmək məqsədi güdən ermənilərin planı həyata keçirilməyə başladı. Ermənilər bolşevizm örtüyü altında hərbi cinayətlər törədir və bu işin təşkilinə Vladimir Lenin tərəfindən Qafqazın Fövqəladə Komissarı təyin edilən Stepan Şaumyan rəhbərlik edirdi. Rusiyanın davamlı olaraq erməniləri silahlandırması nəticəsində ermənilərin törətdikləri cinayətlər Azərbaycan xalqının yaddaşına əbədi həkk olunmuşdur. Minlərlə dinc azərbaycanlı əhali yalnız milli mənsubiyyətinə görə Bakı ilə yanaşı, Şamaxı və Quba rayonlarında, həmçinin Qarabağ, zəngəzur, Naxçıvan, Lənkəran və Azərbaycanın digər bölgələrində qətlə yetirilmişdir. Ermənilər evlərə od vurmuş, insanları diri-diri yandırmışlar. Milli memarlıq incilərini, məktəbləri, xəstəxanaları, məscid və digər abidələri dağıtmış, Bakının böyük bir hissəsini xarabalığa çevrilmişdir.

**1918-1920-ci illərdə azərbaycanlıların öz tarixi torpaqlarında deportasiya (Mart soyqırımı)**

Erməni millətçiləri tarixin müxtəlif mərhələlərində mifik “Böyük Ermənistan” ideyasını gerçəkləndirmək məqsədilə soydaşlarımıza qarşı etnik təmizləmə, deportasiya və soyqırımları həyata keçirmişlər. Azərbaycan xalqının başına gətirilən ən dəhşətli faciələrdən biri də 1918-ci ilin mart-aprel aylarında Bakı Sovetinin mandatı altında fəaliyyət göstərən daşnak-bolşevik silahlı dəstələri tərəfindən xüsusi qəddarlıqla törədilmiş kütləvi qırğınlardır.1918-ci ilin mart soyqırımında “Daşnaksutyun” bolşeviklərin zərbə qüvvəsini təşkil etdi. Digər tərəfdən, S.Şaumyan təşkilatçılığı ilə Birinci Dünya müharibəsi cəhbələrindən geri çəkilən erməni əsgər və zabitləri Bakıda cəmləşdirildi. Sonradan, 1918-ci il aprelin 19-da Bakı Sovetinin yığıncağında S.Şaumyan etiraf etmişdi ki, Bakının milli tərkibi onu çox qorxudurmuş və o, erməni-daşnak alaylarının köməyindən heç cür imtina edə bilməzdi. Həqiqətən də, Bakıda azərbaycanlılara qarşı törədilən mart soyqırımın əsas təşkilatçısı və icraçısı V.Leninin Qafqaz işləri üzrə müvəqqəti fövqəladə komissar təyin etdiyi S.Şaumyan idi. Onun təşkil etdiyi “Qırmızı ordu”-nun tərkibi də, demək olar ki, tamamilə ermənilərdən ibarət olmuşdur. (https://bakucity.preslib.az/az/page/cBJE2tj8O0) 1918-ci il mart soyqırımına qədər Azərbaycanın milli demokratik qüvvələri Rusiya tərkibində milli-məhəlli muxtariyyət tələbi ilə çıxış edirdilərsə, artıq qırğınlardan sonra bu ümidlər boşa çıxdı. Mart soyqırımı nəticəsində sovetləşmə ideyasına güclü zərbə vuruldu, xalqın müstəqil dövlətçiliyini bərpa etmək əzmi daha da gücləndi. Dəhşətli soyqırımına məruz qalan azərbaycanlılar martın 31-də müqaviməti dayandırdılar. Lakin erməni daşnak birləşmələri soyqırımını aprelin 2-si gecədən xeyli keçənədək davam etdirdilər.

**1948-1953-ci illərdə azərbaycanlıların öz tarixi torpaqlarından deportasiyası**

Son iki əsrdə Qafqazda azərbaycanlılar qarşı məqsədyönlü şəkildə həyata keçirilmiş etnik təmizləmə və soyqırımı siyasəti nəticəsində xalqımız ağır məhrumiyyətlərə, milli faciə və məşəqqətlərə məruz qalmışdır. Mərhələ-mərhələ gerçəkləşdirilən belə qeyri-insani siyasət nəticəsində azərbaycanlılar indi Ermənistan adlandırılan ərazidən-min illər boyu yaşadıqları öz doğma tarixi-etnik torpaqlarından didərgin salınaraq kütləvi qətl və qırğınlara məruz qalmış, xalqımıza məxsus minlərlə tarixi abidə və yaşayış məskəni dağıdılıb viran edilmişdir. SSRİ Nazirlər Sovetinin 1947-ci il 23 dekabr tarixli 4083 nömrəli və 1948-ci il 10 mart tarixli 754 nömrəli qərarları Azərbaycan xalqına qarşı növbəti tarixi cinayət aktı olmuşdur. Bu qərarlar əsasında 1948-1953-cü illərdə yüz əlli mindən çox azərbaycanlı Ermənistan SSR ərazindəki dədə-baba yurdlarından kütləvi surətdə və zorakılıqla sürgün olunmuşdur. Adi hüquq normalarına zidd olan bu qərarların icrası zamanı avtoritar-totalitar rejimin mövcud

repressiya qaydaları geniş tətbiq edilmiş, minlərlə insan, o cümlədən qocalar və körpələr ağır köçürülmə şəraitinə, kəskin iqlim dəyişikliyinə, fiziki sarsıntılara və mənəvi genosidə dözməyərək həlak olmuşlar. Bu işdə erməni şovinist dairələrlərinin və SSRİ rəhbərliyinin cinayətkar siyasəti ilə yanaşı, o dövrki Azərbaycan rəhbərliyinin öz xalqının taleyinə zidd mövqeyi, soydaşlarımıza qarşı törədilən cinayətlərin təşkilində və həyata keçirilməsində iştirakı da az rol oynamamışdır .Təəssüf ki, 1948-1953-cü illərdə azərbaycanlıların Ermənistan SSR ərazisindən deportasiya olunması faktı ötən 50 il ərzində lazımınca araşdırılmamış, bu hadisələrə hüquqi-siyasi qiyməti verilməmişdir. (Nuru Məmmədov, Azərbaycanlıların kütləvi deportasiyası soyqırımı siyasətidir, Azərbaycan-2009, s.6 )

**Mənəvi və psixoloji terror**

Erməni millətçilər öz havadarlarının köməyi ilə 50-ci illərdən etibarən Azərbaycan xalqına qarşı kəskin mənəvi təcavüz kompaniyasına başladılar. Keçmiş sovet məkanında müntəzəm şəkildə yayılan kitab, jurnal və qəzetlərdə milli mədəniyyətimizin, klassik irsimizin, memarlıq abidələrimizin ən nəfis nümunələrinin erməni xalqına mənsub olduğunu sübut çalışdılar. Eyni zamanda onlar tərəfindən bütün dünyada azərbaycanlıların mənfi obrazını formalaşdırmaq cəhdləri də güclənirdi. "Yazıq, məzlum erməni xalqı"-nın surətini yaradaraq əsrin əvvəllərində regionda baş verən hadisələr şüurlu təhrif olunur, azərbaycanlılara qarşı soyqırım törədənlər soqırım qurbanları kimi qələmə verilirdi. Əsrin əvvəllərində əksər əhalisinin əsas və köklü hissəsi İrəvan türkləri/azərbaycanlılar olan irəvan şəhərində və Ermənistan SSR-in digər bölgələrində soydaşlarımız təqiblərə məruz qalaraq kütləvi surəti qovulur.Azərbaycanlıların Hüquqları ermənilər tərəfində kobudcasına pozulur, ana dilində təhsil almasına əngəllər törədilir, onlara qarşı repressiyalar həyata keçiirilir. Azərbaycan kəndlərinin tarixi adları dəyişdirilir, toponimika tarixində misli görünməyən qədim toponimlərin müasir adlarla əvəzolunması prosesi baş verir. Azərbaycan xalqının mənəviyyatına, milli qüruruna və mənliyinə yönəlmiş böhtanlar siyasi və hərbi təcavüz üçün ideoloji zəmin yaradırdı. Xalqımıza qarşı aparılan soyqırım siyasəti özünün siyasi-hüquqi qiymətini tapmadığı üçün tarixi faktlar sovet mətbuatında ermənilər tərəfindən təhrif olunur və ictimai fikir çaşdırılırdı. Ermənilərin Sovet rejimindən bəhrələnərək həyata keçirdikləri və 80-ci illərin ortalarında daha da güclənən antiazarbaycan təbliğatına Azərbaycan Respublikasının rəhbərliyi vaxtında lazımi qiymət vermədi.

**Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzünün kulminasiya nöqtəsi: Xocalı faciəsi**

1991-ci ildə Sovet ittifaqı süqut etdikdən sonra həm ermənistan, həm də Azərbaycan beynəlxalq subyekt kimi tanındı, silahlı əməliyyatlar və ermənistanın Azərbaycana qarşı hücumları başladı, Azərbaycana qarşı silahlı qüvvə tətbiq etdi və Dağlıq Qarabağ regionu və yeddi ətraf rayon da daxil olmaqla onun ərazilərini işğal etdi. Ermənistan bir milyona yaxın azərbaycanlını öz doğma tormaqlarından qovmaqla işğal etdiyi ərazilərdə etnik təmizləmə fəaliyyəti həyata keçirdi və münaqişə zamanı digər ciddi cinayətlər törətdi. 1991-ci ilin sonunda və 1992-ci ilin əvvəlində silahlı əməliyyatlar və ermənistanın Azərbaycana qarşı hücumları intensivləşdi. Dağlıq Qarabağ regionunda yerləşən rayonlardan biri olan əksəriyyəti azərbaycanlılardan ibarət əhaliyə malik Xocalı bu əməliyyatların birinin hədəfinə çevrildi. Xocalı 940 kv.km əraziyə və işğaldan qabaq 7000 nəfər əhaliyə malik olmuşdur. Xocalı Xankəndindən 10 kilometr şimal-şərqdə, Ağdam-Şuşa və Əsgəran-Xankəndi yollarının üzərində yerləşir. Xocalıda bir şəhər, bir qəsəbə (Əsgəran), 50 kənd var və ona qonşu rayonlar: Laçın, Kəlbəcər, Ağdam, Xocavənd və Şuşadır. Xocalıya sonuncu mülki vertolyot 1992-ci il yanvarın 28-də, sonuncu hərbi vertolyot isə fevralın 13-də enmişdi. Şuşa səmasında mülki vertolyotun vurulması, vertolyotun içərisində 40 nəfər azərbaycanlının həlak olması ilə şəhərlə hava əlaqəsi də kəsildi. Yanvarın 2-dən Xocalıya elektrik enerjisi də verilmirdi. Xocalılar öz qəhrəmanlıqları və şəhər müdafiəçilərinin cəsurluğu sayəsində yaşayır və müdafiə olunurdular. Şəhərin müdafiəsi əsasən avtomat və ov tüfəngləri ilə silahlanmış yerli özünü müdafiə dəstəsi və yerli

milis qüvvələrində təşkil olunmuşdur.[1] 1992-ci il Fevralın 25-dən 26-na keçən gecə Ermənistan silahlı qüvvələri SSRİ dövründən Xankəndi şəhərində yerləşən 366-cı motoatıcı alayın zirehli texnikası vəzirehli maşınların, piyadaların döyüş maşınlarının və tankların dəstəyi ilə Artsaxın Milli Azadlıq Ordusunun hissələri Xocalı şəhərini işğal etdi. Hücumdan əvvəl, fevralın 25-i axşam şəhər toplardan və ağır artilleriyadan şiddətli atəşə tutuldu. Nəticədə, fevralın 26-ı səhər saat 5 radələrində Xocalı tam alova büründü. Mühasirəyə alınan şəhərdə qalmış təqribən 2500 nəfər xocalılı Ağdam rayonunun mərkəzi çatmaq ümidi ilə şəhəri tərk etdi. Amma bir günün içində yer üzündən silinən şəhəri tərk edən 2500 Xocalı sakinindən 613-ü düşmən gülləsinə tuş gəlib qətliamın qurbanı oldu. Bu soyqırım nəticəsində 63-ü uşaq, 106-sı qadın, 70-i qoca və qarı olmaqla- 613 nəfər Xocalı sakini qətlə yetirildi, 8 ailə tamamilə məhv edildi, 25 uşaq hər iki valideynini, 130 uşaq valideynlərindən birini itirdi. Bu hadisə Azərbaycan və qardaş Türkiyədə “Xocalı Soyqırımı”, “Xocalı Faciəsi” kimi anılır. Ermənistanda isə bu əməliyyat “Xocalı döyüşçüsü”, “Xocalı hadisəsi” terminləri ilə ifadə olunur. Qərb və dünya mətbuatı “Xocalı qətliamı” termindən istifadə etməyə üstünlük verir. Xocalı faciəsi zamanı 607 nəfər şəhid olmuşdur.

Qeyd: 6 nəfərin isə şəxsiyyəti müəyyən edilməyib. Həmin şəxslər müxtəlif rayonlardan gəlib Xocalıda çalışan azərbaycanlılar idi. (Nəsiman Yaqublu, Xocalı Soyqırımı, “Elm və Təhsil”, Bakı-2012)

**Nəticə**

Tarixi hadisələrin düzgün işıqlandırılması problemi bu gündə bəşəriyyəti düşündürən vacib məsələlərdəndir. Azərbaycan xalqının həyatında isə elə böyük faciələr var ki, onlar haqqında hələ də dünya ictimaiyyətinin lazımi səviyyədə məlumatı yoxdur. Azərbaycan tarixində baş vermiş faciəli hadisələrin xalqın yaddaşındakı qanlı izlərini özündə əks etdirir. Azərbaycanlıların kütləvi şəkildə qırılmasını, represiyalara məruz qalmasını XX yüzilliyin dünya tarixinin ən qanlı səhfələrindən biri hesab etmək olar. Ermənilərin Azərbaycana qarşı aşkar soyqırımı siyasətini Bakı da daxil olmaqla, bütün Azərbaycanı özlərinin ərazisinə çevirmək niyyətində idilər. Xalqımız uzun illər bu gerçək tarixdən məlumatsız olmuş, saxta ideoloji ehkamlar və yalan tarix nəticəsində yaddaşımız uzun illər tamamilə yad istiqamətdə köklənmişdir. Son illərdə respublikamız bu sahədə fəaliyyətini gücləndirmiş, rəsmi sənədlərə əsasən ermənilərə qarşı ədalətli effektiv fəaliyyətə başlanmışdır. Göründüyü kimi, ermənilər tərəfindən azərbaycanlılara qarşı törədilən soyqırım düşünülmüş plan əsasında mərhələlərlə həyata keçirilmiş, xalqların dinc-yanaşı yaşamaq prinsipinə daim sadiq qalan soydaşlarımız isə bu cür faciələrin heç vaxt baş verməyəcəyinə inanaraq bəşər tarixində görünməyən fəlakətlərə düçar olmuşlar. Bu gün dünya ictimaiyyətinin hər bir üzvi, xüsusilə hər bir Azərbaycan vətəndaşı xalqımızın başına gətirilən bu faciələrdən xəbərdar olmalı və tarixdən ibrət dərsi götürməyi bacarmalıdır. Bəşəriyyət əleyhinə cinayətlərdən sayılan ermənilərin azərbaycanlılara qarşı törətdikləri soyqırım hadisələrinə veriləcək qiymət isə bu problemi tarixi faktlara əsasən dünya ictimaiyyətinə çatdırmağımızdan, onun doğru-düzgün təbliğindən aslıdır. Azərbaycan Prezidentinin dediyi kimi, bu yaddaş bizimlə qalacaq, qəlblərimizdə əbədi yaşayacaq. Azərbaycan dövlətinin, onun liderinin və xalqının haqlı mübarizəsi sonda bütün cinayətkarların törətdiyi əməlləri görə cavab verməsi, ədalətin parlaq zəfəri ilə yekunlaşacaq.

**Ədəbiyyat:**

1.İradə Məmmədova, İrəvan xanlığının əhalisi, Azərbaycan Tarixçilər İctimai Birliyi, Bakı-2017
2. İrəvan Xanlığı: Rusiya işğalı və ermənilərin Şimali Azərbaycan torpaqlarına köçürülməsi, Bakı-2010
3. Vaqif Abışov, Bakıda Azərbaycan xalqına qarşı soyqırımı, Bakı-2017
4. Sabir Hüseynov, Erməni xəyanəti: terror, soyqırım və deportasiya siyasəti, Bakı-2009
5. Roza Əliqızı, Soyqırım, Bakı-2013
6. Nəsiman Yaqublu, Xocalı Soyqırımı, "Elm və Təhsil", Bakı-2012

**Görkəmli tarixçi- Sara Aşurbəyli**

**Xəzər Universiteti**
**Əliquliyeva Leyla**

***Açar sözlər:*** Azərbaycan tarixçisi, Azərbaycanın qadın mütəxəssisi,,orta əsr tədqiqatçısı, Azərbaycan alimi və şərqşünası,tarix elmlər doktoru , Azərbaycan SSR əməkdar elm xadimi

***Keyword:*** Azerbaijani historian, Azerbaijani women specialist, medieval researcher, Azerbaijani scientist and orientalist, doctor of historical sciences, honored scientist of the Azerbaijan SSR

***Ключове слова:*** Азербайджанский историк, азербайджанский специалист-женщина, исследователь-медиевист, азербайджанский ученый-востоковед, доктор исторических наук, заслуженный деятель науки Азербайджанской ССР

**Xülasə**

Azərbaycan tarixində mühüm fəaliyyətləri ilə yadda qalan , ölkədə maarifçiliyin inkşafında mühüm rol oynayan tanınmış nəsillər olub . Həmin tanınmış nəsillərdən biri də Aşurbəylilər nəslidir. Aşurbəylilər Azərbaycanın ictimai-siyasi həyatının hər dönəmində yaxından iştirak etmiş zadəgan sülaləsidir və Oğuz türklərinin avşar boyuna mənsubdurlar. Bu soyad Nadir şah Avşarın (18-ci əsrin İran şahı) ünlü sərkərdəsi Aşur xanın törəmələrinə məxsusdur. Həmin ailəyə mənsub olan Sara Aşurbəyli cümhuriyyətçilərin sırasında durmuş neft maqnatı Balay Aşurbəyovun qızıdır . Sara Aşurbəyli daha çox Şirvan və orta əsr Bakı tarixinin tədqiqatçısı kimi tanınır və o tarix səyfəsinə öz adını qızıl hərflərlə yazdırmış , bir çox tədqiqatın müəllifidir.

**Summary**

There were well-known generations in the history of Azerbaijan who were remembered for their important activities and played an important role in the development of enlightenment in the country. One of those well-known generations is the generation of Ashurbeylis. The Ashurbeylis are a noble dynasty closely involved in every period of social and political life of Azerbaijan and belong to the Avshar tribe of the Oghuz Turks. This surname belongs to the descendants of Ashur Khan, the famous general of Nadir Shah Avshar (Iranian Shah of the 18th century). Sara Ashurbeyli, who belongs to that family, is the daughter of the oil tycoon Balay Ashurbeyov, who was among the republicans. Sara Ashurbeyli is better known as a researcher of the history of Shirvan and medieval Baku, and she wrote her name in golden letters on the history page and is the author of many studies.

**Краткое содержание**

В истории Азербайджана были известные поколения, которые запомнились своей важной деятельностью и сыграли важную роль в развитии просвещения в стране. Одним из таких известных поколений является поколение Ашурбейлиса. Ашурбейли — знатная династия, активно участвовавшая во все периоды общественно-политической жизни Азербайджана и принадлежащая к племени авшар тюрков-огузов. Эта фамилия принадлежит потомкам Ашур-хана, знаменитого полководца Надир-шаха Авшара (иранского шаха XVIII века). Сара Ашурбейли, принадлежащая к этой семье, является дочерью нефтяного магната Балая Ашурбекова, который был среди республиканцев. Сара Ашурбейли более известна как исследователь истории Ширвана и средневекового Баку, свое имя она вписала золотыми буквами на странице истории и является автором многих исследований.

**Həyatı və Təhsili** :Aşurbəyovlar nəslinin görkəmli nümayəndəsi, məhşur tarixçi Sara xanım Aşurbəyli Bakı neft sənayeçisi Balabəy Aşurbəyovun ailəsində dünyaya göz açıb. O bu nəslin ən görkəmli təmsilçilərindən biri olaraq Azərbaycanın tarixi üçün misilsiz töhfəsini vermişdir. Sara Aşurbəyli orta əsrlər Abşeronunun fundamental araşdırıcısı olaraq bütün dünyada tanınır.

Sara Aşurbəyli tarix elmləri doktoru (1966) , elmdə yeni səyfələr açmış əsərlərin müəllifi , Azərbaycan tarixşünaslığında fövqəladə yeri olan bir alimdir. O, ilk təhsilini Bakıda almış , 1920-ci ildə cümhuriyyətimiz

devrildikdən sonra ailəsi ilə birgə mühacirət etmiş , İstanbulda Janna Dark adına fransız kollecinin(1925) məzunu olmuş, sonra yenidən vətənə dönərək Azərbaycan Dövlət universtetinin şərq (1930) , daha sonra isə Azərbaycan Pedoqoji institunun xarici dillər fakültəsini bitirmişdir (1941). O zamanlar mülkədar zümrəsinə mənsub olan şəxslərin tarix elmi ilə məşğul olması yasaq idi , buna görə də bir müddət Sara xanım ali məktəblərdə fransız və ingilis dilində dərs demiş , Stalin öldükdən sonra 1954 cü ildə tarix elmi ilə məşğul olmağa icazə verilir .

**Repressiya həyatı:** Sovet hakimiyyəti qurulduqdan sonra ən amansız repressiyalar Aşurbəyovların üzərinə yönəldilər, ən ikrah doğuran donoslar onların barəsində yazılır. Lakin bunlar da bu qədim əsilzadə nəslin övladlarının mənlik və qürurunu sındıra bilməmişdi. Sovet dövründə var-yoxdan çıxarılan , mal-mülkləri əllərindən alınan Aşurbəyovlar nəsli öz sıralarından xalqımıza gözəl alimlər , müəllimlər , istedadlı və qeyri-adi şəxsiyyətlər və nəcib insanlar bəxş etdi. Sona Aşurboyova yazır ki , bu nəsil haqqında daha bir səciyyəvi detal ondan ibarətdir ki , onların heç bir təmsilçisi mühacirətdə dünyasını dəyişməyib: Hətta 20-ci əsrin əvvəllərində Bakını tərk etməyə məcbur qalanlar sonralar bu ayrılığa dözməyərək qayıdıblar. Vətəndə onları təqiblər, məşəqqətlər,repressiya dəhşətləri gözləyirdi . Sovet hakimiyyəti illərində Aşurbəyovlar nəsli nəinki bütün maddi bazalarından, o cümlədən onlarla müklərindən ,evlərindən , torpaq sahələrindən , neft mədənlərindən və bir çox şeylərindən məhrum qalmalarına baxmayaraq onlat yenə öz fəaliyyətlərini davam etdiriblər.

**Misilsiz istedad sahibi:** İstedadlı azərbaycanlı qızı rus,ingilis,ərəb,alman,fransız və türk dillərini bilirdi. O ali məktəblərdə Azərbaycan tarixi, Qərb və Şərq mədəniyyətləri haqqında mühazirələr oxumuşdur. Ağır təqib illərində məhz tükənməz bilik və bacarığı onun dadına çatmışdır. Sara xanım dram teatırında rəssam və dekorator, məktəbdə müəllim işləmiş müəllimi Üzryir Hacıbəylinin dəvəti ilə 14 il Konservatoriyada xarici dildən dərs demiş , çəkdiyi rəsm əsərlərini sataraq dolanmışdır. Sərgilərdən birində onun “Göygöl” əsərini Meksika nümayəndələri almışlar. Bu əsər indi Meksika muzeyində saxlanılır. 1946-cı ildə Sara xanım Azərbaycan Rəssamlar ittifaqının tədqiqatlarına görə Sara xanım tarux elmləri namizədi, 1966-cı ildə isə tarix elmləri doktoru adına layiq görülmüşdür. Azərbaycan mədəniyyətinə,tarixinə də tədqiqatlar həsr etmişdir və buna görə də Azərbaycan Dövlət mükafatı laureatı olmuş , “Şöhrət” ordeni ilə təltif edilmiş, respublikanın əməkdar elm xadimi, Xəzər Universtetinin Fəxri doktoru adını almışdır.

**Ədəbi həyatı:** Sara Aşurbəylinin bütün fəaliyyətini iki mərhələyə bölmək mümkündür: I) O, keçən əsrin 50-ci illərinin ortalarınadək əsasən pedeqoji fəaliyyətlə və rəssamlıq (boyakarlıq) sənəti ilə məşğul olmuşdur. II) Sara xanım XX əsrin 50-ci illərinin ortalarında ömürünün sonunadək Vətən taruxunin araşdırılması sahəsindəki məhsuldar elmi fəaliyyəti ilə fəqlənmişdir. Sara Aşurbəyli Azərbaycan tarix elminə əvəzsiz əsərlər bəxş etmişdir Onlara aşağıdakıları aid etmək olar: “ Orta əsrlərdə Bakı şəhərinin tarixi oçerki” (1964) , “Şirvanşahlar dövləti” (1983) , “Orta əsrlərdə Azərbaycan – Hindistan iqtisadi və mədəni əlaqələri (1990) , Bakı şəhərinin tarixi “ (1992) , “XVI-XVII əsr Şirvan şəhərlərinin sosial-iqtisadi və siyasi tarixi” , Azərbaycanda , Türkiyədə , Gürcüstanda, Çində 100-dən artıq elmi məqalə , Azərbaycan ensklopediyası üçün yazılmış 20-dən çox məqalə, “Azərbaycan tarixi” çoxcildliliyi üçün hazırlanmış silsilə məqalələr , fransız və ingilis dilindən rus dilinə tərcümə olunmuş elmi məqalələr və digər dəyərli çalışmalar.

Lakin bütün bu işləri görmək elə də asan deyildi. Bolşevik hakimiyyətinin ən yüksək mənsəblərindən “ bir mülkədarın qızı bizim tariximizi yazacaqmı?!”- deyən qorxunc nidalar səslənirdi , maneələr çoxalır , təqiblər artırdı. Heç bir təqib və maddi-mənəvi çətinlik qarşısında yenilməyən , geri durmayan Sara Aşurbəyli ona alim adını qazandıran kitablarını 70 yaşından sonra çap etdirmişdi

**Vəfatı:** Deyirlər ki Tanrı seçdiyi insanların ağır sınaqlara çəkərək bərkə-boşa salır. Sara xanım da şanslı şəxsiyyət olub , çünki əgər belə olmasaydı o düşdüyü tufanlardan , qasırğalardan qurtularaq öz vətəninə xidmət etmək üçün uzun ömür sürməzdi. Görkəmli alim Sara Aşurbəyli 2001-ci il iyulun 17-si 95 yaşında vəfat etmişdir.

**Nəticə.** Görkəmli tarixçi,şərqşünas Sara Aşurbəyli ölkəmiz üçün çox əziyyət çəkmiş, çətinliklər yaşamışdır , amma heç vaxt əl çəkməmişdir.Sara xanım öz nadir bilgiləri və müşahidələri ilə XX əsrin canlı

yaddaşı idi. Son yüzilliyin demək olar ki , çox mühüm taruxu hadisələr onun gözləri qarşısında baş vermiş, şəxsi həyatını yarıb keçmiş , taleyini yaralamış, lakin şəxsiyyətinə toxuna bilməzdi.



**Sara Aşurbəyli**

**İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT SİYAHISI**


1. Rasional İnkişaf uğrunda Qadınlar cəmiyyəti (RİQC) , "DƏYİŞİKLİKLƏRƏ CƏSARƏTİ ÇATAN ÖRNƏK XANIMLAR", nəşriyyatı Bakı-2008
2. "Azadlıq" qəzeti 2011, Mart-aprel
3. "Azərbaycan" qəzeti 2006, Yanvar-fevral
4. "Azərbaycan" qəzeti 2006, 6 fevral s. 7.

**Qərbi Azərbaycan 1918-1920-ci illərdə**

**Sumqayıt Dövlət Universiteti**
**Məmmədov Əbülfəz**

**Açar sözlər: Azərbaycan Xalq Cümhuriyyəti, İrəvan, Ermənistan, Zəngəzur, soyqırım, siyasət, müharibə**

1918-ci ildə yeni yaradılmış Azərbaycan Xalq Cümhuriyyəti (AXC) tərəfindən İrəvanın Ermənistana verilməsi tarixçilər və siyasi analitiklər arasında mübahisəli məsələ olaraq qalır. Bəziləri regiondakı mürəkkəb siyasi vəziyyəti və erməni təhlükəsini nəzərə alaraq bu qərarı praqmatik addım kimi qiymətləndirirlər. Digərləri isə bu güzəşti tarixi Azərbaycan torpaqlarının itirilməsinə səbəb olan səhv addım hesab edirlər. 1918-ci ildə AXC Birinci Dünya Müharibəsinin bitməsi və Osmanlı İmperiyasının dağılmasından sonra xaotik bir mühitdə quruldu. Regional güclər arasında münaqişələr və ərazi mübahisələr bu dövrdə hökm sürürdü. Belə bir çərçivədə yeni cümhuriyyət öz ərazisini qorumaq və sabitliyini təmin etmək üçün mübarizə aparırdı. Belə bir dövrdə ən mühüm təhlükə ermənilər tərəfindən yaradılırdı. Ermənilər İrəvanı özlərinin tarixi paytaxtları kimi görür və şəhəri nəzarət altına almaq üçün çox səy göstərirdilər. Tarixçilərin bir qismi bunu nəzərə alaraq AXC-nin İrəvanı təhvil verməsi bu təhlükəni neytrallaşdırmaq və regionda münaqişənin qarşısını almaq üçün praqmatik addım kimi şərh edirlər. İrəvanın təhvil verilməsinin regionun digər gücləri, xüsusən də Gürcüstan və Osmanlı İmperiyası ilə münasibətlərin yaxşılaşdırılmasına və regional sülh mühitinin yaradılmasına kömək edəcəyi irəli şərhin davamı olaraq qiymətləndirilmişdir. Bu strategiyanın AXC-nin beynəlxalq səviyyədə tanınmasını və sabitliyini təmin etmək məqsədi daşıdığı da həmin tarixçilər tərəfindən düşünülür.

İrəvan tarixi Azərbaycan torpaqlarının mühüm hissəsi hesab olunur. Buna əsasən tarixçilərin bir qisimi də şəhərin və onun ətraf ərazilərinin verilməsi Azərbaycanın milli maraqlarına zidd hərəkət hesab edirlər [6, s.57]. Onlar bu torpaqların itirilməsinin Azərbaycanın milli kimliyinə və tarixinə böyük təsir göstərdiyini qeyd edirlər. Həmçinin İrəvanın təhvil verilməsinin Qarabağ probleminin yaranmasında mühüm rol oynaması bu tarixçilər tərəfindən şərh edilmişdir. Belə ki, Ermənilər İrəvanı ələ keçirdikdən sonra onlar da Qarabağa iddia etməyə başladılar. Bu vəziyyət regionda uzunmüddətli münaqişə və gərginliyə səbəb olmuşdur. Bu vəziyyət Azərbaycanın milli təhlükəsizliyini təhdid edən amil kimi qiymətləndirilir.

1918-1920-ci illər Azərbaycan tarixi üçün faciəli bir dövrdür. Bu dövrdə ermənilər Azərbaycan torpaqlarında azərbaycanlılara qarşı genişmiqyaslı qırğınlar, talanlar, zorakılıq və terror əməliyyatları həyata keçiriblər. Bu hadisələr Azərbaycanda "etnik təmizləmə" kimi xarakterizə edilən, soyqırım miqyasına çatan faciəyə gətirib çıxardı [2,s.14]. 1918-ci ilin martında Bakıda başlanan qırğınlar Azərbaycanın digər bölgələrinə də yayıldı. Bu hadisələrdə minlərlə dinc azərbaycanlı həlak olub, evlər və iş yerləri talan edilərək yandırılmışdır. Onlar təkcə insanları yox, həm də tarixi abidələri, tikililəri dağıdıb, adları dəyişdirməklə mənəvi irsi məhv ediblər. Bugünkü Ermənistanda 1918-1920-ci illər arasında dəyişdirilmiş türk mənşəli adlardan bəziləri aşağıdakılardır:

- Molla Dursun – Şaumyan (Eçmiədzin)
- Yuxarı Ağdam – Qanzakar (İcevan)
- Tamlı – Burastan (Artaşat)

Zəngəzurda baş verənlər, tarixi prizmadan araşdırıldığında, erməni siyasətlərinin bölgədəki təsir və nəticələrini anlamaq üçün əhəmiyyətli bir perspektiv təqdim edir. 1918-ci ilin aprel ayına qədər olan dövr bölgədə erməni quldurları və general Andranikin başçılıq etdiyi nizami erməni qoşunlarının müsəlman əhaliyə qarşı sistemli şəkildə zülm və təzyiqlərinin artdığı bir dövrdür [1, s.3].

Bu dövrdə erməni siyasətlərinin əsasını bölgədəki müsəlman əhalinin siyasi və torpaq hüquqlarını qəsb etmək məqsədi təşkil edirdi. Xüsusən də Zəngəzurun strateji yerləşməsi və resursları erməni qüvvələrinin bölgəni öz nəzarəti altına almaq istəyinə təkan verdi. Bu məqsədlə müsəlman kəndlərinin mühasirəyə alınması, rabitənin kəsilməsi, ümumiyyətlə təzyiq və zorakılıq kimi üsullar erməni siyasətinin əsas elementlərini təşkil edirdi [7, s.4].

1918-1920-ci illərdə Qərbi Azərbaycan ərazisində yaradılmış Ermənistan Respublikasının Avropa və ABŞ ilə müsbət əlaqələri olub və bu münasibətlər bir sıra amillərin qarşılıqlı təsiri nəticəsində formalaşmışdır. Bu amillərə milli azadlıq hərəkatları, strateji maraqlar, diplomatik manevrlər və humanitar səylər daxildir [3, s.63].

1918-1920-ci illərdə Azərbaycan Xalq Cümhuriyyəti liderlərinin Qərbi Azərbaycanla bağlı diplomatik fəaliyyəti dövrün mürəkkəb siyasi-coğrafi şəraiti ilə formalaşmışdır. Bu fəaliyyətlərə regiondakı etnik qruplar arasında münasibətlər, ərazi mübahisələri və beynəlxalq arenada diplomatiya daxildir. Azərbaycan Xalq Cümhuriyyətinin liderləri Qərbi Azərbaycan ərazisində etnik azərbaycanlı əhalinin hüquq və mənafelərinin müdafiəsi üçün müxtəlif diplomatik təşəbbüslərlə çıxış ediblər. Bu təşəbbüslərin başında Qərbi Azərbaycanın Azərbaycan Xalq Cümhuriyyətinə qoşulması tələbi dayanırdı. Lakin bu tələb Ermənistanın regiona təsiri və Ermənistan-Azərbaycan münaqişələri ucbatından həyata keçirilməsi çətin hədəfə çevrilib. Azərbaycan Xalq Cümhuriyyətinin liderləri Qərbi Azərbaycanda azərbaycanlıların hüquqlarını və təhlükəsizliyini qorumaq üçün beynəlxalq aləmdə diplomatik dəstək axtarıblar. Bu dəstək xüsusilə Osmanlı və digər müsəlman ölkələri ilə əlaqələrin gücləndirilməsi yolu ilə həyata keçirilirdi. Osmanlı ilə sıx əlaqələr Qərbi Azərbaycanda azərbaycanlı əhalinin qorunması üçün strateji əhəmiyyət kəsb edirdi. Osmanlı İmperiyası Azərbaycanın müstəqillik və xalqının milli haqları uğrunda mübarizəsini dəstəklədi. Bu dəstək həm də Osmanlı İmperatorluğunun öz maraqlarına uyğun olaraq bölgədə siyasi tarazlığı saxlamaq cəhdlərinin bir hissəsi hesab olunurdu. Osmanlı Azərbaycanın müstəqillik və ərazi bütövlüyü tələblərini dəstəkləmiş və bu istiqamətdə diplomatik addımlar atmışdır. Osmanlı-Azərbaycan əlaqələri təkcə diplomatik sahədə deyil, həm də hərbi əməkdaşlıq və təhlükəsizlik sahələrində inkişaf etmişdir. Osmanlı İmperiyası Azərbaycanın müstəqillik mübarizəsinə hərbi dəstək vermiş, Azərbaycan Xalq Cümhuriyyətinin təhlükəsizliyinin qorunması səylərinə töhfə vermişdir.

"Qərbi Azərbaycan İcması" Ermənistan ərazisindən kütləvi surətdə qovulmuş azərbaycanlıların və onların varislərinin sosial-mədəni birliyini və həmrəyliyini təmin etmək məqsədilə yaradılmış birlikdir. 1989-cu ildən fəaliyyət göstərən bu icma "Azərbaycan Qaçqınlar Cəmiyyəti" Xalq Birliyinin hüquqi varisidir və 3 avqust 2022-ci il tarixdə keçirilən ümumi yığıncağında "Qərbi Azərbaycan İcması" adı verilmişdir.

İcmanın əsas məqsədi etnik mənşəyinə görə müxtəlif vaxtlarda Ermənistan ərazisindən qovulmuş azərbaycanlıların və onların varislərinin sosial-mədəni birliyini təmin etmək, onların hüquqlarını beynəlxalq səviyyədə bərpa etmək, araşdırmaq, təbliğ etmək və qorumaqdır. . Bundan başqa, Ermənistan ərazisində Azərbaycan xalqının yaratdığı zəngin tarixi-mədəni irsin tamamilə məhv edilməsinin qarşısının alınması və bu insanların öz ata-baba yurdlarına qayıtmaq hüququnun təmin edilməsi də hədəflər sırasındadır.

Qərbi Azərbaycan İcması Prezident İlham Əliyevin daim diqqət mərkəzində olmuşdur. 2023-cü ilin dekabrın 24-ü Cənab İlham Əliyev İcma binasının ziyarətində olub və orada çıxışında qeyd eləmişdir ki, Qərbi Azərbaycan torpaqları bizim tariximizdir, ayrılmaz parçamızdır. Qərbi Azərbaycan İcmasının bunla bağlı fəaliyyətini müsbət qiymətləndirirəm.

**Ədəbiyyat:**

1. Zeynal Vəfa, Zəngəzur Faciələri, Azərbaycan Milli Kitabxanası, Bakı. 2011, 4 səh.

2. Rəfiqə Kamalqızı, Tariximizin faciəli səhifəsi, Səs, 2012, 29 səh.
3. Ataxan Paşayev, Açılmamış səhifələrin izi ilə, Bakı. 2001 240-253 səh.
4. Əli Həsənov, Azərbaycanlılara qarşı etnik təmizləmə və soyqırımı siyasətinin mərhələləri, Bakı, 2017, 55-57 səh.
5. İbrahim Bayramov, Qərbi Azərbaycan: Tarixi həqiqətlər və ya Ermənistanın etnik təmizləmə siyasəti, Şərq-Qərb Nəşriyyat evi, Bakı, 2012, 287 səh.
6. Nazim Mustafa, 1918-1920-ci illərdə İrəvan quberniyası ərazisində azərbaycanlıların soyqırımı, Xalq qəzeti, 2010 4 səh.
7. Tahir Rüstəmli, Daşnakların Qərbi Azərbaycanda törətdikləri qırğınlar, Xalq qəzeti, 2023, №18, 7 səh.

**Xülasə:**

1918-1920-ci illərdə Qərbi Azərbaycan mürəkkəb siyasi və etnik dinamikanın hökm sürdüyü bölgə kimi seçilirdi. Bu dövrdə bölgədəki azərbaycanlılar öz dədə-baba torpaqlarından kütləvi surətdə qovulmuş və bu, bölgənin sosial-mədəni quruluşuna dərindən təsir etmişdir. Dövrün mürəkkəb siyasi mühiti və Ermənistan-Azərbaycan münaqişələri bölgədə sülh cəhdlərin nəticəsiz qalmasına səbəb olurdu. Qərbi Azərbaycanda azərbaycanlıların yaşadıqları çətinliklər və sürgün prosesi sonrakı dövrlərdə azərbaycanlıların sosial-mədəni birliyini təmin etmək üçün müxtəlif dərnəklərin yaranmasına səbəb olmuşdur. Bu birliklər Qərbi Azərbaycandan sürgün edilmiş azərbaycanlıların hüquqlarını müdafiə etmək, onların icmalarını bir arada saxlamaq üçün müxtəlif fəaliyyətlər həyata keçirmişdir.

**Краткое содержание:**

В 1918-1920 годах Западный Азербайджан выделялся как регион, в котором доминировала сложная политическая и этническая динамика. В этот период азербайджанцы региона были массово изгнаны со своих исконных земель, и это глубоко отразилось на социокультурной структуре региона. Сложная политическая обстановка того времени и армяно-азербайджанские конфликты привели к провалу мирных усилий в регионе. Трудности, переживаемые азербайджанцами в Западном Азербайджане, и процесс изгнания привели к созданию различных объединений с целью обеспечения социокультурного единства азербайджанцев в более позднее время. Эти объединения проводили различные мероприятия по защите прав азербайджанцев, изгнанных из Западного Азербайджана, и сохранению целостности их общин.

Summary:

In 1918-1920, Western Azerbaijan stood out as a region dominated by complex political and ethnic dynamics. During this period, Azerbaijanis in the region were expelled en masse from their ancestral lands, and this deeply affected the socio-cultural structure of the region. The complex political environment of the time and the Armenian-Azerbaijani conflicts led to the failure of peace efforts in the region. The difficulties experienced by Azerbaijanis in Western Azerbaijan and the process of exile led to the creation of various associations in order to ensure the socio-cultural unity of Azerbaijanis in later times. These associations carried out various activities to defend the rights of Azerbaijanis exiled from Western Azerbaijan and to keep their communities together.

**Ümumsosial iş nəzəriyyələri və onların tətbiqi mexanizmləri**

**Bakı Biznes Universiteti**

**İgidəliyev Yusif**

**Xülasə**

Sosial iş sosiuma-fərdlərə, qruplara, icmalara kömək edə biləcək sosial problemlərin həlli yolların axtaracaq vacib bir kariyeradır. Sosial iş insan psixologiyasından uzun araşdırma və nəşr tarixi olan sübuta əsaslanan bir peşədir. Sosial işçilərin fərdləri müalicə etmək və icmaları sağaltmağa kömək etmək üçün geniş alət dəsti var. Sosial işçilərin "silahına" sosial iş nəzəriyyələrini və pesrpektivlərini misal göstərmək olar. Əsaslandırmış nəzəriyyələrə və təcrübələrə istinad edərək proffesional sosial iş müdaxiləsini həyata keçirmək mümkündür. Bunun üçün nəzəriyyə və paradiqmaları dərindən bilmək və əlaqələndirmək, eyni zamanda beynəlxalq sosial iş təcrübəsindən istifadə etmək məqsədə uyğundur.

**Summary**

Social work is an important career that seeks solutions to social problems that can help society—individuals, groups, and communities. Social work is an evidence-based profession with a long history of research and publication in human psychology. Social workers have a wide toolkit to treat individuals and help heal communities. An example of the "weapon" of social workers are theories and perspectives of social work. It is possible to implement professional social work intervention by referring to grounded theories and practices. For this, it is appropriate to have a deep knowledge and connection of theories and paradigms, and at the same time to use international social work experience.

**краткое содержание**

Социальная работа — это важная профессия, направленная на поиск решений социальных проблем, которые могут помочь обществу — отдельным людям, группам и сообществам. Социальная работа — это научно обоснованная профессия с долгой историей исследований и публикаций в области психологии человека. Социальные работники обладают широким набором инструментов для лечения отдельных людей и помощи в исцелении сообществ. Примером «оружия» социальных работников являются теории и перспективы социальной работы. Осуществить профессиональную социальную работу можно, обратившись к обоснованным теориям и практикам. Для этого уместно иметь глубокие знания и связь теорий и парадигм, и в то же время использовать международный опыт социальной работы.

**Açar sözlər: Sosial öyrənmə nəzəriyyəsi, Sistemlər nəzəriyyəsi, Ailə sistemləri nəzəriyyəsi, Ekoloji sistem nəzəriyyəsi, Psixososial inkişaf nəzəriyyəsi, Psixodinamik nəzəriyyə.**

Hazırda bütün dünyada olduğu kimi Azərbaycan Respublikasında da sosial iş vacib ixtisaslardan, peşələrdən biridir. Çünki sosial iş əhalinin sosial rifahının yüksəldilməsinə, eyni zaman da cəmiyyətin hər bir üzvünün layiqli həyat şəraitinin təmin edilməsinə yönəlmiş sahədir. Cəmiyyətin həssas əhali qrupu ilə (zorakılığa məruz qalmış qadınlar, küçə həyatına məruz qalmış uşaqlar, valideyni olmayan və yaxud valideyn himayəsindən məhrum olmuş uşaqlar, tənha ahıllar, qaçqın və məcburi köçkünlər, miqrantlar, LGBT üzvləri, əlilliyi olan şəxslər və.s.) sosial iş müdaxiləsini aparmaq üçün ümumsosial iş nəzəriyyələrini və onların tətbiqi mexanizmlərini bilmək lazımdır. Sosial iş nəzəriyyələri və metodları sosial işin müasir təcrübəsi üçün çox vacib və əsaslı vasitədir. Bu sosial iş nəzəriyyələrini bilmək benefsiar ilə necə keys-menecment aparılmasına, eləcə də benefsiarların problemlərini dərindən öyrənilməsinə və həlli yollarını axtarılmasına kömək edir. Sosial iş nəzəriyyələri elmi sübutlara, təhlilli araşdırmalara əsaslanaraq sosial situasiyaları təsəvvür

etməyə praqnozlaşdırmağa yönəlmişdir. Müştərilərin ehtiyac və tələblərinə effektiv cavab vermək üçün peşəkar sosial işçilər geniş bilik spektrilə təchiz edilməlidir. Sosial iş perspektivləri həyatın müxtəlif dövrlərində insanları nəyin necə hərəkətə gətirdiyini və motivasiya etdiyini izah etməyə çalışmaq üçün psixologiya, fəlsəfə, iqtisadiyyat, təhsil və digər sahələrdən götürülür. Qeyd etdiyimiz bu nəzəriyyələr sosial işçilərə situasiyanı təhlil etməyə, benefsiarları anlamağa, müdaxilələr yaratmağa və əldə olunan nəticələri qiymətləndirməyə kömək edir. Sosial işçilər mövcud sosial problemləri araşdırmaq eyni zamanda qərar qəbul etmək üçün dəlilə əsaslanan nəzəriyyələrdən istifadə etməlidirlər. Sosial iş nəzəriyyələri, perspektivləri bu sahədə çalışan mütəxəssislər üçün tədqiqata əsaslanan obyektiv vasitəsilə klient problemlərini həll etmək üçün başlanğıc nöqtəsi təmin edir, həmçinin sosial işçilərə benefsiarlarının həyatına qarşılaşdıqları çətinliklərə siraət edən mürəkkəb insan davranışlarını və sosial mühitləri dərindən anlamağa şərait yaradır. Tədqiqata əsaslanan elmi sübutlarla dəstəklənən paradiqmanın əlverişli qavranılması bu sahədə çalışan sosial işçilərə, sosioloqlara, psixoloqlara istiqamət və məqsəd hissi verməklə onlara rəhbərlik etməyə yardım edir. Bəzən sosial iş müdaxiləsi zamanı bir perspektivdən istifadə etmək kifayət deyildir. Mürəkkəb müştəri məsələlərində sadəcə bir nəzəriyyəyə əsaslanmaq problemin hərtərəfli həll olunmasına yetərli olmaya bilər. Bu kimi mürəkkəb məsələlərdə bir çox nəzəriyyələrin biliklərini birləşdirmək, istifadə etmək və çoxşaxəli müdaxilələr hazırlamaq daha praktikdir. Sosial işdə müxtəlif nəzəriyyələr və paradiqmalar mövcuddur. Sosial işdə ən çox istifadə edilən və istinad edilən nəzəriyyələrin bəzilərinə diqqət yetirək:

Sosial öyrənmə nəzəriyyəsi- Bu nəzəriyyə psixoloq Albert Bandura tərəfindən işlənib hazırlanmışdır. Albert Bandura öyrənmənin başqalarını müşahidə etməklə və onların davranışlarını modelləşdirməklə baş verdiyini qeyd edir. Dolayı yolla nəzəriyyə qeyd edir ki başqalarını müşahidə etmək və onların fəaliyyətlərini modelləşdirmək öyrənmənin özüdür. Sosial öyrənmə nəzəriyyəsi sosial işçilərə müştərilərini yeni müsbət davranışlara məşğul olmağa təşviq etmək üçün müsbət modelləşdirmə və möhkəmləndirmədən istifadə edən müdaxilə strategiyaları yaratmağa kömək edə bilər.

Sistemlər nəzəriyyəsi- Bu nəzəriyyə insanların tək-tək fəaliyyət göstərən fərdlər kimi deyil, mürəkkəb sistemlərin toplumun məhsulu olduğunu qeyd edir. Həmçinin nəzəriyyədə davranışa bir sistem kimi birlikdə işləyən müxtəlif amillər təsir edildiyi ifadə olunmuşdur. Bu amillərə misal olaraq ailə, sosial şərait, dostlar, təhsil həyatı, iqtisadi sinif, dini quruluş, ev mühiti və.s. aiddir. Yemək pozğunluğu, bipolyar pozğunluq, narahatlıq, uşaqlıq travmaları, depressiya, deviant davranış kimi mürəkkəb məsələləri həll etmək üçün sistem nəzəriyyəsindən istifadə edilməsi məqsədə uyğundur. Sistem nəzəriyyəsinin tərkibinə həmçinin ekoloji sistemlər nəzəriyyəsi və ailə sistemləri nəzəriyyəsi daxildir. Adından göründüyü kimi ekoloji sistemlər nəzəriyyəsində fərdlərin davranışını təhlil etmək üçün müxtəlif mühitlər nəzərə alınır. Ailə sistemləri nəzəriyyəsində isə davranış və düşüncələrə təsir edən ailə mühiti sosial sistemidir. Sosial işçilər benefsiarlarının bir hissəsi olduqları sistemlərdən necə təsirləndiyini sistem nəzəriyyəsindən istifadə edərək anlaya bilərlər.

"Psixososial inkişaf nəzəriyyəsi- Psixososial inkişaf nəzəriyyəsi alman psixoanalitik Erik Erikson tərəfindən irəli sürülmüşdür. Nəzəriyyə şəxsiyyətin bir sıra mərhələlərdə inkişaf etdiyini vurğulayır. Nəzəriyyəyə görə şəxsiyyətin səkkiz inkişaf mərhələsi mövcuddur. Mərhələlər aşağıdakılardır:

1. İnamsızlıq və güvən
2. Utanc və şübhəyə qarşı muxtariyyət
3. Təşəbbüs və günah
4. Sənaye aşağılığa qarşı
5. Qarışıqlığa qarşı şəxsiyyət

6. Yaxınlıq və təcrid
7. Generativlik və durğunluq
8. Dürüstlük ümidsizliyə qarşı

Psixososial inkişaf nəzəriyyəsi insanların yaşlandıqca bu mərhələlərdən keçdiyini izah edir. Müştərilərinin hansı inkişaf mərhələsində olduğunu müəyyən etməklə sosial işçilər müştərilərinin üzləşdiyi problemləri daha yaxşı başa düşə bilərlər.

Psixodinamik nəzəriyyə- bu nəzəriyyənin, eyni zamanda psixoanalizin banisi Ziqmund Freyddir. Bu nəzəriyyə insanların bioloji olaraq həzz almağa yönəldiyi ideyasına əsaslanır. Sosial işdə psixodinamik nəzəriyyə fərdlərin davranışlarını istiqamətləndirmək üçüm daxili prosesləri izah etməyə yönəlmişdir. Sosial işçilər həmçinin erkən uşaqlıq təcrübələrinin müştərilərinin hazırki davranışlarına təsir etməkdə necə rol oynadığını araşdıra bilərlər. ” [1]

**Ədəbiyyat**


1. https://www.onlinemswprograms.com/social-work/theories/
2. https://www.researchgate.net/publication/304075811_Social_Work_Theories
3. https://www.researchgate.net/publication/277955266_Social_Work_Theory_and_Application_to_Practice_The_Students'_Perspectives
4. https://onlinedegrees.unr.edu/blog/social-work-theories-and-methods/
5. https://www.indeed.com/career-advice/career-development/social-work-theories

**Heydar Aliyev and youth policy**

**Baku State University**
**Hasanov Ulvi**

**SUMMARY**

This article examines the significant role of youth in Azerbaijan's development, underscored by National Leader Heydar Aliyev's strategic emphasis on cultivating a generation with strong moral values, quality education, and devotion to national interests. Highlighting systematic reforms and educational enhancements from 1969 to 1982, it discusses the establishment of new institutions and the integration of youth in vital sectors, effectively preparing them for leadership roles in a democratically evolving society. The continued commitment to youth development by Heydar Aliyev, and his successor Ilham Aliyev, has positioned Azerbaijan as a leader in both regional and global arenas, particularly in sports and education.

**Keywords:** Azerbaijan, Youth development, Education policy, Democratic reforms, Government initiatives

It is essential for a state that its youth possess healthy spiritual values, receive a quality education, and are raised in the traditions of high moral standards. When young people are leading representatives in society, it signifies that progress and integration are moving forward hand in hand with them. Youth represent the future of any nation, and caring for the younger generation is equivalent to caring for the future of the country. In this context, significant initiatives are undertaken to ensure a prosperous and successful tomorrow. In Azerbaijan, National Leader Heydar Aliyev best understood this principle and took the necessary steps to implement it.

Heydar Aliyev attached great importance to democratic changes and the protection of human rights in Azerbaijan. He initiated a series of systematic reforms across all areas of the country's socio-political and cultural life. Special attention in his work was devoted to involving youth in these processes. Heydar Aliyev actively encouraged the participation of young people in various institutions, governmental structures, and political and economic initiatives.

The importance of the role of youth in the development of Azerbaijan, including its economic, political, and cultural sectors, as well as in shaping a democratic state and society, cannot be denied. Examining the history of the Republic of Azerbaijan, it is clear that youth have always played a key and unique role at every stage of the country's development.

National Leader Heydar Aliyev always placed great importance on youth policy as an integral part of his governance strategy. During his leadership from 1969 to 1982, numerous new educational institutions, youth centers, and military academies were established, allowing thousands of young Azerbaijanis to receive education at prestigious universities across the former USSR and master relevant professions. Through Heydar Aliyev's personal efforts and attention, conditions were created for the education of over 15,000 young people from Azerbaijan in 170 leading universities across more than 50 major cities of the Soviet Union in 150 different specialties. This enabled them to become qualified professionals in about 80 different fields [2, p.167].

Speaking at a youth forum, the National Leader emphasized the strategic importance of these initiatives for the future of Azerbaijan: "All this was aimed at preparing new specialists for the future of our country. We started this work back in the 70s. Today, I can say that all this was done on my initiative. I was already thinking about the future of our country then" [1, p.236]. These achievements became some of the most significant in those years. Youth policy became a leading direction from the first days of his leadership in Azerbaijan. During the Soviet era, he created opportunities for hundreds of young Azerbaijanis to study at leading universities in major and central cities of the union. Sent to train in various specialties, these young people returned home as qualified professionals, actively engaging in activities. Today, many of them make a significant contribution to the development of the independent Republic of Azerbaijan, holding leadership positions in law enforcement and contributing to the progress of science, health care, and culture in the country. Heydar Aliyev cared for talented youth, personally selecting those who stood out with skills and knowledge and sending them to study in Moscow or Leningrad. Young people received financial support and all the necessary conditions for quality education. Therefore, Heydar Aliyev's rise to power in 1993 was met with applause, especially by the youth who saw in him a great leader, an irreplaceable historical figure, and the founder of national state building.

The strategy developed and implemented by Heydar Aliyev facilitated the strengthening of moral values among the youth, enhancing their social status, and building a significant scientific potential. Heydar Aliyev's special attention to youth was no coincidence, as he exerted efforts to address their issues.

Key initiatives in the field of youth policy in our country are associated with the name of the National Leader Heydar Aliyev, who was called to power in 1993 by popular demand. One of the significant directions of his activity was the support of the youth. The main task of the implemented youth policy was to educate the young generation with modern thinking, committed to national values and devoted to their country and people, as well as to use their capabilities for the development of the state.

In the context of accelerating democratic processes, a decision was made to establish the Ministry of Youth and Sports on July 26, 1994, marking the beginning of an era of centralized management of youth policy [6, p.472]. Frequent meetings between the National Leader and the youth, along with his valuable guidance, facilitated their unity around national interests and the interests of the state. This led to the conduct of the First Youth Forum of Azerbaijan on February 2, 1996, where Heydar Aliyev highlighted the significance of youth and sports policy and the great responsibility that lies on the youth for achieving future successes. During this period, numerous decrees were signed and laws were enacted aimed at addressing youth problems and their active involvement in the state-building process, significantly contributing to the state's youth policy.

Thus, all the conditions were created for the youth of Azerbaijan, as full citizens, to take responsibility for their future and justify the trust placed in them by the state. On February 2, 1997, by decree of the national leader, this day was declared the Day of Youth in Azerbaijan. From 1996 to 2002, important documents were adopted such as the "Law on Physical Education and Sports", the "Law on State Care for Young Talents of Azerbaijan", the "Decree on Establishing Special Scholarships for Young Talents", the "Law on State Youth Policy", and programs like "Young Family", "On Enhancing Patriotic and Civic Feelings Among Youth", "On the Employment of Young People Discharged from the Army" [5, p.213]. These initiatives were aimed at ensuring a prosperous future for the younger generation. The concern of the National Leader Heydar Aliyev for student refugees and internally displaced persons became part of his invaluable service to all citizens of the country.

To increase attention and care for talented youth, decrees were signed such as "On Increasing State Care for Talented Young Writers of the Azerbaijan Republic" on December 6, 1999, and "On State Care for Young Talents of Azerbaijan" on June 22, 1996 [6, p.385].

On February 2, 2001, a meeting took place between the National Leader Heydar Aliyev and the Azerbaijani youth. Heydar Aliyev delivered an extensive speech and discussed crucial issues facing the youth. He instructed that young people be involved in responsible work within government bodies, selecting capable, intellectual, and active young individuals for significant positions within the executive system, institutions, committees, and organizations.

It can be proudly stated that today our state continues to pay special attention to the youth. The youth policy initiated by Heydar Aliyev is successfully being continued by his worthy successor, the head of state Ilham Aliyev. This policy is also reflected in the state support for sports. Indeed, this focused policy was prompted by the aim of nurturing youth in the spirit of patriotism.

In the strategy of state youth policy, particular attention is given to the development and popularization of sports. Thanks to the focused efforts of the country's leadership, Azerbaijan has become a recognized leader in global sports. The creation of Olympic complexes throughout the republic and the successful hosting of major international sporting events confirm this success.

Already in 1997, upon becoming the president of the International Olympic Committee, Mr. Ilham Aliyev laid the foundations for a strategy aimed at developing the Olympic movement in Azerbaijan to strengthen the country's position in the international sports arena [4, p.93]. In a short time, 13 Olympic sports complexes were constructed and launched in various regions, demonstrating the high effectiveness of this policy. On August 30, 2005, President Ilham Aliyev signed a decree adopting the "State Program for Azerbaijani Youth," demonstrating a commitment to leveraging the potential of the youth for the benefit of the state and the people, providing them with opportunities for full participation in state governance and ensuring

their productive employment [4, p.55]. The decree outlined the key directions of the state youth policy, and the Cabinet of Ministers was instructed to prepare and finance activities to support the youth. The improvement of the social status of young people and their active presence in state structures confirm the special attention President Ilham Aliyev pays to youth policy.

According to amendments to the "Law on Youth Policy" of the Republic of Azerbaijan, adopted on May 5, 2007, individuals aged 14 to 29 are classified as youth [3, p.165]. Progress in developing this demographic group is directly linked to strengthening the state and ensuring its prosperous future. The active involvement of youth in the socio-economic life of the country not only promotes their personal growth but also addresses a wide range of national tasks. Today, it is particularly important to expand programs aimed at the professional training of youth, ensuring their employment, social protection, and stimulating entrepreneurial activity, as well as educating them in the fundamentals of the market economy. Leading market companies often seek specialists who have work experience and an understanding of market principles. Therefore, it is crucial to pay special attention to educational programs tailored to the real demands of the labor market and to update courses in technical and vocational institutions to meet the needs of modern employers.

Back in 2003, on the election platform of Mr. President Ilham Aliyev, it was stated that if elected, 600,000 new jobs would be created in the country [3, p.65]. Remaining faithful to his promise, the respected president began to focus on the development of the country, especially the regions. Consequently, a special state program was approved. As a result of the adopted program, new manufacturing and service enterprises were launched in the regions. With financial support from the state, the implementation of major infrastructure projects began. Of course, all these efforts would not have been possible without qualified specialists.

The preparation of qualified young specialists in Azerbaijan begins right from school. The state pays special attention to this area, with a significant portion of the budget allocated to educational expenses. In recent years, hundreds of schools have been built both with state funds and funds from the Heydar Aliyev Foundation. The construction of schools continues today, and overall, the educational infrastructure in Azerbaijan is being updated. As a result, our young people—schoolchildren and students—are closely following global events, mastering new modern information technologies. They are equipped to analyze global processes.

Today, Azerbaijani youth are going abroad to obtain education, create businesses, gain experience, work, and engage in other beneficial activities. A significant portion of our young people working abroad return home after a few years, applying the experience, business activity, and features of the economic system they have learned to the context of our country. This cycle not only enriches the individual lives of the youth but also contributes significantly to the national development by bringing back valuable international exposure and expertise.

Thanks to the development and progress policies laid down by the National Leader Heydar Aliyev, our country has entered a new stage of development. Thus, every young person in Azerbaijan should always be guided in their lives by the ideas of the National Leader Heydar Aliyev and the worthy continuation of his political course by President Ilham Aliyev. Today's youth are patriotic, spiritually healthy, and confident. This reflects the success of the ongoing commitment to cultivating a generation that not only values its heritage but is also equipped to face future challenges with confidence and competence.

**LIST OF REFERENCES:**


1. Adıgözəlov Z., Mustafayev İ. Heydər Əliyev və müstəqil Azərbaycan gəncliyi, Bakı, "QAPP-POLİQRAF" Korporasiyası, 2003, 368 s.
2. Axundova E. H. Heydər Əliyev: şəxsiyyət və zaman: IV hissə: 1969-1989, Bakı, "Ozan", 2008, 328 s.
3. Mədətli E.Y. Heydər Əliyev - İlham Əliyev: azərbaycançılığın zəfər yolu, Bakı, "Turxan NPB", 2021, 272 s.
4. Məlikli G. İlham Əliyevin siyasi strategiyasında milli prioritetlər, Bakı, "Nurlar NPM", 2018, 200 s.

5. Quliyeva X.N. Heydər Əliyev siyasəti: milli dövlət, milli lider, vətəndaşlıq, mənəviyyat, Bakı, “Elm”, 2019, 416 s.
6. Ахундова Э.Г. Гейдар Алиев: личность и эпоха: Т. 3: возвращение (1990-2003), Москва, Издательство «Канон+» РООИ «Реабилитация», 2017, 624 с.

**Müasir Azərbaycan Respublikasında əlilliyi müəyyən edilmiş şəxslərin hüquqları**

**Bakı Biznes Universiteti**
**Ülkər İsmayılzadə**

**Xülasə**

Müasir dövrdə əlilliyi müəyyən edilmiş şəxs ifadəsi çox geniş anlayış kəsb edir. Aydın məsələdir ki, bu fərdlərin müxtəlif sağlamlıq problemləri ilə bağlı ola bilər.

Azərbaycan Respublikasında əlilliyi müəyyən edilmiş vətəndaşlar üçün bir sıra qanunlar qəbul edilir, müxtəlif tədbirlər, sosial layihələr həyata keçirilir. Bunun əsas məqsədi əlilliyi müəyyən edilmiş şəxslərin özünütəcridinin qarşısını almaq və onların cəmiyyətdə lazımlılığını və effektivliyini artırmaqdır. Bu nöqteyi nəzərdən əlilliyi müəyyən edilmiş şəxslərin cəmiyyətdə rolunun artırılması və onlarla sosial işin səmərəliliyinə nail olunması xüsusi qeyd edilməlidir.

**Açar sözlər: sağlamlıq, qanun, hüquq, əlillik, sosial iş**

**Резюме**

В наше время словосочетание «инвалид» имеет очень широкое значение. Понятно, что это может быть связано с различными проблемами со здоровьем людей.

В Азербайджанской Республике принят ряд законов для граждан с ограниченными возможностями, реализуются различные меры и социальные проекты. Его основная цель – предотвратить самоизоляцию инвалидов и повысить их полезность и эффективность в обществе. Учитывая эту точку зрения, следует особо отметить повышение роли инвалидов в обществе и достижение эффективности социальной работы с ними.

**Ключевые слова: здоровье, право, изоляция, инвалидность, социальная работа.**

**Summary**

In modern times, the phrase "disabled person" has a very wide meaning. It is clear that this may be related to various health problems of individuals.

In the Republic of Azerbaijan, a number of laws are adopted for citizens with disabilities, various measures and social projects are implemented. Its main purpose is to prevent self-isolation of disabled persons and to increase their usefulness and effectiveness in society. Considering this point of view, increasing the role of disabled people in society and achieving the efficiency of social work with them should be specially mentioned.

**Keywords: health, law, self-isolation, disability, social work**

Əlilliyi olan şəxslərin hüquqlarının qorunması ölkəmizdə aparılan sosial siyasətin əsas istiqamətlərindən birini təşkil edir. Bu istiqamətdə qanunvericilik bazasının yaradılması və tətbiqinə başlanılması əlilliyi müəyyən edilmiş şəxslərin də sosial təminatı, onların tibbi-sosial reabilitasiyası və cəmiyyətə inteqrasiyası sahəsində tədbirlərin ildən-ilə güclənməsinə imkan yaradır. Azərbaycanda ən çox rast gəlinən əlillik növü fiziki əlillikdir, ardınca isə sensor və əqli qabiliyyətin zəifliyi və heç olmaması halları sıralanır. Azərbaycanda əlillik hallarının əksəriyyəti körpənin anadan olduğu andan və ya erkən uşaqlıq dövründən müşahidə olunmağa başlayır. Bu səbəbdən də, Azərbaycanda əlillik hallarının əksər hissəsinin qarşısını almaq üçün erkən müdaxilələrin həyata keçirilməsi ehtiyacı özünü kəskin şəkildə büruzə verir. Əlilliyin digər səbəblərinə isə qəza halları daxildir. Ona görə də, peşə təhlükəsizliyi və sağlamlığı, eləcə də yaşayış mühitində potensial təhlükələrin aradan qaldırılması prioritet məsələlərdən biri olaraq müəyyən edilməlidir. [1, s. 6]

Azərbaycan Respublikasında əlilliyi qiymətləndirmək məqsədilə tibbi-sosial ekspertiza Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyinin tibbi-sosial ekspert komissiyaları (TSEK) tərəfindən həyata keçirilir. TSEK-də əlilliyin müəyyən olunması barədə qərar sadə səs çoxluğu ilə qəbul edilir. Əlilliyin qiymətləndirilməsi "Əlilliyi olan şəxslərin hüquqları haqqında" Azərbaycan Respublikası Qanununun 3.4-cü maddəsinə uyğun olaraq "Əlilliyin müəyyən olunması meyarları"na əsasən həyata keçirilir. Şəxsin əlilliyi qeyd edilən səbəblərdən birinə əsasən müəyyən edilir: ümumi səbəblərdən: ümumi xəstəlik, istehsalat zədəsi, peşə xəstəliyi, Çernobıl Atom Elektrik Stansiyasında (AES) qəza ilə əlaqədar, hərbi xidmət dövrü ilə əlaqədar, hərbi əməliyyatlar keçirilən zonada olmaqla əlaqədar, terror hadisəsi ilə əlaqədar, xüsusi səbəblərdən: Azərbaycan Respublikasının ərazi bütövlüyünün, müstəqilliyinin və konstitusiya quruluşunun müdafiəsi ilə əlaqədar, 1990-cı ilin 20 Yanvar hadisələri ilə əlaqədar, hərbi xidmət vəzifələrini (xidməti vəzifələri) yerinə yetirməklə əlaqədar, Çernobıl AES-də hərbi xidmət vəzifələrini (xidməti vəzifələri) yerinə yetirməklə əlaqədar. Orqanizmin funksiyalarının pozulması faizinin, səbəbinin və müddətinin müəyyən edilməsi məqsədilə əlilliyin qiymətləndirilməsi TSEK tərəfindən Nazirliyin Mərkəzləşdirilmiş elektron informasiya sisteminin Əlillik altsistemi vasitəsilə aparılır. [3]

Azərbaycanda statistikaya nəzər saldıqda müşahidə edirik ki, pensiya və ya müavinət alan əlilliyi olan şəxslərin sayında son üç ildə azalma olmuşdur. Belə ki, 2021-ci ilin statistikasına görə pensiya və ya müavinət alan əlilliyi olan şəxslərin sayı 614731 olduğu halda, 2022-ci ilin statistikasında həmin rəqəm 559173, 2023-cü ildə isə 488774 təşkil edir. 2023-cü ildə pensiya və ya müavinət alan əlilliyi olan şəxslərdən sağlamlıq imkanları məhdud 18 yaşadək uşaqlar isə 46654 nəfəri əhatə edir. [2]

Azərbaycan 2006-cı ildə "Əlilliyi olan şəxslərin hüquqları haqqında" BMT-nin Konvensiyasına qoşulub və ölkəmizdə bu sahədə qəbul edilən yerli qərarlarda Konvensiyadan irəli gələn öhdəliklər nəzərə alınır. Azərbaycan Respublikasının əsas qanunvericilik aktları Azərbaycanda əlilliyi olan şəxslərin insan hüquqlarının müdafiə edilməsi üçün dayanıqlı bazanı təmin edir. 31 may 2018-ci il tarixində qəbul olunan "Əlilliyi olan şəxslərin hüquqları haqqında" Azərbaycan Respublikası Qanununda əlilliyi olan şəxslər barəsində dövlət siyasətinin əsasları və onların hüquqlarının müdafiəsi sahəsində dövlətin vəzifələri müəyyənləşdirilmişdir. Qanun əlilliyə səbəb olan risklərin, əlillik əlamətinə görə ayrı-seçkiliyin bütün formalarının aradan qaldırılmasını, əlilliyi olan şəxslərin reabilitasiyasını, cəmiyyətin həyatında tam həcmdə iştirakını və sosial inteqrasiyasına şərait yaradılmasını, əlilliyi müəyyən edilmiş şəxslərə aid olan strategiya və proqramlara dair qərarların qəbulu prosesinə fəal cəlb olunmasını, əlilliyi olan şəxslərin hüquq və azadlıqlarının tam və bərabər səviyyədə reallaşdırılmasını, onların şərəf və ləyaqətinin müdafiəsi sahəsində yaranan münasibətləri tənzimləyir. Əlillərin hüquqları bərabərlik, ləyaqət və cəmiyyətdə tam iştirakın təmin edilməsi üçün əsaslardan biridir. Azərbaycanda əlilliyi müəyyən edilmiş şəxslərin hüquqlarının təşviqi səyləri milli qanunvericilik, beynəlxalq konvensiyalar və əlillərin hüquqlarının qorunmasına və rifahının yaxşılaşdırılmasına yönəlmiş siyasət təşəbbüslərini rəhbər tutur. Qanun Azərbaycanda əlillik hüquqlarını tənzimləyən hüquqi bazanı rəhbər tutur. Əlilliyi olan şəxslər üçün əlçatanlığın yüksəldilməsi, ayrı-seçkiliyin qarşısının alınması və sosial inklüzivliyin artırılması qeyd edilən istiqamətdə əsas diqqət tələb edilən məsələlərdəndir.

Azərbaycan Respublikasının Konstitusiyası bütün vətəndaşların bərabər hüquq və imkanlarına təminat verir, ayrı-seçkiliyi qadağan edir. "Əlilliyi olan şəxslərin hüquqları haqqında" Azərbaycan Respublikasının Qanunu əlilliyi olan şəxslərin hüquqlarının müdafiəsi və təşviqi üçün hüquqi bazanı müəyyən edir. Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I

hissəsinin 1-ci bəndinə uyğun olaraq (Konstitusiyada təsbit edilmiş insan və vətəndaş hüquqlarından və azadlıqlarından istifadə, bu hüquqların və azadlıqların dövlət təminatı) əlilliyi olan şəxslər barəsində dövlət siyasətinin əsaslarını və onların hüquqlarının müdafiəsi sahəsində dövlətin vəzifələrini müəyyən edir, əlilliyə səbəb olan risklərin, əlillik əlamətinə görə ayrı-seçkiliyin bütün formalarının aradan qaldırılmasını, əlilliyi olan şəxslərin reabilitasiyasını, cəmiyyətin həyatında tam həcmdə iştirakını və sosial inteqrasiyasına şərait yaradılmasını, onlara aid olan strategiya və proqramlara dair qərarların qəbulu prosesinə fəal cəlb olunmasını, əlilliyi olan şəxslərin hüquq və azadlıqlarının tam və bərabər səviyyədə həyata keçirilməsini, onların şərəf və ləyaqətinin müdafiəsi sahəsində yaranan münasibətləri tənzimləyir. Qanun əlilliyi olan şəxslər üçün əlçatanlıq, məşğulluq, təhsil, səhiyyə və sosial təminat xidmətləri ilə bağlı müddəaları müəyyən edir. [4]

Ayrı-seçkiliyə yol verilməməsi həm daxili qanunvericilikdə, həm də beynəlxalq konvensiyalarda təsbit olunmuş əlilliyi olan şəxslərin hüquqlarının əsas prinsipidir. Qeyd edildiyi kimi, "Əlilliyi olan şəxslərin hüquqları haqqında" qanun əmək, təhsil, səhiyyə və həyatın digər sahələrində əlillərə qarşı ayrı-seçkiliyi qadağan edir. Ayrı-seçkiliklə mübarizə və məlumatlılığı təşviq etmək səyləri inklüzivlik və qəbuletmə mədəniyyətini inkişaf etdirmək üçün vacib məsələlərdən biridir. Sosial inklüzivlik müxtəlif aspektləri, o cümlədən təhsilə çıxış, məşğulluq, səhiyyə, mənzil və icma iştirakını əhatə edir. Azərbaycan hökuməti əlillərin sosial inklüzivliyini və rifahını təşviq etmək üçün müxtəlif proqramlar və təşəbbüslər həyata keçirir. Peşə təhsili, reabilitasiya, köməkçi vasitələr və maliyyə yardımı kimi dəstək xidmətləri əlilliyi olan şəxslərin səlahiyyətlərinin artırılması və onların həyat keyfiyyətinin yüksəldilməsi üçün mühüm əhəmiyyət kəsb edir. Dəstək xidmətlərinin əlçatanlığının artırılması əlillərin müxtəlif ehtiyaclarını qarşılamaq üçün vacibdir.

Əlilliyi olan şəxslər üçün məşğulluq və özünüməşğulluq imkanlarının yaradılması aktiv məşğullluq tədbirlərinin əsas istiqamətlərindən biridir. Sosial müdafiəyə ehtiyacı olan və işə düzəlməkdə çətinlik çəkən vətəndaşlar, o cümlədən əlilliyi olan şəxslər üçün müəssisələrdə kvota üzrə yerlər müəyyən edilir və həmin yerlərdə işlə təmin edilirlər. Özünüməşğulluq proqramının, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən Dünya Bankının maliyyə dəstəyi ilə icra olunan, 22 min şəxsin kiçik biznesə çıxışına dəstək verilməsi məqsədi daşıyan "Məşğulluğa Dəstək Layihəsi"nin, digər məşğulluq tədbirlərinin icrasında həssas qruplara, o cümlədən əlilliyi olan şəxslərə üstünlük verilir. [5]

Azərbaycan Respublikası Əmək Məcəlləsində də əlilliyi olan şəxslərlə bağlı müddəalar var. Əlilliyi olan şəxslərin yaradıcılıq və istehsal qabiliyyətinin həyata keçirilməsi məqsədilə və fərdi reabilitasiya proqramları nəzərə alınmaqla, onların adi iş şəraiti olan müəssisələrdə, idarələrdə və təşkilatlarda, əlilliyi olan şəxslərin əməyini tətbiq edən ixtisaslaşdırılmış müəssisələrdə, sexlərdə və sahələrdə işləmək, habelə sahibkarlıq fəaliyyəti və qanunla qadağan edilməyən başqa fəaliyyət ilə məşğul olmaq hüququ təmin edilir. Əlilliyi olan şəxslərin digər şəxslərlə bərabər səviyyədə əmək fəaliyyəti ilə məşğul olmasını təmin etmək işəgötürənlərə aid edilən vəzifələrindən biridir. Azərbaycan Respublikası Əmək Məcəlləsinə əsasən əlilliyi olan şəxsin səhhətinin peşə vəzifələrini yerinə yetirməsinə mane olduğu, və ya başqa şəxslərin səhhəti və əmək təhlükəsizliyi üçün təhlükə törətdiyi hallar istisna olmaqla, onunla əlillik səbəbindən əmək müqaviləsini bağlamaqdan, işdə irəli çəkməkdən imtina edilməsinə, əmək müqaviləsinə xitam verilməsinə və öz razılığı olmadan başqa işə (peşəyə, vəzifəyə) keçirilməsinə yol verilmir. [6]

Əmək Məcəlləsində vətənin müdafiəsi, azadlığı və ərazi bütövlüyü uğrunda hərbi əməliyyatlarda xəsarət (yaralanma, travma, kontuziya) almış və əlilliyi müəyyən edilmiş işçilər barədə də müddəalar vardır. Belə ki, vətənin müdafiəsi, azadlığı və ərazi bütövlüyü uğrunda hərbi

əməliyyatlarda xəsarət (yaralanma, travma, kontuziya) almış və əlilliyi müəyyən edilmiş işçilər attestasiyaya cəlb olunmurlar. İşçi əlilliyə və ya yaşa görə əmək pensiyasına çıxdıqda ərizəsində qeyd edilən tarixdə əmək müqaviləsi ləğv edilə bilər. İşəgötürən tərəfindən müəssisənin ləğv edilməsi halları istisna olmaqla, müddətindən asılı olmayaraq, reabilitasiya müəssisəsində və digər reabilitasiya subyektlərində müalicə alan əlilliyi olan şəxslərlə bağlanılmış əmək müqaviləsinin işəgötürən tərəfindən ləğv edilməsinə hallarına yol verilmir. Əlilliyi müəyyən edilən şəxslər gecə vaxtı görülən işlərə yalnız onların yazılı razılığı ilə və müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın və ya qurumun rəyi nəzərə alınmaqla cəlb edilə bilərlər. Mülkiyyət formasından asılı olmayaraq bütün müəssisə, idarə və təşkilatlar işçilərə müəyyən edilmiş standartlara uyğun təhlükəsiz əmək şəraiti yaradır və onların əmək qabiliyyətinin aşağı düşməsinə, sağlamlığına vurulmuş ziyana görə qanunvericiliyə uyğun məsuliyyət daşıyır, müalicə və reabilitasiya xərclərini ödəyirlər.

İşçinin səhhəti və fizioloji vəziyyəti (hamiləlik, əlillik, o cümlədən 18 yaşınadək sağlamlıq imkanlarının məhdudluğu), habelə xroniki xəstəliyi olan uşağının və digər ailə üzvünün səhhəti müvafiq tibbi rəyə görə əmək funksiyasının natamam iş vaxtında yerinə yetirilməsini tələb edərsə, habelə on dörd yaşına çatmamış, yaxud sağlamlıq imkanları məhdud uşağı olan qadınlara ərizələrilə işəgötürən natamam iş vaxtı (iş günü, yaxud iş həftəsi) müəyyən etməlidir. Digər şəxslərin natamam iş vaxtından istifadə etməsi işəgötürənin razılığı ilə həyata keçirildiyi halda, qanunvericilik əlilliyi olan şəxslərin bu hüququnun təmin edilməsini işəgötürənlərin üzərinə bir vəzifə kimi qoyur. Natamam iş vaxtı həftə ərzində müəyyən edilmiş gündəlik iş vaxtının müəyyən saat azaldılmasını, gündəlik iş saatı saxlanılmaqla həftəlik iş günlərinin sayının azaldılmasını nəzərdə tuta bilər. Əmək funksiyasını natamam iş vaxtında yerinə yetirən əlillərin bu Məcəllə və ya əmək müqaviləsi ilə müəyyən edilmiş əmək hüquqlarının hər hansı şəkildə məhdudlaşdırılması qanunla qadağan edilir. Əlilliyin faizindən, səbəbindən və müddətindən asılı olmayaraq işləyən əlilliyi olan, o cümlədən sağlamlıq imkanları məhdud olan 18 yaşınadək işçilərə əmək məzuniyyəti 42 təqvim günündən az olmayaraq müəyyən edilir. Qeyd edilən kateqoriyaya aid şəxslərə bir iş ilində özlərinin xahişi ilə bir təqvim ayınadək ödənişsiz məzuniyyət verilir. Əlilliyi müəyyən edilən şəxslərə əmək məzuniyyəti onların istəyi ilə onlar üçün əlverişli olan tarixə qeyd edilə bilər. Qeyd etmək lazımdır ki, əlilliyi olan şəxslərə, yaşı 18-dən az olan və sosial müdafiəyə ehtiyacı olan digər şəxslərə əmək münasibətlərində güzəştlərin, imtiyazların və əlavə təminatların müəyyən edilməsi ayrı-seçkilik halı hesab edilmir.

**Nəticə**: Yekun olaraq qeyd edim ki, Azərbaycanda əlillərin hüquqları daxili qanunvericilikdə və beynəlxalq konvensiyalarda təsbit olunub və bu, hökumətin bərabərlik, əlçatanlıq və sosial inklüzivliyi təşviq etmək öhdəliyini əks etdirir. Əlillərin hüquqlarının təşviqində irəliləyişlərə baxmayaraq, Azərbaycan əlillərin hüquqlarının və potensialının tam reallaşdırılmasında problemlərlə üzləşir. Bu problemlərə məhdud məlumatlılıq, qeyri-adekvat resurslar, icradakı boşluqlar, əlçatanlıq və inklüzivlik üçün maneələr daxildir. Bir sözlə, bu hüquqların tam həyata keçirilməsində problemlər qalmaqdadır və bu, hüquqi bazanın gücləndirilməsi, əlçatanlığın artırılması, ayrı-seçkiliklə mübarizə və əlilliyi olan şəxslərə dəstək xidmətlərinin genişləndirilməsi üçün davamlı səyləri tələb edir. Əlillərin hüquqlarını prioritetləşdirmək və inklüzivlik mədəniyyətini inkişaf etdirməklə Azərbaycan əlilliyin müəyyən edilməsindən asılı olmayaraq bütün vətəndaşlarının rifahını və səlahiyyətlərini artıra bilər.

**ƏDƏBİYYAT:**


1. Azərbaycanda əlilliyi olan şəxslərin vəziyyətinin təhlilinə dair tədqiqat - UNICEF Azərbaycan – Bakı, 2011 : səh, 6
2. Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi - Əhali arasında əlillik - 2023: https://www.stat.gov.az/source/healthcare/
3. "Əlilliyin qiymətləndirilməsi Qaydası"nın təsdiq edilməsi və "Tibbi-sosial ekspert komissiyaları haqqında Əsasnamə"nin təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı – Bakı, 2020: https://e-qanun.az/framework/44232
4. "Əlilliyi olan şəxslərin hüquqları haqqında" Azərbaycan Respublikasının Qanunu – 2018: https://e-qanun.az/framework/39591
5. Əlilliyi olan şəxslərin əmək hüquqları - 2023: https://demx.gov.az/faydali2/isciler-ucun/elilliyi-olan-sexslerin-emek-huquqlari
6. Ölkəmizdə əlilliyi olan şəxslərin hüquqlarının müdafiəsi, sosial təminatı, reabilitasiya və cəmiyyətə inteqrasiyası sahəsində aparılan işlər - 2023: https://sosial.gov.az/media/xeberler/olkemizde-elilliyi-olan-sexslerin-huquqlarinin-mudafiesi-sosial-teminati-reabilitasiya-ve-cemiyyete-inteqrasiyasi-sahesinde-meqsedyonlu-isler-aparilir

**Beynəlxalq və yerli konteksdə ahıllarla sosial işin təşkilinin təhlili və Bilgəh qocalar və ahıllar evində sosial xidmətin tətbiqi**

**Bakı Biznes Universiteti**

**Hacıyeva Fərəh**

***Xülasə***

Tədqiqat işində sosial iş sahəsində ahılların yalnızlıq problemi, onlara sosial xidmətin göstərilməsi, bu sahədə Azərbaycan və Beynəlxalq təcrübə və bu təcrübələrin müqayisəli təhlili, tətbiq olunan sosial xidmət nümunələri, sosial xidmətin formaları, Bilgəh qocalar evində sosial xidmətin təşkili prosesi öz əksini tapmışdır. Tədqiqatın məqsədi bu mövzunun aktuallığını artırmaq üçün bir sıra yanaşmaları nəzərdən keçimək, sosial işçinin ahıllara qayğının göstərilməsində rolunun vurğulanmasıdır.

**Açar sözlər: ahıl, sosial xidmət, sosial işçi, sosial xidmətçi,ahıllar evi,beynəlxalq təcrübə, Bilgəh qocalar və ahıllar evi**

***Summary***

In the research work, the problem of loneliness of the elderly in the field of social work, the provision of social services to them, the Azerbaijani and International experience in this field and the comparative analysis of these experiences, the applied examples of social service, the forms of social service, the process of organizing social service in the Bilgah nursing home are reflected in the research work. The purpose of the study is to review a number of approaches to increase the relevance of this topic, to emphasize the role of the social worker in providing care to the elderly.

**Key words: elderly people, social service, social worker, social worker, nursing home, international experience, Wise nursing home and nursing home**

***Резюме***

В исследовательской работе проблема одиночества пожилых людей в сфере социальной работы, оказания им социальных услуг, азербайджанский и международный опыт в этой области и сравнительный анализ этого опыта, прикладные примеры социального обслуживания, В исследовательской работе отражены формы социального обслуживания, процесс организации социального обслуживания в доме престарелых «Бильгях». Цель исследования – рассмотреть ряд подходов, позволяющих повысить актуальность данной темы, подчеркнуть роль социального работника в оказании помощи пожилым людям.

**Ключевые слова: пожилые люди, социальная служба, социальный работник, социальный работник, дом престарелых, международный опыт, Мудрый дом престарелых и дом престарелых**

***Giriş***

Hər bir şəxs həyat yolunda yaşlılıqla rastlaşır, çünki bu insan ömrünün ayrılmaz bir parçasıdır. Ahılların çox hissəsinin üzləşdiyi tənhalıq qapanmayan bir yara olaraq günümüzə qədər gəlmişdir. “Sosial xidmət haqqında” Qanuna əsasən, ölkədə 70 yaşına çatmış vətəndaşlar ahıl hesab olunurlar.[4] Ümumi olaraq ahıllara nəzər salsaq o, şəxsi ehtiyaclarını qarşılamaqda artıq çətinlik çəkən, sosial, iqtisadi, fiziki problemləri artan şəxslərdir. Dövlət statistika Komitəsinin 2023-cü il hesabatına əsasən ahılların sayı artmış (10127.1 nəfər), [7] bu səbəblə onlara baxıma tələbatı artırmışdır. Bu da bərabərində iqtisadi yükün artımını gətirir. Yaş artdıqca orqanizmdə baş verən yavaşlamalar özü ilə birlikdə insanda həm daxili, həm də gözlə görülə biləcək şəkildə xarici geriləmələrə səbəb olmaqdadır. Yaşlılarda boyun balacalaşması, halsızlıq, tez-tez taqətdən

düşmə halları müşahidə olunur. Sadalanan bioloji geriliklər isə ahıllarımızda qaçınılmaz olaraq psixoloji problemlər yaradır. Təəssüflər olsun ki, dövlətlərin apardığı sosial siyasətlər və tövsiyyə xarakterli addımlar hələ də böyük maneələrlə üzləşməkdədir. Ahılların sadəcə öz yaxınları tərəfindən axtardıqları qayğı ehtiyacı heç bir sosial işçi və sosial xidmətçi tərəfindən tam qarşılanmır. Maddi və fiziki ehtiyaclarının ödənilməsi dövlətin resursları ilə mümkün olsa da mənəvi ehtiyac olan sevgi və qayğı sadəcə ahılların sevdikləri tərəfindən ödənilə bilir. Zaman keçdikcə yaşlı insanlar gündəlik həyat və şəxsi qayğıların öhdəsindən gəlməkdə çətinliklər çəkirlər. Fəaliyyətin azalması, ictimai aktivlikdə geriləmə və yaşa bağlı ciddi xəstəliklər yaşlı insanı aktiv həyat tərzi keçirmək imkanından tamamilə məhrum edir. Bu çətin anda yaşlı insanların xüsusi qayğıya, diqqətə və dəstəyə ehtiyacı yaranır. Təbidir ki, əksər ailələrdə yaşlı qohumuna davamlı olaraq qulluq etmək imkanı yoxdur. Eləcə də, yaşlı bir insanın psixikasında yaşa bağlı dəyişikliklər varsa və ya artıq müstəqil hərəkət edə bilmirsə, bu məsələ xüsusilə kəskinləşir və bu vəziyyətdə, ailə üzvləri üçün ahıllar evində yaşlı qohumu necə yerləşdirmək məsələsi aktuallaşır.

Son illərdə Azərbaycan Respublikasının dövlət sosial siyasətinin prioritet məsələlərindən birinə çevrilən yaşlılıq məsələyə müasir elmi yanaşma tərzi tələb etməklə bərabər, bu mövzunun vaxtaşırı olaraq tədqiq edilməsi zəruriliyini yaradır. Tədqiqat edilməli olan mövzular - müasir dövrdə ahılların problemlərinin tədqiq edilməsi, sahədəki araşdırmaların müqayisəli təhlili, yaşadıqları sosial, iqtisadi, bioloji, psixoloji problemlərin nəticələri və aradan qaldırılması üsulları, bu sahədəki qanunvericilik bazasının təkmilləşdirilməsi, ahıllara sosial xidmət müəssisələrinin müqayisəli təhlili, beynəlxalq təcrübədə ahıllara sosial xidmət sistemi barədə məlumat bazasının araşdırılmasıdır. Cəmiyyətin bu problemin həllində sosial işin dəyərini və vacibliyini tanıması və sosial işçilərin öz işlərini yerinə yetirmələri üçün lazımlı resursları və dəstəyi təmin etməsi çox əhəmiyyətlidir. Sosial işçilər, sosil xidmətçilər, ailə üzvləri və icmalar arasında birgə səylə yaşlıların geridə qalmamasını təmin edən daha əhatəli və şəfqətli bir cəmiyyət yaratmağa cəhd etməliyik.

Ahıllara sosial xidmət müalicə, reabilitasiya və qayğı formasında özünü göstərir. Müalicə dedikdə hər hansı xəstəlikdən sağalma üçün, qayğı dedikdə xəstəlik olmadan göstərilən mənəvi xidmət, reabilitasiya limitlənmiş olan funksional fəaliyyətinin araşdırılaraq müalicə edilməsi üçün olan xidmətdir.

Sosial xidmətə götürülmə üçün əsas dezadaptasiya( şəxsin (ailənin) sosial mühitə uyğunlaşma qabiliyyətinin itirilməsi), uğursuz sosial mühit və deprivasiya-dır (şəxsin (ailənin) əsas həyati tələbatlarını müstəqil şəkildə ödəmək imkanlarının məhdudlaşması və (və ya) ondan məhrum olması). Sosial xidmət stastionar, yarımstasionar, evdə səyyar sosial xidmət və sosial-məsləhət yardımı.formasında göstərilə bilər. Stasionar sosial xidmət dedikdə müəssisəyə yerləşdirilmə, evdə səyyar sosial xidmət dedikdə evdə baxım, yarımstasionar sosial xidmət dedikdə günün müəyyən hissəsi göstərilən sosial xidmət, sosial məsləhət yardımı dedikdə isə sosial xidmət üzrə çətin həyat şəraitində olan şəxsə məlumat verilməsi nəzərdə tutulur.

Stasionar sosial xidmətdə müəssisəyə yerləşdirilməsinə əsas olaraq onlara baxmağa borclu olan əmək qabiliyyətli qohumlarının və ya qanuni nümayəndələrinin həmin şəxslərə qulluq edə bilməyəcəkləri barədə ərizələri və ya məhkəmə tərəfindən sosial xidmətə götürülmə ilə bağlı qərarı göstərə bilərik. Sosial xidmət müəssisəsinə yerləşdirmə 30 dekabr 2011-ci ildə qəbul olunan “Sosial Xidmət haqqında” Azərbaycan Respublikasının Qanunu və 5 noyabr 2013-cü ildə Azərbaycan Respublikasının Nazirlər Kabinetinin Qərarı ilə təsdiq edilmiş “Çətin həyat şəraitində olan şəxslərin (ailələrin) dövlət sosial xidmət müəssisələrinə yerləşdirilməsi Qaydası” ilə tənzimlənir. [3] Bu tip müəssisələrə yerləşdirildikdə ahıllara sosial işçi və sosial xidmətçi təyin olunur.Sosial işçi ahıl vətəndaşın sosial problemləri ilə maraqlana, sosial xidmətçi isə sosial məişət işlərini görə bilər.

Yarımstasionar sosial xidmət dedikdə günərzi mərkəzləri nəzərdə tutulur və bu müəssisələr günün müəyyən hissəsində ahıllara sosial xidmətin göstərilməsini öz üzərinə götürür. Eyni zamanda tənha ahıllara evdə səyyar sosial xidmətin göstərilməsi də qanunvericikliklə tənzimlənir. [6] Bu zaman ona baxacaq yaxın qohumun olmaması və onun sosial xidmət müəssisəsinə yerləşdirilmək istəməməsi əsas götürülür.Tənha ahıla sosial xidmətçi təyin olunur və onun evində ahıla sosial məişət xidməti göstərir. Bu prosesi həyata keçirən şəxslər isə Dövlət Sosial Müdafiə Fondunun rayon(şəhər) şöbələrinin sosial xidmətçiləri olur. Sosial xidmətçilər həftədə ən azı iki dəfə olmaqla tənha ahıl vətəndaşların evlərini ziyarət edir, zəruri sənaye,məişət və ya ərzaq məhsullarının təmin edilməsi,dərman preparatlarının təmin olunması, yemək hazırlanması və s. işlərində köməklik göstərirlər. Sosial məsləhət yardımı sosial xidmət üzrə məsləhətlərin verilməsini nəzərdə tutur və çətin həyat şəraitində olan vətəndaş zəruri məlumatlar əldə edib, yardım və s. üçün müraciətə əlçatanlılığa nail olur.

| | 2020 | 2021 | 2022 | 2023 |
|---|---|---|---|---|
| Ahıllar, əlilliyi olan şəxslər və baxımsız uşaqlar üçün sosial xidmət müəssisələrinin sayı | 9 | 8 | 8 | 8 |
| onlarda: | - | | | |
| yerlərin sayı | 1220 | 1240 | 1241 | 1230 |
| yaşayanların sayı, nəfər | 849 | 754 | 1017 | 925 |

***Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi [7]***

Azərbaycan Respublikasında ərəbşünaslıq məktəbinin banisi Ziya Bünyadov olmuşdur. O, Nailə Vəlixanlının və başqalarının tədqiqatları Azərbaycan və qonşu ölkələrin tarix, ədəbiyyat və mədəniyyəti baxımından əhəmiyyətli olmuşdur. Ziya Bünyadovun əsərləri Azərbaycanın və Yaxın Şərq ölkələrinin Ərəb xilafəti və son orta əsrlər dövrü tarixinin tədqiqinə həsr edilmişdir. Onun “Azərbaycan VII-IX əsrlərdə” adlı monoqrafiyası Azərbaycan tarixinin erkən orta əsrlər dövrünün həm yazılı abidələr, həm də arxeoloji və numizmatik materiallar əsasında öyrənilməsinə həsr edilmişdir. 1964-cü ildə o, “ Ərəb dövrü”nə həsr olunmuş “Azərbaycan VII-IX əsrlərdə” mövzusunda doktorluq dissertasiyası müdafiə edərək, tarix elmləri doktoru elmi dərəcəsi almışdır. “Azərbaycan VII-IX əsrlərdə” kitabı onun ilk fundamental əsəri olmuşdur.

Ziya Bünyadov bolşevizm terroru və siyasi repressiyaların qurbanları ilə bağlı bir neçə tədqiqat əsərini ortaya qoyub. O, bolşevizm terroru nəticəsində 1920-1930-cu illərdə Azərbaycanda aparılmış represiyyalar haqqında həqiqətləri aşkara çıxartmış, 1937-ci ilin qurbanlarını xalqa tanıtdırmış, onlara bəraət qazandırmış və adlarını tarixdə bərpa etdirmişdir. Beləliklə, o dövrü doğru-düzgün işıqlandıraraq əsl hünərini göstərmişdir.

1965-ci ildə SSRİ Ali və Orta təhsil Nazirliyi yanında ona professor dərəcəsi verilmişdi.
1966-ci ildən başlayaraq o, Ankaradakı Türk Tarix Qurumunun konqreslərinin daimi iştirakçısı olmuşdur. Türk xalqlarının tarixinin öyrənilməsində böyük xidmətlərinə görə, həmin ildə Türk Tarix Kurumunun müxbir üzvü, 1988-ci ildə isə onun fəxri üzvü seçilmişdir.

1967-ci ildə Azərbaycan Elmlər Akademiyasının müxbir üzvü, 1976-cı ildə 21 aprel Elmlər Akademiyasının həqiqi üzvü seçilmişdir. Ziya Bünyadov 1970-ci ildə "Azərbaycan SSR EA-nın Xəbərləri. İctimai elmlər seriyası" jurnalının baş redaktoru vəzifəsinə təyin olunmuşdu. 1970-ci ilədək onun elmi rəhbərliyi altında artıq səkkiz namizədlik və üç doktorluq işi müdafiə olunmuşdur.

"Elm" nəşriyyatının ilk direktorlarindan biri akademik Ziya Bünyadov olmuşdur. 1988-ci ildə Sumqayıt hadisələrinin mahiyyəti ilə bağlı Ziya Bünyadov məqalə yazmışdır. Məqalə “Niyə Sumqayıt” adlanırdı və burada baş vermiş hadisələrin əsl mahiyyətini aşkara çıxarmağa çalışıb. Ziya Bünyadov göstərmişdi ki, Bakı və Sumqayıta ermənilərin gəlməsi, fevral ayında ermənilərin banklardan əmanətlərini çıxarması ilə bağlıdır.

Ziya Bünyadovun “Azərbaycan Atabəyləri dövləti” əsəri 12-ci əsr Azərbaycan tarixini öyrənmək baxımından böyük əhəmiyyətə malikdir. Əsər 1980-ci ildə Azərbaycan SSR Dövlət mükafatına layiq görülmüşdür.

1991-ci ildə Ziya Bünyadov professor Vasim Məmmədəliyev ilə birlikdə Qurani-Kərimi Azərbaycan dilinə izahlı tərcümə etmişdir. Böyük məsuliyyət və zəhmət tələb edən bu işə görə o, Hacı Zeynalabdin Tağıyev adına mükafata layiq görülmüşdür. 1992-ci ildə o, ümumi səsvermə yolu ilə yenidən Şərqşünaslıq İnstitutunun direktoru seçilmişdir.

O, 1991-ci ildə "Gülüstani-İrəm" əsərini ön söz və şərhlərlə çap etdirmiş və 1993-cü ildə bu işinə görə Abbasqulu ağa Bakıxanov adına mükafata layiq görülmüşdür.

Ziya Bünyadov 1981-ci ildə Azərbaycan Milli Elmlər Akademiyasının Şərqşünaslıq İnstitunun direktoru vəzifəsinə təyin olundu. O, bu vəzifədə 1986-cı ilə qədər fəaliyyət göstərmişdir.

1982-ci ildə ona “Azərbaycan SSR Əməkdar elm xadimi” fəxri adı verilmişdir. O, 1988-1990-cı illər ərzində Azərbaycan SSR EA-nın Şərqşünaslıq İnstitutuna rəhbərlik etmişdir.

1990-cı ildə Azərbaycan EA-nın vitse-prezidenti seçilmişdir.

**İctimai-siyasi fəaliyyəti:** 1964-cü ildə qərar qəbul edilmişdi ki, bir əsr əvvəl Azərbaycan könüllü surətdə Rusiyanın tərkibinə daxil olub. Hətta bu, bir bayram kimi qeyd edilmişdi. 1967-1968-ci illərdə Ziya Bünyadov artıq bir neçə dəfə açıq bildirmişdi ki, doğrudur, Azərbaycan Rusiyanın tərkibinə daxil olub, amma bu addım könüllü atılmayıb. Odur ki, tarixi həqiqəti demək lazımdır.

1990-cı illərdə Ziya Bünyadov Bakının Azadlıq meydanında nitq söyləyən, Ermənistanın Azərbaycana hərəkətlərinə qarşı çıxan və ermənilərin iddialarına etiraz edən, bu sahədə ən çox söz söyləyən insanlardan biri idi. Ziya Bünyadov öz çıxışlarında dəfələrlə erməni tarixçilərin iddialarına cavab vermişdir.

1992-ci ildə Ziya Bünyadov Heydər Əliyevin Azərbaycanda hakimiyyət uğrunda açıq və fəal mübarizəyə səsləyən, onun hakimiyyətə qayıdışı üçün müraciətə imza atmış 91 nəfər tanınmış ziyalıdan biri idi. 1992-ci ildə Bünyadov Yeni Azərbaycan Partiyası sədrinin müavini seçilmişdir. 1995-ci ildə Milli Məclisin deputatı, eyni zamanda beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr daimi komissiyasının üzvü seçilmişdir.

**Həyatının son illəri və xatirələr:** Ziya Bünyadov sözünü deyən bir şəxsiyyət olmuşdur, bu səbəbdən də onu gözü götürməyənlər də vardı. 1997-ci ildə Ziya Bünyadov evinin qarşısında bir qrup tərəfindən vəhşicəsinə qətlə yetirilmişdir. Onunla vidalaşma mərasimi keçirilmiş və burada Heydər Əliyev nitq söyləmişdir. Daha sonra Ziya Bünyadov Fəxri Xiyabanda dəfn olunmuşdur. 2011-ci ilin dekabrnda akademik Ziya Bünyadovun 90 illik yubiliyenin keçirilməsi ilə bağlı sərəncam qəbul edilmiş və tədbir keçirilmişdir.

M.F.Axundzadə adına Azərbaycan Milli Kitabxanasında elm xadimi Ziya Bünyadovun anadan olmasının 95 illiyi münasibət ilə "Ziya Bünyadov-95" adlı kitab sərgisi açılmışdı. 2023-cü 21 dekabr Ziya Bünyadovun 100 illiyi tamam oldu. Bu münasibət ilə 20-21 dekabr AMEA'nın Z.Bünyadov adına Şərüşünaslıq İnstitunun təşkilatçılığı ilə Ziya Bünyadovun 100 illiyinə həsr olunmuş "Qədim və müasir Şərq: mənbələr, tədqiqatlar, perspektivlər" mövzusunda beynəlxalq elmi konfrans keçirildi.

**Nəticə**

Ziya Bünyadov Azərbaycan tarixi səhifələrinin işıqlandırmasında mühüm rol oynamışdır. Onun həm hərb illəri həm elmi fəaliyyəti həm də ictimai-siyasi fəaliyyəti yüksək səviyyədə olmuşdur. Z.Bünyadov ömrünün sonuna qədər Azərbaycanda hakimiyyət uğrunda açıq və fəal mübarizə aparmışdır. Bu gündə o, Azərbaycan üçün vacib şəxsiyyətlərdən biridir.




**ƏDƏBİYYAT:**

1. Azərbaycan Milli Ensiklopediyası, Bakı 2007
2. "Azərbaycan müəllimi", 2012, I-II rüb
3. "Azərbaycan" qəzeti, 2011, IV rüb
4. "Mədəniyyət" qəzeti, 2016 IV rüb
5. Solmaz Rüstəmova "Ziya Bünyadov-Böyük Ziyalı."

# Azərbaycanda natiqlik sənəti

**Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyası**
**Quliyeva Sunay**

**Xülasə**

Azərbaycanda da natiqlik sənətinin yaranması tarixi qədimdir. Bu sənət xalqın ədəbi-estetik fikrilə bağlı qədim və orta əsrlərdə yazıçı və şairlərin şərh, risalə, təzkirə, bədii əsərlərində yaranmış, təşəkkül tapmışdır. Bu mənbələrdə sözün qüdrətilə bağlı dəyərli fikirlər söylənilib.

Azərbaycan şifahi xalq ədəbiyyatında söz, gözəl danışmaq qabiliyyəti bəşəriyyətin təməl daşı kimi qiymətləndirilib, xilqətin əzəlinin söz olduğu təlqin edilib. Ulu əcdadlarımız sözün real gücünü, təbii qüdrətini həmişə yüksək dəyərləndirmişlər.

***Açar söz:*** Azərbaycanda natiqlik, inkişaf, şairlərin şərhləri

**Abstract**

The history of the art of public speaking in Azerbaijan is ancient. This art was created and formed in the commentaries, treatises, commentaries, artistic works of writers and poets in the ancient and middle ages related to the literary-aesthetic thought of the people. Valuable ideas about the power of words have been expressed in these sources.

In the oral folk literature of Azerbaijan, speech and the ability to speak beautifully are valued as the cornerstone of humanity, and it is suggested that speech is the root of creation. Our great ancestors always appreciated the real power and natural power of words.

***Keywords:*** Oratory, development, comments of poets in Azerbaijan

**Аннотация**

История искусства ораторского искусства в Азербайджане древняя. Это искусство создавалось и формировалось в комментариях, трактатах, комментариях, художественных произведениях писателей и поэтов античности и средневековья, связанных с литературно-эстетической мыслью народа. В этих источниках выражены ценные идеи о силе слов.

В устной народной литературе Азербайджана речь и умение красиво говорить ценятся как краеугольный камень человечества, высказывается предположение, что речь является корнем творения. Наши великие предки всегда ценили настоящую силу и природную силу слова.

***Приоткрытые слова:*** Ораторское искусство, развитие, комментарии поэтов Азербайджан

## GİRİŞ

Xalq yaradıcılığının incilərindən olan natiqlik sənəti cəmiyyətdə mühüm yer tutur. Natiqlik sənəti hər bir insanın qabiliyyətini, istedadını üzə çıxarır. Natiqlik sənətinin ən böyük rolu ondan ibarətdir ki, bu sənət vasitəsilə yeni natiqlər və cəmiyyətə xidmət edən təbliğatçılar yetişir. Natiqliyin əsas xüsusiyyətlərindən biri odur ki, bu sənət ilə məşğul olan hər bir adam hansı mövzuda nitq söyləyirsə, həmin elmi dərindən öyrənir və müşahidələr aparır. Bu da fikrin elmi əsaslarla ifadə olunmasına xidmət edir. Millətindən asılı olmayaraq hər bir natiq xalqına yaxından bağlı olur və həqiqətlərin üzə çıxarılmasında, kütləyə çatdırılmasında öz məharətlərindən istifadə edirlər. Bu bir danılmaz faktdır ki, XX əsr Azərbaycanda natiqlik sənəti və onun inkişafı yeni

mərhələyə qədəm qoydu. Bu dövrdə natiqlik sənəti, üslub və üslubiyyat haqqında dəyərli fikirlər, elmi məqalələr, kitablar, dərsliklər yazılıb çap olunmuşdur.

Dünya natiqlik sənəti, onun ən gözəl nümunələri Azərbaycan dilinə çevrilmiş və onlardan layiqincə istifadə olunmuşdur. Məhz, bu illərdə M.İbrahimov, S.Vurğun, Ə.Sultanlı, H.Araslı, Ə.Dəmirçizadə, H.Mirzəzadə, M.Cəlal, M.Quluzadə, A.Qurbanov, Y.Seyidov, A.Axundov, T.Hacıyev və başqa görkəmli dilçilər, söz ustaları, uslub və üslubi prinsiplər haqqında, ədəbi dil, dil tarixi haqqında elmi əsərlər, kitablar, məqalələr yazıb çap etdirmişlər. Natiqlik sənətini hamı bilməlidir (ziyalılar nəzərdə tutulur). Müasir dövrümüzdə xalq kütlələri arasında, idarələrdə, müxtəlif sahələrdə çalışan insanları informasiya ilə təmin etmək üçün cəmiyyətimizə savadlı natiqlər lazımdır. Natiq xalqının həm təbliğatçısı, həm də təşkilatçısı olmalıdır. Ona görə də cəmiyyətimizin qaymağı sayılan müəllimlər, mədəniyyət xadimləri, bilik cəmiyyətlərində fəaliyyət göstərən mühazirəçilər, ağsaqqallar natiqlik sənətinin əsaslarını dərindən öyrənməli və yeri gəldikcə məqsədyönlü şəkildə bundan istifadə etməlidirlər. Bu günümüzün tələblərinə cavab vermək üçün hər bir natiq dərin biliyə və müşahidə qabiliyyətinə malik olmalıdır. Natiq həmçinin dilin incəliklərini dərindən bilməlidir.

Bu gün təhsil ocaqlarımızda minlərlə müəllim natiqlik sənətinin inkişafına xidmət edir. Sual-cavablar, keçirilən ədəbi gecələr, disputlar, elmi mübahisələr natiqlik sənətinin inkişafına, yüksək nitq mədəniyyətinə yiyələnmək üçün geniş imkanlar açır.

Cəmiyyətimiz inkişaf etdikcə informasiya bolluğu yaranır. Televiziya, radio hər gün nə qədər informasiyanı əhatə edir. Dünyada baş verən hadisələrin şərhi, daxili xəbərlər, rəsmi xronika, siyasi icmalçıların təhlili və s. natiqlik sənətinin inkişafına xeyli köməklik göstərir, xalqın dünyagörüşünü zənginləşdirir.

Natiqliyin inkişafına təsir edən amillərdən biri də demokratiyadır. Demokratiya əsasında natiqlik sənəti və nitq mədəniyyətinin təməli qoyulur. Söz azadlığı, obyektiv tənqid natiqliyin kəsərini artırır. İdarələrdə, yığıncaqlarda, təntənəli gecələrdə nitq söyləyən və ya çıxış edən hər bir şəxs qarşısında belə bir məqsəd qoymalıdır ki, söylədiyi nitq cəmiyyətə xidmət etmiş olsun. Əsl natiq nitqini cəlbedici qurmalıdır. Xalq kütləsi, kollektiv arasında natiqin nüfuzunu qaldıran, onu hörmətli edən əsas cəhətlərdən biri nitqin inandırıcı və qərəzsiz olmasıdır. Fikri sübut və faktlarla ifadə etmək üçün natiq tutarlı materiallardan istifadə etməlidir. Natiqlik sənətinin özünəməxsus xüsusiyyətlərindən biri də nitq zamanı gətirilən sitatların fikirlə bağlı olmasıdır. Fikrin dolğun şəkildə dinləyiciyə çatdırılmasında mənbədən gətirilən sitatlar aydın, düzgün və səlis ifadə olunmalıdır.

Hər bir natiqin şəxsi xüsusiyyətləri ilə bərabər fərdi üslubu olmalıdır. Onun yazdığı hər hansı mühazirə, çıxış xidmət etdiyi cəmiyyətlə güclü təmasda olmalıdır. Şairə, yazıçıya, jurnalistə, tənqidçiyə və digər şəxslərə xas olan fərdi üslub natiqlik sənətində mühüm və əsas keyfiyyətdir. Hər bir natiq nitqini qurarkən dildə işlənən sözləri saf-cürük edir, fikrini dolğun, obrazlı ifadə etmək üçün dil vahidlərini düzgün seçib işlədir. Bu xüsusiyyət natiqin səviyyəsini üzə çıxarır. Ona görə də natiq olmaq istəyən hər bir şəxs dilin incəliklərini bilməlidir, ondan düzgün istifadə etməlidir.

Söylənilən fikirlərdən aydın oldu ki, natiqlik sənəti cəmiyyətə xidmət edir. Cəmiyyət isə uzun bir tarixi yol keçmişdir. Bu tarixi yol natiqlik sənətinin müxtəlif növlərinin və şəkillərinin yaranmasına şərait yaratmışdır. Eyni zamanda cəmiyyətin inkişafına və tərəqqisinə xeyli kömək göstərmişdir. Onu da qeyd edək ki, cəmiyyətin inkişafı bir xətt üzrə getmədiyi üçün natiqlik sənətinin də təsnifi, bölgüsü müxtəlif şəkildə təzahür etmişdir. Yəni cəmiyyətin inkişafında bir sahə yüksək səviyyədə, digəri orta, başqa birisi isə durğunluq dövrü keçirərək yaşamışdır. Bu

müxtəliflik şübhəsiz ki, cəmiyyətlə birgə inkişaf edən natiqlik sənətində də özünü göstərməyə bilməzdi. Ona görə natiqlik sənətinin növləri ya tam əhatə olunmamış, ya da bölgülərdə naqislik özünü göstərmişdir. Bu bölgülərin müxtəlifliyinə, tədqiqatçıların fikir ayrılığına baxmayaraq, bu, natiqlik sənətinin müvəffəqiyyəti idi. Artıq bir elm kimi mütəxəssislərin diqqətini cəlb edən natiqlik sənəti elmi mübahisələrin yaranmasına şərait yaratdı və öz varlığını sübut etdi.

Ümumiyyətlə, natiqlik sənətinin bölgüsü haqqında fikir müxtəlifliyinə Azərbaycan tədqiqatçılarının əsərlərində də rast gəlirik. Bizcə, başqa bir alimin tərtib etdiyi sxemi əsas götürən və onu qəbul edən Məmmədəli Əskərovun məqbul hesab etdiyi bölgü daha məqsədəuyğundur. Əsasən, məqbul və dolğun hesab etdiyimiz bu bölgüdə yalnız bir növün adını dəqiqləşdirmək yerinə düşərdi: Bu növün adının ilahiyyatçı natiqlik yox, dini natiqlik adlanmasını daha düzgün hesab edirik. Yerdə qalan növləri və onların müxtəlif qollara ayrılmasını (Məmmədəli müəllim bunları şəkillər kimi ifadə edir) olduğu kimi qəbul edirik. Natiqlik sənətinin növlərini aşağıdakı şəkildə qruplaşdırmaq olar.

**NATİQLİK SƏNƏTİNİN SAHƏLƏRİ**

**İctimai-siyasi natiqlik**

Prezidentlərin inaqurasiya nitqi
Siyasi mövzuda məruzələr
Hər hansı toplantıda hesabat məruzəsi, müzakirədə çıxış,
Siyasi mövzuda çıxış (hər hansı bir ölkədə başqa prezidentin çıxışı),
İcmal nitqi — son söz,
Mitinqlərdəki çıxışlar,
Siyasi təbliğatçıların nitqi. Şüarlar, qanunvericilik layihələri. Parlament mübahisələri
Diplomatik natiqlik
Xarici işlər nazirlərinin çıxışı
Dövlət başçılarının BMT-də çıxışları
Diplomatik mübahisə.
Akademik natiqlik
Ali məktəblərdə mühazirə oxumaq
Elmi məclisdə (konfransda) mühazirə
Elmi mövzularda kütləvi mühazirə
Elmi məlumatvermə (elmi hesabat)
Elmi mövzuda mübahisə
Elmi rəy. Dissertasiya müdafiəsi çıxışı.
Məhkəmə natiqliyi
Prokurorun ittiham nitqi
Vəkilin və ya müdafiəçinin nitqi
Müttəhimin cinayət haqqında çıxışı
ç) Müttəhimin özünümüdafiə nitqi
Şahidlərin dindirilməsi (nitqi)
Hakimin nitqi — ittiham hökmü.
Məişət natiqliyi
Masa arxasında söylənən təbrik nitqi
Matəm mitinqində nitq (ağılar)
Məişət-müraciət etiketləri
Məişət mübahisəsi.

Bədii axşamlardakı nitq
Şair və yazıçı haqqında məruzə — mühazirə-nitq
Şair və yazıçının nitqi.
Səhnə nitqi
Komik aktyorun nitqi
Tragik aktyorun nitqi.
Dini natiqlik
Moüzə və xütbə
Məscid və kilsədə din xadimlərinin nitqi
Surə oxumaq, Quran tapşırmaq, süfrə və ehsan duaları
Axund və mollaların imamların müsibəti haqqında hüznlü çıxışı, mərsiyə, sinəcan.
Hərbi natiqlik
Hərbçiləri-əsgərləri ruhlandırmaq üçün çağırış nitqi
Hərbi and
Hərbi nizamnamənin şərhi
Komandanların və komandirlərin müxtəlif situasiyalarda çıxışları.

## NƏTİCƏ

Azərbaycan natiqlik sənəti uzun bir yol keçərək günümüzə gəlib çatmışdır. Məlumdur ki, dil varsa, ünsiyyət varsa, deməli nitq də var. Lakin nitq hələ natiqlik deyil. Ona görə fikrimizi əsaslandırmaq üçün əlimizdə tutarlı mənbə canlı, emosional yaradıcılıq olan şifahi xalq ədəbiyyatıdır. Şifahi xalq ədəbiyyatının müxtəlif janr xüsusiyyətləri var. Bu növlərdə nitq, natiqlik sənəti haqqında deyilən atalar sözləri, kəlamlar, zərbi-məsəllər diqqətimizi cəlb edir.

Şifahi xalq ədəbiyyatının bütün növlərində söz haqqında, sözün ecazkar qüvvəsi haqqında müəyyən fikirlərə rast gəlirik. Şübhəsiz ki, bu da nitqin təsir qüvvəsini artırır.

Apardığımız tədqiqatın nəticəsini əsas götürərək belə bir qənaətə gəlirik ki, nitq uzun əsrlərin məhsulu olduğu üçün, natiqlik sənəti də birdən-birə yaranmamışdır. Bəzi alimlər bu sənətin yaranmasında tək-tək şəxsiyyətlərin rolunu yüksəldib, natiqliyi onların adı ilə bağlamağa çalışır. Əslində bu sənət var, sadəcə olaraq onu bir çərçivəyə, qəlibə salıb, müstəqil elm kimi təbliğ etmək lazımdır. Dilimizin inkişafına və tərəqqisinə təkan verən silsilə çıxışları ilə onun toxunulmazlığını və qorunmasını tövsiyə edən ümummilli lider Heydər Əliyev dilçilərin və ədəbiyyatçıların qarşısında çox şərəfli vəzifələr qoymuşdur.

Dilimizin necə adlanması ilə bağlı yaranan hərc-mərcliyi, qalmaqalı məhz, ulu öndər həll etdi. Bir qrup alim «Azəri türkcəsi», bir qrupu «Azərbaycan türk dili», bir qrupu isə sadəcə olaraq «türk dili» terminini məqbul hesab edirdilər.

«Azərbaycan dili» türk dilləri ailəsinə məxsusdur. «Türk dili» isə daha geniş mənanı ifadə edir.

İkincisi, «Azərbaycan dili» anlayışı millətin adı ilə bağlıdır. Üçüncüsü, əgər dilimiz «türk dili» adlansa, gələcəkdə «Azərbaycan dili» anlayışı öz-özünə aradan çıxıb, məhdud dairədə işlənəcək.

Bunlardan əlavə, Heydər Əliyevin keçirtdiyi mətbuat konfransları onun natiqliyinin əsas xüsusiyyətlərini nümayiş etdirir. Suallara tutarlı cavab verirdi.

## ƏDƏBİYYAT SİYAHISI


1. **https://kayzen.az/**
2. **https://az.m.wikipedia.org/wiki/Ana_s%C9%99hif%C9%99**
3. **https://www.anl.az/down/meqale/525/2023/iyun/854231.htm**

**Valideyn himayəsindən məhrum olmuş uşaqlarla sosial işin təkmilləşdirilməsi**

**Bakı Biznes Univesiteti**
**Şirinov Novruz**

**Xülasə**

Valideyn himayəsindən məhrum olmuş uşaqlarla sosial iş dedikdə təkcə onların hər hansı müəssisəyə yerləşdirilməsi deyil, həmçinin həmin uşaqların yaşadıqları psixoloji, sosial və digər travmaların aradan qaldırılması həmçinin gələcəkdə yaşaya biləcəkləri travmaların qar-şısının alınması, təhsil almaq imkanlarının yaradılması, səhiyyə problemlərinin aradan qaldı-rılması və s. nəzərdə tutulmalıdır. Bu məqsədlə müasir dövürdə müəssisə tipli sığınacaqlrdan daha çox alternativ qayğıya üstünlük verilməsi gündəmdədir. Bununla bağlı olaraq son dövr-lərdə Azərbaycan Respublikasında da alternativ qayğının bir növ olan himayədar ailə mode-linin yaradılmasına üstünlük verilməkdədir.

**Summary**

Social work with children deprived of parental care is not only their placement in any institution, but also the elimination of psychological, social and other traumas experienced by those children, as well as the prevention of traumas they may experience in the future, educationcreation of opportunities to buy, elimination of health problems, etc. Should be considered. .for this purpose, in the modern era, it is on the agenda to give priority to alternative care rather than institutional shelters. In this regard, the establishment of the foster family model, which is a type of alternative care, has been preferred in the Republic of Azerbaijan in recent times.

**Краткое содержание**

Социальная работа с детьми, лишенными родительской опеки, – это не только их помещение в какое-либо учреждение, но и устранение психологических, социальных и других травм, пережитых этими детьми, а также профилактика травм, которые они могут испытать в будущем, создание возможностей для образования, устранения проблем со здоровьем и т.д. следует считать. С этой целью в современную эпоху на повестке дня стоит отдать предпочтение альтернативному уходу, а не институциональным приютам. В связи с этим в последнее время в Азербайджанской Республике предпочтение отдается созданию модели приемной семьи, которая является разновидностью альтернативного ухода.

**Açar sözlər:** Valideyn himayəsi, uşaqlar, himayədarlar, sosial iş, alternativ qayğı, hima-yədar ailə

Valideynlər kiçik yaşda uşaqların həyatında çox vacib insanlardan biridir. Valideynlərə analar, atalar və valideyn kimi qayğı göstərən digər şəxslər daxildir. Uşaqlar doğulduğu andan valideynlərinə güvənir, onlar ilə bağlılıq qurur və uşaqların sağlam, xoşbəxt və lazım olan qayğının göstərilməsi üçün ailə mühitinin olması önəmli məsələlərdən biridir.

"Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların, habelə onların arasından 23 yaşınadək olan şəxslərin sosial müdafiəsi üzrə dövlət təminatının məzmununu, tədbirlərini müəyyən edir, həmin təminatın verilməsi və həyata keçirilməsi ilə əlaqədar yara-nan münasibətləri tənzimləyir." [2]

Uşaqlar bəzən ilk müdafiə xətti hesab edilən ailələrini itirirlər. Ayrılıq səbəbləri arasında köçkünlük, ailələrin yoxsulluq, əlillik, məişət zorakılığı, sui-istifadə və ya laqeydlik, narko-maniya, məhkumluq və ya digər maddələrdən sui-istifadə formaları və ya valideynlərin ölümü səbəbindən

uşaqlara baxa bilməməsi daxil ola bilər. Uzun müddətli müəssisələrdə yerləşdiri-lən uşaqlar koqnitiv, sosial və emosional inkişafın pozulması riski altındadırlar (xüsusilə üç yaşından aşağı olanlar üçün).

Valideyn himayəsindən məhrum olmuş uşaqlarla sosial işin təşkili təkcə Azərbaycanda de-yil bütün dünyada aktual məsələlərdən biridir. Çünkü uşaq yaşlarından onlar üçün önəmli he-sab edilən ailə mühitindən məhrum olma onlarda ciddi geriləmələrə və travmalara səbəb olur. Buda uşaqların gələcək həyatlarının qurulmasında, ətrafında olan digər insanlarla münasibət qurmasında həmçinin bağlılıq qurmaqda çətinlik çəkməkdədirlər. Həmçinin qeyd etmək la-zımdır ki valideyn himayəsindən məhrum olmuş uşaqlar üçün yaradılmış müəssələrdə yerləş-dirilmiş uşaqlar ətrafda yaşayan insanlar tərəfindən də bəzən bulinqənəruz qalırlar. Buda öz növbəsində həmin uşaqların növbəti travma almasına və sosiallaşma problemlərinin yaran-masına gətirib çıxarır.

Valideyn himayəsindən məhrum olma hansı yaş dövrdə yaranmasından asılı olmayaraq hər bir uşağın həyatında uzun müddətli nəticələrə malikdir. Valideyn himayəsindən məhrum olmuş uşaqlara qısa müddətdə düzgün müdaxilə edilməzsəbağlılıq pozuntuları, ciddi koqnitiv, emosional və inkişaf problemləri ilə üzləşməkdədirlər. Həmçinin qeyd etmək lazımdır ki, mü-səssisələrdə yerləşdirilmiş valideyn himayəsindən məhrum olmuş uşaqlar ciddi sosial prob-lemləri olan ailələrdə böyüyən uşaqlardanda daha çox travmalar və problemlər ilə qarşılaş-maqdadırlar.

Hər bir uşağın dəstəkləyici və qayğıkeş ailə mühitindən yaşamaq hüququ vardır. Ailədə qayğının əhəmiyyəti ilə bağlı artan sübutlara baxmayaraq, hələdə dünyada milyonlarla uşaq valideyn himayəsindən məhrum, ailələrindən ayrılmış və ya müəssisələrdə yerləşdirilmək-dədir.

Uşağın ailədən ayrılması və müəssisədə yerləşdirilməsi ağırdır və uşağın həyatındakı təsiri ömür boyu davam edə bilər. Müəssisələrdə yerləşdirilmiş uşaqlar sosial, emosional və intelek-tual stimuldan məhrumdurlar. Buda uşağın inkişafına öz mənfi təsirlərini göstərməkdədir. Əsas cəmiyyətdən uzaq olan bu uşaqlar zorakılığa, laqeydliyə həssasdırlar. Əlillik və mil-liyyət, etnik mənsubiyyət, gender, cinsi oriyentasiya və ya immiqrasiya statusu da daxil ol-maqla digər amillərə əsaslanan ayrı-seçkilik uşaqların valideyn/ailə himayəsindən məhrum olmasının səbəblərindən yalnız bəziləridir.[4]

Uşaqlar bəzən ilk müdafiə xəttini – ailələrini itirirlər. Ayrılıq səbəbləri arasında köçkün-lük, ailələrin yoxsulluq, əlillik, məişət zorakılığı, sui-istifadə və ya laqeydlik, narkomaniya və ya digər maddələrdən sui-istifadə formaları və ya valideynlərin ölümü səbəbindən uşaqlara baxa bilməməsi daxil ola bilər. Uzun müddətli rezidenturaya yerləşdirilən uşaqlar koqnitiv, sosial və emosional inkişafın pozulması riski altındadırlar (xüsusilə üç yaşından aşağı olanlar üçün).[1]

Faktlar göstərir ki, alternativ qayğının keyfiyyəti uşağın rifahı üçün çox vacib amillərdən biridir. Bu məqsədlə alternativ qayğı modellərinin tətbiq edilməsi üçün cəmiyyətdə mariflən-dirmə içşğğşlərinin həyata keçiriməsinə ehtiyac vardır

Hər bir uşağın zorakılıqdan, istismardan sui-istifadədən və laqeydlikdən qorunmasını təmin etmək Azərbaycan Respublikası və UNICEF üçün prioritet məsələdir, o cümlədən valideyin himayəsindən məhrum olma hallarının qarşısının alınması sistemini gücləndirməklə, erkən aşkarlama və müdaxilə tədbirləri və əlaqələndirilmiş vaxtında cavab mexanizmləri hazırlanmaqdadır.

"UNICEF 2009-cu ildə BMT Baş Assambleyası tərəfindən qəbul edilmiş Uşaqlara Alterna-tiv Qayğı Təlimatlarını təsdiq edir . Təlimatlar, mümkün olduğu qədər, uşaqları ailələri ilə saxlamaq üçün səyləri təşviq etməyə üstünlük verilməsini təklif edir. Bu, uşağın ən yaxşı mə-nafeyinə uyğun gəlmədikdə, dövlət uşağın hüquqlarının qorunmasına və müvafiq alternativ qayğının təmin edilməsinə cavabdehdir: qohumluq qayğısı, himayədarlıq, ailə əsaslı və ya ailə tipli qayğının digər formaları, nəzarət altında olan müstəqil qayğı. yaşayış şəraiti. Qeyri-ailə qayğısına müraciət yalnız zəruri hallarda və uşağın rifahının yüksəldilməsi üçün uyğun forma-larda, mümkün olduqda, uşağı

öz ailəsinə qovuşdurmaq da daxil olmaqla, sabit və təhlükəsiz uzunmüddətli reaksiya tapmaq məqsədi ilə həyata keçirilməlidir."

Azərbaycan Respublikasında da son dövrlərdə uşaqların valideyn himayəsindən məhrum olmasının qarşısını alınması məqsədi ilə bir sıra addımlar atılmaqdadır. Bunla əlaqəli olaraq günərzi qayğı mərkəzlərinin yaradılması və inkişaf etdirilməsi ilə bağlı tədbirlər görülmək-dədir. Bu sayədə aztəminatlı ailələrin işlə məşğul olması və bu zaman uşaqların təhlükəsiz-liyinin və inkişafının təmin olunmaqdadır. Günərzi qayğı müəssisələrinin əsas məqsədi vali-deynlər işdə olan zaman uşaqlar həmin müəssisəyə yerləşdirilməsi, valideynlərin evə gəldik-ləri zaman isə uşaqlar ilə birlikdə zaman keçirmələrini təmin edilməsi nəzərdə tutulmuşdur.

Valideyn himayəsindən məhrum olmuş və artıq müəssisəyə yerləşdirilmiş uşaqların sosial rifahını yaxşılaşdırılması məqsədilə isə alternativ qayğı modellərinə üstünlük verilməsi nəzər-də tutulmalıdır. Bunu bir növü himayədar ailə modelidir.

"Ümumilikdə "Himayədar ailə" qayğı modeli valideynlərini itirmiş və ya valideyn himayə-sindən məhrum olmuş uşaqların müqavilə əsasında müvəqqəti ailə yanında yerləşdirilməsini nəzərdə tutan alternativ uşaq qayğı modelidir. "Himayədar ailə" qayğı modelində himayədar ailələr müqavilə əsasında onların yanına yerləşdirilmiş uşaqların qidalanması, təhsili, sağlam-lığı, fiziki və əqli inkişafının qeydinə qalır, onların ailə mühitində böyüməsinə şərait yara-dır və buna görə dövlət tərəfindən müəyyənləşdirilən stimullaşdırıcı dəstək mexanizmlərindən istifadə edirlər."[3]

Övladlığagötürmədən fərqli olaraq "Himayədar ailə" qayğı modelində uşaq ailə yanında müvəqqəti yerləşdirilir, uşaqla himayədar valideynlər arasında valideynlik münasibətləri ya-ranmır və uşaq ailənin varisi sayılmır. Himayədar alinənin yaradılmasında əsas məqsəd ondan ibarədir ki Uşaqların xoşbəxt və qayğısız gələcəyi üçün onların qayğı, müdafiə, sevgi olan bir ailədə böyüməsidir . Diqqət edilməli olan məsələlərdən biridə himayədar ailələri düzgün qiy-mətləndirib uşağın mənafeyi baxmından daha uğurlu himayədar valideynlərin seçilməsidir.

**Ədəbiyyat**

1. Because We Care: Programming Guidance for Children Deprived of Parental Care
2. E-qanun
3. https://sxa.gov.az/fealiyyet/himayedar-aile?hl=az
4. https://www.unicef.org/greece/en/children-lacking-parental-care

**XXI əsrin vəbası: oniomaniya və onun həlli**

**Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyası**
**Nəsirova Leyla**

**Açar sözlər: onimoniya, geyim aslılığı,** Kompulsiv Satın Alma Pozğunluğu, Oniomaniya İmpuls İdarəetmə Pozuklukları

Qlobalaşan dünyamızda bir çox problemlərlə rastlaşırıq, bunların başında narkomaniya, spirtli içki aludəçiliyi, sosial şəbəkə aslılığı və digər həlli çətin olan problemlər gəlir. Digər bir həlli çətin olan və son zamanların ən böyük aslılığına çevrilmiş **Oniomaniya və ya geyim aslılığıdır.** Bəs onomaniya nədir?

**Onimoniya və ya geyim aslılığı** məcburi alış-veriş və ya ehtiyac və istifadə etmədən pul xərcləmək və satın almaq üçün idarəolunmaz bir impulsdur.

**Onimoniya** əslində bir xəstəlikdir. Kompulsiv Satın Alma Pozğunluğu (CBD) və ya Oniomaniya İmpuls İdarəetmə Pozuklukları (DSM-IV-TR) daxilində qalıq sinifinə aiddir.[1, 1285]

Tarixi: Bu xəstəlik 20-ci əsrin əvvəllərində müəyyən edildi, lakin yalnız 90-cı illərdə elm adamlarının ciddi diqqətini çəkdi. Daha dəqid desək, Kraepelinilk dəfə oniomaniyanı əsasən qadınlarda rast gəlinən və impulsivliyin əsas amil olduğu "patoloji impuls" kimi təklif etdi. 1989-cu ildə Faber və O'Guinn CBD-nin xroniki və təkrarlanan xarakterini təsvir etdilər və 1994-cü ildə McElroy aşağıdakı diaqnostik meyarları təklif etdi:

1.Alışlarla bağlı tez-tez müdaxilə edən narahatlıq və ya birdən çox şey almaq və ya almaq üçün qarşısıalınmaz istək, lazımsız əşyalar almaq və ya uzun müddət satın almaq.

2.Müdaxilə edən narahatlıq və təkrarlanan davranış və ya sosial və peşə fəaliyyətinə müdaxilə və ya davranış nəticəsində yaranan maliyyə problemləri ilə əlaqədar narahatlıq.

3.Yalnız hipomaniya və ya manik epizodlar zamanı baş verən kompulsiv satınalma diaqnozdan çıxarılır. [1,1300].

Onomiyanın təsnifləşdirilməsi: Bütün alış-veriş həvəskarları bir-birinə bənzəyirlər və eyni xüsusiyyətlərə malikdirlər. Lakin ekspertlər etdikləri satınalmalardan asılı olaraq bir neçə növ alış veriş aslılığı olan insanları ayırırlar:

**İmpulsiv.** Xəstə heç bir probleminin olduğuna inanmır. Tez-tez mağazalara alınması lazım olan malların siyahısı ilə gəlir. Amma müxtəlif məhsullarla dolu piştaxtalara baxanda nə üçün gəldiyini rahatca unudur. Endirimdən bəhs etmək, lazımsız alış-veriş etmək üçün alış-verişə tələsmək üçün kifayətdir.

**Qəsdən.** İnsan alış-verişə aludə olduğunu başa düşür. Anlayır ki, özünü narahat hiss edəndə ilk işi mağazaya getməkdir. Alış-veriş bir növ istirahət üsuludur və problemləri bir müddət unutmaq üsuludur.

**Məqsədli.** Ən problemli variant. İnsan öz asılılığını qəbul etməkdən imtina edir. Mağazaları ziyarət etməyin sizin emosional vəziyyətinizlə heç bir əlaqəsi yoxdur. Çox vaxt xəstə malları elə alır ki, sonradan nəyi və niyə aldığını belə xatırlaya bilmir.

**Surətçi.** Alış-verişin bu növü çox spesifikdir. Xəstə sevdikləri, məşhurla və ya reklam çarxında gördüyü əşyanı istənilən yolla əldə etməyə çalışır.

**Saxlanılır.** Alış-verişin gizli, maskalanmış bir növü. İnsan özünü qənaətcil və qənaətcil hesab edir, xərclərini minimuma endirməyə çalışır. Ancaq satışla bağlı məlumat alan o, mağazaya tələsir və gördüyü hər şeyi alır.

**Fetişist**. Xəstə məhdudiyyətsiz aldığı müəyyən mallara meyllidir. Bu ayaqqabı, aksesuar, zərgərlik ola bilər. Ehtiras obyektindən asılı olmayaraq, bir alış-veriş həvəskarı onu tərəddüd etmədən alır.

Onomiyanın baş vermə səbəbləri hansılar hesab edilir?

Oniomaniyanın inkişafının səbəbləri psixologiya sahəsindədir. Ən çox ehtimal olunanlara aşağıdakılar daxildir:

1. Şəxsi faciə;
2. Diqqətin olmaması;
3. Daim yeni bir adrenalin dalğası almaq ehtiyacı;
4. Görünüşündən narazılıq;
5. Özünə inanmayan;
6. Öz qabiliyyətlərini həyata keçirmək imkanlarının olmaması;
7. Ciddi şəxsiyyətdaxili münaqişə;
8. Təklik.2.

Bəs biz sağlam şəxsi xəstə şəxsdən necə ayra bilərikmi?

Bir çox araşdırmaçıları gəldiyi qənayətə görə, alış-veriş zamanı xəstənin bədənində narkoman və sərxoşlarda baş verənlərə bənzər müəyyən biokimyəvi proseslər baş verir. Pul xərcləmək və əşyalar almaq serotonin səviyyəsinin ("xoşbəxtlik hormonu") artmasına səbəb olur və diqqəti reallıqdan yayındırır. Tədricən, alış-verişdən gələn xoş emosiyalar reflekslər səviyyəsində sabitlənir, bu da zehni asılılığın formalaşmasına səbəb olur.

Oniomaniyanın bəzi əlamətləri xəstəni sağlamdan asanlıqla ayırd etməyə kömək edəcək:

1. Hər hansı bir söhbət yeni alışlar mövzusuna düşür;
2. Ticarət mərkəzinə getməzdən əvvəl xəstənin əhval-ruhiyyəsi nəzərəçarpacaq dərəcədə yaxşılaşır;
3. Stresli vəziyyətə cavab olaraq, xəstə dərhal mağazaya baş çəkməyi düşünür;
4. Boş vaxt görünəndə bir şəxs dərhal mağazaya gedir;
5. Bir şey əldə etmək istəyi gündəlik işləri yerinə yetirmək ehtiyacını üstələyir;
6. Alışın təxirə salınması lazımdırsa, xəstə halı dəyişir və əsəbi olur;
7. Satış haqqında məlumatı olan bukletləri diqqətlə öyrənmək və toplamaq;
8. müntəzəm olaraq onlayn bazarlarda sifariş vermək (həftədə 2-3 dəfə və ya daha çox);
9. Endirimlər haqqında müxtəlif mağazalardan çoxsaylı bildirişlərə abunə olmaq;
10. Alış-verişdən sonra xəstə kəskin utanc hissi yaşayır;
11. Müxtəlif ticarət mərkəzlərində oxşar məhsulların alınması.[2].

Oniomiya daha çox qadınlar arasında rast gəlinir. Bunu dəməyə ABŞ-da aparılmış araşdırmaya əsas verir. ABŞ-da əhaliyə əsaslanan sorğular göstərir ki, böyüklərin 5%-ə qədərində alış-veriş asılılığı ola bilər. Beş milyon amerikalı həddindən artıq pul xərcləyir. Kompulsiv satınalma inkişaf etmiş iqtisadiyyatlarda və internetdə əhəmiyyətli dərəcədə artmışdır. Məşhur Paris univermağından alış-veriş edən 200 qadın üzərində aparılan araşdırma nəticəsində məlum olub ki, 32,5% alış-veriş asılılığı meyarlarına cavab verir. Nəzarət qrupundan yaş, təhsil səviyyəsi və ya peşəkar status baxımından heç bir fərq yox idi. İnternetdə qadın geyimləri satan 1490 müştərinin 17,7%-i alış-veriş aludəçisi olub. 203 tibb tələbəsi olan əhalinin 11%-i alış-veriş aludəçisi idi. [3,847].

Çox təssüf ki, ölkəmizdə və dünyada ilbəil bu xəstəliyə tutulanların sayı durmadan artır. Reklamın bu xəstəyi təsiri nədən ibarətdir?

Reklam bir çox sahələrdə təsirli olduğu kimi geyim bazarının əsas təsir edici qüvvədir. Reklam şəxslərin daha çox almasına təşviq edir. Digər bir fakt isə reklam olunan məhsul şəxsi ehtiyacı olmasada onu almağa can atır. Reklamın digər bir aldadıcı tərəfi endirimdir. Endirim alma istəyini artırır. Məsələn bir alıcı hər hansı bir məhsuldan 1 ədəd almaq istəyir və bu 1 ədəd məhsul onun üçün kifayət edir. Lakin endirim bu məhsuldan 1 neçə ədəd almağa sövq edir.

Bu xəstəlikdən necə yaxa qurtara bilərik? Bu xəstəliyin müalicəsi varmı? Sağalan insanlarda yenidə xəstəliyi tutulma riski varmı?
Müəlicə: Həkim və xəstə arasında söhbət patologiyanı müəyyən etməyə kömək edir. Asılılığın müalicəsinin əsasını koqnitiv davranış terapiyası təşkil edir. Birinci mərhələ səbəbi aşkar etməkdir. Əhəmiyyətli bir məqam: xəstə xəstəlikdən xilas olmaq və davranışını normallaşdırmaq istəməlidir. Onun iradəsinə zidd heç nə etmək mümkün deyil, buna görə də motivasiya söhbəti terapiyada mühüm addımdır. Ancaq bu, yalnız asılılığın inkişafı üçün ilkin şərtlər müəyyən edildikdən sonra həyata keçirilir. Xəstəliyin fonunda bədəndə psixi pozğunluqlar artıq inkişaf edirsə, xəstənin psixo-emosional vəziyyətini normallaşdırmağa kömək edən farmakoterapiya seçilir. Sonra davranış korreksiyası sxemi tərtib edilir; hər bir xəstə üçün üsullar fərdi olaraq seçilir (vəziyyətindən asılı olaraq).
Həkimlə ünsiyyət zamanı səbəblərin aşkar edilməsi, daxili münaqişələrin aradan qaldırılması, özünə nəzarət üsullarının öyrənilməsi, yeni münasibət və məqsədlərin formalaşdırılması prosesi baş verir.\
Qrup dərsləri həmfikir insanların köməyi ilə problemi həll etməyə yönəldilmişdir. Ümumi maraqlar xəstələri birləşdirir, onlara dəstək hiss etmələrinə və tənhalıq hissini dayandırmağa imkan verir.
Bəzən terapiya zamanı başlayan əlaqələr müalicə bitdikdən sonra da davam edir. Xəstəliyin ciddi fəsadlara səbəb ola biləcək ciddi psixi xəstəlik olduğunu başa düşmək vacibdir. Heç bir halda xəstəni köməksiz tərk etməməlisiniz. Psixoterapevtlə keçirilən təlimlər və seanslar xəstəyə öz istəklərini idarə etməyi öyrədəcək. Nəfəs alma üsullarını mənimsəmək impulsiv alış-veriş etmədən stressdən qurtulmağa kömək edəcək.
Bəs biz bu xəstəliyin qarşısın necə ala bilrik? Yaxud bu xəstəlikdən özümüzü necə qoruya bilərik?
Bu xəstəliyin qarşısın alınması üçün bir çox tövsiyələr vermək olar:
1. Mağazaya gedərkən kartdan müəyyən məbləğ çıxarın və yalnız onunla ödəyin. Kredit kartındakı pul sonsuzluq hissi yaradır. Cüzdanınızdan əskinas çıxardığınız zaman başa düşürsünüz ki, siz pulu geri dönməz şəkildə verirsiniz.
2.Əgər şəxsi vəsaitiniz yoxdursa, əşyalar almaq üçün heç vaxt kredit götürməyin. Kredit almaq yalnız qənaət etmək çətin olduğu həyati və ya böyük malları (avtomobil, mebel) almaq lazım olduqda əsaslandırılır.
3. Mağazaya getdiyiniz zaman alış-veriş siyahısı hazırlayın. Eyni zamanda, kartdan nə qədər pul çıxarmaq lazım olduğunu hesablaya bilərsiniz. Bu, büdcəniz daxilində qalmağa və onu aşmamağa imkan verəcək.
4. Alış-verişə getməyi düşünürsünüzsə, bu barədə düşünmək üçün özünüzə vaxt verin. Çox vaxt bir insan soyuduqdan sonra satın almaqdan imtina edir və vəziyyəti obyektiv qiymətləndirə bilir.
5. Moda çaplarına və reklamlarına məhəl qoymayın. Onlayn mağazaların reklamını dayandırmayın. Bu, asılılığı inkişaf etdirməyin ən asan və əlçatan yoludur.
Hər bir xəstəliyin müəlicəsi insanın özündən aslıdır. Ilk olaraq insan özünə inamlıdır.

Yekun olaraq bu nəticəyə gəlmək olar ki,bu aslılıq və ya xəstəliyin qarşısın almaq üçün müxtəlif proqramlar işlənib hazırlanmalıdır.

## XÜLASƏ

Məqələdə bildirilir ki, son illərdə bu aslılığa yolxanların sayı kifayət qədər artmışdır. Onimaniyanı qarşısın alınması üçün ən vacib tədbir profilaktikadır. Bu məqalədə onimaniyan səbəbləri, onların həll yolları və ondan qorunma yolları təhlil edilmişdir.

**Ədəbiyyat**

1.Eglacy C. Sophia , Monica L. Zilberman , in Woman and Heath (Second edition), 2013 page 1305
2. https://rehabfamily.com/articles/oniomaniya-shopogolizm/
3. Michel Lejoyeux, Aviv Weinstein, in Principles of Addiction, 2013 page 847

**Riyaziyyatin ekologiyaya tətbiqi**

**Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyası**
**Əliyeva Fatimə**

**Xülasə**

Məqalə həyatımızda önəmli yer tutan riyaziyyat ekologiyaya tətbiqindən bəhs edir. Riyaziyyatın müxtəlif mövzularda özünə yer tapması və qavranması, müxtəlif yol və formalarda müəyyən edilməsi onun fərqli mənalar daşımasına səbəb olur . Riyaziyyatı həyatda baş verən konkret təcrübələr vasitəsilə dərk etmək bəşəriyyət tarixinin riyaziyyata verdiyi dəyəri və əhəmiyyəti artırır. Riyaziyyat təhsili insanlara gündəlik həyatda lazımlı olan hesablama bacarıqları ilə yanaşı, analiz, sintez və qiymətləndirmə kimi yuxarı səviyyəli idraki bacarıqlar da verir. Burada riyazi modellər, hesablamaların rolu böyükdür.

**Açar sözlər :** Riyazi model, ekologiya, riyazi hesablamalar.

**Summary**

The article talks about the application of mathematics to ecology, which plays an important role in our lives. The fact that mathematics finds its place in different subjects and is perceived, defined in different ways and forms, causes it to have different meanings. Understanding mathematics through concrete experiences in life increases the value and importance given to mathematics by human history. Mathematics education equips people with computational skills needed in everyday life, as well as higher-order cognitive skills such as analysis, synthesis, and evaluation. Mathematical models and calculations play a big role here.

**Keywords**: Mathematical model, ecology, mathematical calculations.

**Резюме**

В статье говорится о применении математики к экологии, которая играет важную роль в нашей жизни. Тот факт, что математика находит свое место в разных предметах и воспринимается, определяется по-разному и в разных формах, приводит к тому, что она имеет разные значения. Понимание математики через конкретный жизненный опыт увеличивает ценность и важность, которую история человечества придает математике. Математическое образование дает людям вычислительные навыки, необходимые в повседневной жизни, а также когнитивные навыки более высокого порядка, такие как анализ, синтез и оценка. Большую роль здесь играют математические модели и расчеты.

**Ключевые слова**: Математическая модель, экология, математические расчеты.

Hamıya məlumdur ki, XXI əsr texnologiyanın sürətlə inkişaf etdiyi bir əsrdir. Biz, əhalinin sosial rifahının inkişafının əsas istiqaməti kimi cəmiyyətin zamanla ayaqlaşaraq inkişaf etdiyi bir informasiya cəmiyyətində yaşayırıq.Riyazi hesablamaların tətbiqini hər yerdə görmək mümkündür – idarə etdiyiniz avtomobildə, kompüterdə və ya başqa portativ cihazlarda. Bu da bir həqiqətdir ki, tibb və səhiyyənin bir çox sahələri də müasir riyazi üsulların tətbiqi sayəsində inkişaf etməkdədir. Məsələn, tibbi cihazların hazırlanmasında, müəyyən bir müalicənin effektivliyinə dair məlumatların təhlilində riyazi statistikadan geniş istifadə olunur. Birləşmiş Millətlər Təşkilatının Təhsil, Elm və Mədəniyyət sahələri üzrə qurumu olan UNESKO, Riyaziyyatın cəmiyyət həyatındakı rolunu və üzv ölkələrin müraciətlərini nəzərə alıb, 2019-cu il sentyabrın 3-də, hər ilin 14 mart tarixinin Beynəlxalq Riyaziyyat Günü kimi qeyd olunması haqqında qərar qəbul etmişdir.Riyazi üsulların tətbiqi bir çox bilik sahələrini modelləşdirməyə və bu modelləri riyazi üsullarla araşdırmağa imkan yaradır. Riyazi üsulların tətbiqi

sayəsində hadisələri qiymətləndirmək, proqnozlar vermək, baş verən proseslər haqqında daha anlaşılan və daha dəqiq nəticələr əldə etmək mümkündür.Əksər insanlar ekologiya dedikdə riyaziyyatı düşünmürlər. Buna baxmayaraq, riyaziyyat ekologiyasının uzun və uzun bir tarixi var, riyaziyyat təbiətin çox mürəkkəb ekoloji sistemlərini öyrənmək üçün sadələşdirilmiş çərçivənin inkişafında böyük rol oynayır. Ekoloqlar çox vaxt populyasiyaların, icmaların və ekosistemlərin məkan və zamanda necə dəyişməsi ilə maraqlanırlar; xoşbəxtlikdən, dinamik sistemlər nəzəriyyəsi kimi tanınan dinamika ilə məşğul olmaq üçün xüsusi olaraq hazırlanmış riyaziyyatın bir qolu mövcuddur. Riyaziyyat bu gün ekologiyanın inkişafında əhəmiyyətli və şübhəsiz ki, artan rol oynamağa davam edir. Bu məqalədə riyazi ekologiya olan geniş tədqiqat sahəsini təqdim edən əsas məqalələr və kitablar müəyyən edilmişdir.

Ekologiyada riyaziyyatın ilk böyük istifadəsi 1900-cü illərin əvvəllərində baş verdi. Bu ilk işdən tək növ logistik böyümə tənliyi və növ qarşılıqlı əlaqə modelləri ortaya çıxdı. Alfred Lotka (Lotka 1925) və Vito Volterranın (Volterra 1926) əsas modelləri rəqabət və yırtıcılıq üçün əsas ekoloji modellər yaratdı - indi LotkaVolterra modelləri olaraq adlandırılır - bu gün ekologiyanın əsasını təşkil etdi. Hastings 1997 populyasiya biologiyasına dair giriş kitabında bu modelləri və oxşar modelləri konseptual şəkildə təqdim edir, Kingsland 1995 isə riyaziyyatın roluna xüsusi diqqət yetirməklə əhali ekologiyasının tarixinin cəlbedici və hərtərəfli təsviridir. Nəhayət, təkamül və ekoloji modellərin arxasında duran əsas riyazi alətlərə yönəlmiş gözəl bir giriş kitabı (Otto və Day 2007)-dır. 20-ci əsrin ortalarında Robert MacArthur və həmkarları icma və davranış xüsusiyyətlərini inkişaf etdirmək üçün əsas riyazi modellərdən istifadə edərək riyaziyyatdan istifadəni gücləndirdilər. ekologiya (məsələn, MacArthur və Pianka 1966). MacArthur ekoloji icmaların strukturunun müəyyən edilməsində rəqabətin rolunu müdafiə etmək üçün konseptual bacarıqlarından istifadə etdi. Bu iş ada biocoğrafiya nəzəriyyəsinə (MacArthur və Wilson 1967) gətirib çıxardı, klassik nəzəriyyə, müxtəlif ərazilərdə və materik ekosistemlərindən məsafədə olan adalardakı müxtəliflik nümunələrini hesaba alır. MakArturun nəzəri ekologiyanın təməl daşı olan əsas töhfələrindən qısa müddət sonra 1970-ci illərdə bir sıra fiziklər ekologiyaya daxil oldular və onların riyazi alətlərdən istifadəsi ekologiyada dinamik sistemlər nəzəriyyəsində kəskin artıma səbəb oldu. Təcrübəli fizik Robert Mey xaotik dinamikanın hətta sadə modellərdən də meydana gəldiyini ilk qəbul edənlərdən biri oldu (May 1973), o və başqaları əsas iki növ modelləri bir çox qarşılıqlı əlaqədə olan növlərin riyazi sistemlərinə genişləndirdilər (May 1973). Bu gün də riyazi nəzəriyyənin güclü rolu qalmaqdadır. Levin və b. 1997 hesablama qabiliyyətinin artması və miqyasın təsirini anlamaq ehtiyacının ekoloqlar tərəfindən həllini gözləyən bir sıra müasir dövrün riyazi problemlərinin yaranmasına səbəb olduğunu qeyd edir.

Riyazi üsullar ekologiyada uzun və zəngin tarixə malikdir, tez-tez fərziyyələri yoxlamaq, yeni proqnozlar yaratmaq və əsas ekoloji mexanizmləri araşdırmaq üçün virtual laboratoriya kimi xidmət edir. Bu yaxınlarda, yeni simulyasiya üsulları, hesablama gücündə irəliləyişlər və statistik modellərin həyata keçirilməsi üçün ədədi üsullar empirik və nəzəri ekologiyanı inteqrasiya etmək qabiliyyətimizi əhəmiyyətli dərəcədə inkişaf etdirdi. Bununla belə, riyazi və empirik tədqiqatlar, onların oxucu kütləsi və daha geniş ədəbiyyata inteqrasiyası arasında hələ də fərq qalmaqdadır. Riyazi ekologiyadan əldə edilən anlayışlar istifadə olunan üsullardan daha ümumi olduğundan, riyazi irəliləyişlərin geniş ekoloqlar spektrinə çatdırılmasında məhdudiyyətlər, şübhəsiz ki, ekologiyanın tərəqqisinə, xüsusən də nəzəri proqnozların empirik təcrübələr və məlumatlarla qarşı-qarşıya qalmasına mane olur. Burada biz geniş ekoloqlar qrupu üçün riyazi ekologiyanın əlçatanlığını artırmaq məqsədi ilə həm riyazi ekologiyanın müəllifləri, həm də oxucuları üçün bələdçi təqdim edirik. Biz riyazi ekologiyanı həm yazarkən, həm də oxuyarkən ən yaxşı təcrübələrin siyahısını Ekosferin bu Xüsusi Xüsusiyyətindən

nümunələr daxil etməklə təqdim edirik. Bu təlimat riyaziyyatın effektiv ünsiyyətinə xüsusi diqqət yetirərək, elmin yazılması üçün mövcud təlimatları tamamlayır.

Ekologiya və onun müxtəlif alt sahələri riyaziyyat və empirizm arasında nəzəriyyə, statistika və daha yaxınlarda kompüter elmləri və maşın öyrənməsinin inteqrasiyası ilə sıx uzun tarixə malikdir. 1900-cü illərin əvvəllərinə aid təməl riyazi nəzəriyyələr ekoloji tədqiqatların həm tarixi yolunun, həm də cari fokusunun formalaşmasında mühüm rol oynamışdır, məsələn, işğal və diapazonun genişlənməsi (Skellam 1951, Hastings et al. 2005), populyasiya dinamikası və növlərin qarşılıqlı əlaqəsi ( Lotka 1925, Volterra 1926, Riker 1954, May 2001) və xəstəliyin yayılması (Ross 1911, Kermack və McKendrik 1927, Keeling and Rohani 2008). Bundan əlavə, ekoloji tətbiqlər müasir tətbiqi statistikanın inkişafı üçün mərkəzi yer tutur (Efron 1998, Hald 1998). Bu yaxınlarda, yeni hesablama texnikaları, artan hesablama gücü və “böyük məlumatların” yüksəlişi ilə riyazi ekologiyanın yeni sahələri meydana çıxdı (Cədvəl 1). Bunlara kompleks sistemlər elmi (Dunne et al. 2002, Grimm et al. 2005), Bayesian modelləşdirmənin tətbiqi (Hobbs and Hooten 2015, Weiss-Lehman et al. 2017) və maşın öyrənmə yanaşmaları (Peters et al. 2014, Martin et al. 2018)—elementləri həm də hesablama ekologiyasının inkişaf etməkdə olan sahəsinin komponentləridir (Poisot et al. 2019). Bu siyahıda nəzərdə tutulduğu kimi, nəzəri və sistemə xas modelləri, eləcə də statistik və hesablama vasitələrini, xüsusən də ekologiyanın hələ standart alətləri olmayanları əhatə etdiyini nəzərə alaraq, riyazi ekologiyanı nəyin təşkil etdiyinə geniş nəzər salırıq. Beləliklə, geniş şəkildə müəyyən edilən riyazi ekologiya nəzəri və metodoloji inkişafları ekoloji tətbiqlərə birləşdirərək sahəmizi irəliləməyə davam edir (Elith et al. 2011) və bizim fərziyyələri sınaqdan keçirə, yeni proqnozlar yarada və müşahidə edilən nümunələri dəstəkləyən mexanizmləri araşdıra biləcəyimiz virtual laboratoriyanı təmsil edir. (Petrovskii 2018).

Praktikada isə, riyazi cəhətdən mürəkkəb sənədlərin həmfikir alimlər tərəfindən ən çox oxunduğu və empiriklərə daha az tez-tez çatdığı yerlərdə bölünmə baş verir (Fawcett and Higginson 2012a, Kane 2012). Bir çox məqalələr, xüsusən də yeni və ya yeni ekologiyaya aid olan riyazi və hesablama üsullarını təqdim edənlər üçün riyazi məzmun əlyazmanın ürəyində mərkəzi yer tutur və buna görə də sahəyə təsirini artırmaq üçün effektiv şəkildə çatdırılmalıdır. Riyazi ekologiyadan əldə edilən fikirlər çox vaxt fərdi tədqiqatın kontekstindən daha ümumi olduğundan, riyazi nailiyyətlərin geniş ekoloqlar üçün əlçatan üsullarla çatdırılmasında məhdudiyyətlər, şübhəsiz ki, ekologiyada irəliləyişə, xüsusən də nəzəri proqnozların verilənlərlə qarşı-qarşıya qalmasına mane olur. Şəkil 1). Bu Xüsusi Xüsusiyyətdə, daxil edilmiş əlyazmalar müxtəlif alt sahələr üzrə riyazi ekologiyanın mövcud vəziyyətini, onun empirik sistemlərə ümumiliyini və riyazi modelləşdirmənin empirik perspektivlərlə inteqrasiyasını vurğulayır. Burada biz, öz işimizdə empirizm, nəzəriyyə və statistik/hesablama yanaşmalarının müxtəlif kombinasiyalarından istifadə edən bir qrup müəllif elmi məqalələrdə riyazi ekologiyanın ünsiyyətini necə yaxşılaşdıracağımızı nəzərdən keçiririk. Baxmayaraq ki, bu səy ekologiyada kəmiyyət təliminə dair daha geniş müasir söhbətə (Hobbs and Ogle 2011, Thompson et al. 2013) əsaslansa da, biz elmi məqalələr kontekstində effektiv ünsiyyət üçün strategiyalara diqqət yetiririk və tövsiyələrimizin ekoloqlar üçün uyğun olmasını nəzərdə tuturuq. bir çox karyera mərhələlərində.

$$\frac{dS}{dt} = -\beta_\epsilon SI \quad \frac{dI}{dt} = \beta_\epsilon SI$$

S=Həssas olan papulyasiyanın bir hissəsi;
I=Yoluxmuş papulyasiyanın bir hissəsi;

$\beta_{\epsilon}$ Ətraf mühitin maraq kovariatlarından asılı olan ranavirusun ötürülmə sürətidir;

Elmi yazıya dair bələdçilər həm tələbələr (Bolker 1998, Turbek et al. 2016), həm də tanınmış alimlər (Sand-Jensen 2007, Silvia 2007, Schimel 2012, Heard 2016) üçün çoxdur. Bununla belə, riyazi konstruksiyaların effektiv elmi ünsiyyəti haqqında, xüsusən də nəzərdən keçirilən ədəbiyyatda çox az yazılıb. Riyazi qeyd öz “dili” hesab oluna bilər ki, bu da öz notasiyasını artıq mükəmməl bilənlərə kömək edir, lakin təsadüfən daha geniş ünsiyyət üçün qapıçı kimi xidmət edə bilər. Bir çox ekoloqlar ilk növbədə riyaziyyat və onun kommunikasiyasını (xüsusilə ekologiyaya tətbiq olunduğu kimi) öz-özünə öyrədirlər ki, bu da bələdçiyə olan ehtiyacı nümunə göstərir.

İnformasiya sistemlərinin proqram vasitələri prosedurları yerinə yetirən proqram modullardan ibarət olan mürəkkəb kompleks olduğundan yerinə yetirdiyi **əsas funksiyalar** aşağıdakılardır:

1. Verilənlər bazasının yaradılması;
2. Verilənlər bazasının genişləndirilməsi;
3. İstifadəçi sorğularının emal üçün hazırlanması;
4. Verilənlərin tamlığının və mühafizəsinin təmin edilməsi.

**İnformasiya sistemlərinin fəaliyyətini təmin edən proseslər bunlardır:**

- daxili və ya xarici mənbədən informasiyanın daxil edilməsi;
- informasiyanın kompüterin xarici yaddaşında saxlanılması;
- istifadəçilərin sorğularına uyğun informasiyanın axtarışı;
- daxil olmuş informasiyanın emalı və əlverişli formada təsvir edilməsi;
- informasiyanın istifadəçilərə və digər sistemə çatdırılması üçün xaric edilməsi.

**İnformasiya sistemlərinin tətbiqi aşağıdakılara səbəb olur:**

- riyazi metodlar və intellektual sistemlərin və s. tətbiqi sayəsində idarə məsələlərinin həllində daha da səmərəli nəticələrin alınması;
- işin avtomatlaşdırılması nəticəsində işçilərin hərəkətsiz işdən azad edilməsi;
- informasiyanın dəqiqliyinin təmin edilməsi;

- kağız daşıyıcılarının maqnit disk və lentlərlə əvəz olunması;
- sənəd dövriyyəsinin və informasiya axınının strukturunun təkmilləşməsi;
- məhsul və xidmətlər istehsalına xərclərin azaldılması;
- yeni bazar yerlərinin axtarıb tapılması;

Müasir anlamda XX əsrin ortalarından etibarən informasiya sistemi məlumatın emal olunmasında əsas texniki vasitə kimi kompüterin istifadə olunmasını nəzərdə tutur. Bu sistem kompüterlərlə və telekommunikasiyalarla qarşılıqlı əlaqədə olan insansız təsəvvür edilə bilməz. Kompüterlər idarəetmənin və informasiyanın emalının yeni imkanlarını həyata keçirməklə proqram təminatının gücü və imkanlarını yüksəldərək istehsalın idarə edilməsində bilavasitə iştirak etmiş, iqtisadi tapşırıqların həllinə imkan vermişlər[6, s. 183 - 185].

İnformasiya sistemləri praktiki olaraq fəaliyyətin bütün sferalarında zəruri alətdir. Onun köməyi ilə həll edilən müxtəlif tapşırıqlar informasiya emalı qaydalarına qoyulmuş prinsiplərlə müxtəlif tipli sistemləri meydana çıxarmışdır. Ümumilikdə, informasiya sistemləri - informasiyanın saxlanması və ötürülməsinin təşkili, müəssisənin idarə edilməsi üçün insan əməyinin və verilənlər bazalarının, proqram vasitələrinin, informasiyalaşdırmanın texniki vasitələrindən məqsədyönlü istifadəsinin təminedicisidir.

İKT-nin iqtisadiyyatda tətbiqi yeni iqtisadiyyatın yaranmasına, onun qloballaşmasına, inkişaf amillərinin daha müasir, geniş müstəvini əhatə etməsinə səbəb olmuşdur. Eləcə də, hər bir müəssisə rəhbərinin qarşısında vəsaitlərin istehsalının artırılması və ya informasiya texnologiyalarınınm yaradılması problemi meydana çıxır. Çünki istənilən müəssisə bazarda öz yerini saxlamaq üçün effektiv işləyən informasiya texnologiyalarına malik olmalıdır[4].

İKT-lərin tətbiqi iqtisadi inkişafda ***material faktorlarının roluna*** təsir edir, istehsalın artırılması problemini də həll edir ki, bu da avtomatlaşdırılmış sistemlərdə idarəetmə və istehsalı təşkil etməyə yol açır. İstənilən müəssisədə istehsal prosesinin daha düzgün qurulması bu müəssisənin fəaliyyətinin araşdırılması və təhlilinin nəticələrinə nəzərən aparılır. İKT nəticəsində maliyyə, mühasibat, proqnoz, ehtiyatların bölüşdürülməsi, vəsaitlərin sərfi qısa müddətə, obyektiv və hərtərəfli həll olunur. Ondan istifadə az işçi qüvvəsi ilə ən yaxşı variantın qısa müddətə seçilməsi, məhsul bazarının miqyasının genişlənməsi, məhsul çeşidlərinin müəyyən edilməsi, məhsula bazarda olan tələbatın öyrənilməsi, rəqabətə davamlılıq istiqamətində vaxtında tədbirlərin görülməsi işlərinə şərait yaradır.

İqtisadi inkişafda İKT-nin tətbiqi ***iqtisadi informasiyaları strateji resursa çevirir***, yəni istehlakçının istəyinə uyğun məhsul istehsalını tənzimləyir. Burada əsas materiallar, texnologiyalar, idarəetmələr, rəqiblər, qanunçuluq sferasında dəyişikliklər, alıcı və sifarişçilər massivləri təhlil edilir. Bu göstəricilər müəssisə iqtisadiyyatının inkişafının plan və inkişaf istiqamətlərinin müəyyənləşdirilməsi üçün baza funksiyasını da yerinə yetirir. Çünki, bu məlumatlar müəssisəyə istehsalın təşkili, məhsulun bazara çıxarılması və lazımi keyfiyyətinin təmini, bazar rəqabətinə davamlılığı, əldə olunan gəlirin düzgün bölüşdürülməsi, sifarişçı və istehlakşıların əldə olunması baxımından kömək edir[5, s. 121 - 124].

İKT-nin tətbiqi ***müəssisələr arasında əlaqələrin qurulmasına şərait*** yaradır. Yəni, onlar arasında birbaşa əlaqələr saxlamaq, lazımi məlumatları qısa müddətə və dəqiqliklə əldə etmək imkanı yaradır, informasiya mübadilələri zamanı istifadə olunan informasiya yığımı və onun əldə olunması üçün çəkilən xərclər minimumlaşdırılır, şirkət və müəssisələrə məhsul nümunələri təqdim olunur, sifarişçi və istehlakçı arasında əvvəlcədən razılaşmalar əldə edilərək müqavilələr bağlanılır və sövdələşmələrdə dəyişikliklər edilir, yol xərcləri və əlavə xərclər olmadan həyata keçirilir. Müxtəlif ölkələrdə yerləşən iri kompaniya və şirkətlər arasında əlaqələr məhz İKT-nin fəaliyyəti və tətbiqi nəticəsində yaranmışdır. Məsələn, dünya ticarət mərkəzləri – *London, Nyu –York, Tokio və s.* birjalar

müasir tələblərə uyğun olaraq bütün dünyada valyutaların, aksiyaların və məhsulların alış- satışını təmin edir.




İqtisadi inkişafda İKT-nin tətbiqi ölkələr arasında sərhədləri aşaraq ***qlobal iqtisadi məkan*** yaratmışdır. Məsələn, Koka-Kola, HP və s. Bu iqtisadi nəhənglər müasir tələbat və standartlara cavab verən texnologiyalardan istifadə etməklə informasiyaların təhrif olunmadan, dəqiq, operativ və sürətlə əldə olunmasına şərait yaradırlar[8].

Şərqi Avropa və MDB məkanında olan ölkələrdə də iqtisadi sahədə tətbiq olunan informasiya texnologiyalarının avadanlıqlar  və proqram təminatı məhsullarının istehsalı artırılır. Onların icrqa etdikləri xidmətlər müasir tələblərə uyğun qurulmaqla, yeni sistem və fəaliyyət istiqamətləri müəyyənləşdirilməklə, inkişaf etmiş dünya ölkələrinin təcrübələrindən yararlanmaqla informasiya cəmiyyətinin tələblatları yerinə yetirilir.

Bu günkü iqtisadiyyat ***informasiya əsaslı bazada*** inkişaf edir. Yəni, idarəetmədə, maliyyə məsələlərinin həllində, müəssisələrarası əlaqələrin qurulmasında, investisiyaların cəlb edilməsində, məhsulun reklamında, marketinqin təşkilində, biznesin aparılmasında və s. geniş istifadə olunur. Müasir iqtisadiyyatın əsas fəaliyyət sahəsi olan marketinq sahəsində iri həcmli şirkət və müəssisələr öz məhsullarının satışını onun bu imkanlarından istifadə etməklə təşkil edirlər:

İnformasiya texnologiyalarının marketinqdə istifadəsi ***elektron marketinqin*** təşəkkülünə - müxtəlif coğrafi mövqeyə malik istehsalçı və istehlakçılar arasında əlaqələrin yaranması və genişlənməsinə zəmin yaratmışdır. Bu əlaqə növündə ünvanlaşdırılmış göndərmələrdən daha çox istifadə edilir, istehlakçı sifariş verərək ödəməni online aparmaqla məhsulu əldə edir. Eyni zamanda, satış bazarında potensial müştərilər müəyyənləşdirilir, alıcıların fəaliyyətləri izlənilir, əldə olunan informasiyalara əsasən satışı genişləndirmək üçün hər bir müştəriyə e-poçt xidməti göstərilir, məhsulun ekskluziv nümunələri ona təklif edilir. Məhsul istehlakçının tələbinə uyğunlaşdırılır, məhsuldan istifadə zamanı yaranan problem istehsalçı tərəfindən aradan qaldırılır[7].

İqtisadi sahələrdə İKT-nin ən çox tətbiq edildyi və dinamik inkişaf edən istiqamətlərindən biri ***elektron ticarətdir***. Elektron ticarət tərəflər arasında bütün növ biznes və işgüzar əlaqələri əhatə etməklə, müəssisələrlə fərdlər, fiziki şəxslər, digər müəssisələr və təşkilatlarla aparılır. Onun fəaliyyət dairəsinə məhsul və xidmətlərin reklamı, onların hərəkəti, məhsulun satış bazarında müəyyən şərtlər daxilində şəraitinin seçilməsi, satış və ödəmələrin tənzimlənməsi, satılmış məhsullsrın çatdırılması, satışdan sonrakı təminatı və s. aiddir. Elektron ticarətin ən müasir inkişafı İKT-nin tətbiqi ilə aparılan bütün kommersiya əməliyyatlarını- sifarişin qəbulu və tərtibatını, satılan məhsulun çatdırılması, satışa görə ödəniləcək məbləğlərin ödənilməsi, satıcı ilə alıcı arasında əlaqələrin yerləşmə məkanından asılı olmayaraq İnternet vasitəsilə aparılmasını həyata keçirməkdir.

İKT-dən istifadə  və iqtisadi inkişafdan asılı olaraq elektron ticarətin müxtəlif dünya ölkələrində səviyyəsi fərqlidir. Belə ki, bu sahədə lider ABŞ-dır, Avropa ondan 2-3 il geri qalır. Dövlətin ehtiyaclarının ödənilməsi üçün, ilkin şərt,  ölkədə istehsal olunan məhsullar və göstərilən xidmətlərə

uyğun nizamlanmaya imkan verən verilənlər bazasının təşkil olunmasıdır. İkinci şərt informasiya-marketinq şəbəkə sisteminin yaradılmasıdır. Sistemin də əsas vəzifəsi dövlət strukturlarını bazar haqqında analitik informasiya ilə təmin etməkdir. Bu şəbəkə elektron imzaları təsdiq edən elektron ödəmə sistemlərinin mövcudluğunu təmin edir. Üçüncü şərt isə, elektron ticarətin ölkə daxilində fəaliyyətinin monitorinqini aparan mərkəzin olmasıdır[1, s. 55 - 57]..

İKT-nin tətbiqi ilə təkmilləşmə, müxtəlif vasitələrlə həvəsləndirmə və cəlbetmə məhsul satışının müvəffəqiyyətinin təməlidir. İnternet vasitəsilə məhsul satışının əsas elementi ***İnternet reklam*** işidir. Bu işin təşkilində reklam unikallığının təmini ən ümdə məsələdir və onunla birbaşa reklam şirkətləri məşğul olur. Adətən, reklam şirkətləri İKT-nin tətbiqi ilə məhsul reklamı saytlarında müxtəlif gündəlik məlumatlar yerləşdirməklə geniş istifadəçi kütləsi cəlb edirlər. Bu şirkətlərin imkanlarından daha çox istehsalçılar istifadə edir.

İnkişaf etməkdə olan ölkələrdə elektron reklamın təşkili daha çox İnternet saytlarının xüsusi bölmələrində aparılır. Onların təcrübəsi göstərir ki, İnternet axtarış sistemlərinin(Google, Yahoo, Rambler, Yandex və s.) xüsusi səhifə və saytlarında reklamların yerləşdirilməsi, istifadəçi və ya müştərilərin çox müraciət etməsi, cəlb olunması prosesin uğurla aparılması prinsipini dəstəkləyir. Bunun üçün əsas şərt- layihə və proqramlardan istifadə etmək, veb səhifələrin operativliyini təmin etməkdir.

Hazırda informasiya sistemləri dəqiq proqnozlar vermək və idarə etmədə mümkün səhvləri aradan qaldırmaqla istehsalatın, biznesin və elmin bütün sahələrində texnoloji proseslərin avtomatlaşdırılması üçün istifadə olunur. Ondan istifadə aşağıda qeyd olunmuş sahələrdə daha geniş tətbiq olunur [5, s. 173 - 175].

**Müəssisənin operativ idarə edilməsində** informasiya sistemləri onun istehsal fəaliyyəti, funksional bölmələri və onların yerinə yetirdikləri funksiyaları, istehsal sahələri, avadanhq, xammal, materiallar, məhsullar, əmək və maliyyə resursları haqqında informasiya toplayır.

**İstehsal proseslərinin idarə olunmasında** informasiya sistemləri istehsal prosesini planlaşdırır, istehsalın texniki hazırlağına nəzarət edir və istehsal proqramına uyğun məhsul istehsalı prosesini operativ idarə etməyə imkan verir.

**Texnoloji proseslərin idarə olunmasında** informasiya sistemləri bütün komponentlərə xüsusi tələblər qoymaqla həqiqi zaman miqyasını-*online* işini təmin edir.

İnformasiya sistemləri müəssisədə **sənəd dövriyyəsini** avtomatlaşdırmaq və sənədlərin elektron variantlarından istifadə etməklə, idarəetmənin səmərəliyini artırır, cari istehsal fəaliyyətinin real gedişini əks etdirir və bu prosesə idarəetmə orqanlarının operativ reaksiya verməsinə zəmin yaradır.

**Tədarükün idarə olunmasında** mal dövriyyəsinin və çeşidin informasiya sistemləri vasitəsi ilə icra olunması müəssisənin gəlirlə işləməsinə və dinamik inkişafına şərait yaradır.

İnformasiya sistemləri maliyyə sahəsində tətbiq olunmaqla tədarükçülər və istehlakçılar arasında hesablaşma sisteminin düzgün qurulmasını təmin edir və **maliyyə axınlarının idarə olunmasında** səhvlərin qarşısını alır.

**Marketinqin idarə oluıunasında** informasiya sistemləri səmərəliliyi artırmaqla firmalar, onların məhsulları, qiymət siyasəti və optimal qiymət səviyyəsinin təyini, gəlirin proqnozlaşdırılması və reklam kampaniyasmın planlaşdınlması üçün xarici mühitin parametrlərinin modelləşdirilməsini əhatə edir.

**Mühasibat uçotunda** informasiya sistemləri müəssisənin daxili idarəetmə hesabatlarının və maliyyə hesabatlarının hazırlanması, vergi uçotunun aparılması, işçi-mühasiblər arasında işlərin düzgün bölüşdürülməsi, müəssisənin fəaliyyəti ilə bağlı effektiv qərarların qəbul edilməsi, maliyyə

vəziyyətindən investorların, kreditorların, müştərilərin qərarları, müəssisələrin hazırki vəziyyəti, onların gələcəyi haqqında proqnozları prinsiplərini tənzimləyir [2, s. 43 - 46].

**Bank sistemində** informasiya sistemləri bankın yerinə yetirdiyi bütün funksiyaları əhatə etməklə aşağıdakı funksiyaları həyata keçirir:

- depozit hesablarının və kredit əməliyyatların avtomatlaşdırılması;
- fiziki və hüquqi müştərilər haqqında, onların hesabları və kredit almaları haqqında verilənlər bazasının qurulması;
- informasiyanın təhlükəsizliyi məsələsinin həll olunması;
- dövlətin pul və valyuta siyasəti;
- nağd pul dövriyyəsi;
- pul nişanlarının tədavülə buraxılması;
- manatın xarici valyutalara nisbətdə rəsmi məzənnəsinin mütəmadi müəyyən edilməsi;
- qanunvericiliyə uyğun olaraq valyuta tənzimini və nəzarəti;
- sərəncamında olan beynəlxalq qızıl-valyuta ehtiyatlarının saxlanması;
- hesabat tədiyə balansının tərtibi edir və ölkənin proqnoz tədiyə balansının hazırlanmasında iştirakı;
- bank fəaliyyətinin lisenziyalaşdırılması və tənzimlənməsi, qanunla müəyyən edilmiş qaydada bank fəaliyyətinə nəzarətin həyata keçirilməsi;
- ödəniş sistemlərinin fəaliyyətinin təşkil edilməsi, əlaqələndirilməsi, tənzimlənməsi və onların üzərində nəzarətin qanuna uyğun həyata keçirilməsi;
- və s. [3, s. 63 - 65].

İnformasiya sistemlərinin işlənib hazırlanması və tətbiqi müəssisənin idarə edilməsi üçün müasir informasiya infrastrukturunun yaradılmasını təmin edir. Odur ki, cəmiyyətin bütün sferalarında informasiya sistemlərinin tətbiqi prosesində gəldiyim *nəticə* belədir: informasiyalaşmış cəmiyyətdə istehsalla bağlı müəssisələrin işçilərinin verilənlərin intellektual təhlili ilə məşğul olmasına və sifarişçilərə yüksək səviyyədə xidmət göstərməsinə əyani şərait yaradılsın,inkişaf etmiş dövlətlərin nümunəsində informasiya sistemlərinin inkişaf dinamikası izlənilsin və ölkəmizdə tətbiq edilsin, informasiya sistemlərinə qoyulan sərmayələr artırılsın.

**Ədəbiyyat**


1. S.Q.Kərimov. "İdarəetmənin informasiya texnologiyaları və korporativ informasiya sistemləri". Dərslik. Bakı, 2010
2. R.Hümbətəliyev, H.Tağıyev, F.Quliyeva "İqtisadi informatikanın əsasları", Dərslik, Kooperasiya nəşriyyatı, Bakı 2014
3. N.M.Quliyeva "İdarəetmə fəaliyyətində informasiya texnoloqiyalarmdan istifadə olunması". Bakı 2015
4. Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında telekommunikasiya və informasiya texnologiyalarının inkişafına dair Strateji Yol Xəritəsi"
5. G.Verdiyeva "İqtisadiyyat və idarəetmə" Bakı: Kitab Yurdu.org nəşriyyatı, 2015
6. N.Ə.Umarova İKT (İnformasiya kommunikasiya texnologiyası). Dərs vəsaiti,2016 Bakı 2016
7. Quliyev R. A., Quliyeva A. A. "İqtisadiyyatda informasiya sistemləri" fənni üzrə metodik vəsait. Azərbaycan Dövlət İqtisad Universiteti. Bakı, 2011

7. http://www.stat.gov.az/source/
8. http://www.itu.int/net4/ITU-D/

***Xülasə***

*Bu məqalədə iqtisadi informasiyanın terxnoloji işlənməsi və iqtisadi sahələrdə İKT-nin tətbiqi təhlil edilmişdir. Göstərilmişdir ki, İnformasiya cəmiyyətində fiziki əməyin intellektual əməklə əvəz olunması sayəsində elektron idarəetmə inkişaf edir, elektron portalları özündə birləşdirərək zaman və məsafəli məkan problemləri aradan qaldırılır, iqtisadiyyatın bünövrəsində yeniləşən mikroelektron texnologiyası və onun müvafiq proqramları dayanmaqla İKT müasir cəmiyyətin formalaşmasında əsas yer tutur.*

**Açar sözlər:** verilənlərin emalı, informasiyasistemləri, İKT, qlobal iqtisadi məkan, informasiya əsaslı baza,

texnoloji proseslərin avtomatlaşdırılması

# Digital healthcare: challenges and prospects

**Azerbaijan State Economic University**
**NIGAR MAMMADZADA, ULKAR ALIZADA**

**Abstract**

The research critically examines the profound transformation brought about by digital healthcare. Simultaneously, it identifies the significant challenges accompanying this digital shift. The study posits the hypothesis that while digital healthcare offers substantial improvements in healthcare delivery and accessibility. It advocates for a balanced approach, wherein the integration of digital healthcare solutions is harmoniously aligned with rigorous ethical standards.

***Keywords**: healthcare, digital medicine, AI-driven diagnostics*

**Xülasə**

Tədqiqat rəqəmsal səhiyyənin yaratdığı dərin transformasiyanı tənqidi şəkildə araşdırır. Eyni zamanda, bu rəqəmsal keçidlə müşayiət olunan əhəmiyyətli problemləri müəyyən edir. Tədqiqat rəqəmsal səhiyyənin səhiyyə xidmətinin çatdırılmasında və əlçatanlıqda əhəmiyyətli təkmilləşdirmələr təklif etdiyi fərziyyəsini irəli sürür. Rəqəmsal səhiyyə həllərinin inteqrasiyasının ciddi etik standartlara uyğunlaşdırıldığı balanslaşdırılmış yanaşmanın tərəfdarıdır.

***Açar sözlər**: səhiyyə, rəqəmsal tibb, süni intellektlə idarə olunan diaqnostika*

**Резюме**

Исследование критически рассматривает глубокую трансформацию, вызванную цифровым здравоохранением. Одновременно в нем определяются серьезные проблемы, сопровождающие этот цифровой переход. В исследовании выдвигается гипотеза о том, что цифровое здравоохранение обеспечивает существенные улучшения в предоставлении и доступности медицинской помощи. Он выступает за сбалансированный подход, при котором интеграция решений цифрового здравоохранения гармонично согласуется со строгими этическими стандартами.

***Ключевые слова**: здравоохранение, цифровая медицина, диагностика с помощью искусственного интеллекта.*

## Introduction

The digitalization of healthcare represents a profound revolution in the realm of medicine, reshaping the dynamics of care delivery with its integration of cutting-edge technologies. This paper embarks on a critical examination of the transformative effects of digitalization in healthcare, encompassing the widespread adoption of electronic health records (EHRs) [2], the burgeoning field of telemedicine, and the innovative applications of artificial intelligence in patient care. Reflecting the growing policy emphasis on health information technology as a means to enhance the safety, quality, and value of healthcare services [3] [5], this research navigates through the complex interplay between technological advancement and healthcare delivery. It acknowledges the burgeoning global demand for health information and services [20] and the consequent policy-driven investments in digital health infrastructure. The paper aims to dissect the layers of digital healthcare's impact, from its contribution to improving

efficiency and accuracy in healthcare to its role in expanding accessibility to medical services [18]. In doing so, it situates the ongoing digital health revolution within a broader context of societal needs, policy imperatives, and technological evolution, setting the stage for an in-depth exploration of the challenges and opportunities inherent in this paradigm shift [6].

**Way of Transformation**

The evolution of digital healthcare, a significant hallmark in the history of medicine, began with the pivotal adoption of electronic health records (EHRs) in the 1970s [1] [15][16]. This transition from paper-based to digital records marked not just a technological shift, but a paradigmatic change in the management and accessibility of patient information [21]. The implementation of Health Level Seven International (HL7) standards was instrumental in standardizing medical data exchange across disparate healthcare systems [9], further catalyzing the integration of technology in healthcare.

As the digital landscape expanded, telemedicine emerged as a crucial component, revolutionizing the way healthcare services are delivered. Early instances of telemedicine, which included the use of radio waves for medical advice to ships at sea, paved the way for more advanced forms of remote medical consultation [13]. The development and widespread adoption of telemedicine were significantly accelerated by technological advancements such as CCTV in the 1950s and, later, the proliferation of smartphones and mobile health applications [8][9][10]. These developments not only made healthcare more accessible but also introduced new modalities for patient engagement and treatment.

Moreover, the role of assistive technology in digital healthcare cannot be overstated. The advent of microelectronics led to the development of sophisticated devices such as communication aids and hearing aids, enhancing the quality of care for patients with various needs [22]. The transformative journey of digital healthcare thus reflects a dynamic and ongoing process, characterized by continual adaptation to technological advancements and evolving patient needs. From the foundational steps of EHRs to the sophisticated landscape of AI-driven diagnostics and telemedicine, digital healthcare continues to unfold new horizons, reshaping the future of medical care.

**Challenges**

The transition to digital healthcare platforms, while heralding numerous benefits, also brings to the forefront a spectrum of challenges. These challenges are diverse and complex, encompassing issues of data privacy, security, and ethical considerations, along with the economic implications of adopting these technologies [4].
*Data Privacy and Security:* The digitization of health records and the increasing reliance on digital platforms have escalated concerns around data privacy and security. The proliferation of digital health records makes them vulnerable to cyber threats such as data breaches, identity theft, and insurance fraud [14]. Ensuring robust security measures and maintaining the confidentiality of sensitive patient data become paramount, especially as healthcare data traverses multiple digital systems [12]. The intricacies of navigating varied data privacy regulations, such as Europe's General Data Protection Regulation (GDPR) and the U.S.'s Health Insurance Portability and Accountability Act (HIPAA), add layers of complexity to data management in the digital healthcare landscape.

*Ethical Considerations in AI:* The integration of artificial intelligence in healthcare, though promising in improving diagnostics and patient care, raises critical

ethical questions. The potential for algorithmic bias, particularly if AI systems are trained on non-diverse datasets, can lead to skewed diagnostics and treatment options, raising concerns about equity and fairness in healthcare [17]. This challenge underscores the need for ethical frameworks and oversight to ensure responsible and unbiased use of AI in healthcare [7].

*Economic Challenges and ROI Uncertainties:* The economic aspect of digital healthcare transformation is fraught with challenges. The significant investment required for advanced digital healthcare tools, such as EHR systems and AI diagnostic tools, can be prohibitive, particularly for resource-constrained entities [11]. Furthermore, while these technologies promise long-term savings and efficiencies, the realization of these benefits can take time, and the rapid pace of technological change raises concerns about the obsolescence of current systems. Calculating the long-term return on investment thus becomes a complex and uncertain endeavor.

**Conclusion**

The journey of digital healthcare is emblematic of the broader narrative of technological integration in modern society. From its early inception with the adoption of electronic health records to the sophisticated applications of telemedicine and AI-driven diagnostics, digital healthcare has fundamentally altered the landscape of medical care. However, as this paper has explored, the digital transformation is accompanied by significant challenges – data privacy and security, ethical dilemmas in AI usage, and economic considerations. Addressing these challenges requires a balanced approach, where technological advancements are harmoniously integrated with ethical practices, patient-centered care, and sustainable economic models. The future of healthcare, in this digital era, demands continuous refinement, re-evaluation, and recalibration of strategies to ensure that advancements in healthcare technology translate into improved patient outcomes, equitable access to care, and enhanced overall healthcare delivery. As the field continues to evolve, it will be essential to maintain this balance, ensuring that the human element of healthcare remains at the forefront of this digital revolution.

**References**

1. Amenta, F., Battineni, G., Chintalapudi, N., & Gagliardi, G. (2023). The Use of Radio and Telemedicine by TMAS Centers in Provision of Medical Care to Seafarers: A Systematic Review.
2. Becker’s Hospital Review. (2015). A History of EHRs: 10 Things to Know.
3. Black, A. D., et al. (2011). The impact of eHealth on the quality and safety of healthcare. Journal of Health Services Research & Policy, 16(1), 17-25.
4. Bulgiba, A. (2004). Digital health: Opportunities and challenges. International Journal of Digital Health, 1(1), 35-45.
5. Clancy, C., Anderson, K., & White, P. (2009). Investing in health IT: A stimulus for a healthier America. Health Affairs, 28(2), 462-468.
6. Dyer, O., & Thompson, C. (2001). Digital healthcare: The essential guide. Oxford, UK: Radcliffe Publishing.
7. Eliasen, M., et al. (2018). Ethical considerations in digital health. Health Ethics Today, 28(1), 14-18.

8. Gasemazdeh, R., & Kamali, M. (2010). Assistive Technology: Use and Service Delivery.
9. Health Level Seven International. [HL7]. (n.d.). Retrieved from https://www.hl7.org/
10. iCheck. (n.d.). Retrieved from https://www.icheck.az
11. Iyawa, G. E., Herselman, M., & Botha, A. (2016). Digital health innovation ecosystems: From systematic literature review to conceptual framework. Procedia Computer Science, 100, 244-252.
12. Jarosławski, S., & Saberwal, G. (2014). Digital health: A global perspective. Digital Health, 1, 1-12.
13. Loo, J. S. E., et al. (Year). Exploring the rise of telehealth services in Malaysia: A retrospective study. Journal of Telemedicine and Telecare, 22(4), 215-221.
14. MarketsandMarkets. (2015). Healthcare IT market - Global forecast to 2020. MarketsandMarkets Research.
15. Parmar, V., Mackenzie, I., Cohn, S., & Gann, R. (2014). The future of digital health. Journal of Medical Internet Research, 16(10), e265.
16. Rothenhaus, T. (2015). EHRs and healthcare delivery: An integrated approach. Journal of Health Informatics, 21(3), 115-123.
17. Sackett, D. L., Rosenberg, W. M., Gray, J. A., Haynes, R. B., & Richardson, W. S. (1996). Evidence-based medicine: What it is and what it isn't. BMJ, 312(7023), 71-72.
18. Tripathi, M., Delano, D., Lund, B., & Rudolph, L. (2009). Engaging patients for health information exchange. Health Affairs, 28(2), 435-443.
19. Tseng, E., et al. (2018). Digital healthcare innovation: Bridging the gaps. Journal of Medical Systems, 42(11), 204.
20. Wen, K. Y., & Tan, X. (2003). Health information seeking and technology adoption: The roles of contextual and individual factors. Health Communication Research, 29(2), 210-223.
21. Williams, J., & Boren, S. A. (2008). The role of electronic medical records in patient care. Journal of Healthcare Information Management, 22(2), 36-42.
22. eCare. (n.d.). Retrieved from https://www.ecare.az

### Yaşıl Dünyada Mülki Müdafiənin Rolu

**Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyası**
**Mehdiquliyev Rauf**

***Xülasə***: *Məqalədə yaşıl dünyada mülki müdafiənin əsas rolu haqqında ümumi məlumat verilmiş, bu cəmiyyətdə mülki müdafiənin planetimizin təbii ehtiyatlarının qorunması üçün vacibliyi qeyd edilmişdir. Həmçinin məqalədə təbii fəlakətlərin təbiətə necə təsir etməsi, təbii fəlakətlərin baş verməsi zamanı yarana biləcək hadisələr haqqında məlumat verilir.*

***Açar sözlər***: *yaşil dünyada, mülki müdafiə, həyat fəaliyyətinin təhlükəsizliyi*

**Giriş**

İnsanların təhlükəsizliyinin təminatı son illərdə kəskin hal almışdır. Bu ona görədir ki, elm və texnikanın sürətlə inkişaf etdiyi son dövrlərdə sənayedə, nəqliyyatda və digər sahələrdə qəzaların, təbii fəlakətlərin sayı xeyli artmışdır.Yaşıl dünyada mülki müdafiənin əsas rolu, təbii ehtiyatların qorunması, bioloji növlərin qorunması, ekosistemlərin sabitliyi və insanların sağlamlığı və rifahı üçün əhəmiyyətli bir zəmin yaratmaqdır. Mülki müdafiə iqlim dəyişikliyinin səbəblərini azaltmaq və ya aradan qaldırmaq üçün ən mühüm vasitələrdən biridir.Bioloji çeşidliliyin qorunması, mülki müdafiənin ən vacib məqsədlərindən biridir. Növ ehtiyatlarının qorunması, soyu tükənən növlərin bərpa edilməsi, ekosistemlərin bərpa edilməsi və sağlamlaşdırılması, mülki müdafiənin əsas məsələlərindən biridir.

Həyat fəaliyyətinin təhlükəsizliyi elə bir şərait və şərtdir ki, işçilərin olduqları mühitdə neqativ təsirlər mümkün deyil [2]. Həyat fəaliyyətinin təhlükəsizliyinə daxildir:

• məişətdə təhlükəsizlik
• istehsalatda təhlükəsizlik
• sülh dövründə fövqəladə hadisələri zamanı təhlükəsizlik.

Həyat fəaliyyətinin təhlükəsizliyinin əsası "potensial təhlükə aksioması" anlayışıdır, yəni hər bir fəaliyyət potensial təhlükəlidir.

Ekoloji şəraitin kompleks qiymətləndirilməsi, demoqrafik şəraitin məlumatlarının analizi günəşin aktivliyindən, texnogen mühitin neqativ faktorlarından asılılığı burada aktiv amillərdən hesab edilir.

İnsan cəmiyyətinin varlığı üçün tələb olunan şərt onun fəaliyyətidir. Fəaliyyətin ən yüksək forması isə əməkdir. Fəaliyyət onun formaları müxtəlif və çoxşaxəlidir. Bura təcrübə, intellektual səviyyə, ümumi dünyagörüşü, mənəvi xüsusiyyətlər, istehsalat amilləri daxildir. Ümumiyyətlə insan mühitinin sistemlərinin iki məqsədi var:

1. Fəaliyyət prosesini müəyyən səmərəyə nail olmaq.
2. Bu prosesdə xoşagəlməz nəticələri aradan qaldırmaq.

İnsanların həyat fəaliyyətinə sivilizasiyanın inkişafına hansındaki biz elmin, texnikanın, iqtisadiyyatın, kənd təsərrufatının industrialızasiyasını, nüvə enerjisi daxil olmaqla müxtəlif enerji növlərinin istifadəsi, maşınların, mexanizmlərin yaradılması, zərərvericilərlə mübarizədə müxtəlif kübrələrin istifadəsi daxildir.

İnsanların həyat fəaliyyətinin təhlükə silsiləsinə aşağıdakıları aid etmək olar:

• Yaşayış mühitinin neqativ təsirlərini eyniləşdirmə, uyğunlaşdırma.
• İnsanları təhlükələrdən qoruma, müxtəli neqativ faktorların təsirlərinin qarşısının alınması.
• Təhlükəli və zərərli faktorların təsirlərinin nəticələrinin aradan qaldırılması.
• İnsanlar üçün normal, yəni komfort yaşayış mühitinin yaradılması.

HFT elminin ən vacib məsələlərinə - texniki sistemlərin və texnologiyaların təhlükəliyinin elmi nöqtəyi-nəzərdən qiymətləndirilməsi, innovasion sistemlərin və texnologiyaların elmi nöqtəyi nəzərdən qiymətləndirilməsi, elmi əsaslarla məişət cihazlarının yaradılması, reaktorların, sürətləndiricilərin və lazerlərin texnologiyalarının idarə edilməsi, elmi əsaslarla kosmik texnikanın təhlükəsiz idarə edilməsi, kosmik şualanmanın insanın fəaliyyət dairəsinə təsirinin elmi əsaslarının öyrənilməsi daxildir [3]. HFT əsasən aşağıdakı bölmələrdən ibarətdir:

1. HFT nəzəri əsasları.
2. HFT ekoloji əsasları.
3. İstehsalat şəraitində HFT.

4. Fövqəlada vəziyyət şəraitində HFT.

2. FH-da tikinti obyektlərinin dayanlığı fənninin məqsədi.

FH-rın xəbərdar olunması və ləğvi, istehsalat obyektlərinin dayanıqlığının artırılması və əhalinin həyat fəaliyyətinin təhlükəsizliyi sahəsində ali təhsilli mütəxəsisslər hazırlmaqdır. Mütəxəssislərin hazırlanmasında əsas məsələ FH-da obyektlərin dayanıqlığının təmin olunmasında nəzəri və təşkilati məsələlərin yeni tələbatlara uyğun, enerji tutumlu istehsalat və proseslərin səviyyəsi uyğun təhlükələrin, onların mənbələrinin və yaranma səbəblərinin potensial təhlükəli obyektlərdə dayanıqlığın artırılması üçün profilaktiki tədbirlərin əsas istiqamətlərinin müəyyən olunmasıdır.

***Mülki müdafiə (MM)*** insanın ətraf mühitdə təhlükəsizliyi və sağlamlığının qorunması haqqında elmdir. O, təhlükəli və zərərli amilləri aşkara çıxarmalı və eyniləşdirməli, insanın mühafızəsinin metod və vasitələrini, yollarını zərərli və təhlükəli amillərin minimum dərəcəyə qədər azaldılmasını araşdırmalı, dinc və müharibə dövrü baş verən qəza hallarının, fəlakətlərin nəticələrini aradan qaldırmaq tədbirləri hazırlamalıdır. MM sistemi – mülki müdafiənin vəzifələrinin yerinə yetirilməsi həvalə edilmiş müvafiq icra hakimiyyəti orqanlarının, qüvvə və vasitələrin, xüsusi fondların, rabitə, xəbərdarlıq və informasiya təminatlı sistemlərinin məcmusudur.

MM ölkəmizdə 1961-ci ildə təşkil edilmişdir. Azərbaycan Respublikasının Prezidenti 1992-ci il iyulun 31-də “Azərbaycan Respublikasının Mülki Müdafiəsi haqqında Əsasnamənin təsdiq edilməsi barədə 73 saylı fərmanı və 1998-ci il aprelin 18-də “Mülki müdafiə haqqında Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə 700 saylı fərmanı imzalanmışdır (21 müddəadan ibarətdir).Yeni əsasnaməyə müvafiq olaraq Azərbaycan Respublikasında Mülki müdafiə işinə ümumi rəhbərliyi Azərbaycan Respublikasının Prezidenti həyata keçirir. Azərbaycan Respublikasının Mülki müdafiəsinə respublikanın Baş Naziri bilavasitə rəhbərlik edir və mülki müdafiənin qarşısında duran vəzifələri həyata keçirməyə daim hazır olması üçün məsuliyyət daşıyır.MM tədbirlərinin planlaşdırmaq və həyata keçirilməsinin təşkil etmək, habelə icraya nəzarət məqsədilə Respublika Baş Nazirinin yanında respublika mülki müdafiə qərərgahının rəisi mülki müdafiəyə gündəlik rəhbərlik edir.

Yeni Əsasnamə və Qanunda respublikada mülki müdafiənin əsas məqsəd və vəzifələrini habelə dövlət hakimiyyəti və idarəetmə orqanlarının, ictimai təşkilatların, eləcə də məsul şəxslərin və bütün vətəndaşların mülki müdafiə üzrə vəzifələri müəyyən edilmişdir.

AR-da MM – sülh və müharibə dövrlərində respublikanın ərazisində əhali və xalq təsərrüfatını təbii fəlakətlərin, həmçinin güclü qəzaların nəticələrindən, habelə müasir qırğın vasitələrinin təsirindən mühafizə məqsədilə dövlət, təsərrüfat, hərbi idarəetmə orqanları tərəfindən bütün vətəndaşın iştirakı ilə həyata keçirilən sosial və müdafiə tədbirləri sistemidir [1]. MM üzrə dövlət funksiyalarını Azərbaycan Respublikasının mülki müdafiə sistemi yerinə yetirir. Buraya bütün idarəetmə orqanları, müxtəlif mülkiyyət formalarına aid olan birliklər, müəssisələr, idarələr, təşkilatlar və digər obyektlər, onların qüvvə və vasitələri daxildir. Onlar sülh və fövqəladə hallarda respublikanın bütün ərazisində mülki müdafiə tədbirlərinin yerinə yetirilməsini təşkil edirlər.

*Mülki Müdafiənin məqsədi aşağıdakılardır*:

1) fövqəladə halların qarşısının alınması məqsədi ilə profilaktik tədbirlərin həyata keçirilməsi;
2) fövqəladə hallar zamanı mümkün olan ziyan və itkilərin həcminin maksimum azaldılması;
3) fövqəladə halların və onların nəticələrinin aradan qaldırılması.

*Fövqəladə hadisələrin qarşısının alınması* – fövqəladə hadisələrin baş verməsi təhlükəsinin maksimum azaldılmasına, belə hadisələr baş verəcəyi hallarda isə insanların və onların sağlamlığının qorunmasına, ətraf mühitə vurula biləcək ziyanın və maddi itkilərin həcminin azaldılmasına yönəldilən və əvvəlcədən həyata keçirilən tədbirlər sistemidir.

*Fövqəladə hadisələrin və onların nəticələrinin aradan qaldırılması* – insanların həyatının xilas edilməsinə və sağlamlığının qorunmasına, ətraf mühitə vurulan ziyanın və maddi itkilərin həcminin azaldılmasına, fövqəladə hadisələrin yayılmasının qarşısının alınmasına yönəldilmiş və fövqəladə hadisələr zamanı həyata keçirilən qəza xilasetmə tədbirləri və digər təxirəsalınmaz işlərdir.

Mülki Müdafiə haqqında Azərbaycan Respublikasının qanunvericiliyi Azərbaycan Respublikasının Konstitusiyasından, bu qanundan, Azərbaycan Respublikasının digər qanunvericilik aktlarından və Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdən ibarətdir.
«Mülki Müdafiə haqqında» Azərbaycan Respublikasının qanununa, «Mülki Müdafiə haqqında» Azərbaycan Respublikası qanununun tətbiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 18 aprel tarixli 700 nömrəli fərmanına müvafiq olaraq mülki müdafiə tədbirlərinin planlaşdırılmasının siyasi, iqtisadi, müdafiə əhəmiyyətini və digər amilləri nəzərə alaraq respublikanın ərazisi zonalara, şəhərlər mülki müdafiə üzrə qruplara aid edilir, təsərrüfat obyektləri isə mülki müdafiə üzrə dərəcələrə bölünür.

Azərbaycan Respublikası İqtisadi İnkişaf Nazirliyi və FH Nazirliyinin təqdimatı əsasında zonalar, şəhərlərin qrupları və obyektlərin dərəcələri Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən təsdiq edilir.
Mülki Müdafiə üzrə zonalar bu qaydalara 1 nömrəli əlavəyə uyğun olaraq mü

**Ədəbiyyat:**


1. H.O.Ocaqov Fövqəladə hallarda həyat fəaliyyətinin təhlükəsizliyi. Bakı – 2010.
2. H.O.Ocaqov Fövqəladə hallarda iqtisadiyyat obyektlərinin dayanıqlığı. Bakı – 2005.
3. H.O.Ocaqov «Mülki müdafiə (Fövqəladə hallarda həyat fəaliyyətinin təhlükəsizliyi). Bakı-2010.

**Yeni hərbi texnologiyalar**

**Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyası**

**Əli Əliyev**

***Xülasə:*** Bu məqalədə müasir informasiya cəmiyyətinə aid edilən 4-cü sənaye inqilabı ilə ortaya çıxmış və əsasən hərbidə istifadə olunan yeni texnologiyanın, süni intellektin istifadəsi haqqında məlumat verilmişdir. Bu məqalədə həmin texnologiyaların fəaliyyətinin üstünlükləri, riskləri,cəmiyyətə təsiri və onun fəaliyyətinin aparılması haqqında tətbiq olunan qanunlardan ümumi məlumat verilmişdir.

***Açar sözləri:*** *Aİ üstünlükləri, çətinlikləri, texnologiyaları, istifadə qaydalar,Aİ gələcəyi*

İnformasiya və Kommunikasiya Texnalogiyaları iqtisadiyyatda və hərbi sahədə xeyli inkişaf etmişdir. Müasir cəmiyyətin tələbinə uyğun olaraq İKT-nin tətbiqinə müdafiə sənayesində xüsuilə ehtiyac var. Müharıbə şəraitində yaşadığımız üçün yeni silahların yaradılmasında irəliləyişlərə ehtiyac yaranır. Bu baxımdan ağıllı silahların, şəbəkə mərkəzindən idarəetməyə qadir olan döyüş sursatlarının, sürətli hava müdafiə sistemlərinin yaradılmasına, real vaxt döyüş nəzarətinin idarə edilməsinə məcburiyyət yaranır.







Hərbi sahə üçün intellektual sistemlərin yaradılmasının tətbiq olunması real vaxt ərzində döyüş nəzarətində müxtəlif dəyişikliklər etməyə sürətli şəkildə imkanlar yaradlr.

Ağıllı silahlarların yaradılması nəticəsində müvafiq olaraq İKT-nin yeni sistemlərinin tətbiqilə bütün müdafiə sənayesinin bu yönümlü iş prinsipi, mərkəzi nəzarət sistemi və s. daha sərfəli şəkildə böyük fərqliliklə dəyişmişdir. İKT-nin köməyi ilə Müdafiə Sənayesi ağıllı silahlar istehsal etməyə başlamışdır. Bunlar çox səmərəlidir və dəqiqlik çox yüksəkdir [4]. Bunun köməyi ilə fərdlər tez-tez əlaqə saxlaya, komandirlərinə müvafiq silahların vəziyyəti barədə məlumat verə bilirlər. Əgər, döyüş meydanındakı vəziyyətə görə çox təcili silah tələb olunarsa və ya düşmənlərini hədəfə almaq, yaxud ətrafa heç bir ziyan vurmadan hədəfi dəqiq məhv etmək lazım olarsa, onda onlar üçün çox rahat şərait yaratmaq mümkn olur. Ağıllı silahlara misal olaraq, düşmənin təyyarələrini sürətlə hədəf ala bilən hava raketlərini göstərmək olar.

Hərbi müdafiə və ya hücum sistemininin digər bölməsində dənizdə düşmən gəmisinin tapılması və ya titrəyişlərin köməyi ilə onların müəyyən edilməsi, məhv edilməsi və s. üçün istifadə olunan xüsusi aparatlardan geniş istifadə olunur.

İlkin olaraq hərbi üzrə olan sahə əvvəllər lal bombalar istehsal edirdi.Hazırda döyüş meydanında əsasən insan fərdlərinin tələfatlarının qarşısının alınması (təbii ki, hərbidə digər məqsədlər də ola bilər), onların əvəz olunması üçün müxtəlif robotlar istehsal olunur:





Bütün bunlar isə İKT və müdafiə sənayesi üçün süni intellekt sisteminin əldə etdiyi irəliləyişlərlə mümkündür.

Şəbəkə mərkəzli döyüş sahəsinin idarə edilməsini müşahidə etmək yeni bir yanaşmadır və bu ixtisasçı hərbiçilərin köməyi ilə İKT üstünlüklərindən istifadə edərək döyüş meydanını idarə etmək mümkündür [3].. Hərbi nəzarətçi (və ya komandir və s.) bundan istifadə edərək ordusunu izləyə və onun düşmən xəttindən güclü olub-olmadığına qərar verə bilir. Şəbəkə mərkəzli döyüş sahəsinin idarə edilməsinin faydalarına, döyüş meydanında hərbi qüvvələrin mövqeyini, lazımi səbəbləri və döyüş sursatı təchizatı səviyyəsini müşahidə etməyə imkan veriir:





Şəbəkəni idarə etməyə qadir olan mərkəzli qurğular qoşundaxili rabitənin təkmilləşdirilməsinə kömək edir. Onun vasitəsilə heyyətin lideri, dost silahlı qüvvələrini və düşmən qüvvələrini müəyyən edib təsnif etmək mümkündür [1]. Bunlar İKT sistemləri və simsiz cihazların köməyi ilə həyata keçirilir. Real vaxt döyüşü üçün nəzarət sisteminin tətbiqi əvvəllər müzakirə edilmiş bir sahədir və şəbəkə mərkəzli döyüş sahəsinin idarə edilməsinə kömək üçün əlavədir (təfərrüatlar, xəbərlər sürətli şəkildə komanda mərkəzinə göndərilir). Ümumiyyətlə, hazırda hərbi qüvvələr komandirlərin əmrlərini yerinə yetirmək üçün yaxşı təchiz olunmuş elektron cihazlara malikdir:





Havada, eləcə də kosmosdan nəzarətdə müdafiə sənayesi üçün İKT-sistemindən istifadə daha böyük irəliləyişdir. Belə müdafiə sənayesi bütün dünyada hava qüvvələri tərəfindən istifadə olunan çox yüksək səviyyəli hərbi texnikanın istehsalına kömək edir. Hədəfləri davamlı olaraq izləmək üçün hərbi təyyarələr, İHA və peyklər kimi İKT komponentlərində irəliləyişlərə malik bazarda çoxlu elektron cihazlar mövcuddur.

Proqram təminatı ilə güc çarpanları müdafiə sənayesi üçün daha böyük üstünlüklərə malik olanlardır. Əgər, onu düşünmək və idarə etmək üçün beyin yoxdursa, yuxarıda müzakirə olunan avadanlıqlar heç bir şey deyildir. Bunun sayəsində ordu qüvvələri öz imkanlarına optimal şəkildə çatmışdır. Başqa cür desək, müdafiə

sənayesində İKT dövrünün tətbiqi ilə sənayenin diqqəti texniki baza güc çarpanlarından proqram əsaslı güc çarpanlarına keçmişdir.

Müdafiə sənayesi şirkətlərinin əksəriyyəti, proqram təminatının hazırlanması üçün hərbi sahədə ixtisaslaşmış ayrı-ayrı departamentlərə malikdir [2].. Bu proqram döyüş sahəsinin idarə edilməsi sistemi, uzun mənzilli radar, GPS və raket aktiv rəhbərlik sistemi və s kimi bir çox aparat avadanlıqlarını əhatə edir.

Əslində hər hansı bir şirkət qlobal müdafiə sənayesinə daxil olmaq istəyirsə, proqram təminatının inkişafı İKT-nin əhatə dairəsinə görə ən yaxşı seçimdir. Onların hərbi proqram təminatının hazırlanmasında töhvəsi çox yüksəkdir.

Hazırda bütün sahələrdə olduöu kimi İKT ilə silahlanmış müdafiə qüvvələri çox böyük rola malikdir. Kaliforniyada yerləşən AeroVironment İnc. tərəfindən hazırlanmış, uzaqdan idarə olunan kolibri təyyarəsi, kolibri kimi biologiyadan ilhamlanıb və görməli yerləri görən, səsləri yaza bilən video və audio avadanlığı ilə təchiz edilib. Bu cür cihazlar casusluq məqsədləri üçün və həmçinin uzaqda yerləşən hədəflərə hücum etmək üçün istifadə edilə bilər.

Hazırda kifayət qədər kiçik və pilotsuz dronların dövrüdür.

Müasir dronlarda istifadə edilən İKT texnalogiyası o həddə qədər gəlib çatıb ki, İHA-nı uzaqdan idarə etmək üçün əsas kompüter bilikləri artıq vacib deyil. Bir çox hallarda hərbi qulluqçular sadə siçan, joystik və erqonomik yastıqdan istifadə etməklə dronları idarə edə və ölümcül yüklərini minlərlə mil uzaqlıqdan idarə edə bilirlər:





Hərbi komandirin ən mühüm qərarları qəbul etməsinə şərait yaratmaq üçün real vaxt rejimində həqiqi və təhlükəsiz məlumat əldə etmək lazımdır. Dünyada şəbəkə mərkəzli olan bütün yüksək səviyyələrdəki sistemlər İKT vasitəsilə inteqrasiya edilməlidir ki, onlar həyata keçirilən əməliyyat haqqında ümumi təsəvvürə malik olsunlar.

İKT havada, quruda və ya suda hərbi əməliyyatların müvəffəqiyyəti üçün yeganə ən vacib amildir. ABŞ Ordusu Tədqiqat Labaratoriyası, robot döyüş sistemləri üçün yer əsaslı oriyentasiya və obyekt analizi texnalogiyasını təqdim etmişdir. Səsli komandanlıq tanınmasının köməyi ilə ABŞ ordusu "İnsanlar- robotlar" kimi bölmələr yarada bilmişdir, burada robotlar orduya aid adi və oxşar funksiyaları yerinə yetirir.

Yeni texnologiyaların, süni intellektə əsaslanan hərbi sistemlərin tətbiqinin müxtəlif *üstünlükləri* var, məsələn :

*Dəqiqlik:* AI sistemlərinin emal və qərar qəbul etmə sürəti insan operatorlardan üstündür. Bu da məqsədlərə daha dəqiq və vaxtında çatmağa imkan verir.

*24/7 qabiliyyəti:* AI-xidmətli sistemlər yorulmadan və dayanmadan işləyə bilər, fəaliyyəti fasiləsiz ola bilər.

*Erkən xəbərdarlıq:* AI-sistemləri ətrafdakı dəyişiklikləri qabaqcadan aşkar etmək və xəbərdarlıq etmək üçün istifadə oluna bilər.

*Lakin bu aparatlardan istifadə edərkən müəyyən çətinliklər yarana bilər:*

*Təhlükəsizlik:* AI sistemlərinin kənardan manipulyasiyasına və ya pozulmasına qarşı etibarlı təhlükəsizlik tədbirləri lazımdır.

*Etibarlılıq:* AI qərarları və nəticələrinin prediktiv dəqiqliyi həlledici əhəmiyyət kəsb edir.

*Tərcümə:* Bəzi taktiki və strateji məlumatları AI-a tam olaraq tərcümə etmək çətin ola bilər.

*İnsan nəzarəti:* - İnsanlar AI-sistemləri üzərində tam nəzarət və məsuliyyət saxlamalıdırlar.

Lakin tam avtomatik döyüş robotları və digər avtonom silah sistemlərindən istifadə etmək etik baxımdan mübahisəlidir, həmçinin. təbəqələşmə hərbi AI-nin inkişafı cəmiyyətdə daha dərin bölünmələrə səbəb ola bilər.

*Aİ üzrə qaydalar*:

*Beynəlxalq hüquq : AI-nin hərbi istifadəsini tənzimləyən beynəlxalq konvensiyalar və müqavilələr.*
*Milli Siyasətlər : Hərbi AI sistemlərinin inkişaf və istifadəsi üçün müəyyən edilmiş etik qaydalar Etik Standartlar :* Dövlətlərin AI-texnologiyalarının hərbi tətbiqinə dair qəbul etdikləri siyasətlər

*Aİ-nin Gələcəyi:*

*İmkanlari*:

1.Daha dəqiq qərar qəbul etmə
2.İnsan itkilərinin azaldılması
3.Müharibə imkanlarının genişləndirilməsi

*Riskləri:*

1. Təhlükəsizlik təhditləri
2. Etik və hüquqi Çətinliklər
3. Avtomatika və İnsanlar dəqiq nəzarəti arasında gərginliklər

## Ədəbiyyat :


1. Austin, Reg. Unmanned aircraft systems : UAVs design, development and deployment (ingilis).
2. Drone warfare: The death of precision". Bulletin of the Atomic Scientists (ingilis)
3. Dowd, Alan. "Drone wars: risks and warnings
4. "The Simulation of the Human-Machine Partnership in UCAV Operation" (PDF). College ofAeronautics, Northwestern Polytechnical University, Xi'an 710072, China.
5. International Institute for Strategic Studies (IISS). "The Military Balance 2018". The Military Balance (ingilis). Routledge. 118. 14 February 2018: 21., listing the United States, Israel, China, Turkey, and Iran

HEYDƏR ƏLİYEV 101 İL.

# ÜMUMMİLLİ LİDER

# Heydər Əliyev



*"Sahibkarlığın inkişaf etdirilməsi, sərbəst iqtisadiyyata yol verilməsi, bazar iqtisadiyyatının yaradılması bizim strateji yolumuzdur".*

**AZƏRBAYCAN ƏMƏK VƏ SOSİAL MÜNASİBƏTLƏR AKADEMİYASI**